# İMAM ƏLİ (Ə)
# VƏ İBRƏT DƏRSLƏRİ

*(İmam Əlidən (ə) 110 ibrət dərsi)*




**BİSMİLLAHİR RƏHMANİR RƏHİM**

***Kitabın adı: İmam Ili (ə) və ibrət dərsləri***
***Müəllif: İmam Əli (ə) adına İslam Araşdırmalar Mərkəzi***
***Tərcümə: Rza Şükürlu***
***Ədəbi redaktor: Mərdan Zalov***

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK 280/A saylı 6 iyun 2014-cü il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.*

**© Ələm nəşriyyatı**

**Kitabın çap hüquqları qorunur**

# 1

## BÜTÜN İŞLƏRİ ALLAHIN ADI İLƏ BAŞLAMAQ

İmam Əli (ə) buyurmuşdur:

كُلُّ امْرٍ ذى بالٍ لَمْ يُذْكَرْ فيهِ اسْمُ اللَّهِ فَهُوَ ابْتَرُ؛

***"Allahın adı ilə başlanılmayan hər bir mühüm iş sona çatmaz."***[1]

### *Şərh və təfsir*

Allahın adı və yadı insanın bütün işləri və sözlərində böyük təsirə malikdir. Ondan qəflət isə mənfi nəticələrlə sonuclanır. Bu hədisdə hər bir işin başlanğıcında Allahın adının çəkilməsinə tövsiyə edilir. Aydındır ki, Allahın adının çəkilməsi və hər bir işin Onun adı və yadı ilə başlanılmasında yalnız "Bismillah" demək yox, əksinə Allahın bizim işlərimiz və əməllərimizdə hazır olması nəzərdə tutulur. Buna görə də oxşar hədislərin əksinə

---

*1. "Biharul-ənvar", 73-cü cild, səh. 305 və 89-cu cild, səh. 242.*

olaraq, bu hədisdə "ləm yubdə"[1] ifadəsinin yerinə "ləm yuzkər" ifadəsi qeyd edilir. Bu da göstərir ki, həm işin başlanğıcında, həm də onun davamında Allahın adı və yadı lazımdır.

### *Allahı necə yad edək?*

Allahı – varlıq aləminin Xaliqini yad etməyin müxtəlif növləri var. Onun ən üstün növü insanın özünün asılı varlıq olduğu və hətta bir an belə Allaha güvənmədən öz həyatına davam edə bilməyəcəyi haqda düşünməsidir. Biz insanların, hətta bütün dünya varlıqlarının Allah-Taaladan asılılığı çırağın enerji mənbəyindən asılılığını xatırlayır ki, həm başlanğıcda, həm də davamlı olmasında ona möhtacdır. Allahı yad etməkdə bu mərhələyə yüksələn və ondan qəflət etməyən insan fərqlənər, Allahdan başqasına güvənməz və heç zaman günaha qurşanmaz. Çünki belə bir insan özünü həmişə Allahın hüzurunda görür, bütün nemətləri, başqa sözlə, bütün varlığını Onun tərəfindən bilir. Məlumdur ki, belə bir insan heç vaxt günaha düşməz. İnsan Allahdan qafil olduqda günaha düşür.[2] Həmişə və hər an Allahı yad edən insan isə günahdan uzaq olar.

---

*1. "Camius-səğir", 2-ci cild, səh. 277, hədis 6284.*

*2. "Qəflətin amilləri", "qəflətin acınacaqlı nəticələri", "qəflətin nişanələri", "qəfləti dəf edən amillər", "müsbət və mənfi qəflət" və bu kimi uyğun mövzularla əlaqədar "Qurani-Kərimdə əxlaq" (2-ci cild, səh. 324) kitabına müraciət edə bilərsiniz.*

# 2

## ƏFV VƏ GÜZƏŞTİN TƏSİRLƏRİ

İmam Əli (ə) buyurmuşdur:

الْعَفْوُ يُفْسِدُ مِنَ اللَّئِيمِ بِقَدْرِ اصْلاحِهِ مِنَ الْكَرِيمِ؛

***"Əfv və güzəşt səxavətli və hörmətli bir şəxs tərəfindən olduqda islaha, alçaq və xəsis şəxs tərəfindən olduqda isə, fəsada səbəb olur."[3]***

### *Şərh və təfsir*

Bu hədisi iki cür təfsir etmək olar:

**Birinci təfsir:** Səxavətli və hörmətli insan günahkar bir şəxsi əfv edib bağışladıqda, onun məhəbbət və sevgisini qazanmış olur. Çünki onun əfv və güzəşti alicənablıq və təvazökarlıqla birgə olur. Alçaq və xəsis insanın isə əfv və güzəşti minnət və əziyyətlə yanaşı olduğundan fəsadla nəticələnir. Bu da, həqiqətdə, قَوْلٌ مَّعْرُوفٌ وَمَغْفِرَةٌ خَيْرٌ مِّن صَدَقَةٍ يَتْبَعُهَآ أَذًى وَاللّهُ غَنِيٌّ حَلِيمٌ ***(Xoş bir söz və (dilənçilərin israr və kobudluqlarını) bağışlamaq, arxasınca əziyyət olan sədəqədən (bəxşişdən) daha yaxşıdır. Allah ehtiyacsız və***

3. *"Biharul-ənvar", 74-cü cild, səh. 419.*

***həlimdir.)***[1] – ayəsinin xarici nümunəsidir.

**İkinci təfsir:** Bəzən xəta etmiş səxavətli və hörmətli şəxs, bəzən də alçaq və xəsis şəxs əfv edilir. Bu təfsirə əsasən, hədisin mənası belə olacaq: Əgər xəta etmiş səxavətli və hörmətli insan əfv olunduqda, islah, alçaq və xəsis insan isə əfv olunduqda, nəinki islah olunmaz, əksinə ondan sui-istifadə edərək günaha cürəti artır və daha çox fitnə-fəsadla məşğul olur. Demək, onu əfv etməyin nəticəsi fitnə-fəsada atmaqdır.

Bu hədisin əxlaqi mesajı budur ki, əfv və güzəşt də hesab-kitab üzrə olmalıdır. Peyğəmbəri-Əkrəm (s) Məkkəni fəth etdikdə, ümumi əfv fərmanı verdi.[2] Bu əfv Məkkə əhalisinin əksəriyyətinə müsbət təsir bağışladı. Lakin o həzrət islah olunmayan bir neçə nəfəri əfvindən istisna edərək onların qətlinə hökm verdi. Qurani-Kərimdə bu ümumi əfvin səmərəsindən söz açılaraq buyurulur:

يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا

***"Onlar (Məkkə əhalisi) dəstə-dəstə Allahın dininə daxil olurdulr."***[3]

Bütün Məkkə əhalisinin məcburiyyətsiz İslama üz gətirməsi İslam Peyğəmbərinin (s) əfv və güzəştinin səmərəsi idi. Bu məsələ bütün insanlara, məxsusən, cəmiyyət rəhbərlərinə böyük ibrət dərsidir. Ayə və rəvayətlərdə "əfv və güzəşt" mövzusuna geniş yer ayrılmışdır[4] ki, biz bu qısa şərhlə kifayətlənirik.

---

*1. "Bəqərə" surəsi, ayə 263.*

*2. "Füruği-əbədiyyət", 2-ci cild, səh. 338.*

*3. "Nəsr" surəsi, ayə 2.*

*4. "Mizanul-hikmət", 6-cı cild, səh. 359.*

# 3

## ZİKRLƏRİN MÜHÜM TƏSİRLƏRİ

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! قُلْ عِنْدَ كُلِّ شِدَّةٍ «لا حَوْلَ وَ لا قُوَّةَ الّا بِاللَّهِ الْعَلِيِّ الْعَظيمِ» و قُلْ عِنْدَ كُلِّ نِعْمَةٍ «الْحَمْدُلِلَّهِ» تُزْدَدْ مِنْها، وَ اذا ابْطَأَتِ الْارْزاقُ عَلَيْكَ «فَاسْتَغْفِرِ اللَّهَ» يُوَسَّعُ عَلَيْكَ فيها؛

***“Ey Kumeyl! Hər bir çətinliklə üzləşdikdə belə de: “La həvlə və la quvvətə illa billahil-əliyyili-əzim.” (Böyük və uca Allahdan başqa qüdrət və güc yoxdur.) Hər bir nemətə sahib olduqda, “Əl-həmdu lillah.” (Həmd yalnız Allaha məxsusdur.) de ki, nemətlərin çoxalmasına səbəb olsun. Ruzin təsirə düşdükdə, “Əstəğfirullah” de (tövbə et) ki, tövbə ruzini genişləndirir (artırır).”[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) kimi böyük bir müəllim tərəfindən

1. *“Biharul-ənvar”, 74-cü cild, səh. 270.*

şagirdi Kumeyl ibn Ziyad Nəxəiyə üç ülvi məqsədə nail olmaq üçün üç böyük zikr tövsiyə olunmuşdur. Hədisdə qeyd olunan üç məxsus zamana aid olan üç zikrin mühüm təsirləri vardır. Öncə diqqət yetirməliyik ki zikr dil lağlağısı deyil! Demək, bu böyük zikrlərin məfhumuna diqqət yetirməsək və mesajlarını cəmiyyətdə icra etməsək, sözsüz, uyğun təsirlər verməyəcəkdir.

*"La həvlə və la quvvətə illa billahil-əliyyili-əzim."* – zikrinin mənası belədir: "Bütün qüdrətlər və bütün çətinliklərin həlli Allahın əlindədir, kainatda hər na varsa, Onun tərəfindəndir." Əgər bu mənaya inansaq, bütün varlığımızla Onun evinin qapısını döysək və imanımızı bu məfhumlarla gücləndirsək və dənizdə boğulan bir şəxs kimi, Allahın qüdrətindən başqa bir qüdrət haqda düşünməsək, çətinliklərimizdə Allah-Taala bizə kifayət edər.

"Əl-həmdu lillah" *(Həmd yalnız Allaha məxsusdur)* zikrinin mesajı budur: "Nemətə çatdıqda, qürrələnməyək, onun Allah tərəfindən göndərildiyini unutmayaq, ondan düzgün şəkildə istifadə edək və paxıllıq etməyək. Belə olduqda, nemət nəinki əlimizdən çıxmayacaq, əksinə artacaqdır.

"Əstəğfirullah" zikrinin məfhumu isə belədir: Bir daha günaha qayıtmayaq. Çünki cəmiyyətdə iqtisadi çətinliklərin amillərindən bir də günahlardır. Günahkar cəmiyyətə yoxsulluq hakim kəsilər. Əlbəttə, günah zamanı çətinliklərin baş qaldırması möminlər üçün bildiriş zəngidir.

Bu baxışla çətinliklərin baş qaldırması öz növbəsində nemət sayılır. Elə bu səbəbdən Allah-Taala kafirləri özbaşına buraxmış və onların qəflətdən ayılması

üçün bildiriş zəngi çalmır ki, öz günahları içərisində çapalayaraq qərq olsunlar.

# 4

## ALIŞ-VERİŞ QAYDALARI

İmam Əli (ə) buyurmuşdur:

وَ لْيَكُنِ الْبَيْعُ بَيْعاً سَمْحاً بِمَوازِينِ عَدْلٍ وَ اسْعارٍ لا تُجْحِفُ
بِالْفَرِيقَيْنِ مِنَ الْبايِعِ وَ الْمُبْتاعِ فَمَنْ قارَفَ حُكْرَةً بَعْدَ نَهْيِكَ
ايَّاهُ فَنَكِّلْ بِهِ وَ عاقِبْهُ فى غَيْرِ اسْرافٍ؛

***“Alış-verişlər asan şərtlər – ədalət ölçüləri və satıcı və alıcıya zərər yetirməyən xidmət qiymətləri əsasında baş verməlidir. Sənin qadağa qoymağından sonra möhtəkirlik edəni cəzalandır, elə cəzalandır ki, onun rüsvay olmasına*** *(və başqalarının ibrət götürmələrinə)* ***səbəb olsun. Amma həddini aşma.”***[1]

---

*1. “Nəhcül-bəlağə”, 53-cü məktub (imam Əlinin (ə) Malik Əştərə məktubu). Cəza günahdan artıq olmamalıdır. Bu, camaatın təbəqələrinə nisbətdə fərq edir. Ola bilər ki, azacıq danlaq kiməsə cəza olsun. Həmçinin ola bilər ki, kimsə həbs və işgəncə ilə də ayılaraq özünə gəlməsin. Belə olan halda, hər bir kəsin cəzasının müəyyənləşdirilməsi valinin öhdəsinədir.*

## *Şərh və təfsir*

Bizim cəmiyyətimizi üç mühüm problem hədələyir:

1. Yad etiqadların təbliğatı və nüfuzu, başqa sözlə, cəmiyyətin həqiqi İslam qanunlarından uzaq düşməsi;

2. Müsəlman xalqımızın adət-ənənə və əqidələrini hədəfə alan qəddar və rəhmsiz mədəni hücumlar;

3. Hədsiz dərəcədə bahaçılıq.

Üçüncü problem uyğun hədisin əsas mövzusunu təşkil edir ki, burada bir neçə mətləbi diqqətdən qaçırmaq olmaz:

a) Bahaçılıq ağlın qəbul etdiyi həddə düzgündür və iqtisadi təhlilə əsaslanır. Lakin hər an dəyişilən və qeyri-sabit xidmət qiymətləri bir növ hərc-mərclik və iqtisadi qarət sayılır. Belə bir şəraitdə, şəriət hakimi bu məsələnin qarşısını almalı və onun amilləri ilə münasib rəftar etməlidir.

b) Şəriət baxımından qərarçıxaranların əli bağlı deyil! Çünki "əmtəənin qiymətinin müəyyən həddi yoxdur və satıcı ilə alıcının razılığından asılıdır" – deyənlərin sözü adi iqtisadi şəraitə tabedir. Qeyri-adi şəraitdə isə, İslam hökuməti malların qiymətini təyin edə bilər. Əks-təqdirdə, bəzi insanlar başqalarını canavar kimi parçalayıb-yeyər. Deməк, ikinci qayda əsasında və xüsusi iqtisadi şəraitdə malların qiymətini təyin etmək və həddini aşanları cəzalandırmaq olar. Hətta qeyd etdiyimiz hədisdən başa düşülür ki, hökumətin ilkin qaydaya nəzarəti, eləcə də, ədalətə əsaslanan müxtəlif cəza tədbirlərinin tənzimlənməsi zəruri məsələlərdəndir.

c) Bütün xalq kütləsi belə həssas zamanlarda həmkarlıq etməli və bahalı malları almaqdan imtina etməklə əməli şəkildə bahaçılıq və bahasatanlarla

mübarizə aparmalıdır.

ç) İslam hökuməti heç olmazsa, bahaçılıq camaatı çətinliyi məruz qoyduğu zaman öz xidmət qiymətlərinin yerini dəyişməlidir.

# 5

## UZUN-UZADI ARZULAR

İmam Əli (ə) buyurmuşdur:

ما اطالَ احَدٌ الْامَلَ الّا نَسِیَ الْاجَلَ و اساءَ الْعَمَلَ؛

***"Heç bir insan ölümü unutmayınca və əməllərini puç etməyincə, öz arzularını uzatmaz."[1]***

### *Şərh və təfsir*

Tükənməz və uzun-uzadı arzular insanı çirkin əməllərə sövq edir. Ərəb dilində iki söz "ümid" və "arzu" mənalarını verir: biri "rəca", digəri isə "əməl" sözləridir. "Rəca" sözü müsbət mənada işlədilir və "qurucu ümid və arzu" mənasını daşıyır. "Əməl" sözü isə mənfi mənada işlədilir və "viranedici arzu" mənasını daşıyır. Öz dilimizdə "rəca" sözü "ümid", "əməl" sözü isə "arzu" kimi işlədilir. İmam Əli (ə) bu dərinmənalı hədisdə "arzü"nun mənfi yönlərini və insanın əməllərindəki acınacaqlı təsirlərini vurğulayır.

**Sual:** Doğrusu, nə üçün "uzun-uzadı arzular" bu qədər pisdir?

1. *"Qürərül-hikəm və dürərül-kəlim", 6-cı cild, səh. 101; hədis 9676.*

**Cavab:** Dünya malı və maddiyyatın aldadıcı xasiyyəti budur ki, uzaqdan güclü cazibə qüvvəsinə malik olsa da, insan ona yaxınlaşdıqda, adət edir və o, öz cazibəsini əldən verir. Buna narkotik maddələri misal göstərmək olar ki, öncə cazibə qüvvəsinə malik olsa da, insan ona alışdıqda, öz cazibəliyini itirir, daim onun istifadə miqdarını artırır və nəticədə, insanın ölümünə səbəb olur.

Kirayəli evdə yaşayan şəxs ev sahibi olmaq arzusu ilə yaşayır və bu arzu onun üçün olduqca cazibəlidir. Amma ev sahibi olduqdan az müddət sonra, həmin ev onun üçün adiləşərək, daha imkanlı və böyük bir ev arzusuna qapılır. Bu da onu qane etmir və hər gün yeni və modern ev arzulamağa başlayır.

Demək, arzuların sonu yoxdur və öz arzularına çatmaq istəyən insan var qüvvəsi ilə çalışmalıdır. Təbii ki, belə bir insanın axirət üçün çalışmağa gücü və vaxtı olmayacaqdır. Elə buna görə də məsum rəhbərlərin hədislərində uzun arzular məzəmmət edilmiş və axirətin unudulmasının səbəbi kimi tanıtdırılmışdır.[1]

Qeyd etməliyik ki, adətən, uzun-uzadı arzulara səbəb olan saysız-hesabsız nemətlər bir çox hallarda bədbəxtliyə səbəb olur! Nəql edirlər ki, bir gün həzrət Peyğəmbər (s) bir səhralıqdan keçərkən səhabələrinə buyurdu: "Gedin, bir az süd gətirin və pulunu da sahibinə verin." Heyvanın sahibi Peyğəmbərə (s) süd verməkdən imtina etdi. Peyğəmbər (s) onun mal-dövlətinin çoxalması üçün dua edərək, yoluna davam etdi. Başqa bir səhralıqda yeni heyvan sürüsü ilə rastlaşdıqda, sürünün sahibindən süd

*1. İmam Əlidən (ə) nəql olunan bir hədisdə buyurulur: "Uzun-uzadı arzular axirəti yaddan çıxarır." ("Qurani-Kərimdə əxlaq", 3-cü cild, səh. 188.)*

istədi. Sürünün sahibi dərhal Peyğəmbərin (s) istəyini yerinə yetirdi, o həzrətə və səhabələrinə süd verdi. Həzrət əlini göyə qaldırıb belə dua etdi: "İlahi, ona kifayət qədər nemət əta et!" Səhabələr Peyğəmbərdən (s) hər iki nəfər üçün fərqli dua etdiyinin səbəbini soruşduqda, Həzrət buyurdu: *"İlk şəxs üçün nemətin çoxluğu əzab-əziyyətinə səbəb olacaq."*[1]

*1. "Biharul-ənvar", 69-cu cild, səh. 61, hədis 4.*

# 6

## BEHİŞTİN QİYMƏTİ VAR!

İmam Əli (ə) ondan öyüd-nəsihət istəyən şəxsə belə buyurmuşdur:

لا تَكُنْ مِمَّنْ يَرْجُوا الْآخِرَةَ بِغَيْرِ الْعَمَلِ، وَ يُرَجِّي التَّوْبَةَ بِطُولِ الْامَلِ، يَقُولُ فِي الدُّنْيا بِقَوْلِ الزَّاهِدِينَ وَ يَعْمَلُ فِيها بِعَمَلِ الرَّاغِبِينَ؛

***"Əməlsiz** (ibadət və bəndəliyi olmadan) **axirətə ümid bəsləyənlərdən və uzun-uzadı arzu ilə tövbəni təxirə salardan olma! Onun dünya barəsindəki danışığı zahidlərin danışığı, əməli isə** (dünyanı) **istəyənlərin əməlidir."***[1]

### *Şərh və təfsir*

Doğrudan da, imam Əlinin (ə) kəlamları möcüzədir və bu hədis isə onların ən parlaq nümunəsidir. Bu hədisdə fərd və cəmiyyətin dünya və axirət səadətinə səbəb olan üç mühüm göstəriş verilmişdir:

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 150.*

1. Behiştin qiyməti var; əməlsiz danışıq insana nicat verə bilməz. Yalnız dinə, imamətə və din rəhbərlərinə eşq-məhəbbət iddiası bizim çətinliklərimizin düyününü açmayacaq və əməlsiz dil lağlağısı ilə axirət səadətini qazanmaq qeyri-mümkündür.

Əhli-beytin (ə) vilayəti və onları sevmək iddiası yaxşı və saleh əməllər məcmuəsi ilə yanaşı olduqda faydalıdır. Bu zaman əgər səhv və xətalara düşmüş olsaq da, vilayət və şəfaət onları aradan qaldıracaq. Yeri gəlmişkən, buradan belə qənaətə gəlmək olar ki, əməl dəftərinə yaxşı və saleh əməli olmayan, lakin Peyğəmbər (s) Əhli-beytinə məhəbbət iddiası edənlər necə də yanılırlar?!

2. Tövbə və Allaha qayıdış tükənməz arzularla uzlaşmır. Məxsusən, insan öz gələcəyi barədə heç bir məlumatı yoxdur və haçan öləcəyindən xəbərsizdir. Bir an sonra yaşayacağı və ya öləcəyini bilməyən insan necə uzun arzulara qapılır?! Uzun arzularla qovrulan insan necə tövbə edə bilər?! Əcəl – xəbərdarlıq siqnalı və bu dərdin sağalması üçün mühüm bir dərmandır. Həzrət Süleymanın (ə) əcəli çatdıqda, hətta ona oturmaq imkanı verilmədi və ayaqüstə ruhu Allaha tapşırıldı.[1] Demək, əlçatmaz arzularla tövbəni təxirə salmamalıyıq.

3. İmam Əlinin (ə) üçüncü nəsihəti budur: “Sözü ilə əməli arasında fərq olan insanlardan olma! Bəziləri dünya haqqında elə sözlər deyirlər ki, sanki dünyanı tərk etmiş və zahidlik yolunu tutmuşdur. Əməl məqamında isə, tamamilə dünyaya bağlanmışlar. Çalış ki, sözünlə əməlin bir olsun. Vay olsun Əlinin (ə) eşqindən dəm vuran, amma əməli Müaviyə və onun kimilərin əməllərindən fərqlənməyən kəslərin halına!

*1. “Təfsiri-nümunə”, 18-ci cild, səh. 44; “Tarixi-ənbiya”, səh. 197.*

Vay olsun mənəviyyat, ruhaniyyət və allahpərəstlikdən söz açan, amma maddiyyat və dünya zinətlərində qərq olan kəslərin halına!

Dünyaya bağlananlar kimlərdir? O kəslərdir ki, iki yolayrıcında Allaha arxa, dünyaya isə üz çevirirlər.

İki yolayrıcında duran insanlar üç qrupa bölünürlər:

Birinci qrup qeyd-şərtsiz dünya yolunu seçən və Allaha arxa çevirən, ikinci qrup birinci qrupa əks rəftar edən və axirət yolunu seçən, üçüncü qrup isə şəkk-şübhəyə qapılan və sərgərdan qalanlardır. Sonuncu qrupa şəhidlər sərvəri imam Hüseynin (ə) şəhadəti müqabilində Rey şəhərinin hakimliyini arzu edən, həm də sağlamlıq evi olan behişti arzulayan Ömər ibn Sədi, başqa sözlə, əql ilə "əmmarə nəfsi"nin (pis işlərə əmr edən nəfs) mübarizəsində əqli məğlub olanları misal göstərmək olar! Biz də özümü bu ölçü ilə yoxlamalı və hansı qrupdan olmağımızı aydınlaşdırmalıyıq.

# 7

## İNSAN AZADLIĞI

İmam Əli (ə) buyurmuşdur:

ايُّهَا النَّاسُ انَّ آدَمَ لَمْ يَلِدْ عَبْداً وَ لا امَةً وَ انَّ النَّاسَ كُلُّهُمْ احْرارٌ؛

***“Ey camaat, həzrət Adəmdən (ə) qul və kəniz dünyaya gəlməyib! Həqiqətən, bütün insanlar azaddırlar!”[1]***

**Şərh və təfsir**

Bu hədisdə imam Əli (ə) müəyyən bir zümrəyə yox, bütün insanları xitab qərar verir. “Ya əyyühənnas” (ey insanlar, ey camaat) ifadəsi bəşəri hüquq, “ya əyyühəlləzinə amənu” (ey iman gətirənlər) ifadəsi isə islami hüquq yönlü nümunələrdəndir. Bu hədisə əsasən, bütün insanlar azaddır. İnsan və Adəm övladının yaradılışı azadlıq və hürriyyət əsası ilə yoğurulmuşdur. Bu əsasın pozulduğu hallar isə istisnadır. 1400 il bundan əvvəl İslam dininin vasitəsilə gündəmə gətirilən insan azadlığı məsələsi diqqəti cəlb edir. Çünki o zaman

---

*1. “Mizanul-hikmət”, 2-ci cild, səh. 351, fəsil 779, hədis 3556.*

hürriyyət və azadlıq bir əsas və dəyər kimi tanıtdırılmırdı. Çağdaş dünyamızda isə, azadlığın dəyəri gün kimi aydındır.

Demək, azadlıq zərurəti aydın və yekdilliklə qəbul edilən məsələlərdəndir və müstəmləkə caynağında çapalayan xalqlar onu əldə etmək üçün mübarizə aparırlar. Burada iki mühüm məsələ diqqəti özünə cəlb edir:

1. Nə üçün azadlıq dəyər sayılır? Əgər azadlıq olmazsa, nə baş verər? Əgər olarsa, nə baş verər? Əfsus ki, azadlığın fəlsəfəsi üzərində az araşdırmalar aparılmışdır. Bu barədə deməliyik ki, insana güc və bacarıqlar verilmişdir. O, yolu üzərində maneə olmadıqda güc və bacarıqlarından səmərəli şəkildə istifadə edib, azad şəkildə elm və bilik sahibi ola bilər, təkamül yolunu keçə bilər. Təkamül də iki əsasa söykənir: a) daxili istedad və bacarıqlar; b) maneənin olmaması. Demək, insanın azadlığının fəlsəfəsi onun daxili istedad və bacarıqlarından istifadə etməsindən ibarətdir. Məlumdur ki, insanın daxili bacarıqları azad mühitdə daha yaxşı çiçəklənir. Güldanda əkilən gül ilə sahədə əkilən gül müqayisə ediləsi deyildir!

2. Hansı azadlıq bəyənilir?

Birinci mətləbdə qeyd edilənlərdən aydın oldu ki, insan təkamülünü təmin edən azadlıq bəyəniləndir. Demək, azadlığın bu fəlsəfi onu çevrəsini müəyyənləşdirir. Çünki azadlıq bir neçə qismə bölünür:

1. Mütləq azadlıq: bu azadlıq yalnız meşələrdə və yırtıcı heyvanlar arasında görünür. Belə məkanlarda hər kəs öz istədiyini yerinə yetirir. Aydındır ki, heç kim belə azadlığı müdafiə etmir.

2. Təfsirə ehtiyac duyulan və daim dəyişilən bəşər qanunları çərçivəsində azadlıq: Dinə inanmayan, eyni zamanda qanunu qəbul edən insanların azadlığı qanun çərçivəsindən çıxmamalıdır. Aydındır ki, qanun azadlığa zidd deyil, əksinə onu qoruyan bir amildir.

3. İlahi dəyərlər çərçivəsində azadlıq: İlahi məktəblərin ardıcıllarının azadlığı dini dəyərlərin çərçivəsindən çıxmır. Onlar heç vaxt azadlıq adı ilə yüksək ilahi və insani dəyərlərə təcavüz etməyə icazə vermirlər.

Məlum olduğu üzrə, bəşər nöqteyi-nəzərindən azadlığın birinci növü bəyənilmir. İkinci növü bir çox çətinliklər və bədbəxtliklərin mənşəyidir. Üçüncü növü isə bizim səadətimizi təmin edir, necə deyərlər, insan qamətinə tikilmiş bir libasdır.

# 8

## CƏHƏNNƏM DƏYİRMANI

İmam Əli (ə) buyurmuşdur:

انَّ فى جَهَنَّمَ رَحىً تَطْحَنُ، افَلا تَسْئَلُونى ما طَحْنُها؟ فَقيلَ لَهُ: فَما طَحْنُها يا اميرَ الْمُؤْمِنينَ؟ قالَ: الْعُلَماءُ الْفَجَرَةُ، وَ الْقُرّاءُ الْفَسَقَةُ، وَ الْجَبابِرَةُ الظَّلَمَةُ، وَ الْوُزَراءُ الْخَوَنَةُ، وَ الْعُرَفاءُ الْكَذَبَةُ ...؛

***“Həqiqətən, cəhənnəmdə həmişə işləyən bir dəyirman vardır. Heç soruşmursunuz ki, bu dəyirman nə üyüdür? Soruşdular: “Bu dəyirmanın yeməyi (üyütdüyü şey) nədir?” Həzrət buyurdu: “Günahkar və azğın alimlər, fasiq qarilər, zülmkar hakimlər, xain vəzirlər və yalançı ariflər (mütəxəssislər)...”[1]***

### *Şərh və təfsir*

Cəhənnəm odu günahkarların cəzalandırılması üçün kifayətdir; elə bir od ki, (küfr, şirk və nifaq

*1. “Mizanul-hikmət”, 2-ci cild, səh. 351, fəsil 779, hədis 3556.*

mərkəzi olan) ürəklərə nüfuz edər[1] və zahirdən əlavə, batini də yandırıb-yaxar. Amma bəzi cəhənnəm əhli, o cümlədən hədisdə adıçəkilən beş zümrə öz mövqe və məqamlarından sui-istifadə etdiyi üçün həmin əzabdan əlavə, digər ağır əzablara düçar olacaqlar. İmam Əli (ə) buyurur: "Cəhənnəmdə bir dəyirman var ki, beş zümrəni üna çevrilən buğda kimi üyüdəcək! Heç soruşmursunuz ki, bu dəyirmanın qidası nədir? Camaat soruşdu: "Ey Əmirəl-Möminin! Bu dəyirman nə üyüdəcək?" Həzrət onların cavabında beş zümrənin adını çəkir:

1. أَلْعُلَماءُ الْفَجَرَةُ – Birinci zümrə günahkar alimlərdir. Onlar əllərində çıraq tutub insanlara həqiqi yolu və dini maarifi göstərdiyi, bir sözlə, onların etimad etdiyi şəxslər olduqları halda, əlində çıraq oğurluq edən oğru kimi, azğın və günahkardırlar.

İmam Həsən Əskəri (ə) təkanverici bir rəvayətdə belə alimləri Yezidin ordusundan təhlükəli adlandırmışdır![2]

2. والْقُقَراءُ الْفَسَقَةُ – Cəhənnəm dəyirmanın üyütdüyü ikinci zümrə fasiq qarilərdir. "Azğın alimlər"lə "fasiq qarilər" arasındakı fərq bundan ibarətdir ki, Quran qariləri camaata yalnız Quranı öyrədir və Quran müəllimləri sayılırlar. Azğın alimlər isə digər elmlərdə camaatın müəllimi hesab edilirlər. Əgər onlar fasiq olarsa, cəmiyyətə zərərləri daha çox olar. Onların vəzifə və məsuliyyəti mühüm olduğu və insanların, məxsusən, cavanların ruhu və qəlbi ilə işlədikləri üçün əzabları da ağır və şiddətlidir.

3. والْجَبابِرَةُ الظَّلَمَةُ – Üçüncü zümrə zülmkar hakimlərdir.

---

*1. "Hüməzə" surəsi, ayə 7.*

*2. "Quranın gözəl misalları", 1-ci cild, səh. 230.*

Bu zümrənin təhlükəsi azğın alim və fasiq qarilərdən sonrakı mərhələdə yerləşir. Çünki onlar camaatın əqidəsini dəyişir, zülmkar hakim və rəhbərlər isə camaatın cisim və bədəninə zülm edirlər.

4. والْوُزَراءُ الْخَوَنَةُ – Zülmkar vəzirlər də cəhənnəm dəyirmanının qidası olacaqlar. Vəzirlərə xain, hakimlərə isə zalım deyilməsinin səbəbi odur ki, xain vəzirlər həm öz rəhbərlərinə xəyanət edərək onlara əyri yolu doğru yol kimi göstərir, həm də özləri və öz xalqlarına xəyanət edirlər.

5. والْعُرَفاءُ الْكَذَبَةُ– Beşinci zümrə yalançı ariflərdir. Burada ariflər dedikdə, hər bir sahənin mütəxəssisləri, məxsusən, müxbirlər nəzərdə tutulur. Yalan danışan və həqiqəti əks göstərən kütləvi informasiya vasitələri bu təbirə aiddirlər; elə informasiya vasitələri ki, yaxşılıqları, gözəllikləri və doğru yolu göstərmək və təbliğ etmək əvəzində, aludəlikləri, çirkinlikləri, yalan xəbərləri və əyri yolu təbliğ edir və xalqı müxtəlif bədbəxtliklərə düçar edirlər.

Yeri gəlmişkən, bu hədisdən məlum olur ki, cəmiyyət bu beş zümrə mehvərində dolanır. Əgər onlar islah olunsa və doğru yola yönəlsə, cəmiyyət də islah olunar, yox, əgər azğınlığa düşsə, cəmiyyət də azğınlığa düşəcək. Onların azğınlıq nöqtəsi bir məsələdir, o da şəxsi mənafei ictimai mənafedən, maddi dəyərləri ilahi dəyərlərdən üstün tutmaqdır!

# 9

## AFƏT VƏ BƏLALAR

İmam Əli (ə) buyurmuşdur:

لِكُلِّ شَيْءٍ آفَةٌ؛

***"Hər bir şeyin afət və bəlası var. (Hər bir işdə bəlalardan qorunmaq lazımdır.)"*** [1]

### *Şərh və təfsir*

Hədisdə qeyd olunduğu kimi, varlıq aləmində bəla və bəlalar mövcuddur; yəni bütün dünya varlıqları zərər-ziyana məruz qalır. Dünyada bəlasız bir şey tapmaq olmaz. Misal üçün, biz insanların bədəni bir çox zərər-ziyanlara məruz qalır, bəlalarla doludur. Minlərlə xəstəlik növü həmişə insanın salamlığını hədələyir. Onların dərmanı və müalicəsi üçün də, elmi mərkəzlərdə müxtəlif tibbi sahələr araşdırılır. Hətta göz kimi kiçik bir üzvün bəlası o qədər çoxdur ki, çağdaş dünyamızda bir təbib gözlə bağlı bütün incəliklərin mütəxəssisi ola bilmir, əksinə bu sahədə müxtəlif mütəxəssis həkimlər fəaliyyət göstərir. İnsan ruhu da belədir; bitkilər, heyvanlar, insan

1. *"Mizanul-hikmət", 1-ci cild, səh. 110, fəsil 97, hədis 514.*

cəmiyyəti və bir sözlə, heç bir şey bəlasız deyil!

Bu ümumi qaydaya əsasən, hər bir sahə və müvəffəqiyyətdə diqqətlə onun afət və bəlası izlənilməlidir, yoxsa, nemətlər, uğur və qələbəliklər təhlükələrə məruz qala bilər. İmam Əli (ə) sözünün davamında otuza yaxın nemətin afət və bəlasından söz açmışdır ki, biz burada dördünü qeyd etməklə kifayətlənirik:

1. آفَةُ الْوَرَعِ قِلَّةُ الْقناعَةِ– *Pəhrizkarlığın bəlası qənaətin azlığıdır.*[1] İnsanı harama çəkən və şübhəli malların istifadəsinə həris edən, imanı zəif olanları xüms və zəkatı tərk etməyə sövq edən və daha çox mal-dövlət yığmaq üçün insanın rahatçılığını əlindən alan ən mühüm məsələ qənaətsizlik və qane olmamaqdır. Əgər insanın həyatı qənaətlə yoğurulsa, onun idarəsi də asanlaşacaq. Abbasi xəlifəsi Harunər-Rəşidin şərhi-halında yazırlar ki, bir gün onun oğullarından biri toy mərasimində öz zövcəsinin başına konfet-şokolad və pul əvəzində, (hədiyyə etmək məqsədilə) torpaq sahəsi və kəndlərin adı yazılan kağız vərəqləri atırmış.[2] Aydındır ki, belə işlərə əl atan insan halalca qənaət edə bilməyəcək və qarət, çapovul, oğurluq və digər çirkin işlərə əl atacaq. Qənaət edən insan isə belə işlərdən uzaq olacaqdır.

2. آفَةُ الْقَوِيِّ اسْتِضْعافُ الْخَصْمِ– *Güclünün bəlası düşməni zəif saymaqdır.*[3] Cəmiyyətin güclü təbəqəsinin bəla nöqtəsi öz düşmənlərini kiçik saymasıdır. Deməyin ki, mədəni hücumlar mühüm deyil, qəzetlərin hörmətsizliyi əhəmiyyət kəsb etmir, əxlaqsız və yasaq filmlər

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 111, fəsil 97, hədis 537.*

*2. "Nəhcül-bəlağədə İslam əxlaqı", 1-ci cild, səh. 118.*

*3. "Mizanul-hikmət", 1-ci cild, səh. 111, fəsil 97, hədis 541.*

təsirsizdir!... Çünki düşməni kiçik saydıqda, onun tərəfindən zərbələrə məruz qalacaqsan.

3. آفَةُ الْدّينِ الْهوى– *Dinin bəlası nəfsi istəklərdir.*[1] Nəfsi istəklər insanın dinini əlindən alır. Dinin bəlası batinlə bağlı nəfsi istəklərdir.

4. آفَةُ الْعَقْلِ الْهَوىِ– *Əqlin bəlası nəfsi istəklərdir.*[2] Nəfsi istəklər insanın əqlini yatırır və onun həyatı xətalarla dolur. Nəfsi istəklər hicabdır, həm dinin, həm də əqlin bəlasıdır. Bəli, hər bir şeyin bəlası var, bəlaları arayıb tanımaq və onlarla mübarizə aparmaq lazımdır.

---

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 110, fəsil 97, hədis 513.*

*2. "Mizanul-hikmət", 1-ci cild, səh. 111, fəsil 97, hədis 526.*

# 10

## ÇOXLUQ MEYAR SAYILMIR!

İmam Əli (ə) buyurmuşdur:

ايُّهَا النَّاسُ لا تَسْتَوْحِشُوا فى طَرِيقِ الْهُدى لِقِلَّةِ اهْلِهِ؛

***"Ey camaat, hidayət yolunda onun tərəfdarlarının azlığından qorxmayın."*[1]**

### *Şərh və təfsir*

İnsan əqlinin bəlalarından biri də cəmiyyətin kəmiyyət çoxluğuna təslim olmaqdır ki, bu, ayə və rəvayətlərdə qadağan edilmişdir. Hətta bəzi ayələrdə azlıq təriflənmiş, çoxluq isə pislənmişdir. Məsələn, "Ənam" surəsinin 116-cı ayəsində buyurulur:

وَإِن تُطِعْ أَكْثَرَ مَن فِي الأَرْضِ يُضِلُّوكَ عَن سَبِيلِ اللّهِ...

***"Əgər (din işlərində) yer üzündəki insanların çoxuna tabe olsan, səni Allahın yolundan azdırarlar…"***

Bundan əlavə, əksəriyyət ondan çox ayədə cəhalət və nadanlıq, beş ayədə nankorluq və dörd ayədə isə, imansızlıqla vəsf edilmişlər.

---

*1. "Nəhcül-bəlağə", xütbə 201.*

Demək, ayə və rəvayətlərdən əksəriyyət məzəmmət olunması başa düşülür. Həm də, müasir dünyamızda hər yerdə əksəriyyətdən söz açılır və bəşərin taleyi ilə əlaqəli bir çox məsələlər əksəriyyətin nəzərinə əsaslanır. Burada belə bir sual yaranır: "Meyar nədir?"

Deməliyik ki, bəşər cəmiyyəti bir-birindən fərqlənir; əgər bir cəmiyyətin hakim dairələri saleh insanlardırsa, sözsüz, əksəriyyətə tabe olmaq məsləhət görülür, yox, əgər cəmiyyəti nəfsin istəklərinə uyanlar idarə edirlərsə, İslam nəfsin istəklərinə uyan əksəriyyətə tabeliyi məntiq və əql ilə uzlaşmadığından tövsiyə etmir.

Başqa sözlə, İslam kəmiyyət çoxluğuna deyil, keyfiyyət çoxluğuna tabedir! Elə buna görə də Allah-Taala "Hud" surəsinin 7-ci və "Mülk" surəsinin 2-ci ayələrində buyurur:

الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا

***"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı (siz insanlar üçün) yaradan Odur."***

Bu ayədə "əksəru əmələn" (əməlcə daha çox olduğunu) deyil, "əhsənu əmələn" (əməlcə daha gözəl olduğunu) – ibarəsi işlədilir. Çünki kəmiyyət çoxluğu deyil, keyfiyyət çoxluğu böyük əhəmiyyət daşıyır! Diqqət yetirməliyik ki, çağdaş dünyamızda bədbəxtliklərin yolunu əksəriyyət məsələsində arayıb-axtarırlar. Ona görə ki, qeyri-dini cəmiyyətlərdə keyfiyyət çoxluğu üçün müəyyən bir ölçü və meyar yoxdur və hamı özünün ideal cəmiyyət olduğunu iddia edir. Buna görə də cəmiyyətə hakim rejimin qorunması üçün, əksəriyyətin nəzərinə üstünlük verilməyə cəhd göstərilir, hərçənd, ona əsasən, səsvermədə alim, bacarıqlı və idarəçilikdə müvəffəq şəxs də bir səs, savadsız və məlumatsız şəxs də bir səsə sahib

olur! Buna əsasən, qeyd etdiyimiz ayə və digər ayələr sağlam və saleh cəmiyyətə aid deyil.

### *Bu hədisin mesajları*

Biz insanlar siyasi həyatımızda çoxluğa tabe olsaq da, əxlaqi həyatımızda çoxluğa tabe olmamalıyıq. Əgər yer üzündə yaşayan insanların əksəriyyəti haram mal yeyirsə, biz əksəriyyətin rənginə boyanmamalıyıq. Əgər əksəriyyət şəxsi mənafeinin təhlükəyə düşdüyünü gördükdə, yalan danışırsa, biz azlıq təşkil edən zümrədə olduğumuzu bəhanə edərək düzdanışanların sırasından çıxmamalı, sədaqətli insanların sayının azlığından qorxub yalançıların sırasına qoşulmamalıyıq. Mömin insan əxlaqi məsələlərdə müstəqil olmalıdır, yəni (fərz edək ki,) yer üzündəki bütün insanlar alkoqolizmə qurşanırsa, o, özünü tək-tənha gördükdə, qorxu hissi keçirmədən doğru yoluna davam etməli və “rüsvay olmaq istəmirsənsə, camaatla həmrəng ol!” – şüarına itaət etməməlidir. Yaxud “Kim düz danışır ki, biz də düz danışaq?” – kimi ibarələrə uymamalıdır. Şübhəsiz, qiyamət günü bu sayaq bəhanələr qəbul edilməyəcək. İnsan o zaman saleh olub Allah yolunda addımlayır ki, başqalarının sözlərinə yox, yalnız Allahın kəlamlarına baxsın.

İlahi, bizi həmişə haqq yolda sabitqədəm saxla və haqq yolunda tənhalıq vəhşətini bizdən uzaqlaşdır!

# 11

## YAXŞILIQ VƏ XEYİRXAHLIQ

İmam Əli (ə) buyurmuşdur:

نِعْمَ زادُ الْمَعادِ الْاحْسانُ الَى الْعِبادِ

***“Allahın bəndələrinə yaxşılıq və xeyirxahlıq ölümdən sonrakı həyat üçün ən yaxşı azuqədir.”[1] Başqa bir hədisdə isə belə buyurmuşdur: “İnsanlara yaxşılıq imanın böyük bir hissəsidir.”[2]***

### *Şərh və təfsir*

Şübhəsiz, insanlara yaxşılıq ən mühüm ibadətlərdən biridir. İmam Əli (ə) birinci hədisdə axirət aləminin ən yaxşı azuqəsindən söz açır. Bu hədisi وَتَزَوَّدُواْ فَإِنَّ خَيْرَ الزَّادِ التَّقْوَى ***(Özünüz üçün azuqə götürün ki, ən yaxşı azuqə təqvadır!)*** – ayəsi[3] ilə yanaşı qoyduqda, məlum olur ki, yaxşılığın nəticəsi təqva, təqvanın da nəticəsi yaxşılıqdır. Demək, insanların başqalarına köməyi təqva və etiqadlarından

---

*1. “Qürərül-hikəm”, 6-cı cild, səh. 161, hədis 9912.*

*2. “Qürərül-hikəm”, 4-cü cild, səh. 52, hədis 5253.*

*3. “Bəqərə” surəsi, ayə 197.*

baş qaldırır. Həqiqətdə, İslam yaxşılıq və xeyirxahlığa dəvət edən ən güclü təşviqatçıdır.

İkinci hədisdə yaxşılıqla imanın əlaqəsindən söz açılır. İmanı zəif olan insanlar yaxşılıq etməz, həqiqi möminlər isə yaxşılıq əhlidirlər. Diqqəti cəlb edən odur ki, bu hədisdə yalnız müsəlman və yaxud möminlərə yaxşılıqdan söz açılmır, əksinə hədisin birində Allahın bəndələrinə, digərində isə bütün insanlara yaxşılıqdan danışılır. Yəni qeyri-müsəlman yoxsullara yaxşılıq etmək də təqva və imanı artırır. Çünki Allah-Taala bütün bəndələrini sevir və Onun bəndələrini sevən şəxs də Allahı sevir. Deməк, hər bir möhtac və yoxsula yaxşılıq etmək böyük ibadətlərdən biridir.

### *Yaxşılıq və xeyirxahlığın təsirləri*

Yaxşılığın iki təsiri var: biri yaxşılıq edənə, digəri isə yaxşılıq olunana. Onun yaxşılıq edənə təsiri yaxşılıq olunana təsirindən daha böyük və mühümdür. (Adətən, bu məsələ çoxlarının təsəvvürünə əksdir, çünki bir çox hallarda yaxşılıq minnətlə yanaşıdır.) Diqqəti cəlb edən odur ki, Qurani-Kərimdə bir növ yaxşılıq sayılan "zəkat" barəsində "tutəhhirəhu" (təmizləyir) və "tuzəkkihim" (paklaşdırır)[1] ibarələri işlədilir, yəni yaxşılıq, yaxşılıq edənin təmizlik və paklığına səbəb olur, onun əxlaqi inkişafına kömək edir və çirkin xüsusiyyətlərini aradan qaldırır.

Bir hədisdə buyurulur: *"Yoxsula verdiyiniz sədəqə yoxsulun əlinə çatmazdan öncə Allahın əlinə çatır."*[2]

*1. Hər iki ifadə "Tövbə" surəsinin 103-cü ayəsində işlənmişdir.*

*2. "Səhihi-Müslim", 2-ci cild, səh. 702, "Qurani-Kərimin gözəl misalları" kitabından nəqlən, 1-ci cild, səh. 109.*

"İnfaq" ayəsində[1] də Allah yolunda xərcləyənlərin inkişafından söz açılır.

Bir sözlə, yaxşılıq fərdin paklıq və islahına səbəb olduğu kimi, ictimai paklıq və islahatı da ərməğan gətirir. Çünki ictimai günahların ən mühüm amillərindən biri də yoxsulluqdur. Yaxşılıq və xeyirxahlıq sayəsində yoxsulluğa son qoyulduğu zaman cəmiyyət də paklanacaqdır.

*1.* ***"Mallarını Allah yolunda xərcləyənlərin (bu xərclərinin) misalı yeddi sünbül cücərdən və sünbüllərinin hər birində yüz (ədəd) dən olan toxum kimidir. (Deməli, Allah yolunda sərf edilən hər bir şeyin yeddi yüz qat mükafatı vardır.) Allah istədiyi (və hikmətinin tələb etdiyi) şəxs üçün neçə qat artırır. Allah geniş (vücud, qüdrət və rəhmət sahibi) və biləndir."*** *("Bəqərə" siurəsi, ayə 261.)*

# 12

## ƏXLAQ VƏ RUZİ XƏZİNƏLƏRİ

İmam Əli (ə) buyurmuşdur:

فِى سَعَةِ الْاخْلاقِ كُنُوزُ الْارْزاقِ؛

***“Xoşəxlaqlılıq ruzi xəzinələrinin açarıdır.”*[1]**

### *Şərh və təfsir*

Biz “Qurani-Kərimdə əxlaq” kitabında (3-cü cild, səh. 135) “yaxşı əxlaq” mövzusunu araşdırdıqda, onun geniş bir mövzu olduğunu gördük. Bu haqda mütaliə etdikdə, Qurani-Kərim və hədislərdə bir sıra təbirlərlə rastlaşdıq ki, digər mövzularda onlara çox az toxunulmuşdur.

Sadə sözlə desək, yaxşı əxlaq, gülərüzlülük, ədəb-ərkan və insanlarla uyğun rəftar İslamın böyük əhəmiyyət verdiyi məsələlərdəndir. Bir çox rəvayətlərdə misilsiz ibarələr və hədsiz təkidlərlə göstərilir ki, Peyğəmbəri-Əkrəm (s) yaxşı əxlaqa böyük əhəmiyyət verirmiş. Təəssüf ki, bir qrup müsəlmanların arasında ya bu məsələyə əhəmiyyət verilmir, ya da ona əks rəftar olunur. Hətta bəziləri elə güman edirlər ki, yaxşı adam

*1. “Qürərül-hikəm”, 3-cü cild, səh. 151, fəsil 1114, hədis 5079.*

sərt, qaşqabaqlı və quru olmalıdır! Halbuki bu, böyük bir xətadır!

Həqiqətdə, qeyd etdiyimiz hədisdə yaxşı əxlaq və xoşəxlaqlılığın dünyəvi faydalarından biri vurğulanır. Təcrübə göstərir ki, xoşəxlaq insanların iş və kəsbləri də rövnəqli olur. Qırx il bundan əvvəl iş və kəsbləri rövnəqli olan bəzi şəxslər barəsində verilən statistik məlumatlarda əxlaqı yaxşı olan tacirlərin 70%, əxlaqı pis olan tacirlərin isə 30% müvəffəq olduqlarını oxudum; yəni ticarətdə xoşəxlaqlılıq payı 40%-dən ibarətdir. Çünki yaxşı əxlaq insanları cəzb, pis əxlaq isə dəf edir.

Bütün müsəlmanlar, xüsusilə camaatla daha çox əlaqə saxlayanlar yaxşı əxlaq sahibi olmalıdırlar. Yaxşı əxlaq həm cəmiyyəti islah edir, həm də insanın ömrünün uzun olmasına səbəb olur. Necə ki, imam Sadiq (ə) bir hədisdə buyurmuşdur: *"Yaxşılıq etmək və gözəl əxlaq evləri abad, ömürləri uzun edər."*[1]

**Sual:** Nə üçün yaxşı əxlaq ruzinin artmasına səbəb olur?

**Cavab:** Alıcı satıcıdan ona etimad etdiyi zaman mal alır. Əgər o, satıcıya bədbin olsa, sözsüz ondan uzaqlaşacaq. Deməli, satıcı alıcının etimad və inamını qazanmalıdır. Etimadı qazanmağın yollarından biri də yaxşı rəftar və xoşəxlaqlılıqdır. Alıcı, satıcının yaxşı əxlaq və rəftarını onun düzgün, sədaqətli, əmanətdar və etimadlı olması ilə əlaqələndirir.

Bir nəfər deyirdi ki, müalicə məqsədilə qərb ölkələrindən birinə getmişdim. Müalicə müddətim qurtarıb xəstəxanadan çıxmaq istədiyim zaman xəstəxananın pulunu ödəmək üçün müraciət etdim.

*1. "Mizanul-hikmət", 3-cü cild, səh. 151, fəsil 1114, hədis 5077.*

Onlar son dərəcədə ədəb-ərkan və ehtiramla mənə dedilər: "Hələ tələsməyin, vətəninizə sağ-salamat çatdıqdan sonra hesabınızın surətini sizə göndərəcək və münasib bir vaxtda məktubda qeyd edəcəyimiz bank hesabına köçürərsiniz!

Bunun müqabilində, bizim xəstəxanalarımızda pul almayınca xəstəni əsla qəbul etmirlər. Görün aralarındakı fərq nə qədərdir?

Təəssüf ki, imam Əlini (ə) narahat edən məsələ (İslam göstərişlərinə əməl etmək) hələ də bəzi sahələrdə gerçəkləşməmişdir!

# 13

## ÖZÜNÜ UCUZ SATMA!

İmam Əli (ə) buyurmuşdur:

لَيْسَ مَنِ ابْتاعَ نَفْسَهُ فَاعْتَقَها كَمَنْ باعَ نَفْسَهُ فَاوْبَقَها؛

***“Öz nəfsini alıb azad edən şəxs özünü satıb həlak edən şəxs kimi deyil!”[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) insanları üç qrupa bölür:

1. Öz nəfsini alıb azad edənlər;
2. Özünü satıb əsir edənlər.

Bu hədisin məzmununu aydınlaşdırmaq üçün “alıb azad etmək” ibarəsi ilə bağlı qısa şərh verməm lazımdır. Bu hədisdə insan nəfsi başqasının mülkü sayılan bir köləyə bənzədilir və öz nəfsini alıb azad edən şəxs azad insan adlanır. Başqa sözlə, insan əsirdir, bəzən ehtiraslar, bəzən məqam və vəzifə, bəzən qadın və övlad, bəzən də xəyallar əsiridir. İnsan özünü bu əsirliklərdən azad etməli, özünü onlara satıb əsirlikdə saxlamamalıdır.

**Sual:** Doğrusu, nə üçün bəzi insanlar özlərini satırlar?

---

*1. “Biharul-ənvar”, 74-cü cild, səh. 419.*

**Cavab:** Belələri ya öz yüksək qiymətlərindən və özünün səma mələkləri və onların öndərlərindən üstün məqama ucalacağı,[1] ondan da üstün, Allahın yer üzündə xəlifə və nümayəndəsi olacağı kimi misilsiz məqam və bacarıqlarından xəbərsizdir, ya da öz nəfsi müqabilində aldığı qiymətin dəyərsiz olduğunu anlamır. Buna öz insanlıq kəramətini nəfsi istəklərinə satan, yaxud insan kəramətinin qiymətini bilməyən və yaxud nəfsi istəklərin dəyərsizliyini dərk etməyən insanı misal göstərə bilərik.

İmam Əli (ə) bir hədisdə belə buyurmuşdur: *"Sizin canlarınızın qiyməti ancaq cənnətdir. Buna görə də onları həmin qiymətdən başqa heç nəyə satmayın."*[2] Bu hədisə əsasən, bu geniş aləmdə insan varlığının yalnız bir alıcısı və bir qiyməti vardır. Onun alıcısı böyük Allah, qiyməti isə Onun razılığı və behiştdir.

Bir sözlə, insanlar qeyd etdiyimiz iki qrupdan xaric deyillər! İndi isə baxmalıyıq ki, hansı qrupdanıq!

---

*1. İnsanın dəyər və qiyməti o qədər böyükdür ki, Allahın ən yaxın mələyi və vəhy əmanətdarı Cəbrail Əmin deyir: "Adəmə səcdə etdiyim vaxtdan, əsla insandan irəli keçmədim." ("Vəsailuş-şiə", 4-cü cild, "azan və iqamə" bölümü, 31-ci bölüm, hədis 5.)*

*2. "Nəhcül-bəlağə", qısa kəlamlar 456.*

# 14

## ƏMƏLLƏRİN HƏQİQİ DƏYƏRİ

İmam Əli (ə) buyurmuşdur:

يَا كُمَيْلُ، لَيْسَ الشَّأْنُ اَنْ تُصَلِّيَ وَ تَصُومَ وَ تَتَصَدَّقَ، اَلشَّأْنُ اَنْ تَكُونَ الصَّلاَةُ بِقَلْبٍ نَقِيٍّ وَ عَمَلٍ عِنْدَ اللّٰهِ مَرْضِيٍّ وَ خُشُوعٍ سَوِيٍّ

***"Ey Kumeyl! Namaz qılıb oruc tutmağın və Allah yolunda xərcləməyin elə də mühüm deyil! Mühüm odur ki, namazı (və digər əməlləri) Allahın dərgahında pak qəlblə və layiqincə yerinə yetirəsən və əməlin təvazökarlıqla qarışsın. "[1]***

### *Şərh və təfsir*

Əməlin həqiqi qiymət və dəyərini onun zahir və miqdarı deyil, əksinə həqiqi cəhətləri, necəliyi və keyfiyyəti təyin edir. İmam Əlinin (ə) təkidlə Kumeylə buyurduğu kimi, əməllərin çoxluğu və zahirinə əhəmiyyət verməkdənsə, onun keyfiyyət və mahiyyətinə

1. *"Tuhəfül-üqul", səh. 186.*

diqqət yetirsin. Çünki xeyir əməllərin yerinə yetirilməsinə son məqsəd, insanın təlim-tərbiyəsi və təkamülüdür. Bu isə əməllərin çoxluğu ilə deyil, paklığı ilə reallaşır.

Başqa sözlə, ibadətlər ruh və cismə malikdir; ibadətin cismi zahiri əməllər və fellərdən ibarətdir. Namazın cismi düzgün qiraət, rüku, səcdə və digər hərəkət və rüknlərdir. Ruhu isə Allah, nübuvvət, məad və zikrlərin dərin məzmunlarına diqqət, tövhid prinsipinin müxtəlif yönlərini gücləndirmək, bir sözlə, doğru yolda addımlamaqdır.

Həqiqi ibadət, onun hər iki yönünə diqqəti tələb edir. Ruhsuz namaz, namaz sayılmadığı kimi, cisimsiz namaz da namaz deyildir! Namazın zikrlərinin məna və məzmunlarına diqqət yetirmədən yalnız namazın cismi ilə kifayətlənən bir müsəlman yanıldığı kimi, ilahi mərifətə çatmaq bəhanəsi ilə namaz və yaxud digər ibadətlərdən əl çəkib namazın ruh və dərinliyinə varmağı iddia edərək özünü müsəlman kimi göstərənlər də böyük səhvə yol verirlər!

# 15

## TÖVBƏNİN ƏSAS SÜTUNLARI

İmam Əli (ə) buyurmuşdur:

التَّوْبَةُ عَلى ارْبَعَةِ دَعائِمٍ: نَدَمٌ بِالْقَلْبِ، وَ اسْتِغْفارٌ بِاللِّسانِ،
وَ عَمَلٌ بِالْجَوارِحِ وَ عَزْمٌ انْ لايَعُودَ؛

***"Tövbə dörd sütun üzərində möhkəmlənmişdir: 1. batini peşmançılıq; dildə istiğfar; 3. əməldə istiğfar; 4. günaha bir daha qayıtmamaq üçün ciddi qərar."[1]***

### *Şərh və təfsir*

Adətən, camaatın tövbə ilə bağlı düzgün anlayışı yoxdur. Buna görə də həm fərdi, həm də ictimai tövbələrdə onun təsirləri azdır.

Tövbə adlı böyük bina bir-iki sütun üzərində deyil, əksinə dörd sütun üzərində qurulmuşdur. Başqa sözlə, tövbə insanın bütün varlığında aşkar olunmalıdır. Buna əsasən, biz burada həmin dörd sütun və əsasla bağlı qısa şərhə başlayırıq:?

**Birinci sütun:** Tövbədə ilk addım daxili peşmançılıqdır.

---

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 584, fəsil 459, hədis 2160.*

Tövbə edən şəxsin qəlbi, ruhu və canında dəyişiklik və inqilab baş verir və qurşandığı günaha qarşı nifrət hissi yaranaraq peşman olur.

**İkinci sütun:** Daxili peşmançılıq tövbədə ilk addım olsa da, onunla bitmir. İnsanın daxildə baş qaldıran inqilab və dəyişiklik digər bədən üzvlərinə də öz təsirini qoymalı, peşmançılıq qəlbin aynası, əqlin nümayəndəsi və insan şəxsiyyətinin açarı sayılan dilin vasitəsilə aşkar olmalı, qəlbi peşmançılıqdan sonra dil günahdan tövbə etməlidir. Demək, günaha nifrətdə qəlblə dilin həmahəngliyi tövbənin iki sütununu təşkil edir.

**Üçüncü sütun:** Peşmançılıq hissi dildən digər üzvlərə də ötürülməli və onları əksüləmələ vadar etməlidir ki, insan keçmişini təmizləmək üçün bir iş görə bilsin. Bu mərhələdə onun üzvləri tövbənin bünövrəsini möhkəmlətmək üçün üç əsaslı iş yerinə yetirə bilər:

a) Camaatın günahlar vasitəsilə tapdanan haqlarını ödəsin. Məsələn, qeybətini qıran şəxsdən halallıq alsın, qəlbini sındırdığı şəxsin razılığını cəlb etsin və s. Bir sözlə, haqqı boynunda olan şəxsin haqqını əda etsin.

b) Allahın haqqını da əda etsin; tərk etdiyi ibadətləri yerinə yetirsin, əgər həmin ibadətlərin cəriməsi (kəffarə) varsa, cərimənisini ödəsin və onları ölümdən sonra həvalə etməsin!

c) Keçmiş pislikləri, xəta və günahları yaxşılıqlar və ibadətlərlə aradan qaldırsın. Tövbənin bu mərhələsinə إِلَّا الَّذِينَ تَابُواْ وَأَصْلَحُواْ...***(Tövbə edib (öz pis işlərini) islah edənlər istisna olmaqla!...)***[1] – ayəsini misal çəkə bilərik. Günah xəstəliyə, "kəbirə" (böyük) günah isə ağır xəstəliyə

*1. "Bəqərə" surəsi, ayə 160. Buna oxşar ayələr: "Ali-İmran" surəsi, ayə 89; "Nəhl" surəsi, ayə 119; "Nur" surəsi, ayə 5.*

bənzəyir. Ağır xəstəliyə tutulan, dərman və müalicədən sonra xəstəlik yatağından qalxan şəxs arıqlayır və gücünü itirir. O, dərman və müalicədən sonra, itirdiyi gücünü qüvvətli qidalarla əldə etməlidir. Günah da iman və insani fəzilətləri zəiflədir. Tövbədən sonra həmin fəzilətlər saleh və yaxşı işlərlə gücləndirilməlidir.

**Dördüncü sütun:** Gələcəkdə günahın tərki üçün ciddi qərarda olmaq lazımdır. Yəni tövbə insana ömrünün sonuna qədər yolu göstərir. İmam Əlinin (ə) buyruğuna əsasən, tövbə insanda böyük dəyişiklik yaradır və yalnız dilə aid deyildir! Əlbəttə, tövbənin cəmiyyətə təsiri də böyükdür; günaha əl atmış cəmiyyət tövbədən sonra bu dörd mərhələni keçməlidir.

# 16

## CƏMİYYƏTİN ÜÇ ƏSASI

İmam Əli (ə) buyurmuşdur:

قامَتِ الدُّنْيا بِثَلاثَةٍ: بِعالِمٍ ناطِقٍ مُسْتَعْمِلٍ لِعِلْمِه، وَ بِغَنِيٍّ لايَبْخَلُ بِمالِه عَلى اهْلِ دينِ اللّه عَزَّوَجَلَّ، وَ بِفَقيرٍ صابِرٍ. فَاذا كَتَمَ الْعالِمُ عِلْمَهُ، وَ بَخِلَ الْغَنِيُّ، وَ لَمْ يَصْبِرِ الفَقيرُ، فَعِنْدَها الْوَيْلُ وَ الثَّبُورُ؛

***"Dünya üç şəxsin vasitəsilə möhkəmlənər: "Öz elmini işlədən*** *(onun əsasında davranan və onu xalqa öyrədən)* ***(fəsahət və bəlağətlə danışan) natiq alim, Allahın möhtac bəndələrinə öz mal-dövlətini verməkdə simiclik etməyən varlı və səbirli yoxsul. Buna əsasən, alim öz elmini gizlətdikdə (və başqalarına öyrətmədikdə), varlı simiclik etdikdə (yoxsullara yaxşılıq etmədikdə) və yoxsul səbir***

***etmədikdə, dünyanı müsibət və həlak bürüyəcəkdir."***[1]

## *Şərh və təfsir*

Bu rəvayətdə iki mühüm məsələ diqqəti cəlb edir:

1. Alim natiq olmalı, fəsahət və bəlağətlə danışmağı bacarmalıdır. Əks-təqdirdə, yerin altında gizli qalan xəzinətək cəmiyyətə faydasız olacaqdır. Deməк, imam Əlinin (ə) nəzərində natiqlik alimin ayrılmaz hissəsidir. Necə ki, o həzrətin özü də kamil alim nümunəsi və misilsiz fəsahət və bəlağət qabiliyyətinə malik idi. Bununla yanaşı, alimin sözləri Peyğəmbəri-Əkrəmin sözləri kimi olmalıdır ki, Qurani-Kərimdə buyurulur: ***"O, (ilahi tapşırıqların çatdırılmasında) əsla nəfsi istəkləri ilə danışmır."***[2] Alimin söhbəti nəfsi istəklərinə deyil, Allahın razılığına əsaslanmalıdır!

2. Natiq alim insanları haqqa dəvət etməzdən öncə özü ona əməl və tərki vacib olan əməlləri tərk etməlidir. Belə alim "rəbbani" və "ilahi" adlanır. Onun üzünə, hətta evinin qapısına baxmaq və məclislərində iştirak etmək ibadət, sözləri isə Allah yolunda cihad sayılır.[3]

Əgər alim öz elmini yayaraq camaatdan qabaq özü ona əməl edərsə, varlı simiclik etməyib yoxsulların qayğısına qalarsa və yoxsullar da çətinliklərə dözüb

---

*1. "Biharul-ənvar", 10-cu cild, səh. 119. Bu rəvayət müxtəlif şəkildə nəql olunmuşdur. Bir nümunəsi "Nəhcül-bəlağə"nin qısa kəlamlarının 372-ci nömrəsində də nəql olunmuşdur.*

*2. "Nəcm" surəsi, ayə: 3.*

*3. Bir şəxs, imam Sadiqdən: "Peyğəmbəri-Əkrəmin "Alimlərin üzünə baxmaq ibadətdir!" – buyruğunda hansı alim nəzərdə tutulur?" – deyə soruşduqda, Həzrət buyurdu: "Üzünə baxanda, axirət aləmini xatırlayan alim nəzərdə tutulur. Amma bu xüsusiyyətə sahib olmayan alimin üzünə baxmaq isə, (ibadət sayılmadığı kimi) fitnə-fəsada səbəb olur." ("Mizanul-hikmət", fəsil 2845, hədis 13438.)*

səbir edərsə, cəmiyyət çətinliklərə məruz qalmaz. Alim öz elmini elmsevərlərin ixtiyarında qoymadığı, varlı yoxsulun qayğısına qalmadığı və yoxsul səbir etmədiyi zaman dünyaya müsibət və həlakət hökm sürəcək.

Əziz oxucu! Hər birimiz bu üç zümrədən birinə daxilik, Allahdan istəyək ki, vəzifəmizi layiqincə yerinə yetirək.

# 17

## İZZƏT VƏ ŞƏRƏF AMİLLƏRİ

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! احْسَنُ حِلْيَةِ الْمُؤْمِنُ التَّواضُعُ، وَ جَمالُهُ التَّعَفُّفُ،
وَ شَرَفُهُ التَّفَقُّهُ، وَ عِزُّهُ تَرْكُ الْقالِ وَ الْقيلِ؛

***“Ey Kumeyl! Möminin ən yaxşı zinəti təvazökarlıq, gözəlliyi iffət (mənəvi saflıq), şərəfi agahlıq və izzəti faydasız sözlərin tərkidir.”[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisdə dörd mühüm mətləbə toxunur. Həqiqətdə, bu dörd mətləb cəmiyyətə mütərəqqi mədəniyyət və bəzi sözlərə yeni məfhum aşılayır. Biz burada ixtisarı nəzərə alaraq hədisin birinci hissəsinin şərhi ilə kifayətlənirik:

*“Möminin ən yaxşı zinəti təvazökarlıqdır.”* İmam Əli (ə) bu cümlədə zinət sözünə yeni məna vermiş və onu maddi mənasından çıxararaq mənəvi mənada işlətmişdir. Möminin zinət və bəzəyi adlanan təvazökarlıqla bağlı

*1. “Biharul-ənvar”, 74-cü cild, səh. 413.*

ayə və rəvayətlərdə bir çox mətləblər qeyd edilmişdir. O cümlədən, “Loğman” surəsinin 18-ci və “İsra” surəsinin 37-ci ayələrində buyurulur:

وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا

***“Yer üzündə lovğa-lovğa yerimə!”***

Görəsən, ayədə qeyd olunan “məşy” (yerimək) sözü təvazökarlığın xarici nümunəsi sayılan adi yerişdir, yoxsa, geniş məna daşıyaraq ictimai, siyasi və mədəni rəftarlara da aiddir? İkinci təfsir nəzərə uzaq gəlmir.

İmam Əlidən (ə) nəql olunan bir hədisdə buyurulur: *“Təvazökarlığın səmərəsi (başqalarına) məhəbbət, təkəbbürlülüyün səmərəsi isə kin-küdurət və düşmənçilikdir.”*[1]

Təkəbbür və xudbinliyin antonimi olan təvazökarlıq bütün insanlar, xüsusilə elm əhli və cəmiyyətə örnək sayılanlar üçün böyük əhəmiyyət kəsb edir. Təvazökarlığın nişanələrindən biri salam verməkdir. Bəzi rəvayətlərə əsasən, İslam Peyğəmbəri (s) həmişə birinci salam verər[2] və bununla camaatın qəlbini özünə cəlb edirdi. Nə üçün biz də xərci az, istifadəsi çox olan bir əməldən bəhrələnməyək?!

## *Təvazökarlığın qisimləri*

Təvazökarlıq üç qismə bölünür:

1. Allah dərgahında təvazökarlıq;
2. Allahın bəndələri müqabilində təvazökarlıq;
3. Haqqın müqabilində təvazökarlıq.

Allah dərgahında və bəndələrinin müqabilində təvazökarlıqda məqsədin nə olduğu aydındır. Əlbəttə,

*1. “Qürərül-hikəm”, hədis 4613-4614, “Qurani-Kərimdə əxlaq” kitabından (2-ci cild, səh. 74) nəqlən.*

*2. “Müntəhəl-amal”, 1-ci cild, səh. 54.*

burada Allahın bəndələrində möminlər nəzərdə tutulur. Kafir və düşmənlər müqabilində təvazökarlığın mənası yoxdur, əksinə onların müqabilində başıuca olmaq lazımdır.

Haqqın müqabilində təvazökarlığa gəldikdə isə, birinci və ikinci qisimdən olan təvazökarlığa sahib olan şəxslərin çoxu ona çatdıqda ləngiyirlər! İnsan öz səhv və xətalarını cürətlə qəbul etməli, çətin olsa da və qarşı tərəfin yaşı, təhsili və ictimai mövqeyi aşağı olsa da, həmişə haqqa təslim olmalıdır.

# 18

## HƏR BİR İŞDƏ ORTA MÖVQE

İmam Əli (ə) buyurmuşdur:

مَنْ بالَغَ فِى الْخُصُومَةِ اثِمَ، وَ مَنْ قَصَّرَ فيها خُصِمَ؛

***"Düşmənçilikdə həddini aşan şəxs günaha düşər və səhlənkarlıq edən şəxs isə məğlub olar."*[1]**

### *Şərh və təfsir*

Hər bir işdə orta mövqe İslamda o qədər əhəmiyyət daşıyır ki, hətta düşmənlərlə düşmənçilik zamanı belə, ona tövsiyə olunur.

Təcrübə göstərmişdir ki, ifrat və onun ziddi həmişə müxtəlif çətinliklərlə sonuclanır. Buna görə də "orta mövqe" ümumi bir əsas kimi, bütün varlıq aləminə hakimdir. Planetlərin günəş oxu ətrafında fırlanmasında olduqca həssas nizam-intizam mövcuddur. Belə ki, onların günəşlə fasiləsi azalarsa, günəşə cəzb olunaraq yüksək istilik nəticəsində məhv olar və uzaqlaşarsa, günəşin cazibə dairəsindən çıxaraq, onun enerjisindən məhrum olarlar. İnsanın bədən orqanizmində mövcud

---

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 419.*

olan bu orta nizam da çox qəribədir; bu nizamın bir-birinə dəyməsi ilə dərhal xəstəliklər başlanır.

### *Hədisin mesajı*

Bu hədis bizə fərdi həyatımızın hər bir sahəsində, hətta dostluq və düşmənçiliklərdə, mübahisə və münazirələrdə, ibadət və fəaliyyətlərdə, kədər və sevinc hissləri bildirməkdə, bir sözlə hər bir halda orta həddi gözləməliyik.

"Bəqərə" surəsinin وَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطًا ***(Sizi orta bir ümmət etdik!)*** – ayəsində[1] qeyd olunan كَذٰلِكَ "kəzalikə" sözü "müsəlmanların qibləsi"nə təfsir edilmişdir. Yəni siz müsəlmanların qibləsi dünyanın şərqi ilə qərbinin, yəhudilərlə xristianların qibləsinin ortasında yerləşdiyi üçün siz də orta ümmət olun.[2]

Biz gün ərzində ən azı on dəfə Allahdan belə istəyirik: "İhdinəs-siratəl-mustəqim!" ***(İlahi, bizi (sağa-sola yox,) doğru yola hidayət et!)***

---

*1. "Bəqərə" surəsi, ayə 143.*

*2. Müsəlmanların qibləsi orta bir qiblədir. Çünki məsihilər (ibadət edərkən) şərqə tərəf dururlar. Səbəbi də məsihilərin əksəriyyətinin qərb ölkələrində yaşaması və ibadət zamanı Beytül-Müqəddəsə doğru, yəni həzrət İsanın (ə) doğulduğu yerə tərəf dayanmaq məcburiyyətində qalmasıdır. Beləliklə, şərq istiqaməti məsihilərin qibləsi hesab olunur. Amma əksəriyyəti Şam, Babil və sair yerlərdə yaşayan yəhudilər isə Beytül-Müqəddəsə doğru dayananda, onların qibləsi qərb istiqamətində olur. O dövrdə əksəriyyəti Mədinədə yaşayan müsəlmanlar üçün Kəbə, təqribən, cənub istiqamətində, şərqlə qərb arasında olduğuna görə orta bir mövqe hesab olunur. ("Təfsir-nümunə", 1-ci cild, səh. 483.)*

# 19

## ƏSL ZƏNGİNLİK

İmam Əli (ə) buyurmuşdur:

لا غِنَى كَالْعَقْلِ وَ لا فَقْرَ كَالْجَهْلِ؛

***"Ağıl kimi sərvət yoxdur. Nadanlıq kimi yoxsulluq yoxdur."***[1]

### *Şərh və təfsir*

Zənginlik iki qismə bölünür: xarici-zati zənginlik və daxili-zati zənginlik.

1. Xarici-zati zənginlikdə məqsəd budur ki, insan məqam, vəzifə, qüdrət, dostlar, pul və s. amillər kimi zatından xaric olan amillər vasitəsilə başqalarından ehtiyacsız olur. Bu növ zənginlik etibarsız olduğundan insanın ruhi-mənəvi susuzluğunu aparmır. Elə buna görə də sərvətlilər ən susuz insanlardır! Bəhluldan: "Bir şəxs insanların ən yoxsuluna maddi yardım etməyi nəzir etsə, kimə yardım etməlidir?" – deyə soruşduqda, dedi: "Xəlifə Harunər-Rəşidə!"[2]

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 54.*

*2. "Bəhlul danəndə" kitabında buna oxşar belə bir əhvalat nəql*

2. Batini-zati zənginlik isə odur ki, insan xarici vasitələrə güvənmədən öz daxili istedad və bacarıqlarından istifadə edərək, iman, özünəetimad, qənaət, Allaha təvəkkül və təqva kimi böyük nemətlər sayəsində batini-zati zənginliyə nail və başqalarından ehtiyacsız olsun. Bu məqamın mühüm səciyyəsi oğruların onu oğurlamaqda aciz qalmalarıdır. İmam Əli (ə) bu məqama ucalan şəxslərdən idi. Elə buna görə də iyirmi beş il sükut etdiyi müddətdə dağ kimi müqavimət göstərir və qüdrətə çatdıqda da, qüdrət əsiri olmur, əksinə qüdrəti özünə əsir edərək dünyaya arxa çevirir.

Bəli, o həzrət qüdrət sahibi olduğu halda, dünyanı yamaqlı ayaqqabısından,[1] çəyirtkənin ağzında çeynənmiş yarpaqdan,[2] dişi keçinin asqırığından[3] və cüzam xəstəliyinə tutulmuş şəxsin əlində olan ətsiz donuz sümüyündən də dəyərsiz[4] hesab edir! Budur həqiqi və əbədi nemət!

---

*olunmuşdur: "Bir gün Harunər-Rəşid, Bəhlula bir miqdar pul verdi ki, onu yoxsullara versin. Bəhlul pulu aldıqdan bir az sonra, yenə xəlifənin özünə qaytardı. Xəlifə Harun səbəbini soruşduqda, Bəhlul belə cavab verdi: "Çox fikirləşdim, amma xəlifədən yoxsul (möhtac) bir şəxs tapmadım!"*

*1. "Nəhcül-bəlağə", xütbə 33.*

*2. "Nəhcül-bəlağə", xütbə 224.*

*3. "Nəhcül-bəlağə", xütbə 3.*

*4. "Nəhcül-bəlağə", qısa kəlamlar 236.*

# 20

## AĞALIQ VƏ ƏSİRLİK

İmam Əli (ə) buyurmuşdur:

امْنُنْ عَلى مَنْ شِئْتَ تَكُنْ اميرَهُ، وَ احْتِجْ الى مَنْ شِئْتَ تَكُنْ اسيرَهُ، وَاسْتَغْنِ عَمَّنْ شِئْتَ تَكُنْ نَظيرَهُ؛

***"Ağahlıq etmək istədiyin şəxsə yaxşılıq et, əsiri olmaq istədiyin şəxsə möhtac ol və tayı (bənzəri) olmaq istədiyin şəxsə ehtiyaclı olma!"***[1]

### *Şərh və təfsir*

İctimai münasibətlərdə bütün fərd və millətlər arasında belə bir qanunun hakimliyi danılmazdır: "Hakimiyyət varlı təbəqəyə məxsus olduğundan, kasıb təbəqə istər-istəməz onlara tabedir. Möhtac insanlar, həqiqətdə, başqalarına ehtiyaclı olduqlarını bildirdikləri üçün, özləri öz köləlik sənədlərinə imza atmışlar. Bu səbəbdən, İslamda başqalarından yardım diləmək pislənmişdir. Deməli, həqiqi müsəlman digər insanlarla

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 400 və 421; 72-ci cild, səh. 107 və 71-ci cild, səh. 411.*

ictimai münasibətlərini birtərəfli deyil, qarşılıqlı əməkdaşlıq əsasında qurmaq üçün çalışmalı və əvəzsiz kömək istəmək isə, yalnız əlil və şikəst insanlara aid olmalıdır."

Hökmranlıq və tabelik, izzət və zillət, xoşbəxtlik və bədbəxtlik, zənginlik və yoxsulluq kimi məsələlər təsadüfi deyil, əksinə insanların öz əlləri ilə hazırladığı səbəblərin nəticələridir. Xoşbəxtlik və bədbəxtlik amillərini ayırd edərək birincini qazanmaq, ikincini isə dəf etmək üçün səy etmək lazımdır.

# 21

## DİN SAYƏSİNDƏ ƏMNİYYƏT

İmam Əli (ə) buyurmuşdur:

«مَنِ اسْتَحْكَمَتْ لى فيهِ خَصْلَةٌ مِنْ خِصالِ الْخَيْرِ احْتَمَلْتُهُ عَلَيْها و اغْتَفَرْتُ فَقْدَ ماسِواها وَ لا اغْتَفِرُ فَقْدَ عَقْلٍ وَ لا دينٍ، لِاَنَّ مُفارَقَةَ الدينِ مُفارَقَةُ الْامْنِ... وَ فَقْدَ الْعَقْلِ فَقْدُ الْحَياةِ»؛

***"Yaxşılıq xüsusiyyətlərindən biri ilə yoğurulan şəxsə dözərəm və başqa xüsusiyyətlərdə zəif olarsa, bağışlayaram. Amma iki şeyi bağışlamaram: biri ağılsızlıq, digəri isə dinsizliyi. Çünki din olmasa, əmniyyət olmaz və ağıl olmasa, həyat olmaz."[1]***

### *Şərh və təfsir*

Bu hədis hər cəmiyyətdə baş verə biləcək bir sıra təhlükələrə işarədir. Çağdaş dünyamızda iki təhlükə ilə üzləşirik:

---

*1. "Üsuli-kafi", 1-ci cild, səh.31, "əql və cəhl" fəsli, hədis 30.*

1. Əql, həqiqi mənasında təhlükədədir! Hərçənd ki, hiyləgərlik və maddi mənafeni güdmək mənasını daşıyan əql təhlükədə deyildir. Əqlin təhlükədə olmasının səbəbi odur ki, nəfsi istəklər insan əqlini paslandırır və onun üzərinə pərdə salır. Mərifətin maneələrindən biri nəfsi istəklərdir. Bu yolun yolçuları nəfsi istəkləri müxtəlif şəkillərlə yayır və hətta uşaqların oyun-oyuncaqlarını elə düzəldirlər ki, onları nəfsi istəklərə tərəf yönəltsin!

2. Din də təhlükədədir. Çünki nəfsi istəklərin qulları dini öz şəxsi mənafelərinə zidd görərək, tam qüdrətləri ilə onunla mübarizə aparırlar. Müasir cəmiyyətdə dinin rolunun zəifləməsi ilə müxtəlif sahələrdə hədsiz dərəcədə əmniyyətsizliyin şahidiyik. İctimai, siyasi, əxlaqi, hərbi və iqtisadi əmniyyətsizlik onun bariz nümunələrindəndir. Din və əql dünya hökmranları tərəfindən hücumlara məruz qalsa da, müasir insanların bu iki ilahi hədiyyəyə, məxsusən, bütün zamanlarda bəşərin ehtiyaclarını təmin edən İslam dininə meyli günbəgün artır.

Demək, bir tərəfdən din və əqlin məruz qaldığı hücumlar, digər tərəfdən də dünya xalqlarının İslam dininə qarşı susuzluğu dini alimlər və Quran təfsirçilərinin məsuliyyətinin qat-qat artırır.

# 22

## ƏVVƏL ÖZÜN, SONRA BAŞQALARI

İmam Əli (ə) buyurmuşdur:

مَنْ نَصَبَ نَفْسَهُ لِلنَّاسِ اماماً فَعَلَيْهِ انْ يَبْدَأَ بِتَعْليمِ نَفْسِهِ قَبْلَ تَعْليمِ غَيْرِهِ، وَ لْيَكُنْ تَأْديبُهُ بِسيرَتِه قَبْلَ تَأْديبِه بِلِسانِه؛

***"Özünü camaata rəhbər edən şəxs onları maarifləndirməmişdən əvvəl özünü maarifləndirməli və dili ilə tərbiyələndirməmişdən əvvəl əməlləri ilə təlimləndirməlidir."[1]***

### *Şərh və təfsir*

Hidayət və rəhbərlik məqamında olanlar, istər bir ölkə kimi böyük, istərsə də, ailə ocağı kimi kiçik bir məcmuədə olsunlar, nəzarəti altında olanların onların sözlərinə qulaq asmaq və onların göstərişlərinə itaət etməyə meyilli olurlar. Psixologiya elmində cəmiyyətə nüfuz yolları ilə bağlı geniş bəhslər irəli sürülsə də, daha çox süni xarakter daşıyır. İslam təlimlərində isə bu sahədə insanın fitrət və təbiəti ilə uzlaşan mühüm göstərişlər

*1. "Biharul-ənvar", 2-ci cild, səh. 56.*

verilmişdir ki, buna uyğun hədisi misal göstərmək olar. İmam Əli (ə) hədisin birinci hissəsində buyurur: "Başqalarını öyrətməzdən qabaq özün öz müəllimin ol!" Özü xəstə olan təbib öz xəstəliyini müalicə edə bilmirsə, sözsüz ki, digər xəstələrin müalicəsində aciz qalacaq. Məşhur ərəb şairi Kumeyt ibn Zeyd ibn Xuneys necə gözəl demişdir:

و غير تقى يأمر الناس بالتقى    طبيب يداوى الناس و هو عليل

*"İnsanları təqvaya çağıran təqvasız insan xəstə insanları müalicə edən xəstə təbibə bənzəyir."*[1]

İmam Əli (ə) hədisin ikinci hissəsində buyurur: "Başqalarını (yaxşı) əmələ dəvət etməmişdən əvvəl özün ona əməl et!" Əməlsiz alimin öyüd-nəsihətləri daha çox istehzaya bənzəyir. Hədislərdə də əməlsiz alimlə bağlı maraqlı təşbehlər söylənilmişdir.[2]

*1. "Təfsiri-Qummi", 1-ci cild, səh. 46; "Əl-qədir", 2-ci cild, səh. 196.*

*2. "Mizanul-hikmət", fəsil 3628.*

## 23

### SƏBİR VƏ TƏMKİNLİ OLMAĞIN ƏHƏMİYYƏTİ

İmam Əli (ə) buyurmuşdur:

عَلَيْكُمْ بِالصَّبْرِ، فَانَّ الصَّبْرَ مِنَ الْايمانِ كَالرَّأْسِ مِنَ الْجَسَدِ وَ
لا خَيْرَ فى جَسَدٍ لا رَأْسَ مَعَهُ، وَ لا فى ايمانٍ لا صَبْرَ مَعَهُ؛

***Səbirli və təmkinli olun. Çünki*** *(səbir fəzilət və kamilliklərin hamısında mövcuddur və)* ***səbrin imana nisbəti, başın bədənə nisbəti kimidir. Başsız bədən və səbirsiz imanda xeyir yoxdur."***[1]

### *Şərh və təfsir*

Qurani-Kərim və məsum rəhbərlərin hədislərində geniş şəkildə bəyan olunan mühüm məsələlərdən biri səbirdir. Səbrin böyük əhəmiyyəti ilə əlaqədar bunu demək kifayətdir ki, bəzi ayələrə əsasən, behiştə aparan ən mühüm amildir. "Rəd" surəsinin 24-cü ayəsində buyurulur:

---

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 82.*

سَلاَمٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

***(Mələklər behişt əhlinə deyərlər:) "Səbir və dözümlülüyünüzün müqabilində salam olsun sizə! O (əbədi) dünyanın sonu nə gözəldir!"***

## *Səbrin əhəmiyyətinin sirri*

Səbrin əhəmiyyətini araşdırdıqda, bütün vacib və haram əməllərin onunla yekunlaşdığında görürük. Çünki vacib əməllərin yerinə yetirilməsi və haramların tərk edilməsi səbirsiz qeyri-mümkündür!

Səbir iki qismə bölünür:

1. Mənfi səbir;
2. Müsbət səbir.

Mənfi səbir budur ki, insan zülm, xəstəlik, yoxsulluq və s. kimi hər bir hadisə müqabilində təslim olaraq, əsla müqavimət göstərməsin. Bu növ səbir bəşəri dinlərin düşmənlərinin sözləri ilə tam uzlaşır: "Dinlər, zülmkarların fikrilərindən baş qaldırmış və onları öz zülm və haqsızlıqlarını davam etdirmək üçün qondarmışlar!"

Başın bədənə nisbəti kimi hesab edilən müsbət səbir isə insana adi vəziyyətdən on dəfə artıq bir qüvvə bağışlayır. Qurani-Kərimdə bu barədə buyurulur:

يَا أَيُّهَا النَّبِيُّ حَرِّضِ الْمُؤْمِنِينَ عَلَى الْقِتَالِ إِن يَكُن مِّنكُمْ عِشْرُونَ صَابِرُونَ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُم مِّئَةٌ يَغْلِبُواْ أَلْفًا مِّنَ الَّذِينَ كَفَرُواْ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَفْقَهُونَ

***"Ey Peyğəmbər, möminləri cihada həvəsləndir! Əgər sizdən iyirmi nəfər səbirli olsa, onlar iki yüz nəfərə qalib gələrlər. Əgər sizdən yüz nəfər olsa, onlar kafirlərin min nəfərinə qalib gələrlər. Çünki onlar anlamaz bir qövmdürlər (şücaət və bu kimi ruhu sifətlərin qüvvətlənməsinə səbəb olan tövhidi dərindən dərk***

***etmirlər).”*** [1]

Allaha itaət və günahlardan uzaqlaşmaqda səbirli olmaq müsbət səbrin nümunələrindəndir. Səbir əxlaqi bir səciyyə kimi, böyük faydalarla nəticələnir. Deməq, din və dünyanı səbirsiz əldə etmək olmaz.[2]

---

*1. “Ənfal” surəsi, ayə: 65.*

*2. “”Səbrin mahiyyəti və zərurəti”, “Qurani-Kərimdə səbir və səbir edənlərin məqamı”, “səbrin bəlası” və səbirlə bağlı digər mövzular doktor Yusif Qərzavinin “Qurani-Kərimdə səbir edənlərin siması” kitabında geniş şəkildə araşdırılmışdı. Maraqlananlar həmin kitaba müraciət eə bilərlər.*

# 24

## İMAN VƏ ƏMƏL – İKİ ƏBƏDİ DOST

İmam Əli (ə) buyurmuşdur:

الْايمانُ وَ الْعَمَلُ اخَوانِ تَوْأمانِ وَ رَفيقانِ لايَفْتَرِقانِ؛

***“İman və əməl əkiz qardaş və bir-birindən ayrılmayan iki dostdur.”[1]***

### *Şərh və təfsir*

İslam rəvayətlərində imanla əməlin əlaqəsi ilə bağlı geniş şəkildə söz açılmışdır. Bildiyimiz kimi, İslam göstərişləri, adətən, “üsuli-din” və “fürui-din” adlı iki qismə bölünür; yəni din kök və budaqları olan bir ağaca bənzəyir. “Üsuli-din” (dinin əsasları) suyu və qida məhsullarını yerdən alıb budaqlara çatdıran ağacın kökləridir. Əgər kök quruyarsa, sözsüz ki, budaqlar da quruyacaqdır. “Fürui-din” (dinin təfərrüatı) isə həmin budaqlardan ibarətdir. Aydındır ki, budaqsız ağac da, ağac deyil və davam gətirə bilməz. Din adlı ağacın

*1. “Qürərül-hikəm”, 2-ci cild, səh. 136, hədis 2094. Peyğəmbəri-Əkrəmdən (s) də buna oxşar hədislər nəql olunmuşdur. Bax: “Mizanul-hikmət”, 1-ci cild, səh. 306, fəsil 262, hədis 1289.*

meyvəsi və səmərəsi mənəvi məqamlar, əxlaq və Allaha yaxınlıqdır. İnsanlıq səciyyələri bu ağacın meyvələridir. Bu üç hissədən ibarət ağac faydalı, onsuz isə təsirsizdir.

Bəlkə də, Qurani-Kərimdə qeyd olunan gözəl bir misal şəklində "üsuli-din" və "fürui-din" məsələsi elə həmin ağacdan alınmışdır.

Əgər düşmənlər keçmişdə bu ağacın budaqlarını qırmaq istəyirdisə, çağdaş dünyamızda bu səmərəli ağacın kökünü nişan almışlar. Qəribədir ki, tam qüdrəti və təchizatı ilə dinlə mübarizə aparır və onların bu mübarizədə ən təhlükəli silahı elə dinin özündən istifadədir! Onlar dinə verdikləri yanlış təfsirlərlə dinin kökünü qırmaq istəyirlər. Belə bir şəraitdə bütün müsəlmanlar ayıq olmalı və heç bir qınaqçının qınağından qorxmamalıdır.

Qeyd etdiyimiz hədisdən aydın olur ki, iman və əməl də, insanın həmişə ehtiyac duyduğu bu ağaca bənzəyir ki, bir-birindən ayrıldıqda, səmərəsiz olacaqlar. Hədisdə işlənən "təvəman" sözü xüsusi məna daşıyır; yəni iman və əməl heç zaman bir-birindən ayrılmaz. DeməK, əməlsiz, mömin adını daşımaq olmaz. Əməlsiz iman şəkk-şübhəyə layiqdir! Bəlkə də, elə bu səbəbdən, Qurani-Kərimdə, adətən, imandan söz düşdükdə, onun ardınca saleh əməldən də söz açılır.

İman və əməlin əlaqəsini bilməyən bir şəxs imam Sadiqin (s) hüzuruna gəlib soruşur: "İman əqidə ilə əməldən ibarətdir, yoxsa, təkcə əqidədən?" İmam (ə) buyurdu: *"İman (əməlin bir budağı yox,) tamamilə əməlin özüdür."*[1]

*1. "Səfinətül-bihar", 1-ci cild, səh. 152.*

# 25

## KİMLƏRLƏ MƏSLƏHƏTLƏŞƏK?

İmam Əli (ə) buyurmuşdur:

لا تُدْخِلَنَّ فِي مَشْوَرَتِكَ بَخِيلًا يَعْدِلُ بِكَ عَنِ الْفَضْلِ وَ يَعِدُكَ الْفَقْرَ وَ لا جَبَانًا يُضْعِفُكَ عَنِ الْأُمُورِ وَ لا حَرِيصًا يُزَيِّنُ لَكَ الشَّرَهَ بِالْجَوْرِ

***"Öz** (işlərin barəsindəki) **məsləhətləşmələrinə xəsis (paxıl) adamı daxil etmə ki, o, səni yaxşılıqdan və bəxşiş verməkdən (Allahın bəndələrinə xidmətdən) saxlayar və yoxsulluqla qorxudar. Qorxağı da daxil etmə ki, o səni işlərdə** (onlara girişməkdə) **süstləşdirər. Həris adamla da məsləhətləşmə ki, o, hərisliklə zülmkarlığı sənin nəzərində gözəlləşdirər!"*[1]**

### *Şərh və təfsir*

Məsləhət İslamın mühüm göstərişlərindən biri kimi, Qurani-Kərim və rəvayətlərdə özünə geniş yer

1. *"Nəhcül-bəlağə", məktub 53.*

ayırmışdır. Lazımi şərtlərə sahib olan şəxslərlə məsləhət və məşvərət insana düzgün və qurucu proqramların inkişafında böyük kömək göstərir və səmərəli nəticələr ərməğan gətirir.

Dəyərli şəxslərlə məsləhətləşmək səmərəli nəticələr verdiyi kimi, aşkar zəif nöqtələri olan şəxslərlə məsləhətləşmək isə əks nəticələrlə sonuclanır. Elə bu səbəbdən də, imam Əli (ə) mühüm ictimai işlərdə üç dəstə ilə məsləhətləşməməyi təkidlə tövsiyə edir; paxıllar, qorxaqlar və hərislərlə. Çünki birinci dəstə insanı Allahın bəndələrinə xidmətdən, yaxşılıq və bəxşişdən saxlayır. İkinci dəstə mühüm işlərdə onun iradəsini süstləşdirir. Üçüncü dəstə isə insanı başqaların hüquqlarına təcavüz etməyə daha da həris edir.[1]

*1. Bu haqda əlavə məlumat əldə etmək istəyənlər "Təfsiri-nümunə" kitabına ("Və şavirhum fil-əmr" (İşlərdə bir-birinizlə məsləhətləşin!) – ayəsinin təfsirinə) müraciət edə bilərlər.*

# 26

## BİDƏT NƏDİR VƏ BİDƏT ƏHLİ KİMDİR?

İmam Əli (ə) buyurmuşdur:

امَّا اهْلُ الْبِدْعَةِ فَالْمُخالِفُونَ لِامْرِ اللَّهِ، وَ لِكِتابِه، وَ رَسُوله، الْعامِلُونَ بِرَأْيِهِمْ وَ اهْوائِهِمْ وَ انْ كَثُرُوا؛

***"Allahın göstərişləri, Qurani-Kərim və Allahın Rəsulu ilə müxalifət edən və öz nəzər və istəklərinə əməl edənlər bidət əhlidir, hətta onların sayı çox olsa belə!"[1]***

### *Şərh və təfsir*

Bidət iki qismə bölünür:

1. Elmi, texnoloji, ictimai və s. məsələlərdə yenilik; əqlin köməyi ilə irəli sürülən yeni bir məsələ müsbət iş sayılır və adətən, buna "ibda" (ixtira və kəşf) deyilir. Aydındır ki, bəşərin elmi-texnoloji tərəqqisi bu yenilik sayəsindədir.

2. Allahın hökmlərini təhrif etmək və yaxud ona bir şey artırmaq; bu mənanı daşıyan bidət mənfi bidət adlanır.

---

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 381, fəsil 329, hədis 1632.*

Təəssüf ki, bəzən, müsbət bidət adı ilə mənfi bidəti icra etmək üçün onların yerlərini dəyişirlər. Misal üçün, bəziləri yenilik adı ilə belə deyirlər: "Dəstəmaz, gigiyenaya riayət olunmadığı zaman lazımdır və o zaman insanlar özlərini lazımınca yuyub-təmizləyə bilmədiklərindən İslam dəstəmazı (təmizliyə riayət etmək məqsədilə) vacib etmişdir. İndi isə insanlar öz təmizliklərinə lazımınca diqqət yetirdikləri üçün, artıq dəstəmaza ehtiyac qalmır!" Odur ki, ayıq olmaq lazımdır ki, bidət əhli mənfi bidətə müsbət bidət donu geyindirməsin.

İmam Əli (ə) mənfi bidəti təfsir edərək buyurur: "Bidət əhli Allahın əmrləri, Quran ayələri və Allahın Rəsulu ilə müxalifdir." İmam Hüseynin (ə) mübarizə apardığı bidət xəlifələr əsrində, məxsusən, üçüncü xəlifənin dövründə yaranmışdı. O, "beytül-mal"ı (ümumi əmlak) öz qohum-əqrəbası arasında bölüşdürür və mühüm dövlət vəzifələrini elmli, təqvalı, və səlahiyyətli şəxslərə həvalə etmək əvəzində, öz qohum-əqrəbasına tapşırdı. İmam Hüseyn (ə) belə bidətlərlə mübarizə aparmaq üçün qiyam etdi. Bunlardan əlavə, Müaviyə daha böyük bir bidətə əl atdı, İslam hökumətini soltanlıqla əvəz etdi, şahlıq adət-ənələrini dirçəltdi və şərabxor oğlu Yezidi öz canişini seçdi! Onlar Allahın əmrləri, Quran ayələri və İslam Peyğəmbərinə (ə) müxalif idilər. Allahın əmrləri, kitab və sünnəyə zidd olanlar yenilik, yeni qiraət və yeni təfsir adlansa da, bidətdir!

### *Bidətin səbəbləri*

Bidətin səbəbləri nəfsi istəklərə əsaslanır. Nəfsi istəklərə uyanlar dini öz nəfsi istəklərinə mane görürlər. Amma dinlə birbaşa mübarizə apara bilmədiklərindən,

nəfsi istəklərini din və yeni qiraət adı ilə təqdim edir, şəxsi nəzər və təfsirləri ilə müxtəlif bidətlərin əsasını təşkil edirlər.

Əgər bidətlə mübarizə aparılmasa və alimlər onun müqabilində insanlara həqiqəti aşılamasalar, din və məzhəbdən əsər-əlamət qalmayacaq. Çünki hər bir əsrdə bir neçə bidət gətirilərsə, bir neçə müddətdən sonra dinin surəti tamamilə dəyişiləcək və din yeni bir fenomen kimi cilvələnəcək. Bəlkə də, imam Zamanın (ə) yeni din gətirəcəyi ilə bağlı nəql olunan və bəzi rəvayətlər elə bu mətləbə işarədir. Yəni o zaman İslam o qədər bidətlərə məruz qalacaq ki, o həzrət zühur edib, həmin bidətləri aradan qaldırdıqda, zühur əsrinin insanlarının nəzərində yeni din kimi cilvələnəcəkdir![1]

### *Bidətin əsasları*

Bidət imanın zəifliyindən irəli sürülür. Əgər Allahı mütləq alim bilsək və özümüzü Onun müqabilində, hətta dəryada bir damla su belə hesab etməsək, İslamı Allah tərəfindən göndəriləné sonuncu din olduğunu qəbul etsək və İslam Peyğəmbərini (s) məsum bilsək, heç vaxt ilahi hökmləri dəyişdirməyi özümüzə icazə vermərik.

Biz də kitab və sünnəni şəxsi əqidələr və nəzərlərimizin rənginə salmamalı və onların önündə hərəkət etməməliyik. Əksinə onları özümüzə rəhbər və örnək bilməli, onların sayəsində addımlamalı və öz etiqadlarımızı onların rənginə salmalıyıq. Bidət əhli özü kimi bir bəşər olan təbibin göstərişlərinə əməl etdiyi halda, nə üçün Allahın əmr və göstərişlərindən boyun qaçırmalıdır?!

1. *"Həzrət Məhdinin (ə) cahanşümul inqilabı", səh. 320.*

# 27

## ƏN MÖHKƏM ƏLAQƏ VƏ ƏN ŞƏRƏFLİ FƏXR

İmam Əli (ə) buyurmuşdur:

الْمَوَدَّةُ اشْبَكُ الْانْسابِ وَ الْعِلْمُ اشْرَفُ الْاحْسابِ؛

***"Məhəbbət ən möhkəm qohumluq əlaqəsi, elm isə ən şərəfli fəxrdir."*[1]**

### *Şərh və təfsir*

Ərəblər şəxsiyyəti nəsil-nəcabətlə ölçürlər. Hədisdə qeyd olunan "nəsəb" sözündə "hansı tayfadan və kimin övladı olmaq" nəzərdə tutulur. "Həsəb" sözü isə "iftixarlar" mənasını daşıyır. Görürsən ki, bəzən, insan öz ata-babalarının, bəzən də öz iftixarlarından danışır. Məsələn, səxavətli insan üçün, ata-babaları səxavətli olmasa da, səxavət şərəf və iftixar sayılır.

İmam Əli (ə) bu hədisdə nəsil-nəcabət və fəxri aydın təsvirlə belə bəyan edir: *"Ən möhkəm qohumluq əlaqəsi məhəbbətdir."* Bir nəfərdən: "Qardaş istəyirsən, yoxsa yaxşı dost?" – deyə soruşduqda, belə cavab verdi:

*1. "Biharul-ənvar", 1-ci cild, səh. 183 və 74-cü cild, səh. 419.*

"Mənim üçün yaxşı dost olan bir qardaş istəyirəm." Bəli, yuxarıdakı hədisdə bu mətləbə işarə edilir.

Məhəbbət, doğrudan da, xariqələr yaradır. Məhəbbət ən qəddar düşməni ram edə bilər və bu, dünya və axirət səadəti üçün ən mühüm vasitə, İslam dininin bütün insanlara təbliğ və təqdim edilməsində ən mühüm nemətdir.

İmam Əli (ə) hədisin davamında buyurur: "Elm ən böyük şərəf və fəxrdir." Bu rəvayətdə "elm" sözü mütləq şəkildə qeyd olduğundan, haram və kərahətli elmlər istisna olmaqla, bütün elmlərə aiddir. Bir sözlə, iki şey müvəffəqiyyət amili sayılır: "elm" və "məhəbbət".

# 28

## ƏN BÖYÜK CİHAD

İmam Əli (ə) buyurmuşdur:

لا فَضيلَةَ كَالْجِهادِ، وَ لا جِهادَ كَمُجاهَدَةِ الْهَوى؛

***"Cihad kimi fəzilət və nəfslə mübarizə kimi cihad yoxdur."***[1]

### *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisdə cihadı bütün fəzilətlərin sərlövhəsi adlandırır. Çünki cihad digər ibadətlərlə müqayisədə olduqca çətindir. Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan bu hədislə tamamilə uzlaşır: *"Əməllərin ən fəzilətlisi onların ən çətindir."*[2] Bəli, heç bir əməl Allah yolunda cihad qədər fəzilətli deyil. Cihadın müxtəlif budaqları arasından ən çətini isə nəfslə mübarizədir. Odur ki, Peyğəmbəri-Əkrəm (s) onu "böyük cihad" adlandırmışdır.[3]

Sual: "İnsanın özü ilə mübarizə aparması

*1. "Biharul-ənvar", 75-ci cild, səh. 165.*

*2. "Biharul-ənvar", 67-ci cild, səh. 191 və 237, 82-ci cild, səh. 332.*

*3. "Biharul-ənvar", 19-cu cild, səh. 182.*

mümkündürmü? Adətən, mübarizə ikitərəflidir; bir tərəfdə insanı özü, digər tərəfdə isə yad adam durur. Belə olduqda, insanın özü ilə mübarizəsinin mənası nədir?

Cavab: İnsan varlığı müxtəlif yönlərdən ibarətdir; başqa sözlə, insan biryönlü varlıq deyil, əksinə müxtəlif yönlərə malikdir. Elə bu səbəbdən də onun varlığının bəzi yönləri zidd olduğu bəzi yönləri ilə mübarizəyə qalxır; insanlıq yönü (əql və iman) heyvani yönü (qəzəb və ehtiras) ilə daim mübarizədədir.

Bəli, nəfsin istəkləri heç vaxt yatmayan batini düşməndir, qəlb evində yuva quraraq heç vaxt insandan uzaqlaşmır və həmişə onu vəsvəsə edərək çirkinliklərə çağırır. Yalnız Allahın adı və yadı, eləcə də, nəfsi daimi nəzarətdə saxlamaqla bu təhlükəli və qəddar düşmənə qalib gəlmək olar. Çünki ***“qəlblər Allahı yad etməklə rahatlıq tapır!”***[1]

---

*1. “Rəd” surəsi, ayə 28.*

# 29

## ƏN BÖYÜK GÜNAH

İmam Əli (ə) buyurmuşdur:

جَهْلُ الْمَرْءِ بِعُيُوبِه مِنْ اكْبَرِ ذُنُوبِه؛

***"İnsanın ən böyük günah öz eyiblərindən xəbərsizliyidir."*[1]**

### *Şərh və təfsir*

Adətən, günahlar nəfsin istəklərindən baş qaldırır. Misal üçün, qeybət qıran şəxs paxıllıq xüsusiyyətinə sahib olduğundan, bəyənmədiyi müqabil tərəfin onun abır-heysiyyətini aparmağa, nöqsanlarını faş etməklə həsəd və paxıllıq alovunu söndürməyə və özünü rahatlaşdırmağa çalışır; yaxud haram mal yeməkdən çəkinməyən şəxs həris və dünyapərəst olduğu və uzun-uzadı arzulara qapıldığından, dünyaya bağlanır; yaxud başqalarını təhqir edən şəxs təkəbbürlü və xudbin olduğundan, bu böyük günaha asanlıqla əl atır. Əgər insan günahlarla tanışlığı olsa və onların nəfsani qaynaqlarını islah etsə, vücudundan günahın səbəbləri

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 419.*

paklanacaq. Günahın səbəblərinə diqqətsizlik isə, heç bir nəticə verməyəcəkdir. Elə buradan aydın olur ki, nə üçün nəfsani qaynaqlardan xəbərsizlik ən böyük günah sayılır?

**Sual:** Nə üçün insan öz eyiblərini görmür? Necə olur ki, xar adam başqasının ayağı altında əzildiyini bildiyi halda, gözünə girən çöpdən xəbərsizdir?

**Cavab:** İnsan özünün aşiqidir. Özünüsevmə hissi həddini aşdığı zaman, insan özündə əsla bir eyib görə bilmir, əksinə öz eyiblərini yaxşı xislətləri güman edir! Eynilə iqtisadi fəaliyyətə hövsələsi olmayan tənbəl bir şəxsin özünü zahid və yaxud söyüşcül bir şəxsin özünü şücaətli güman etdiyi kimi!

**Sual:** Bununla mübarizə aparmaq üçün nə etməli?

**Cavab:** Tənqid və qınağı qəbul etməyi bacaran və nəticədə, öz eyiblərindən agah olanların xoş halına! Amma bu mərhələyə çatmayanlar heç olmazsa, iki əməli yerinə yetirsinlər:

1. Özlərinə ayna kimi eyiblərini və çatışmazlıqlarını göstərən yaxşı dost seçsinlər və *"Mənim qardaşlarımın ən sevimlisi eyiblərimi mənə hədiyyə edəndir."*[1] – hədisinin özünə örnək bilsin.

2. Başqaları üçün eyib bildiklərindən çəkinməyə çalışsın. Misal üçün, təcili yardıma ehtiyac duyan qonşuya kömək etməyən şəxsi qınayırsa, ehtiyatlı olmalıdır ki, qonşusu ondan yardım istədikdə, öz yardımını ondan əsirgəməsin.

İlahi, bizi ifrat dərəcədə özünüsevmə hissi ilə mübarizədə müvəffəq et!

---

*1. "Biharul-ənvar", 71-ci cild, səh. 282.*

# 30

## ƏN PİS DOST

İmam Əli (ə) buyurmuşdur:

شَرُّ إِخْوَانِكَ مَنْ دَاهَنَكَ فِي نَفْسِكَ وَ سَاتَرَكَ عَيْبَكَ

***“Dostlarının ən pisi sənə yaltaqlanan və eyiblərini gizlədən şəxsdir.”[1]***

### *Şərh və təfsir*

Həqiqətlə üzləşən insanlar iki qrupa bölünürlər:

1. Bir qrup həqiqətə təslim olur, onu acı olsa da, qəbul edir və ondan ibrət alaraq özünü islah etməyə başlayır.

2. Təəssüf ki, sayı çox olan digər bir qrup isə, həqiqət inkar edir və ondan qaçır. Halbuki həqiqətdən qaçmaq və onu gizlətmək nə bir çətinliyi həll edir, nə də bir kəsə xidmət sayılır. Elə bu səbəbdən, doğru və qurucu tənqidlər əvəzində, öz dostunun xətrini pozmamaq üçün eyib və nöqsanlarını gizlədən dost, dostluq aləmində nəinki ona xidmət göstərməmiş, həm də böyük bir xəyanətə əl atmışdır! Elə bir xəyanət ki, bəzən, dostunun abır-heysiyyətini aparmaqla tamamlanır. Bu səbəbdən,

*1. “Qürərül-hikəm”, 4-cü cild, səh. 173, hədis 5725.*

İslam belə dostlardan uzaqlaşmağa tövsiyə etdiyi kimi, mömin insanların ayna kimi olmasına və dostlarının hidayət və islah olunması üçün bütün həqiqətləri olduğu kimi bəyan etməyə göstəriş verir.[1]

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 414.*

# 31

## BİZDƏN OLMAĞIN YOLU

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! لا تَأْخُذْ الّا عَنّا، تَكُنْ مِنّا؛

***“Ey Kumeyl, bizdən olmaq istəyirsənsə, dini maarifi bizdən öyrən!”***[1]

### *Şərh və təfsir*

Bəziləri “vilayət” və “imamət” məsələsinə ötəri yanaşır, məsum imamlara aşiqanə matəm saxlayıb sinə vuran və ağlayan, onlara təvəssülü tərk etməyənləri “vilayət əhli” adlandırırlar; yəni vilayət əhli adını daşımaqda məsum imamlara məhəbbət və əzadarlığı kifayət bilir və hətta bəziləri vilayətin günah və xilafkarlıqla cəm olduğunu belə, təsəvvür edirlər!

Əlbəttə, “vilayət”in müxtəlif mərhələləri var ki, yalnız bir mərhələsi onların xatirəsinə təşkil olunan əzadarlıq mərasimlərində iştirak etməkdir. Şübhəsiz, bu, kifayət deyil və həqiqi vilayət odur ki, həyatın bütün proqramlarını o həzrətlərin göstərişləri əsasında

*1. “Biharul-ənvar”, 74-cü cild, səh. 412.*

tənzimləmək və həqiqi İslam maarifini onlardan öyrənməkdir. Salman Farsi qədəmini Əhli-beyt imamlarının (ə) qədəmlərinin yerinə qoyduğu və onların göstərişlərindən çıxmadığı üçün, "Əhli-beyt" üzvlərindən sayılmışdır.[1]

Düzgün və həqiqi vilayət təfəkkür tərzinin müqabil nöqtəsi isə aşağıdakı mətləblərdən ibarətdir:

1. İnsan öz xəyal və gümanlarına qapılıb, onun aldadıcı zahirini bəzəsin.

2. Yalnız öz əqlinə əsaslanmasın, əksinə Quran və sünnədən də yapışsın, amma onların şagirdi olmasın, onların göstərişləri ilə addımlamasın və özünü onların ustadı bilsin! Yəni bir məsələdə qərar çıxardıqdan sonra, Quran ayələri və məsumların rəvayətlərini onunla tətbiq etdirsin. Öz şəxsi nəzərlərini Allahın dininə yükləsin, Quran ayələrini yanlış mənada təfsir etsin. Bir sözlə, "şəxsi nəzərə əsaslanan təfsir" və "yeni qiraət"ə əl atsın.

3. Öz əqlinə əsaslandığı halda, Quran və sünnənin şagirdi olsa da, bidət və təhriflərə əl ataraq, bəzi məsələləri dindən xaric, bəzilərini isə dinə daxil etsin, dinlə qeyri-dini Allahın dini və ayini adı ilə bir-birinə qarışdırsın.

İlahi, bizi bu təhlükəli yollardan uzaqlaşdır ki, İslam maarifini Peyğəmbəri-Əkrəm (s) və onun Əhli-beytindən (ə) əxz etməklə vilayətin həqiqət və mahiyyətini dərk edək!

---

*1. Peyğəmbəri-Əkrəm (s) "Salman biz Əhli-beytdəndir!" – hədisini dəfələrlə buyurmuş və mərhum Əllamə Məclisi onu "Biharul-ənvar" kitabının müxtəlif cildlərində nəql etmişdir ki, yalnız 22-ci cildində br neçə dəfə (326, 330, 348, 374 və 385-ci səhifələrində) təkrar etmişdir.*

# 32

## ƏN YAXŞI ƏMƏL

İmam Əli (ə):

عَلَّمَ اصْحابَهُ فى مَجْلِسٍ واحِدٍ ارْبَعَمأَةِ بابٍ مِمَّا يَصْلَحُ لِلْمُؤْمِنِ فى دينِه وَ دُنْياهُ، ... قالَ: انْتَظِرُوا الْفَرَجَ وَ لا تَيْأَسُوا مِنْ رَوْحِ اللَّهِ، فَانَّ احَبَّ الْاعْمالِ الى اللَّهِ عَزَّ وَ جَلَّ انْتِظارُ الْفَرَجِ؛

***İmam Əli (ə) bir məclisdə öz səhabələrinə, onların dini və dünyasına faydalı olan dörd yüz məsələni təlim verdi. (Həmin məslələrdən biri də budur ki,) Həzrət buyurdu: "Fərəcin (zühurun) intizarında olun və Allahın rəhmətindən ümidinizi üzməyin. Çünki Onun dərgahında ən sevimli əməl "fərəc"in (zühurun) intizarını çəkməkdir."[1]***

---

1. *"Biharul-ənvar", 10-cU cild, səh. 94.*

## *Şərh və təfsir*

Hədisdə qeyd olunan "fərəc" sözündə məqsəd nədir?

Burada iki ehtimal mövcuddur:

1. "Fərəc" sözündə göstərilən "əlif, lam" artikli cins mənasını daşıyır; yəni çətinliklərdə həmişə qurtuluş yoluna ümidvar olun və heç vaxt Allahın rəhmətindən ümidsiz olmayın. Çünki Allahın rəhməti sonsuzdur. Bəla və çətinliklər dünyanın ayrılmaz hissəsidir. Ümmətlər həmişə müxtəlif bəla və müsibətlərə məruz qalır və bəzən də, zülmkar hakimlər insanlara olmazın əzab-əziyyətlərini rəva görür və iman dəstəsi zəifləyirdilər. Möminlər isə, hətta ən çətin vəziyyətlərdə belə, Allahın rəhmətindən naümid olmurdular. Misal üçün, "Əhzab" döyüşündə müsəlmanlar o qədər çətinlik çəkdilər ki, Quranın ifadəsi ilə desək, ***"gözlər (qorxunun şiddətindən bayılmış adamların gözləri kimi) əyilmiş və ürəklər ağıza gəlmişdi."***[1] Necə deyərlər, bıçaq sümüyə çatmışdı. Bununla belə, müsəlmanlar çətinliklərin aradan qalxmasına ümid bəsləyir və qurtuluş intizarında idilər. Nəhayət, ümid və intizarı nəticə verdi və Allah-Taala külək vasitəsilə kafirləri həlakətə uğratdı.

Demək, cəmiyyət çətinliklər zamanı özünü itirməməli və Haqqın rəhmətindən naümid olmamalıdır. Axı Onun rəhməti hamıya, hətta Onu çağırmayan və tanımayana[2] şamil olduğu halda, necə ola bilər ki, bizə şamil olmasın?!

2. "Fərəc" sözü geniş məna daşıyır və bütün şiələr və müsəlmanların intizarında olduqları bir xilaskarın zühuru ilə bağlı bir sözdür. Başqa sözlə, bu hədisdə imam

---

*1. "Əhzab" surəsi, ayə 10.*

*2. Bu mətləb vacib və müstəhəb namazlardan sonra oxunan "Rəcəb" ayının məşhur duasında qeyd edilmişdir.*

Məhdinin (ə) zühuru və qiyamının intizarında olmaq bizə tövsiyə olunur. İkinci ehtimala əsasən, hədisdə qeyd olunan "ən sevimli əməl" ifadəsindən zühurun intizarının namaz, oruc, həcc, cihad, yaxşılığa dəvət və pislikdən çəkindirmək və bir sözlə, bütün əməllərdən yaxşı və üstün olduğu başa düşülür.[1]

**Sual:** Zühurun intizarı batini bir halət olduğundan, hamı intizar çəkənlər sırasında olmaq üçün dua edə bilər. Elə də çətin görünməyən bu batini halətin ən fəzilətli və sevimli əməl olması, hətta insanın canını təhlükəyə salan və hədsiz çətinliklərlə yanaşı olan cihaddan belə üstün olması necədir? Doğrudan da, zühurun intizarında olan şəxs Allah yolunda canını qurban verən şəxs kimidir?

**Cavab:** İntizar iki qismə bölünür:

1. Hazırlıqdan uzaq və yalnız dilin hərəkətindən ibarət olan yalan intizar.

2. Fərdi və ictimai hazırlıqla qarışan həqiqi intizar. Bu intizarın müxtəlif dərəcələri var. Eynilə hərbi qüvvələr kimi, hazırlıq səsini eşitdikdə, bəzən 50%, bəzən 70%, bəzən də 100% hazır vəziyyətdə olurlar.

İntizarda olanların bəziləri yarımçıq, bəziləri nisbətən tam, bəziləri də tam hazır vəziyyətdədirlər. Görəsən, onların hansı biri "ən sevimli əməl"ə şamil olurlar?

Şübhəsiz, intizar iddiasında olanlar yox, tam hazırlığı olanlar bu böyük məqama nail olurlar. Məgər mümkündürmü ki, əziz bir qonağın intizarında olduğumuz halda, qonaqpərvərliyin ilkin vəsaitini hazırlamamış olaq? Əgər belə bir şəxs intizar iddiası

*1. Bu məzmun başqa rəvayətlərdə də gözə çarpır. Bəzi rəvayətlərdə zühurun intizarı "ümmətin ən fəzilətli əməli", bəzi rəvayətlərdə "ibadətlərin ən fəzilətlisi", bəzi rəvayətlərdə də "mömin şəxsin ən fəzilətli ibadəti" kimi tanıtdırılır. (Bax: "Mizanul-hikmət", fəsil 240.)*

etdiyi halda, heç bir hazırlığı yoxdursa, camaat onun əqlində şəkk edəcək!

Digər tərəfdən də, intizarın müxtəlif növləri var; bir qonağın intizarında olan şəxslə yüz qonağın intizarında olan şəxs və yaxud adi bir şəxsin intizarı ilə yer üzünün ən fəzilətli insanı olan imamın – dünyada ədaləti bərqərar edən böyük xilaskarın intizarı fərqlidir. Əgər zühurun intizarı ilə bağlı müxtəlif növləri araşdırsaq, onun bəşər tarixində ən böyük və əzəmətli olduğunu etiraf edəcəyik!

Burada ən mühüm məsələ isə budur: "Bizim əməllərimiz və rəftarlarımız bu intizardan xəbər verirmi?" Biz imam Zamanın (ə) cahanşümul hökumətində öz mövqeyimizi elə indidən ayırd etməliyik! Görəsən, ön cəbhədə iştirak edən kəslərdən olacağıqmı? Yəni onların cərgəsinə qoşulmaq üçün şücaət, igidlik, agahlıq, pərhizkarlıq, iman və müqavimət səciyyələrinə kifayət qədər sahib olmuşuqmu? Yaxud arxa cəbhədə həqiqi mübarizlərə kömək edənlərdən olacağıq? Yaxud da, nə ön cəbhədə, nə də arxa cəbhədə iştirak edənlərin cərgəsində deyil, əksinə, fürsət qulları kimi, yalnız öz dünyamız və rifahımız haqqında düşünəcək, bəlkə də, o həzrətlə üz-üzə dayanan müxalif qüvvədə olacağıq?!

Qəribədir ki, zühurun intizarında olanlar müxalif qüvvələrin sırasına qoşulsun və İmamın (ə) qılıncı ilə ölümü qarşılasın! Beləleri həqiqətdə "Fərəc" duasını oxumaqla öz ölümlərinin tezləşməsini istəyirlər!

Beləliklə, həqiqi intizar bir məktəb qurub yarada bilər!

# 33

## ƏN YAXŞI DOST

İmam Əli (ə) buyurmuşdur:

«حُسْنُ الْخُلْقِ خَيْرُ رَفيقٍ» و قالَ ايْضاً: «رُبَّ عَزيزٍ اذَلَّهُ خُلْقُهُ وَ ذَليلٍ اعَزَّهُ خُلْقُهُ»؛

***"Ən yaxşı dost yaxşı əxlaqdır." Yenə buyurmuşdur: "Nə çox pis əxlaq var ki, izzətli insanı zəlil və nə çox yaxşı əxlaq var ki, zəlil insanın izzətli edir."***[1]

### *Şərh və təfsir*

İnsan ictimai varlıq olduğundan, tək yaşa bilməz. Əks-təqdirdə, irticaya uğrayacaq və hər bir şeydən geri qalacaq. Aydındır ki, ictimai həyatda dosta ehtiyac duyulur ki, çətinliklərdə, xoş və acı hadisələrdə, eniş-yoxuşlarda insanın yardımçısı oldun. Dostsuz həyat olduqca çətindir və insan ruhunu sarsıdır. Elə buna görə də, zindanda yatanların ən ağır işgəncələrindən biri də, fərdi zindana məhkum edilməsidir.

Verilən hədisə əsasən, insanın ən yaxşı dostu yaxşı

---

*1. "Səfinətül-bihar", 2-ci cild, səh. 678.*

əxlaqıdır! Çünki yaxşı əxlaq başqalarının diqqətini cəlb edir və nəticədə, xoşəxlaq insanın dostu çoxalır və bütün cəmiyyət onun dostuna çevrilir. Bəzən, mal, məqam, ictimai şəxsiyyət, ali təhsil, əsil və dini ailə və möhkəm etiqadlar kimi üstün xüsusiyyətlərə sahib olan bir insanın əxlaqı pi və dözülməz olur. Belə bir insanı zillətə uğradır. Buna əks olaraq, xoşəxlaq adam, şübhəsiz, bütün insanların yanında möhtərəmdir və hamı ona izzət gözü ilə baxır.

Sözügedən hədisdə də həmin mühüm mətləbə işarə edilir. Ona əsasən, yaxşı əxlaq insanın bütün pislikləri və zəif cəhətlərinin üstünü örtdüyü kimi, pis əxlaq və rəftar da bütün yaxşılıqları və müsbət cəhətlərinə kölgə salır və onların üstünü örtür.

Quran ayələrində də "əxlaq" məsələsinə xüsusi əhəmiyyət verilməsinin səbəbi onun cəmiyyətin idarəsi və rəhbərliyində böyük təsirə malik olması ilə əlaqədardır. Məxsusən, elm əhli ona daha çox diqqət yetirməli, pis rəftarları mülayim söz və rəftarlarla cavablandırmalıdır ki, sərtliklə ittihamlandırılmasınlar.

# 34

**ƏN YAXŞI AZUQƏ**

İmam Əli (ə) buyurmuşdur:

لا خَيْرَ فى شَىْءٍ مِنْ ازْوادِها الَّا التَّقْوى؛

***"Təqva və pərhizkarlıqdan başqa onun azuqələrinin heç birində xeyir yoxdur."[1]***

## *Şərh və təfsir*

İmam Əli (ə) "Siffeyn" döyüşündən qayıdarkən Kufə darvazasına çatdıqda, müsəlman qəbiristanlığının kənarında dayanıb buyurdu:

*"Ey qorxulu diyarların, kimsəsiz və otsuz-susuz yerlərin və qaranlıq qəbirlərin sakinləri! Ey torpaq sakinləri, ey vətəndən uzaq qalanlar, ey kimsəsizlər, ey qorxulular! Siz bizim irəli getmiş qabaqcıllarımızsınız və biz sizin arxanızca gələnlərik və sizə çatacağıq. Evlərə (evlərinizə) gəldikdə, (bilin ki,) onlarda sakin oldular, arvadları (arvadlarınızı) aldılar, var-dövlətləri (sizin sərvətlərinizi) bölüşdürdülər. Bu bizim yanımızda olan xəbərlərdir. Bəs sizin yanınızda olanlardan nə xəbər?"*

Sonra səhabələrinə xitabən buyurdu:

---

*1. "Nəhcül-bəlağə", xütbə 111.*

اما لَوْ اذِنَ لَهُمْ فِى الْكَلامِ لَاخْبَرُوكُمْ انّ خَيْرَ الزَّادِ التَّقْوى؛

*"Bilin! Əgər onlara danışmaq icazəsi verilsəydi sizə xəbər verərdilər ki, ən yaxşı azuqə təqva və pəhrizkarlıqdır."*[1]

Həqiqətdə bu iki hədis və ona bənzər hədislər aşağıdakı ayədən götürülmüşdür:

تَزَوَّدُوا فَانَّ خَيْرَ الزّادِ التَّقْوى؛

*"Özünüz üçün azuqə götürün ki, ən yaxşı azuqə təqvadır."*[2]

Bugünkü günümüzün əksinə olaraq, qədim səfərlərdə azuqə və yol ehtiyatı böyük əhəmiyyət daşıyırdı. Azuqə üç xüsusiyyətə malik olmalıdır: 1. həcmi az olsun; 2. qüvvətli olsun; 3. xarab olmasın.

Göstərilən ayə və hədislərdə dünya müsafirlərin yol boyu istirahət etdikləri düşərgəyə bənzədilir ki, onlar yenidən yollarına davam etmək üçün azuqə hazırlayırlar. Bundan sonra təqvanı verilən üç xüsusiyyətə malik olan ən yaxşı azuqə kimi tanıtdırılır. Doğrudan da, təqvanı hakim olduğu yer abadlaşar. Şübhəsiz, cəmiyyətin təhlükəsizliyini qorumaq və insanları çirkin işlərdən saxlamaq üçün zahiri polis zəruri olsa da, kifayət etmir. Burada batini polisə, başqa sözlə, ilahi təqvaya da böyük ehtiyac duyulur ki, bu böyük nemət və sərmayədən qafil olmamalıyıq.

İmam Sadiqdən (ə)يَوْمَ لا يَنْفَعُ مالٌ وَ لا بَنُونَ الّا مَنْ اتَى اللَّهَ بِقَلْبٍ سَليم***(O gün ki, malın və oğulların bir faydası olmayacaq. Yalnız sağlam bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!)***[3] –ayəsinin təfsiri haqda soruşulduqda, o həzrət buyurdu: "Sağlam qəlb elə bir qəlbdir ki, Allahın

---

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 130.*

*2. "Bəqərə" surəsi, ayə 197.*

*3. "Şüəra" surəsi, ayə 88-89.*

hüzuruna gedərkən onda Allahdan qeyrisi olmasın."[1] Allahla olmağın səmərəsi təqvadır. Bəli, təqva sağlam qəlbin meyvəsidir.

*1. "Təfsiri-nümunə", 15-ci cild, səh. 274.*

# 35

## ƏN YAXŞI BƏNDƏÇİLİK

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! انَّ احَبَّ مَا امْتَثَلَهُ الْعِبادُ الَى اللَّهِ، بَعْدَ الْاقْرارِ بِه وَ بِاوْليائِه، التَّعَفُّفُ وَ التَّحَمُّلُ وَ الْاصْطِبارُ؛

***"Ey Kumeyl! Bəndələrin Allaha bəndəçilik etməsi üçün ən sevilmli əməli Allahın yeganəliyi və övliyalarının doğruluğunu iqrar etdikdən sonra iffət, dözüm və səbirdir."[1]***

### *Şərh və təfsir*

1. Hədisdə deyilən "təəffuf" (iffət) sözünün mənası nədir?

"Təəffuf" sözünün xas və geniş mənası vardır. Cinsi istəklərdə iffətli olmaq və şəhvət qüvvələrini cilovlamaq onun xas mənasıdır. Qurani-Kərimdə bu haqda buyurulur:

وَ الَّذينَ هُمْ لِفُروجِهِمْ حافِظُونَ؛

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 414.*

***"(Möminlər) o kəslərdir ki, öz şəhvət qüvvələrini cilovlayırlar."***[1] Həmin iffət ki, həzrət Yusif (ə) onu qorumaq üçün çətinliklərə sinə gərdi.

İffətin geniş mənası isə, təqva, zahidlik və bütün haramlardan çəkinməkdir. İffət geniş mənada iman və şəxsiyyət nişanəsidir.

2. Hədisdə deyilən "təhəmmul" (dözüm) sözündə məqsəd nədir?

Şübhəsiz, hər kəs həyatında bir sıra çətinliklərə məruz qalır; təhsil almaq, ictimai rəftar, hala ruzi qazanmaq, Allaha bəndəçilik, sədaqət, iffət və bir sözlə, iş və fəaliyyət çətinliklərlə birgədir ki, onlara dözmək lazımdır. Digər məsələlər kimi, çətinliklərə dözməkdə də İslam Peyğəmbərini (ə) örnək seçməliyik. O həzrət düşmən tərəfindən çətinliklərə məruz qalsa da, naümid olmadı, dözülməz çətinliklərə sinə gərərək insanların hidayətindən əl çəkmədi, həmişə onları dua edir və deyirdi:

اللَّهُمَّ اهْدِ قَوْمی فَانَّهُمْ لایَعْلَمُونَ؛

*"İlahi, qövmümü doğru yola yönəlt ki, onlar nadandırlar."*[2] Bəli, İnsanların hidayəti və dinin təbliği çətinliklərə və ağrı-acılara dözüm tələb edir.

3. Hədisdə deyilən "istibar" (səbir) sözündə məqsəd nədir?

"İstibar" sözü "səbir" sözündən alınmışdır. Səbirlə dözümün fərqi budur ki, "səbir" müsbət, "dözüm" isə mənfi yönə malikdir. İmam Əli (ə) buyurmuşdur:

فَصَبَرْتُ وَ فِی الْعَیْنِ قَذًی وَ فِی الْحَلْقِ شَجاً؛

*1. "Muminun" surəsi, ayə 5.*

*2. "Biharul-ənvar", 20-ci cild, səh. 21.*

*“(Üç xəlifənin xilafəti dövründə) gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbir etdim.”1*

Doğrudan da, iyirmi beş il belə səbir etmək asan bir iş deyil!

İlahi, bizə də iffət, dözüm və səbir ver və həqiqi bəndələrinin sırasında qəbul et!

*1. “Nəhcül-bəlağə”, xütbə 3.*

# 36

## BEŞ GÖSTƏRİŞ SAYƏSİNDƏ YAXŞI HƏYAT

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! قُلِ الْحَقَّ عَلى كُلِّ حالٍ وَ وادِّ الْمُتَّقينَ وَ اهْجُرِ الْفاسِقينَ وَ جانِبِ الْمُنافِقينَ وَ لا تُصاحِبِ الْخائِنينَ؛

***"Ey Kumeyl! Həmişə haqq danış, təqvalı insanları sev, fasiq və günahkarlardan uzaq ol, ikiüzlülərdən özünü gözlə və xəyanətkarlarla dostluq etmə!"[1]***

**Şərh və təfsir**

İmam Əli (ə) yaxın səhabələrindən olan Kumeylə yaxşı və sağlam yaşamaq üçün beş göstəriş verir:

**Birinci göstəriş:** *"Ey Kumeyl, heç vaxt haqqı deməkdən çəkinmə!"* Ömrün boyu haqqın tərəfdarı ol; istər çətinlik, istərsə də rahatlıq zamanı, istər qüdrətli, istərsə də aciz olduğun zaman. Bir sözlə, dünyada yaşadığın müddətdə haqq danış və haqq söylə!

---

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 413.*

Bu göstərişdən sonra İmam (ə) Kumeylə kimlərlə rabitə saxlamaq və kimlərdən uzaqlaşmaq barədə göstəriş verir:

**İkinci göstəriş:** *"Ey Kumeyl, təqvalılarla dost ol onları sev!"* Çünki təqvalı dost Allahın razılığına görə səninlə dostluq edəcək, çətinliklər zamanı səni tək qoymayacaq, günahdan uzaqlaşdırıb itaət və bəndəliyə sövq etdirəcək. Bəli, pərhizkarların məhəbbətini həmişə qəlbində saxla! Bundan sonra İmam Kumeylə üç zümrədən uzaqlaşmağı tövsiyə edir:

Üçüncü göstəriş: *"Ey Kumeyl, fasiqlər və günahkarlardan uzaq ol!"* Yoxsa günah əhli səni və əhli-əyalını öz rənginə boyayacaq. Özünü və əhli-əyalını qorumaq üçün onlarla əlaqəni qır!

**Dördüncü göstəriş:** *"Ey Kumeyl, ikiüzlülərin hiyləsindən özünü qoru!"* İmam Əlinin (ə) fasiqlərdən uzaqlaşması, ikiüzlülərdən isə özünü qorumasına tövsiyə etməsi mühüm bir məsələni aşılayır. O da budur ki, hər cəmiyyətdə ikiüzlü insanların yaşaması labüd və onların tanınması isə çətindir. Müsəlmanlar hər zaman bu zümrədən zərər-ziyana məruz qalmışlar. Elə buna görə də, cəmiyyəti onların vücudundan təmizləmək mümkünsüz olsa da, məkr və hiyləsindən qorunmaq lazımdır.

**Beşinci göstəriş:** *"Ey Kumeyl, xəyanətkarlarla dostluq etmə!"* İmam Əlinin (ə) bu kəlamına əməl edən cəmiyyətdə, şübhəsiz, dəyişiklik yaranacaqdır. Çünki hər bir cəmiyyət xəyanət, ikiüzlülük, günah, haqqı ört-basdır etməkdən əziyyət çəkdiyindən, təqva, paklıq, həqiqətləri demək və təqvalı insanlara möhtacdır. Şübhəsiz ki, çirkin xislətlərdən təmizlənib yaxşı xislətlərlə bəzənən

cəmiyyət ideal olacaqdır!

# 37

## UZUN ARZULARIN ACINACAQLI SONU

İmam Əli (ə) buyurmuşdur:

اطْوَلُ النَّاسِ امَلًا اسْوَئُهُمْ عَمَلًا؛

***"Arzusu uzun olan camaatın əməli də pis olar."[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) uzun-uzadı arzularla pis əməlləri arasındakı əlaqədən söz açaraq buyurur: *"Uzun arzular pis olduğu kimi, insanı da pis əməllərə sürükləyir."* "Uzun arzular"la bağlı müxtəlif bəhslər irəli sürülmüşdür ki, biz burada iki sualın cavabı ilə kifayətlənəcəyik:

**Birinci sual:** "Arzulardan söz açan hədislərdə ziddiyyət görünür; bir tərəfdən, verilən hədis kimi, bəzi hədislərdə "arzu" mənfi və dəyərsiz bir iş sayılır və insanların ondan çəkinməsi tövsiyə edilir, digər tərəfdən də, bilirik ki, ümid və arzusuz həyatın sonu yoxdur. Çünki insan ümid və arzu ilə yaşayır. Elə buna görə də, İslam Peyğəmbərindən (s) nəql olunan bir hədisdə belə oxuyuruq:

---

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 144, fəsil 117, hədis 720.*

الْامَلُ رَحْمَةٌ لِامَّتى؛

*"Arzu, ümmətim üçün rəhmətdir."* *Həmin hədisin davamında buyurur: "Əgər arzu olmasaydı, heç bir ana öz övladına süd verməz və heç bir bağban ağac əkməzdi."*[1]

Deyilənlərə əsasən, arzu yaxşıdır, yoxsa, pis?

**Cavab:** Arzu normal və ağıllı olduqda, yaxşı və rəhmətdir. Amma insanın rahatlığını əlindən alan və fikrini məşğul edin, özü ilə səadəti arasında fasilə salan uzun-uzadı və ağılsız arzular isə, şübhəsiz, bəyənilmir. Uyğun hədisdə də, elə bu növ arzulardan söz açılır.

**İkinci sual:** Nə üçün uzun arzular insanın əməllərində mənfi təsirlər qoyur?

**Cavab:** Çünki uzun arzular insanı ölümdən, qiyamətdən, hesab günündən və ilahi ədalət məhkəməsindən qafil edir. Sözsüz, axirət aləmindən qafil olan insan sağlam olmaz. Bununla yanaşı, öz məhdud qüvvəsi və istedadını uzun arzuların gerçəkləşməsi yolunda sərf edən insanın yaxşı işlər görməyə gücü çatmayacaq. İslam Peyğəmbəri (s) təkanverici bir hədisdə buyurur: *"And olsun Mühəmmədin canı əlində olan Allaha! Hər dəfə gözlərimin kirpiklərini vururamsa, onları açmamışdan qabaq Allah tərəfindən ruhumun alınacağını ehtimal verirəm."*[2]

Ədəbiyyatımızda ən qısa zaman vahidi "bir göz qırpımı"dır. Bizim həyatımızın davamı üçün, hətta bir göz qırpımı qədər də, zəmanət yoxdur. Buna görə də, arzularımızı qısaltmalı və son məqsəd olan axirət aləmi üçün azuqə fikrində olmalıyıq.

İmam Əli (ə) necə də gözəl buyurmuşdur: *"Dostlardan*

---

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 140, fəsil 113, hədis 673.*

*2. "Mizanul-hikmət", 1-ci cild, səh. 145, fəsil 118, hədis 729.*

*ayrılacağına, torpağın üstündə yatacağına, qarşısında hesab olacağına, özündən sonra yerdə qoyub getdiklərinin onun işinə yaramayacağına və qarşıya göndərdiklərinə möhtac olacağına yəqin edən kəs arzunu qısaltmağa və yaxşı əməllərini çoxaltmağa daha layiqdir.”*[1]

1. *“Mizanul-hikmət”, 1-ci cild, səh. 145, fəsil 118, hədis 724.*

# 38

## DİL İSLAH OLUNMAYINCA...

İmam Əli (ə) Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu nəql etmişdir:

لايَسْتَقِيمُ ايمانُ عَبْدٍ حَتّى يَسْتَقِيمَ قَلْبُهُ، وَ لايَسْتَقِيمُ قَلْبُهُ حَتّى يَسْتَقِيمَ لِسانُهُ؛

***“Bəndənin qəlbi düzəlməyincə imanı düzəlməz, dili düzəlməyincə də qəlbi düzəlməz!”***[1]

### *Şərh və təfsir*

İmanın güclənməsi və möhkəmlənməsi üçün iki yol vardır: 1. əql və məntiq yolu; 2. müşahidə və batin yolu. İmanın hər iki yolda axtarılması qəlbi islah etmədən mümkünsüzdür. Əgər əql və məntiq yolu ilə iman və mərifət əldə etmək istəsək, qarşıdakı maneələri aradan qaldırmayınca ona müvəffəq olmayacağıq. Şeytan aydın mətləblərlə dolu şüur və zəkası ilə belə, qafil oldu, Allahın əmrindən boyun qaçırdı və “Nə üçün mələklərlə birgə Adəmə səcdə etmədin?” – sualına belə cavab verdi:

*1. “Nəhcül-bəlağə”, xütbə 176.*

لَمْ اكُنْ لِأَسْجُدَ لِبَشَرٍ خَلَقْتَهُ مِنْ صَلْصالٍ مِنْ حَمَإٍ مَسْنُونٍ؛

***"Mən əsla Sənin qoxumuş palçıqdan alınmış quru gildən yaratdığın başərə səcdə edən deyiləm!"***[1]

Bir halda ki, Adəmin (ə) əzəməti və müqəddəsliyi cisminə görə yox, ona üfürülən ilahi ruha görə idi. Şeytan isə bunu dərk etmədi. Çünki bu mərifətə çatmaq üçün, qarşısındakı maneəni arxada qoymalı idi. Həmin özünüsevmə, özünəöyünmə və təkəbbür idi. Demə k, nəfsi istəklərə uyan insan əqli sübutlarla Allahpərəst ola bilməz. Əlbəttə, bu yolla iman mərhələsinə çatmaq istəyən insan qəlbini islah etməlidir.

Amma müşahidə yol ilə imanlı olmaq və imam Əli (ə) kimi *"Görmədiyim Allaha ibadət etmərəm!"*[2] – deyə iddian etdiyi bir yolu keçmək istəyən şəxsin qəlbini islah etməsi və Yarını görmək üçün qəlbinin toz-torpaqlarını təmizləməsi də aydın bir məsələdir!

## *Qəlblə dilin rabitəsi*

İmam Əlinin (ə) bu hədisi İslam Peyğəmbərindən (s) nəql etdiyi zaman əxlaq, hələ əxlaq alimlərindən əsər-əlamət yox idi. İndi isə onlar ən böyük günahların dilin vasitəsilə baş verdiyini deyirlər. Bəzi əxlaq alimləri dildən çıxan iyirmi böyük günahı qeyd etmişlər. Biz isə "Qurani-Kərimdə əxlaq" kitabında dildən çıxan oruc günah haqqında söz açmışıq.[3] Elə günahlar ki, bəziləri zinadan belə şiddətlidir![4]

Əziz oxucu! Əxlaqi bəhslərdə dil və danışıq qəlbin

*1. "Hicr" surəsi, ayə 33.*

*2. "Üsuli-kafi", 1-ci cild, səh. 98, "tövhid" kitabı, "fi ibtalir-royət" fəsli.*

*3. "Qurani-Kərimdə əxlaq", 1-ci cild, səh. 316.*

*4. Məsələn, Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Qeybət zinadan şiddətlidir." ("Mizanul-hikmət", 7-ci cild, səh. 333.*

aynası, əqlin nümayəndəsi, insan şəxsiyyətinin açarı və ruha açılan mühüm qapı kimi yüksək əhəmiyyət daşıyır. Başqa sözlə, ruh aynasında görünənlər (düşüncə və hisslər) dil və danışıqda aşkar olur. Əgər keçmişdə təbiblər orqanizmin səhhətini xəstənin dili ilə müayinə edirdilərsə, müasir psixoloqlar əksər hallarda psixi gərginlikləri insanların danışıqlarında arayıb-axtarırlar! Əxlaq alimləri də məhz dil və danışığın islahına xüsusi əhəmiyyət verir, onun islahını ruhi təkamül, fəzilət və əxlaqi səciyyə hesab edirlər. Əhli-beytdən (ə) nəql olunan hədislərdə də bu mövzu qısa və diqqəti cəlb edən təbirlərlə açıqlanır. Aşağıdakı hədis uyğun hədislə yanaşı, bizim müddəamıza şahiddir. İmam Əli (ə) "Nəhcül-bəlağə"də buyurur:

اَلْمَرءُ مَخْبُوءٌ تَحْتَ لِسانِهِ

*"İnsan dilinin altında gizlənib!"*[1]

Odur ki, bu üzvü daim qorumalı, onu şiddətli partlayış gücü və qabiliyyətinə malik maddəyə bənzətməliyik. İnsan belə bir maddəyə həssas yanaşdığı kimi, bədəninin ən aktiv üzvü olan dilə qarşı da son dərəcədə diqqətli olmalıdır.

*1. "Nəhcül-bəlağə", "qısa kəlamlar": 148.*

# 39

## ÖYRƏNMƏK VƏ ÖYRƏTMƏK VACİBDİR!

İmam Əli (ə) buyurmuşdur:

ما اخَذَ اللّٰهُ عَلى اهْلِ الْجَهْلِ انْ يَتَعَلَّمُوا، حَتّى اخَذَ عَلى اهْلِ الْعِلْمِ انْ يُعَلِّمُوا؛

***"Allah alimlərdən öyrətmələri barəsində əhd-peyman almayınca, nadanlardan öyrənmələri barəsində əhd-peyman almadı.*** *(Nadanlara öyrənməyi o vaxt vacib etdi ki, ondan qabaq alimlərə elmlərini öyrətməyi vacib etmişdi.)"*[1]

### *Şərh və təfsir*

İslamda tövsiyə olunan iki mühüm məsələnin icrası cəmiyyətin sağlamlığı, dünya və axirət səadətinin təmin edəcəkdir: 1. nadanları hidayət etmək; 2. "əmr be məruf" (yaxşılığa dəvət) və "nəhy əz münkər" (pislikdən çəkindirmək).

---

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 478.*

Bu iki məsələnin fərqi budur ki, birincidə günahkar şəxs məlumatsızlığı və nadanlığı üzündən əyri işlərə əl atır, ikincidə isə, insan bilə-bilə pis işlərə əl atır və yaxşı işləri tərk edir.

Şübhəsiz, hər iki məsələnin cəmiyyətdə icrası peyğəmbər və övliyaların, hətta bir nöqteyi-nəzərdən Allahın vəzifələrindən sayılır və dünyada böyük və müsbət təsirlərə səbəb olur, cəmiyyəti dirildir. Dini təbliğatçılar və insanların hidayətini öhdəsinə alanlar hər iki məsələyə böyük önəm verməli, onlardan qafil olmamalı və hər birini özünəməxsus şərtlərlə yerinə yetirməlidirlər.

Hədisdən başa düşülün bir mətləb diqqəti daha da cəlb edir. Belə ki, nadanlar öz əməlləri müqabilində məsuliyyət daşıdıqları üçün, elm öyrənməlidirlər. Alimlər də onlara yol göstərmək və elm öyrətməkdə məsuliyyət daşıyırlar, hətta onların məsuliyyəti daha da böyükdür! Elə bu səbəbdən, Allah-Taala nadanlardan öyrənmələri, alimlərdən isə öyrətmələri barəsində əhdü-peyman almışdır.

# 40

## TƏQVA İLƏ BAĞLI YENİ TƏFSİR

İmam Əli (ə) Müaviyəyə yazdığı məktubda buyurmuşdur:

فَاتَّقِ اللَّهَ فِى نَفْسِكَ، وَ نازِعِ الشَّيْطانَ قِيادَكَ، وَ اصْرِفْ الَى الْآخِرَةِ وَجْهَكَ، فَهِىَ طَرِيقُنا وَ طَرِيقُكَ، وَ احْذَرْ انْ يُصِيبَكَ اللَّهُ مِنْهُ بِعاجِلٍ قارِعَةٍ تَمَسُّ الاصْلَ، وَ تَقْطَعُ الدَّابِرَ؛

***"Özün barəsində Allahdan qorx. Şeytana müqavimət göstərərək cilovunu onun çəngindən çıxart. Bizim və sənin yolun olan** (hamımızın gedəcəyimiz) **axirətə üz tut. Qorx ki, Allah səni Öz tərəfindən əsl və kökünə işləyərək nəslini kəsən təcili bəlaya düçar etsin!"***[1]

### *Şərh və təfsir*

Bu ifadələrdən təqva ilə bağlı yeni təfsir başa düşülür. "Təqva" odur ki, insan öz ixtiyarını şeytana tapşırmasın.

---

*1. "Nəhcül-bəlağə", məktub 55.*

"Təqvasızlıq" isə ixtiyarı şeytana tapşırmaqdır. Əlavə məlumat üçün, diqqət yetirmək lazımdır ki, insanlar üç zümrəyə bölünür:

1. Şeytanın azğınlığa düşməsi və ixtiyarını ələ almasından ümidini üzdüyü şəxslər. Onlar "müxləsin" adını daşıyan kiçik bir zümrədən ibarətdir ki, onlar barəsində Qurani-Kərimdə İblisin dilincə belə buyurulur:

لَاغْوِيَنَّهُمْ اجْمَعينَ الّا عِبادَكَ مِنْهُمُ الْمُخْلَصينَ؛

***"Onların hamısını azdıracağam, yalnız Sənin (rəhmətini şamil etməklə onların arasından seçdiyin) xalis bəndələrindən başqa!"***[1]

Allah-Taala onları sığortaladı. Buna görə də, buyurdu:

انَّ عِبادى لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطانٌ؛

***"Şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, (onlar yol seçməkdə həmişə ixtiyara malikdirlər)!"***[2]

Məsum şəxslər (ə), ilahi övliyalar və ayaqlarını onların ayaqlarının izlərinə qoyanlar Allahın seçib sığortaladığı bəndələridir. Onlar öz batinlərində fəsadın köklərini qırdıqlarından, şeytan onlara yol tapa bilmir.

2. Tamamilə şeytanın ixtiyarında olan, bəzən də onun göstərişi olmadan arxasınca düşən şəxslər. Bu zümrənin vəziyyəti məlum və bəhsə ehtiyac yoxdur.

3. Üçüncü zümrə nə Allaha mütləq şəkildə itaət edənlərdir, nə də şeytana təslim olanlar, əksinə, bəzən Allahın əmrinə təslim olur, bəzən də şeytana aldanaraq, onun ardınca düşürlər!

Allah-Taala sayı çox olan bu zümrə haqqında "Əraf"

---

*1. "Hicr" surəsi, ayə 40-41.*

*2. "Hicr" surəsi, ayə 42.*

surəsinin 201-ci ayəsində belə buyurur:

انَّ الَّذينَ اتَّقَوْا اذا مَسَّهُمْ طائِفٌ مِنَ الشَّيْطانِ تَذَكَّرُوا فِاذاهُمْ مُبْصِرُونَ؛

***"Şübhəsiz, təqvalı olanlara şeytandan bir vəsvəsə yetişsə, (dərhal Allahı, Onun savab və cəzasını xatırlayaraq) özlərinə gələr və nagahan gözüaçıq olarlar."***

Şeytan insanın qəlbini cilovlamaq və onda məqam, sərvət, şəhvət, qadın, uşaq, yersiz tərif adlı bacalar tapmaq üçün, daim onun ətrafında dolanır. Bu zümrədən olmamağımız üçün daim Allahı yad etməli, mal oğruları kimi, şeytani oğruları da gözüaçıqlıqla qovmalıyıq. Əgər qəflət etsək və qəflət yuxusunda qalsaq, şeytan, sərmayəmizi oğurlayacaqdır.

İlahi, bizi ixlaslı bəndələrinin zümrəsinə qoşulmaqda yardım et!

# 41

## ÖZÜNDƏN QABAQ BİR ÇIRAQ GÖNDƏR!

İmam Əli (ə) buyurmuşdur:

ما تُقَدِّمْ مِنْ خَيْرٍ يَبْقَ لَكَ ذُخْرُهُ، وَ ما تُؤَخِّرْهُ يَكُنْ لِغَيْرِكَ خَيْرُهُ؛

***“Sənin qabaqcadan göndərdiyin gözəllik (xeyir işlər) sənin üçün toplanaraq qalır*** *(qiyamət günü onun savabını əldə edəcəksən)*. ***Özündən sonra qoyduğun şeyin gözəlliyi isə başqası üçündür*** *(onun xeyri varisə nəsib olacaq)*.***”***[1]

### *Şərh və təfsir*

Çağdaş dünyamızda hədsiz tamahkarlıqla sərvət toplama marağı bütün dövrlərdən daha çox gözə çarpır. Halbuki bu işin mahiyyət və məqsədində şüurlu bir meyar görünmür. Bu fikrə düşənlərin əksəriyyəti mal və dövlətin hansı yolla əldə olunmasına zərrə qədər

---

*1. “Nəhcül-bəlağə”, məktub 69.*

əhəmiyyət vermirlər. Onu qəbrə aparmağın, nə də bu dünyada sərf etməyin mümkün olmadığını dərk etmirlər. Qalan mal-dövlət isə, həqiqətdə sahibi üçün yükdən başqa bir şey deyildir. Deməkk, böyük zəhmətlə çoxlu mal-dövlət topladıqdan sonra, ondan ayrılarkən bütün məsuliyyət və haqları öz boyunlarına yükləmək tamamilə ağılsızlıqdır. Bunu dərindən düşünüb anlayanlar isə həqiqətən xoşbəxtdirlər!

Bu hədisin məzmunu üzərində düşünmək hər bir insanın, məxsusən, varlı təbəqənin həyat və məramını dəyişdirə bilər. Nəql edirlər ki, bir dəfə böyük sərvətlilərdən birini bir qonaqlığa dəvət edirlər. Hava qaraldıqdan sonra xidmətçisi ilə birlikdə qonaq çağırılan evə doğru yola düşür və xidmətçisi onun üçün yolu işıqlandırmaq məqsədilə, əlində çıraq sahibkarının ardınca yola düşür. Sahibkar deyir: “Arxadan yandırdığın çırağın mənə nə faydası var? Gəl irəli keç ki, çırağın işığından istifadə edə bilim.”

Şüurlu və zəkalı xidmətçi sahibkarının sözlərini təsdiqləməklə yanaşı, sahibkarına deyir: “Sərvərim, mənim də nəzərim budur! Deyirəm ki, insanın ölümündən sonra onun üçün göndərilən ehsanlar və xeyirli işlər də, insanın arxasınca yandırılan çırağa bənzəyir və elə də faydası yoxdur. Buna görə də, axirətin üçün qabaqcadan çıraq göndərmək lazımdır!”

Xidmətçinin dəyərli sözü sərvətli sahibkara çox təsir göstərdi və əmlakının çox hissəsini xeyir işlərə vəqf etdi. Hətta deyirlər ki, Məşhəd şəhərində imam Rzanın (ə) vəqf etdiyi əmlakdan sonra, onun vəqf etdiyi əmlak çoxluq təşkil edir!

# 42

## TƏNBƏLLİYİN ACİZLİKLƏ EVLƏNMƏSİNİN NƏTİCƏSİ

İmam Əli (ə) buyurmuşdur:

انَّ الْاشْياءَ لَمَّا ازْدَوَجَتِ ازْدَوَجَ الْكَسَلُ وَ الْعَجْزُ، فَنَتَجَ مِنْها الْفَقْرُ؛

***"Əşya bir-birilə evləndikdə, tənbəllik acizliklə evləndi və bu evlilikdən yoxsulluq törədi."*** [1]

### *Şərh və təfsir*

Bu hədisdə işlənən təbirlər diqqəti özünə cəlb edir. İmam Əli (ə) buyurur: "Yaradılışın başlanğıcında hər bir şey özünə münasib tayı ilə evləndikdə, tənbəllik özünə münasib tayı-bənzəri olan acizliklə tanış olaraq bir-birilə evləndi və onlardan yoxsullu və bədbəxtlik doğuldu."

Həqiqətdə bu hədisdə yoxsulluğun iki mühüm amilindən söz açılır:

Birinci amil tənbəllikdir. Şübhəsiz, tənbəllik yoxsulluqla sonuclanır.

1. *"Biharul-ənvar", 75-ci cild, səh. 59.*

İkinci amil isə acizlikdir ki, onun özü də iki qismə bölünür:

a) Təbii acizliklər: misal üçün, anadangəlmə əlillik.

b) Aldadıcı təlqinlərdən baş qaldıran acizliklər.

Hər insanın həqiqi qüvvəsi işlətdiyi qüvvədən on dəfə artıqdır və bunu əsəbilik zamanı müşahidə etmək olar.

Nəfsə təlqin nəticəsində yaranan süstlük və acizliyi arxada qoyan, güc və qüdrətinə inanan cəmiyyətdə, şübhəsiz ki, qəribə dəyişiklik baş qaldıracaq və cəmiyyətin üzvləri fəal qüvvələrə çevriləcəkdir.

Yoxsulluq və tənbəllik acınacaqlı nəticələrlə sonuclanır, insanın dini, imanı və abır-həyasını, izzət və müstəqilliyi sarsıdır və insanı asılı edir. Peyğəmbəri-Əkrəm (s) cəmiyyətin zillət və irticasına səbəb olan cahiliyyət dövrünün vəhşi ərəbləri ilə birlikdə, qısa müddət ərzində dünyanın böyük bir hissəsini fəth edərək mütərəqqi İslam mədəniyyəti və bayrağı altında yerləşdirdi!

Yaponlar ikinci dünya müharibəsində hər şeylərini itirsələr də, iradə və qüvvələrini qorudu və var qüvvələri ilə iş və fəaliyyətə başladılar və nəhayət, müasir zamanımızda dünya bazarlarının böyük bir hissəsini öz ixtiyarlarına keçirmişlər!

Bir hədisdə buyurulur: “Asqırmaq Allah tərəfindən, əsnəmək isə şeytan tərəfindəndir.”[1] Bunun fəlsəfəsi isə aydındır. Çünki asqıran insan işləmək üçün yeni qüvvə toplayır, əsnəyən insan isə tənbəllik, yorğunluq və yatmağa meyilli olur.

Qeyd etməliyik ki, verilən hədisdə yoxsulluq yalnız

---

*1. “Biharul-ənvar”, 73-cü cild, səh. 52.*

iqtisadi yoxsulluğa deyil, elmi yoxsulluğa da aid edilir. Tənbəl və aciz insanlar elmdən də məhrumdurlar!

# 43

## ÖZÜN ÖZÜNDƏN HESAB ÇƏK!

İmam Əli (ə) buyurmuşdur:

مَنْ حاسَبَ نَفْسَهُ رَبِحَ، وَ مَنْ غَفَلَ عَنْها خَسِرَ؛

***"Özündən (öz əməllərindən) hesab çəkən qazanmış, odan qafil olan isə ziyana düşmüşdür."***[1]

### *Şərh və təfsir*

İslam rəvayətlərində "mühasibə" (nəfsi hesaba çəkmək) məsələsinə xüsusi yer ayrılmış və əxlaq alimləri ona böyük əhəmiyyət vermişlər. Sual budur: "Mühasibə nədir?"

Cavabında deməliyik ki, insan ömrü boyu mühüm sərmayələrini xərc etməklə məşğul məşğuldur. Mühasibə odur ki, bu mühüm sərmayələrin xərc edilməsi müqabilində nə qazanmışdır. Görəsən, ömür, əql, məzhəb, iman və bu kimi dəyərli sərmayələrdən layiqincə istifadə etmişdirmi? Allah-Taala sonsuz elmə malik olduğu halda, hesab əhlidir və bütün insanlar üçün əməl dəftəri tutmuş, onların əməlləri, rəftarları,

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 419.*

sözləri və əqidələrini götür-qoy edir. Bu əməl dəftərində insanın kiçik bir əməli belə qələmdən yayınmır.[1] Bütün varlıq aləmi hesab üzündəndir. Belə isə, nə üçün varlıq aləmində hətta kiçik bir damla belə sayılmayan insan hesab əhli olmamalıdır? Odur ki, insan bu məsələ ilə əlaqədar bir neçə məsələni unutmamalıdır:

1. Həmişə özünü gözləməli və özündən qabaq hər an Allah-Taalanın onu görüb qoruduğunu diqqət mərkəzində saxlamalıdır. Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan hədisdə belə buyurulur:

اُعْبُدِ اللهَ كَاَنَّكَ تَراهُ فَاِنْ لَمْ تَرهُ فَاِنَّهُ يَراكَ

*“Allaha elə ibadət et ki, sanki Onu görürsən; əgər sən Onu görməsən də, O, səni görür!”*[2]

2. Hər bir söz və əməldən qabaq onun səbəb və nəticəsini götür-qoy etmək lazımdır. Hədisdə buyurulur:

اِنَّهُ يُنْشَرُ لِلْعَبْدِ فِي كُلِّ حَرَكَةٍ وَ اِنْ صَغُرَتْ ثَلاثَةُ دَواوِينَ: اَلْاَوَّلُ لِمَ؛ اَلثّانِي كَيْفَ؛ اَلثّالِثُ لِمَنْ

*“Hər bir rəftar və əməli – kiçik olsa belə – yerinə yetirən zaman onun xüsusiyyətlərini yazmaq üçün üç dəftər açılar: birincisi (əməlin) səbəbini, ikincisi keyfiyyət və necəliyini, üçüncü isə kimin üçün yerinə yetirildiyini (son məqsədini) göstərir.”*[3]

Şübhəsiz, belə təfəkkür tərzi insanı çirkinliklərə qarşı hazır edir.

3. Gündəlik işləri yerinə yetirdikdən sonra əməlləri dəqiq “mühasibə” etmək (hesaba çəkmək) lazımdır. İnsandan baş verən xəta və günah ruhi formaya

---

1. Bax: *“Peyami-Quran”, 6-cı cild, səh. 75, “əməl dəftəri” fəsli.*

2. *“Biharül-ənvar”, 72-ci cild, səh.279.*

3. *“Ehyaül-ülum” və “Məhəccətül-beyza”.*

düşməzdən qabaq dərhal onun təsirləri qəlb və ruhdan təmizlənməlidir; belə ki, onun acınacaqlı axır-aqibəti haqda düşünüb özünü danlamalı, nəfsini qınamalı, gələcəkdə özünü möhkəm gözləmək və idarə etmək üçün lazımı qərara gəlməli, qurşandığı çirkin iş qədər yaxşı əməllər yerinə yetirməlidir ki, canı və qəlbinin saflığı ilkin vəziyyətə qayıtsın. Eynilə cismi xəstəlikdən qurtulan şəxs kimi, müəyyən bir müddətdə iman, ruh və mənəviyyatını gücləndirməyə başlamalıdır. (Həqiqi tövbə də məhz bundan ibarətdir.)

Demək, "mühasibə" və insanın özünü sorğu-suala çəkməsi çox mühümdür və hər gün özümüzdən hesab çəkməliyik. Hesab çəkməliyik ki, ibadətlərimiz nə qədər xalisdir? Camaata nə qədər xidmət etmişik? Öz haqqımızdan nə qədər keçmişik? Başqalarının haqqını mənimsəmişikmi? Başqalarına pislik etmişikmi? Bəli, nəfsimizi bu kimi yüzlərlə suala tutmalıyıq. Çünki əgər hesab əhli olmasaq, sözsüz, zərər çəkərik və nagahan bütün sərmayələrimizin əldən çıxdığını və onun müqabilində heç nə qazanmadığımızı görəcəyik.

Demək, bu şərhə əsasən, özünü hesaba çəkən insanın necə faydalanıb qazandığı, ondan qafil olan insanın isə zərərə düşüb uduzduğu aydın olur.

# 44

## YAXŞI AQİBƏT

İmam Əli (ə) buyurmuşdur:

اذا ارادَ اللَّهُ بِعَبْدٍ خَيْراً وَفَّقَهُ لِانْفاذِ اجَله فى احْسَنِ عَمَلِه، وَ

رَزَقَهُ مُبادَرَةَ مُهَلِه فى طاعَتِه قَبْلَ الْفَوْتِ؛

***"Allah-Taala bəndəsinə xeyir yetirmək istəsə, ona ömrünün axırlarında əməllərini yaxşılaşdırmağa və ömrü sona yetməzdən qabaq (axirəti üçün) azuqə yığmağa müvəffəq edər."[1]***

### *Şərh və təfsir*

Yaxşı aqibət böyük nemətdir. Buna görə də, insanın aqibətinin yaxşı olması üçün dua etməsi olduqca dəyərlidir.

Əcəl sağlam-xəstə, qoca-cavan, kişi-qadın, gecə-gündüz, uşaq-böyük, alim-cahil tanımır. İnsan yaxşı aqibət sahibi olmaq üçün özünü gözləməli, əməllərinə fikir verməlidir. Bəzilərini ölüm günah məclisində, sərxoş olduğu və oğurluq etdiyi halda haqlayır, bəziləri

*1. "Mizanul-hikmət", 10-cu cild, səh. 591, fəsil 4145, hədis 21939.*

isə sübh namazını qılarkən, şükür səcdəsindən başını qaldırarkən, yaxud Kəbəni təvaf edərkən, yaxud oruc halında, yaxud da cihad meydanında düşmənlə döyüşərkən ruhunu Allaha tapşırırlar.

Bizə tövsiyə olunur ki, həmişə ölümə hazır olaq. Əgər günah etmişiksə, tövbə edək, əgər boynumuzda birinin haqqı varsa, dərhal onun haqqını ödəyək və onları başqalarına və gələcəyə həvalə etməyək.

İnsanın ölüm zamanı nicatı əqidələrindən asılıdır. Nə çoxları olub ki, ömrü boyu Allah yolunun yolçusu olmasa da, ölüm yatağında aqibətləri yaxşı olub! Bunun əksinə olaraq, bəziləri də ömrü boyu zahirdə haqq yolunda olsa da, aqibətləri yaxşı olmayıb!

Yaxşı aqibətə sahib olmağın sirri budur ki, insan həmişə hazır olsun, Allahın və insanların haqqını ödəmiş olsun. Çünki insan nə qədər ki, həyatdadır, bir neçə damla göz yaşı ilə bir dərya atəşi söndürə bilər. Amma ölümdən sonra əməl dəftəri örtülür və onun pozuntularını pozmaq imkanı da sona yetir.

# 45

**TƏQVANIN HAQQI**

İmam Əli (ə) buyurmuşdur:

مافاتَ الْيَوْمَ مِنَ الرِّزْقِ رُجِىَ غَداً زيا دَتُهُ، وَ ما فاتَ امْسِ مِنَ الْعُمُرِ لَمْ يُرْجَ الْيَوْمَ رَجْعَتُهُ. الرَّجاءُ مَعَ الْجائى وَ الْيَأْسُ مَعَ الْماضى، فَ«اتَّقُوا اللَّهَ حَقَّ تُقاتِه وَ لاتَمُوتُنَّ الّا وَ انْتُمْ مُسْلِمُونَ»؛

***"Bu günün ruzisi fövtə getsə də, sabahın ruzisinin artırılmasına ümid var. Dünən ömürdən itənin bu gün qayıdacağına ümid yoxdur. Ümid gələcəkdə, ümidsizlik isə keçmişdədir. Belə isə,*** *(Qurani-Kərimin "Ali-İmran" surəsinin 102-ci ayəsində buyurulduğu kimi:)* ***"Allahdan layiqincə qorxun (təqvalı olun və təqvanın haqqını gözləyin). Müsəlman olmamış ölməyin."***[1]

*1. "Nəhcül-bəlağə", xütbə 114.*

## *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisin birinci hissəsində ictimai gərginliklərdən birinə toxunur. Belə ki, insanlar əldən çıxan və qaytarılması mümkün olan maddi imkanlara təəssüfləndikləri halda, geri qaytarılması mümkün olmayan ömür sərmayəsinin fövtə getməsinə isə təəssüflənmirlər. Əqli normalara əsasən, insan keçmişə və geri qaytarılması mümkün olmayanlara təəssüflənməli, keçmişdən ibrət almalı, qalan ömrünün qədrini bilməli və bacardıqca azuqə yığmalıdır.

İmam Əli (ə) kəlamını sübut etmək üçün "Ali-İmran" surəsinin 102-ci ayəsinə əsaslanır və insanlara təqvalı olmağı, Allahdan layiqincə qorxmağı və müsəlman kimi ölməyi tövsiyə edir.

**Sual:** İmamın (ə) tilavət etdiyi ayədə buyurulur ki, Allahdan layiqincə qorxun və təqvanın haqqını gözləyin. Allahdan layiqincə qorxmaq, başqa sözlə təqvanın haqqı nədir?

**Cavab:** Bununla bağlı təfsir alimləri arasında fikir ayrılığı olsa da, həqiqət budur ki, "təqvanın haqqı" təqvanın yüksək dərəcələrindən biridir. İmam Sadiqdən (s) nəql olunan bir hədisdə bu məsələ belə bəyan olunur:

انْ يُطاعَ فَلا يُعْصى وَ يُذْكَرَ فَلا يُنْسى وَ يُشْكَرَ فَلا يُكْفَرْ؛

*"Allaha itaət edin və heç vaxt Ona asi olmayın. Daim Onu yad edin və unutmayın. Onun nemətlərinə şükür edin və nankor olmayın."*[1]

Bu hədisdə "təqvanın haqqı" ilə bağlı üç incəlik aşılanır ki, onların ən mühümü Allahı yad etməkdir. Allahı yad etmək bir çox əxlaqi səciyyələrin qaynağıdır

---

*1. "Məcməül-bəyan", 1-ci cild, səh. 482.*

və nəfsin tərbiyəsinə səbəb olur. Şübhəsiz, Allahın adı və yadının itaətlə və hətta təqvanın ilahi mərifətlə sıx əlaqəsi var; insanın nə qədər ilahi mərifəti və ilahi zikri artarsa, təqvası da bir o qədər artacaqdır.

Deməli, təqva ilahi mərifət ağacının meyvəsidir. Doğrudan da, insan Allahın ona şah damarından da yaxın olduğuna, hər yerdə onunla birgə və onun əməllərinə nəzarət etdiyinə, düşüncələrinə agah olduğuna inanarsa, bir daha xəta və günaha qurşanmaz. Əgər insan, izzət və zillətin Onun əlində olduğuna yəqin etsə, heç vaxt izzət və zillətini başqaları ilə əlaqələndirməz.

# 46

## ORUCUN HƏQİQƏT

İmam Əli (ə) buyurmuşdur:

الصيامُ اجْتِنابُ المَحارِمِ، كَمَا يَمْتَنِعُ الرَّجُلُ مِنَ الطَّعامِ وَ الشَّرابِ؛

***"İnsan yemək və içməkdən çəkindiyi kimi, oruc da günahlardan çəkinməkdir."*[1]**

### *Şərh və təfsir*

İnsan ruh və cisimdən təşkil olduğu kimi, yerinə yetirdiyi ibadətlər də ruh və cisimdən ibarətdir. İbadətin cismi hər kəsin dərk etdiyi zahiri, ruhu isə onun fəlsəfəsi və onunla bağlı nəzərdə tutulan məsləhətlərdir. Misal üçün, camaat namazının bir cismi, bir də ruhu var. Bəziləri bu böyük ibadətin cismi və görünüşünü layiqincə yerinə yetirirlər. Həcc mövsümündə Məkkə və Mədinədə milyonlarla insanın iştirak etdiyi camaat namazları zahirən layiqincə yerinə yetirilsə də, təəssüf ki, onlara namazın ruhu hakim deyil! Namazın ruhu fitnə-fəsad

*1. "Mizanul-hikmət", 5-ci cild, səh. 471, fəsil 2359, hədis 10952.*

və çirkinliklərdən uzaqlıqdır. Amma Məkkə və Mədinə istisna olmaqla, Ərəbistan şəhərləri fitnə-fəsad içərisində qaynayır. Camaat namazının ruhu vəhdət və birlikdir, təəssüf ki, Ərəbistana toplaşan o qədər müsəlmanlara vəhdət və birlik ruhiyyəsi hakim deyil!

İmam Əli (ə) "Nəhcül-bəlağə"nin 252-ci qısa və hikmətli kəlamlarında İslam hökmlərinin iyirmisinin fəlsəfəsini açıqlamışdır. Məsələn, həcc haqqında buyurmuşdur:

فَرَضَ اللَّهُ... الْحَجَّ تَقْرِبَةً لِلدينِ؛

*"Allah həcci dinin güclənməsi və müsəlmanların bir-birinə yaxınlaşması üçün vacib etmişdir."* Həcc zaman milyonlarla müsəlmanın bir-birinin kənarında və cisimləri bir-birinə yaxın olduğu halda, ruh və qəlbləri arasında uzun fasilə vardır. Elə buna görə də, bu böyük ssenaridə sanki müsəlmanların heç bir problemi yox imiş kimi, İslam aləminin heç bir problemi həll olunmur!

Həcc kimi, orucun da bir cismi var, bir də ruhu. Onun cismi yemək, içmək və orucu batil edən işlərdən çəkinməkdir. Ruhu isə orucu batil edən işlərlə yanaşı, bütün günahlardan da qorunmaqdır! Qurani-Kərimin ifadəsi ilə desək, oruc tutan şəxs orucla ilahi təqva zirvəsinə çatmalıdır.[1] Aydındır ki, ruhsuz bədən quru heykəldən başqa bir şey deyil!

Buna əsasən, orucu üç qismə bölmüşlər:

1. Yemək, içmək və s. orucu batil edən işlərdən çəkinənlərin orucu. Bu qismə aid oruc tutanların qulağı, gözü, dili, bir sözlə bədən üzvləri oruc olmur!

2. Orucu batil edənlərlə yanaşı, bütün günah və haramlardan çəkinənlərin orucu.

*1. "Bəqərə" surəsinin 183-cü ayəsi buna işarədir.*

3. Orucu batil edən işlər, bütün günah və haramlardan çəkinməklə yanaşı, günah fikrindən də çəkinənlərin orucu! Yəni bu qismə aid oruc tutanların dili, qarnı, əl-ayağı, göz və qulağı oruc olduğu kimi, qəlbi də oruc olaraq, günah barəsində belə, düşünmür. Budur yüksək məqam!

# 47

## ALDADICI QURĞULAR

İmam Əli (ə) buyurmuşdur:

رَحِمَ اللَّهُ امْرَءً غالَبَ الْهَوى، وَ افْلَتَ مِنْ حَبائِلِ الدُّنْيا؛

***"Allah, öz nəfsinə qalib gələn və dünya qurğularından nicat verən insana rəhmət etsin."***[1]

### *Şərh və təfsir*

Nəfslə mübarizə məfhumu insan mahiyyəti ilə nəfsi istəklərin müharibəsindən ibarətdir. Bu müharibənin bir tərəfində tüğyanedici nəfsi istəklər, digər tərəfində isə insan həqiqəti durur. İmam Əli (ə) bu hədisdə öz nəfsi ilə döyüşən insanı dua edir və zahirən gözəl və aldadıcı görünən dünya qurğularına işarə edərək insanların onlardan uzaq olmalarını tövsiyə edir.

### *Qurğunun xüsusiyyətləri*

Qurğunun bir neçə xüsusiyyəti var:

1. Onun birinci xüsusiyyət gizli olmasıdır. Elə buna görə də, insan ondan qafil olduğu zaman ona düşür.

---

*1. "Mizanul-hikmət", 10-cu cild, səh. 384, fəsil 4042, hədis 21157.*

2. Onun ikinci xüsusiyyəti möhkəm olmasıdır. İnsan qurğuya düşdükdən sonra, özünü ondan nicat verə bilmir.

3. Onun üçüncü xüsusiyyəti ətrafındakı diqqəti cəlb edən yeyintilərdir. Qurğunun özü gizli olsa da, ətrafındakı toxumlar quşları aldadaraq özünə çəkir.

Dünya qurğuları da bu xüsusiyyətlərə malikdir. Dünya qurğularından biri uşaqlıqdan ömrün son anlarına qədər insanın qəlbində yerləşən vəzifəpərəstlikdir.[1] Hər şeyin məxsus dövranı olsa da, vəzifəpərəstlik insanın yaxasından əsla əl çəkmir. Bəzən, bu qurğu gizli olur; insanlara və dinə xidmət libasında, şəri məsuliyyət hissi və sairədə özünü gizlədir. Onun ətrafında da ilahi nemətlərdən istifadə, abır-heysiyyətin qorunması, maddi imkanların çoxalması, ruhi aramlıq, yaxşı istirahət və bu kimi diqqəti cəlb edən toxumlar və yeyintilər tökülür. Maraqlıdır ki, bu qurğu olduqca möhkəm və ondan qurtuluş isə olduqca çətindir.

Dünya qurğularından biri də təfəkkürsüz ibadətdir. Belə ibadətdən yavaş-yavaş riya və özününümayiş baş qaldırır və xudbinliklə sonuclanır. Belələri özlərini hamıdan yaxşı, ümmətin örnəyi və qiyamət gününün şəfaətçisi təsəvvür edirlər! Bu proses bununla bitmir, nəfsi istəkləri əqlinə o qədər hakim olur ki, hətta Allahdan da tələbkar olur!

Bu qurğulara düşməmək üçün, onları tanımaq zəruridir. Əgər ona düşsək də, tezliklə qurtuluş yolu haqda düşünməliyik ki, zaman ötdükcə, onlardan qurtulmaq olduqca çətinləşəcəkdir.

---

*1. Bir hədisdə buyurulur: "Həqiqi insanların qəlbindən çıxsn sonuncu şey vəzipərəstlikdir." ("Qurani-Kərimdə əxlaq", 3-cü cild, səh. 30.)*

# 48

## YAXŞILIQ QAPILARI

İmam Əli (ə) buyurmuşdur:

ثَلاثٌ مِنْ ابْوابِ الْبِرِّ: سَخاءُ النَّفْسِ، وَ طيبُ الْكَلامِ، وَ الصَّبْرُ عَلَى الْاذى؛

***"Üç iş yaxşılıq qapılarındandır: nəfsin səxavətliyi, söz gözəlliyi və çətinliklər müqabilində səbir."[1]***

### *Şərh və təfsir*

"Yaxşılıq" mənasında olan "birr" sözü geniş məna daşıyır və mənəvi, maddi, fərdi, ictimai, əxlaqi, iqtisadi və siyasi yaxşılıq və xeyirxahlıqlara aiddir. "Bəqərə" surəsinin أَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ و تَنْسَوْنَ انْفُسَكُمْ ***(Camaata yaxşılığı əmr edir, özünüzü isə unudursunuz?!)***[2] – ayəsi də geniş mənada hər növ yaxşılıqlara aiddir.

Dilçilərdən biri yazır: "Birr" sözü "səhra" mənasını verən "bərr" sözündən alınmışdır. Səhra geniş

---

*1. "Biharul-ənvar", 68-ci cild, səh. 89.*

*2. "Bəqərə" surəsi, ayə 44.*

olduğundan, ərəblər insanın həyatını genişləndirən hər bir işə "bərr" deyirlər. "Bərr" Allahın sifətlərindən biridir. Qurani-Kərimdə buyurulur:

انَّهُ هُوَ الْبَرُّ الرَّحيمُ

***"Həqiqətən, yaxşılıq edən və mehriban məhz Odur."***[1]

Ümumiyyətlə, imam Əli (ə) üç işi yaxşılıq və xeyirxahlıq qapıları kimi tanıtdırır:

**1. Nəfsin səxavətliyi:**

Nəfsin səxavətliyində məqsəd odur ki, səxavət adlı əxlaqi səciyyə insanın qəlbində kök atsın və insan öz səxavətliyindən qəlbən xoşhal olsun. Bəzən, insan səxavəti özünə yükləyir və ikrahla olsa da, savabı dərk etmək məqsədilə bəxşiş edir. Bəzən də səxavət və bəxşiş etdikdə, qəlbi sevinir və vücudu aramlıq tapır. Belə səxavət insanın ruhuna nüfuz edir və böyük bir məqamdır.

Unutmamalıyıq ki, Allah-Taala bir çox bəndələrinin hacət və istəklərini bizim vasitəmizlə təmin edir. Təsəvvür etməməliyik ki, hər nəyimiz varsa, özümüzə məxsusdur, əksinə, bəzən biz yalnız vasitə rolunu oynayırıq. Xoş olsun Allahla möhtaclar və yoxsullar arasında vasitə olan bəndələrin halına! Allah-Taala bunu çox gözəl bir şəkildə "Hədid" surəsinin 7-ci ayəsində belə bəyan etmişdir:

آمِنُوا بِاللَّهِ وَ رَسُولِه وَ انْفِقُوا مِمَّا جَعَلَكُمْ مُسْتَخْلَفينَ فيهِ

***"Allaha və Onun Peyğəmbərinə iman gətirin və sizi (özünün) canişin(i) etdiyi şeydən (mallardan Allah yolunda) xərcləyin."***

"Məsum imamların həyatında infaq və yoxsullara

---

*1. "Tur" surəsi, ayə 28.*

yardım" mövzusunun şərhi ayrıca kitab tələb edir. Onlardan bəziləri bərəkətli həyatı boyunca bir neçə dəfə bütün mallarını yoxsullar arasında bölüşdürmüşlər.[1] "Dəhr" surəsi ilə bağlı əhvalat bu iddianın bariz nümunəsidir.[2]

**2. Söz gözəlliyi:**

Söz gözəlliyi və xoşəxlaq tükənməz sərmayədir. İnsanın maddi sərmayəsi məhdud, möhtacların təvəqqe və ehtiyacı isə sonsuzdur. Aydındır ki, məhdud sonsuza cavab verməkdə acizdir. Amma hikmətli Allah insana möhtacların sonsuz təvəqqesi müqabilində xoş dil adlı sonsuz bir sərmayə vermişdir. Odur ki, insan onlarla mülayim rəftar etməli, gözəl danışmalı və sərtlikdən uzaq olmalıdır. Əgər maddi köməkdən acizdirsə, məhəbbətini əsirgəməsin. Ədəbli iş dəlil-sübut istəməz. Söz gözəlliyi, məxsusən, sərtlik və qəddarlıqla ittihamlandığımız bir vaxtda onun əhəmiyyəti hamıya aydındır və qəribə cazibəyə malikdir.

**3. Çətinliklərə dözüm:**

Dünya çətinliklər və ağrı-acılar məskənidir. Quruluq, qıtlıq, zəlzələ, sel, xəstəlik və bu kimi müsibətlər bu dünyanın acı hadisələridir. Gündəlik rastlaşdığımız xoşagəlməz hadisələr və acı sözlər müqabilində özümüzdən çıxmamalı və xoş sözlə qarşı tərəfə səhvini başa salmalıyıq ki, beləcə, yaxşılıq və xeyirxahlıq qapılarını açmış olaq!

---

*1. "Mərhum Şeyx Abbas Qummi "Müntəhəl-amal" kitabında (1-ci cild, səh. 417) imam Sadiqdən (ə) belə nəql edir: "İmam Həsən (ə) mallarını üç dəfə yoxsullar arasında bölüşdürmüşdür; onları bölüşdürərkən yarısını özünə, yarısını da yoxsullara paylamışdır."*

*2. Bax: "Qurani-Kərimdə imamət ayələri", "Dəhr" surəsinin təfsiri.*

# 49

## DÜNYA VƏ AXİRƏT

İmam Əli (ə) buyurmuşdur:

ما بَعُدَ كائِنٌ وَ ما قَرُبَ بائِنٌ؛

***"Gələcək hadisə (axirət) uzaq deyil, ayrılacaq (dünya) isə yaxın deyil!"***[1]

### *Şərh və təfsir*

Bu hədisdə, həqiqətdə, dünya və axirətdən söz açılır. Axirət "kain"dir, yəni haçansa gələcək və gələcək şey uzaq deyil. Dünya isə "bain"dir, yəni haçansa ayrılacaq və ayrılacaq şey də yaxın deyil! Bir sözlə, zahirən, yaxın görünən dünya uzaq və haçansa əldən çıxacaq. Zahirən uzaq görünən axirət isə yaxın və əbədidir.

Bir çox ayə və rəvayətlərdə dünya və axirətdən söz açılmışdır və bu məsələyə bu qədər təkidlərin səbəbi isə, biz insanlara hakim kəsilən qəflətdir.

Təəssüf ki, bəzi insanların məntiqi Ömər ibn Sədin (Allah ona lənət etsin) məntiqini xatırlayır. Onlar deyirlər: "Dünya nağd, axirət isə nisyədir. Nağdı nisyəyə qurban

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 419.*

vermək olmaz!"[1] Halbuki nə dünya nağddır, nə də axirət nisyədir; ən yüksək məqamlar bir göz qırpımında əldən çıxır. Belə nağd dəyərsiz və ötəridir!

Bir rəvayətdə deyilir ki, axirət əhli dünya baxdıqda, dünya həyatı onların nəzərində dəvədən süd sağmaq müddətindən çox görünməz. Axirət aləmi isə əbədidir və biz bu həqiqəti qəbul etməli, ona iman gətirməli, ona imanımızın təsirləri çıraq evin içərisini işıqlandırıb çölünə səpələndiyi kimi, söz, əməl, rəftar və əqidələrimizdə aşkar şəkildə görünməlidir.

*1. İbn Ziyad, Ömər ibn Sədə imam Hüseynlə (ə) döyüşmək təklifi verdikdə, Ömər ibn Səd bir gecə bu haqda düşünmək üçün möhlət istədi. O, həmin gecə özünün sərgərdanlığı ilə bağlı şeir dedi ki, onun bir beyti belədir:*

الا انما الدنيا اخير معجل وما عاقل باع الوجود بدين

*"Dünya nağd, axirət isə nisyədir. Ağıllı insan nağdı nisyəyə satmaz." (Minhacüd-dümu", səh. 291.)*

# 50

## İNSANI HƏLAK EDƏN İKİ AMİL

İmam Əli (ə) buyurmuşdur:

أَهْلَكَ النَّاسَ إِثْنَانِ؛ خَوْفُ الْفَقْرِ وَ طَلَبُ الْفَخْرِ

***"İki şey insanları həlak edər: yoxsulluqdan qorxmaq, xəyali fəxrlər arzulamaq."[1]***

### *Şərh və təfsir*

Təcavüzkarlıq, oğurluq və rüşvətxorluqların səbəbləri, eləcə də, insanlardan müəyyən bir zümrənin zəhmət çəkmədən tamahkarcasına qarət və çapovulçuluqlarına diqqət yetirsək, bu iki amilin olduqca dərin təsirlərə malik olduğunu görəcəyik.

Bəzi insanlar hər şeyə sahib olmaqla yanaşı, yalnız yoxsulluqdan qorxduğu və ya öz sözləri ilə desək, gələcəyini təmin etmək üçün xilaf işlərə əl atırlar. Bəziləri də maddi və ruhi rahatlığını xəyali fəxrlər və rəqabət hisslərinə fəda edirlər. Halbuki bu çirkin xüsusiyyətləri tərk etdikdə, öz rahat həyat sürəcəklər.

Hədisdə qeyd edilən "əhləkən-nas" (insanları həlak

*1. "Tuhəfül-üqul", (tərcümə), səh. 239*

edər) ibarəsi həm mənəvi həlakətə – Allahdan uzaqlıq və günahlar bataqlığında çapalamağa, həm də zahiri və cismani, başqa sözlə, fiziki həlakətə işarə ola bilər. Çünki yoxsulluqdan qorxmaq və xəyali fəxrlər arzulamaq insanı hətta öz zərərinə tamamlanan bəzi təhlükəli işlərə belə, vadar edir.

Bununla yanaşı, yoxsulluqdan qorxmaq və xəyali fəxrlər arzulamaq əsəb sistemini pozan, ruhi-psixoloji gərginliyə və xora xəstəliyi kimi insanı daxildən yeyib ölümünün tezləşməsinə səbəb olan iki viranedici amildir.

Hər iki təfsir həqiqətlə tam uzlaşır.

# 51

## ALLAHIN RƏHMƏTİNDƏN UZAQ DÜŞƏNLƏR

İmam Əli (ə) buyurmuşdur:

مَنْ وَجَدَ مَاءً وَ تُرَاباً ثُمَّ افْتَقَرَ فَأَبْعَدَهُ اللهُ

***"Su və torpaq sahibi olduğu halda, yoxsul olan şəxs Allahın rəhmətindən uzaqdır."***[1]

### *Şərh və təfsir*

İslam hədislərindən açıq-aşkar başa düşülür ki, müsəlmanlar yoxsulluqla mübarizə aparmaq üçün maldarlıq, əkinçilik, mədən, peşə və sənət, həmçinin ticarət kimi mənbələrdən istifadə etməlidirlər. Əgər bir millət bu nemətlərdən yalnız birinə malik olsa da, öz iqtisadi boşluqlarını onunla doldurmalıdır. Əks-təqdirdə, Allahın rəhmətindən məhrum olacaq və nifrin olunmuş bir millət kimi qarğıyacaqdır. Hər halda, başqalarına möhtac olmaq İslamda məzəmmət olunmuşdur. Allahın lütf və mərhəməti sayəsində ixtiyarımızda su və torpaq ola-ola, nə üçün hətta özümüzü çörəklə təmin etmək

*1. "Biharul-ənvar", c. 100, səh. 65.*

məqsədilə digər ölkələrdən buğda və qida məhsulları idxal etməliyik?

# 52

## GÖZ VƏ QƏLB

İmam Əli (ə) buyurmuşdur:

الْعَيْنُ رائِدُ الْقَلْبِ؛

***"Göz qəlbin gözətçisidir."*[1]**

## *Şərh və təfsir*

Qısa, eyni zamanda dərinmənalı bu hədis gözün müsbət və mənfi cəhətlərinə işarə ola bilər. Misal üçün, bir nəfər naməhrəmə baxarsa, onun əyri baxışı gözündən qəlbinə ötürülür və beləcə, onun qəlbi şeytanın ixtiyarına keçir. Hətta bir baxış belə, ixtilaflara, ailə ocaqlarının dağılmasına, dava-dalaş və qətlə səbəb ola bilər!

Bir rəvayətdə bu böyük günahın təhlükəsi haqda belə deyilir: *"(Qeyri-ixtiyari) birinci baxış sənə zərər yetirməz, (ixtiyari olan) ikinci baxış xeyrinə yox, zərərinədir, (həqiqətdə, günaha israr olan) üçüncü baxış isə, həlakətinlə sonuclanacaq."*[2]

---

*1. "Mizanul-hikmət", 10-cu cild, səh. 70, fəsil 3879, hədis 19939.*

*2. "Vəsailüş-şiə", 14-cü cild, "nikahın müqəddimələri" fəsli, fəsil 104, hədis 8. Bu barədə digər hədislər də nəql olunmuşdu.*

Gözün müsbət cəhətlərinə gəldikdə isə, mümkündür, bir baxış insanı küfrdən imana və şəkdən yəqinə hidayət etsin. Qurani-Kərimdə tövsiyə olunduğu kimi, xilqət aləmində, yer və göyün yaradılışında təfəkkür göz və baxış vasitəsilə yaranır.

Demək, qeyd etdiyimiz hədis gözün müsbət və mənfi cəhətləri və onun insanın qəlbinə, eləcə də xoşbəxtlik və bədbəxtliyinin təyinində mühüm təsirlərə işarədir.

Hədisin tövsiyəsi budur ki, insan gözüaçıq olmalı, gördüklərindən özünü, dünyanı və ətraf mühitini tanımaq istiqamətində faydalanmalı və dərk etdiklərini də başqalarına ötürməlidir.

# 53

## TƏQVANIN DİL İLƏ ƏLAQƏSİ

İmam Əli (ə) buyurmuşdur:

وَ لْيَخْزُنِ الرَّجُلُ لِسانَهُ فَانَّ هذَا اللِّسانَ جَمُوحٌ بِصاحِبِه. وَ اللَّهِ ما ارى عَبْداً يَتَّقى تَقْوى تَنْفَعُهُ حَتّى يَخْزُنَ لِسانَهُ؛

***“Kişi öz dilini qorumalıdır*** *(yersiz danışmamalıdır)*. ***Çünki dil, sahibinə qarşı itaətsizdir.*** *(Əgər cilovunu buraxsa, onu təhlükəli yerə ataraq məhv edər.)* ***Allaha and olsun ki, dilini*** *(yalan, töhmət, qeybət, söyüş, dedi-qodu və bu kimi günahlardan)* ***qorumayan pərhizkar bəndəyə pərhizkarlığının bir xeyir verməsini görmürəm.”***[1]

### *Şərh və təfsir*

Dil haqqında söz çoxdur, amma bu hədisdə təqva ilə dilin əlaqəsindən söz açılır. Təqva ilə dilin əlaqəsi o qədər sıxdır ki, dili qorumadan təqvalı olmaq mümkünsüzdür! İnsanın dindarlığı, varlığının dəyəri, ruhi-psixoloji inkişafı, bir sözlə, insanlığı dilin vasitəsilə ölçülür.

---

*1. “Nəhcül-bəlağə”, xütbə 176.*

Bəli, dil və danışıq qəlbin aynası, əqlin nümayəndəsi, insan şəxsiyyətinin açarı və ruha açılan mühüm qapı kimi yüksək əhəmiyyət daşıyır. Başqa sözlə, ruh aynasında görünənlər (düşüncə və hisslər) dil və danışıqda aşkar olur. Əgər keçmişdə təbiblər orqanizmin səhhətini xəstənin dili ilə müayinə edirdilərsə, müasir psixoloqlar əksər hallarda psixi gərginlikləri insanların danışıqlarında arayıb-axtarırlar! Əxlaq alimləri də məhz dil və danışığın islahına xüsusi əhəmiyyət verir, onun islahını ruhi təkamül, fəzilət və əxlaqi səciyyə hesab edirlər.

Dil, yüksək əhəmiyyət daşıması ilə yanaşı, olduqca təhlükəli bir varlıqdır. Təhlükəsi də əhəmiyyətinə görədir. Dil, həmişə insanın ixtiyarında olduğu üçün təhlükə sayılır və ondan çıxan günahlar çox asanlıqla baş verir. Amma ona adət etdiyimizdən, təəssüf ki, dildən çıxan günahların qəbahəti də aradan qalxır.

Daha təhlükəli odur ki, qeybət, töhmət, iftira, yalan, əsassız şaiyələr, söyüş, sözlə başqalarını incitmək, xəbərçilik və bu kimi dildən çıxan günahlar, adətən "həqqün-nas" (camaatın haqqı) yönünə malikdir. Odur ki, bu üzvü daim qorumalı, onu şiddətli partlayış gücü və qabiliyyətinə malik maddəyə bənzətməliyik. İnsan belə bir maddəyə həssas yanaşdığı kimi, bədəninin ən aktiv üzvü olan dilə qarşı da son dərəcədə diqqətli olmalıdır.

# 54

## TƏQVA İLƏ ŞƏXSİYYƏTİN ƏLAQƏSİ

İmam Əli (ə) buyurmuşdur:

مَنْ احَبَّ الْمَكارِمَ اجْتَنَبَ المَحارِمَ؛

***"Şəxsiyyət sahibi olmaq istəyən şəxs haramlardan (günahlardan) çəkinməlidir."***[1]

**Şərh və təfsir**

Bəzi rəvayətlərdə insanın abır-həyasını aparan və şəxsiyyətini azaldan bəzi günahlardan söz açılsa da, bu dünyada izzət, şəxsiyyət və abır-heysiyyətin təqvalı insanlara məxsus olduğunu aşılayan rəvayətlərin də sayı az deyildir. Allah-Taala buyurur:

وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ؛

***"İzzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur."***[2]

Qeyd etdiyimiz rəvayət də mömin və təqvalıların izzət və şəxsiyyətindən, günahlardan çəkinmək və Allaha

---

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 419.*

*2. "Münafiqun" surəsi, ayə 8.*

itaət sayəsində ictimai mövqe qazanmaqdan söz açılır. Başqa sözlə, din yalnız axirət aləmi üçün deyil, əksinə dünya üçün də faydalıdır. Məsələn, yalan danışan insan yalanlarını nə qədər gizlətsə də, nəhayət, bir dəfə onun üstü açılaraq rüsvay olacaq və günah nəticəsinə rüsvay olduqdan sonra camaat artıq ona etimad etməyəcək. Demək, təqva və pərhizkarlıq dünya və axirətdə səmərəli bir ağacdır.

Yeri gəlmişkən qeyd etməliyik ki, təqva adlı fidan da hər gün suvarılmağa və nəzarətə ehtiyaclıdır, yoxsa, solub aradan gedər. Odur ki, gecə və gündüz tövbə etmək lazımdır. İnsan evdən çıxdıqda, özünü Allaha tapşırmalı və daim öz üzvlərini nəzarət altında saxlamalıdır.

# 55

## QAYIDIŞ YOLU

İmam Əli (ə) buyurmuşdur:

وَ لَو فكَّروُا فى عَظيم الْقُدْرَةِ، وَ جَسيم النِّعْمَةِ، لَرَجعُوا الَى الطَّريقِ، وَ خافُوا عَذابَ الْحَريقِ، وَ لكِنِ الْقُلُوبُ عَليلَةٌ، وَ الْبَصائِرُ مَدْخُولَةٌ؛

***“Əgər Allahın qüdrətinin böyüklüyü və nemətinin əzəməti haqda düşünsəydiniz, doğru yola yönələr və yandırıcı oddan qorxardınız. Amma qəlblər xəstə, gözlər isə eyiblidir!”*** [1]

### *Şərh və təfsir*

İnsanlar üç qrupa bölünürlər:

1. “İfrat” və “təfrit” yollarından uzaq olub doğru yolda hərəkət edənlər;

2. Əyri yola düşənlər; onlar ya Allahın qəzəbinə düçar olmuş, ya da haqdan azmışlardır;

3. Doğru yolda olduqları halda, bəzən də əyri yola

---

*1. “Nəhcül-bəlağə”, xütbə 185.*

düşənlər.

İmam Əli (ə) bu hədisdə doğru yoldan çıxanların doğru yola qayıdışından söz açaraq buyurur: "Doğru yola qayıdış yalnız təfəkkür sayəsində mümkündür; hər bir səs və şüara gözü və qulağı bağlı cavab vermək olmaz. Çünki bu, doğru yoldan çıxmağa səbəb olur.

Sual: Hansı məsələlər üzərində təfəkkür etmək insanı doğru yola yönəldir?

Cavab: Bu sual hədisin özündə cavablandırılmışdır. İmam Əli (ə) buyurur ki, iki məsələ üzərində düşünün:

1. Allah-Taalanın yenilməz qüdrəti barədə düşünün və ona inanın. Bilin ki, hər bir şey; izzət və zillət, xoşbəxtlik və bədbəxtlik, ucalmaq və alçalmaq Onun qüdrət əlindədir və həqiqətdə, bizim istək və iradəmiz Onun istək və iradəsi müqabilində heçdir.

2. Allah-Taalanın saysız-hesabsız nemətləri haqqında düşünün! Nə üçün əyri yola sürükləndik? Bir halda ki, dünyaya göz açdığımız andan, hətta ondan əvvəl həyatımızın sonuna qədər Onun nemətləri – sayıb-qurtara bilmədiyimiz nemətləri içərisində qərqik![1]

Doğru yoldan azanlar bu iki mətləb üzərində düşünsələr, doğru yola yönələrlər. Amma qəlbləri xəstə və gözləri kor olduğundan, Allahın saysız-hesabsız nemətlərini kor gözləri ilə görmür və yenilməz qüdrətini xəstə qəlbləri ilə dərk etmirlər. Məhz bu səbəbdən də, doğru yola yönəlmirlər. Beləlri hər şeydən əvvəl özünütanıma vasitələrini islah etməli, sağlam qəlb və aydın təfəkkürlə mehriban Allahın yenilməz qüdrəti haqqında düşünməli, görən gözlə Onun saysız-hesabsız

*1. "İbrahim" surəsinin 34-cü və "Nəhl" surəsinin 18-ci ayələrində bu haqda belə buyurulur:* ***"Əgər Allahın nemətlərini saysanız, sayıb hesablaya bilməzsiniz."***

nemətlərini görməlidir ki, doğru yola yönəlsinlər.

56

## SAĞLAMLIQ YOLLARI

İmam Əli (ə) buyurmuşdur:

الْعافيَةُ عَشَرَةُ اجْزاءٍ تِسْعَةٌ مِنْها فِى الصَّمْتِ الّا بِذِكْرِ اللّهِ وَ
واحِدٌ فى تَرْكِ مُجالَسَةِ السُّفَهاءِ؛

***"Sağlamlıq on hissədən ibarətdir ki, onun doqquzu (sağlamlığa qarşı olmayan) Allah zikrini istisna etməklə sükutdadır. Biri isə axmaqlarla yoldaşlığı tərk etməkdir."[1]***

### *Şərh və təfsir*

Əgər fərdlərin, ailələrin, ölkələrin, bir sözlə, cəmiyyətin günah və itaətsizliyini aradan qaldırmağın yolu nədir?

Cavabında deməliyik ki, bu ülvi məqsədə nail olmaq üçün, iki mühüm amil lazımdır:

1. İlk öncə insanda əxlaqi və psixoloji normaları gücləndirmək və ehtirasların hücumu qarşısında sədd sayılan təqva haləti yaratmaq lazımdır. Bu halət nə qədər

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 237.*

güclü olarsa, insanın günahdan uzaqlığı bir o qədər çox olacaqdır.

2. Günahdan xaric şəraiti də aradan qaldırmaq lazımdır; nəinki hər gün azadlıq bəhanəsi ilə günah üçün yeni-yeni şərait hazırlansın! Məxsusən, günah mühitində yaşayan cavanlar bu iki amili diqqət mərkəzində saxlamalıdır; günah məclislərində iştirak etməməli, onları günaha rəğbətləndirən pozğun dostları ilə əlaqəni kəsmək və günahın digər zəmin və müqəddimələrindən çəkinməlidirlər.

Əgər İslam maarifi və hökmlərinə diqqət yetirsək, hər iki sahədə uyğun göstərişlərlə rastlaşacağıq. Allah-Taala nəinki günaha icazə vermir, əksinə günahkarı cəzalandırır və hətta aşkar şəkildə günah edən şəxslərin cəzalarının neçə dəfə artırır! Nəinki qumarı haram edir, həm də onun alış-verişini, qumar alətlərinin saxlanılmasını haram edir. Nəinki şərab və alkoqollu içkiləri haram edir, hətta şərab üzüm bağlarının bağbanını, şərab zavodlarını, şərab üzümünü daşıyan nəqliyyat vasitələrini, şərab qarovulçusunu, şərab satıcısı və alıcısını da lənətləyir![1]

Bu qısa müqəddimədən bəzilərinin verdiyi əsassız cavabı aydınlaşır. Onların sözü eynilə buna bənzəyir: "Qadın azad olmalıdır, kim istəyirsə hicabına riayət etsin, kim də istəyirsə açıq-saçıq olsun! İnsanlar vacibləri yerinə yetirməkdə və haramları tərk etməkdə azad olmalı və istədiyini seçməlidir."

Bu sözün batilliyi aydındır. Bütün ağıllı insanlar deyirlər ki, camaatı uçurumun kənarına aparıb azad

---

*1. Bəzi rəvayətlərdə Allah-taala alkoqollu içkilərlə bağlı fəaliyyət göstərən on dəstəni lənətləmişdir ki, bu rəvayətlər "Vəsailüş-şiə" kitabının 12-ci cildində ("kəsb-ticarət" bölümü, 55-ci bölüm, hədis 3, 4 və 5) nəql olunmuşdur.)*

buraxmaq olmaz.

İmam Əli (ə) bu hədisdə mənəvi sağlamlığı, yəni günahdan çəkinməyi on hissəyə bölür ki, onun doqquz hissəsi ilahi zikrdən başqa, sükutla bağlıdır. Çünki xəta və günahların çoxu dil vasitəsilə baş verir. Dildən otuz böyük günah çıxır. Çalışmalıyıq ki, az danışaq, az danışan insanın xətası da az olar. Odur ki, sükut böyük əhəmiyyət daşıyır və insanı təfəkkürə, mənəviyyata və daxili saflığa sövq edir. İnsan bihudə danışarkən düşüncə qabiliyyətini itirir. Əgər bu enerjini toplaya bilsə, həqiqi təfəkkürə nail olacaq. Bir də ki, sükut ruha aramlıq, duyğulara mötədillik bəxş edir. Çox danışmaq insanı dəyərdən salır, səhvləri artır, həyası azalır və xətalara yol açan həya pərdəsi yırtıldıqda da, əyri və çirkin əməllər adiləşir.

Qeyd etməliyik ki, burada sükut heç kimlə danışmamaq, bir guşəyə çəkilib fərdi həyat tərzi keçirmək yox, əksinə qeybət, yalan, töhmət və bu kimi günahlardan qorunmaqdır. İnsan bu günahlardan çəkinməklə, sağlam əhval-ruhiyyə ilə yanaşı fəzilət də qazanmış olur. Amma danışmağın zəruri olduğu yerlərdə sükut ən böyük eyib sayılır və insanın zəifliyini, gücsüzlüyünü, Allahdan başqasından qorxusunu göstərir. Bütün bunlara rəğmən, yaxşı əməllərin mühüm bir qismi, o cümlədən, Allahı yad etmək, camaatı doğru yola yönəltmək, "əmr be məruf" (yaxşılığa dəvət) və "nəhy əz münkər" (pislikdən çəkindirmək), təlim-tərbiyə və s. dilin imkanlarındandır.

Günaha şərait yaradan amillərdən sayılan mənəvi sağlamlığın onuncu hissəsi günah məclislərini tərk etməkdir. Günah məclisində iştirak etmək və hətta günaha tamaşa etmək belə haramdır.

Bütün insanlar, ailə ocaqları və bir sözlə, cəmiyyət bu rəvayətlərə əməl etməklə özlərini günahdan qoruya bilərlər!

# 57

## ŞEYTANIN İNSANA HÖKMRANLIĞI

İmam Əli (ə) buyurmuşdur:

يا كميل! وَ هُوَ قَوْلُ اللَّهِ عَزَّ و جَلَّ «انّ عِبادى لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطانٌ» وَ قَوْلُهُ عَزَّ وَ جَلَّ «انَّما سُلْطانُهُ عَلَى الَّذينَ يَتَوَلَّونَهُ وَ الَّذينَهُمْ بِه مُشْرِكُونَ»؛

*"Ey Kumeyl! Bu Allahın kəlamıdır ki, buyurur:* ***"Şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur!"[1]*** *Bu da Allahın başqa bir kəlamıdır:* ***"Onun hökmranlığı ancaq onu dost və başçı tutan kəslər və Allaha şərik qoşanlar üzərində (keçərli)dir."[2]***

### *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisdə iki ayəyə işarə edir: Birinci ayədə şeytanın Allahın xüsusi bəndələrinə hökmranlığını inkar, ikinci ayədə isə, iki dəstəyə hökmranlığını təsbit edir: 1. şeytanla dostluq edən və ona qul olanlar; 2. şeytanı

*1. "Hicr" surəsi, ayə 42 və "İsra" surəsi, ayə 65.*

*2. "Nəhl" surəsi, ayə 100. Bax: "Biharul-ənvar", 74-cü cild, səh. 272.*

Allaha şərik qoşan, bəzən Allahın, bəzən də şeytanı vilayətini qəbul edənlər. Quran məntiqinə əsasən, şeytan bu iki dəstəyə hakim kəsilmişdir.

Bəzilərinin şeytanla bağlı məlumatları yanlışdır. Onlar insanın ixtiyarsız olaraq şeytana əsir olmasını təsəvvür edirlər. Halbuki bu təsəvvür batildir. İnsan, şeytana keçid sənədi verməsə, Allahın rəhmət dərgahından qovulmuş bu alçaq varlıq onun ruh adlı sərhədinə yaxınlaşa bilməz. Bəli, insan, şeytana yaşıl çıraq yandırmasa və onun keçid sənədini imzalamasa, şeytan ona nüfuz edə bilməz.

**Sual:** Şeytanın nüfuzuna şərait yaradan amillər, necə deyərlər, yaşıl çıraqlar hansılardır?

**Cavab:** Müxtəlif amillər mövcuddur, o cümlədən:

1. Əxlaqsız və nalayiq dostlar;
2. Günah məclislərində iştirak etmək;
3. Əxlaqsız filmlər, azdırıcı kitablar, təhrikedici səhnələr, internet və kütləvi informasiya vasitələrindən efirə buraxılan yasaq proqramlar;
4. Naməhrəm qadınla xəlvətə çəkilmək; hətta xəlvət məkanlarda namaz və ibadət belə, düzgün deyil!...

Demək, insan, şeytanın nüfuz və hökmranlığına şərait yaradan bu amillərlə mübarizə aparmalı, özünü onun vəsvəsələrindən qorumalı və onun vilayət çərçivəsindən çıxmalıdır ki, onun qullarının cərgəsinə daxil olmasın.

İlahi, bizi şeytanın vəsvəsələri müqabilində xalis bəndələrindən qərar ver!

# 58

## ƏN RAHAT MİNİK VƏ ƏN YAXŞI AZUQƏ

İmam Əli (ə) buyurmuşdur:

جَعَلَ الصَّبْرَ مَطِيَّةَ نَجاتِه وَ التَّقوى عُدَّةَ وَفاتِه؛

***“Allah rəhmət etsin o şəxsə ki, səbri (dözümü) nicat və qurtuluşuna səbəb olan minik vasitəsinə*** *(müsibətlərdə səbri öz şüarına)* ***çevirir, təqvanı isə ölüm anına azuqə yığır.”***[1]

### *Şərh və təfsir*

İmam Əli (ə) insanları dünyada uzaq yerlərə səfər edən müsafirlərə bənzədir. Hər müsafir üç şeyə möhtacdır: 1. münasib nəqliyyat (minik) vasitəsi; 2. kifayət qədər yol ehtiyatı və azuqəsi; 3. yol təhlükəsizliyi. Bu vəsaitləri təmin olunan müsafir öz məqsədinə rahat çata bilər.

Biz insanlar əbədi axirət aləminə doğru hərəkət edən müsafirlərik və bütün müsafirlər kimi, münasib nəqliyyat vasitəsi, kifayət qədər azuqə və yol təhlükəsizliyinə

---

*1. “Nəhcül-bəlağə”, xütbə 76.*

ehtiyaclıyıq.

İmam Əli (ə) uyğun hədisdə bu məsləyə toxunaraq, səbir və dözümü axirət adlı uzun və təhlükəli səfər üçün münasib minik vasitəsi kimi tanıtdırır. Çünki səbir miniyinə sahib olmayan insan elə birinci və ikinci dolamada qalacaqdır. İmamın (ə) öz ifadəsi ilə desək, "ağrı-acılar, vəla və müsibətlərə bürünən dünya"nı[1] səbir və dözümsüz keçmək mümkünsüzdür. Demək, axirət səfəri üçün ən uyğun minik səbirdir.

Bu səfərin azuqəsi isə təqvadır. Təqva və məsuliyyət hissi hərəkət stimuludur. Təqvasız cəmiyyət hərəkət stimulu olmadığı kimi, təqvasız və məsuliyyətsiz insanın da hərəkət stimulu olmaz. Müasir cəmiyyət isə təqvasızlıqdan əziyyət çəkir.

Rahat dünya həyatına sahib istəyirsə (əgər mümkündürsə), təqvalı və pərhizkar olmalıdır ki, Rəbbin razılığı və behişti əldə edə bilsin. Böyük sahəni əhatə edən pərhizkarlıq nəinki Allahın razılığını əldən karvan əhli, hətta dünya əhli də bu azuqə ilə öz hədəflərinə (Allahın razılığı və behişt) çata bilərlər.

*1. "Nəhcül-bəlağə", xütbə 226.*

# 59

## İBADƏTİN MAHİYYƏTİ

İmam Əli (ə) buyurmuşdur:

كَمْ مِنْ صائِمٍ لَيْسَ لَهُ مِنْ صِيامِهِ الّا الْجُوعُ وَ الظَّمَأُ، وَ كَمْ
مِنْ قائِمٍ لَيْسَ لَهُ مِنْ قِيامِهِ الّا السَّهَرُ وَ الْعَناءُ، حَبَّذا نَوْمُ
الْاَكْياسِ وَ افْطارُهُمْ؛

***“Nə çox oruc tutan var ki, oruc tutmağından ona aclıq və susuzluqdan başqa bir şey qalmır. Nə çox ibadət edən*** *(gecə namazı qılan)* ***var ki, namaz qılmasından ona oyaqlıq və xəstəlikdən başqa bir şey qalmır. Zirək və qanacaqlı insanlara afərin ki, onların yuxusu və oruc (müstəhəb oruc) açmaları elə insanların ibadətlərindən necə də gözəldir!”***[1]

*1. “Nəhcül-bəlağə”, qısa kəlamlar 145. Bu rəvayət xülasə şəklində Peyğəmbəri-Əkrəmdən də nəql olunmuşdur. (“Mizanul-hikmət”, fəsil 2356, hədis 10639.)*

## *Şərh və təfsir*

Allahın lütf və mərhəməti sonsuzdur və ibadət Onun lütf və mərhəmətindən qaynaqlanır. Deməki, namaz, oruc, Allah evinin və məsumların ziyarəti, Quran tilavəti və digər ibadətlərin bərəkətləri də sonsuzdur. Çünki onların mənşəyi sonsuzdur. İbadət əhlinin, ibadətin bərəkətlərindən bəhrəsi isə bərabər deyil, əksinə hər kəsin öz tutumu, təqva və imanı qədər bəhrəsi var. Yağış hədsiz dərəcədə yağsa da, hər torpaq və sahənin payı-bəhrəsi genişliyi qədərdir. Hər insanın ondan bəhrəsi isə yağışın altına tutduğu qabın tutumundan asılıdır.

Biz ibadət zamanı Allahın sonsuz qaynar rəhmət çeşməsinə doğru üz tutsaq da, hər birimiz özümüzlə götürdüyümüz qabın tutumu qədər həmin çeşmədən istifadə edə bilirik.

Müxtəlif gül-çiçəklərlə bəzədilmiş mer-meyvəli bir bağa girib-çıxan insanları nəzərdən keçirin; əgər bu bağa bir çoban girsə, öz qoyunlarına yem yığmaq üçün ot-ələf axtarmağa başlayacaq! Başqa bir şəxs bağın meyvələrindən bəhrələnəcək! Bağa girən bir filosof isə, Rəbbin qüdrətini müşahidə edəcək və öz-özünə deyəcək: “Həm-səna belə gül-çiçəkləri, yaşıl ağacları, dadlı meyvələri və maraqlı mənzərəni xəlq edən Allaha məxsusdur!” Bəli, həmin bağdan istifadə hamı üçün bərabər olsa da, hər kəs öz tutumu həddində faydalanır.

İmam Əli (ə) yuxarıdakı hədisdə elə bu mətləbə toxunur və bəzi müsəlmanların namaz qılması və oruc tutmasından yalnız yuxusuzluq, aclıq və susuzluqdan başqa bir şey qazanmadıqlarını aşılayır. Bunun müqabilində, bəziləri isə mübarək Ramazan ayında bütün günahlarını bağışlatdırır; biri həmin aydan müqavimət

dərsi alaraq, şeytanı və nəfsi istəkləri zəncirləyir, biri təqva məqamına yüksəlir və bir başqası da, ilahi ziyafət məqamına nail olaraq, bərəkətli adlanan bu süfrəyə yığılmış mənəvi qidalardan layiqincə bəhrələnir.

**Sual:** Allahın qayna çeşməsindən layiqincə bəhrələnmək üçün nə etməliyik?

**Cavab:** Öz mərifət səthimizi yüksəltməli və hazırlıqlarımızı artırmalıyıq. Buna görə də Şəban ayı özünütərbiyə, Ramazan ayı isə faydalanmaq ayı adlanmışdır. Odur ki, insan, qonaqlıq zamanı yox, əksinə qonaqlığa getməzdən öncə hazırlıq görür, təmiz libaslarını geyinir! Biz də Ramazan ayında ilahi ziyafət süfrəsindən layiqincə bəhrələnmək üçün Şəban ayında hazırlıq görməli, günahlardan tövbə etməli və göz, qulaq və dilimizi nəzarətdə saxlamalıyıq ki, qəlbimiz Allah nuru və Quran ayələri ilə işıqlansın.

# 60

## HƏQİQİ ORUC TUTANLAR

İmam Əli (ə) buyurmuşdur:

صَوْمُ الْجَسَدِ الْامْساكُ عَنِ الاغْذِيَةِ بِارادَةٍ وَ اخْتِيارٍ، خَوْفاً مِنَ الْعِقابِ وَ رَغْبَةً فِي الثَّوابِ وَ الْاجْرِ. وَ صَوْمُ النَّفْسِ امْساكُ الْحَواسِّ الْخَمْسِ عَنْ سائِرِ الْمَآثِمِ وَ خُلُوُّ الْقَلْبِ مِنْ جَميعِ اسْبابِ الشَّرِّ؛

***“Cismin orucu iradə və ixtiyarla yeyib-içməkdən çəkinmək və ondan məqsəd ilahi əzabdan qurtuluş və ilahi savab və mükafata yiyələnməkdir. Ruhun orucu isə (yalnız dil yox,) beş duyğunu digər günahlardan qorumaq və qəlbi bütün çirkinliklərin səbəblərindən təmizləməkdir.”*** [1]

---

*1. “Mizanul-hikmət”, 5-ci cild, səh. 471, fəsil 2357, hədis 10651.)*

## *Şərh və təfsir*

Böyük ilahi nemətlərdən biri müxtəlif bərəkətlərin nazil olduğu mübarək Ramazan ayıdır. Ən böyük ilahi nemət və səmavi süfrə olan Qurani-Kərim elə bu ayda nazil olmuşdur. Bu ayda Allahın rəhmət qapıları açıq, cəhənnəm qapıları bağlı, şeytanlar və nəfsi istəklər isə zəncirlənirlər. Odur ki, bur ayda ilahi nemətə sahib olduğumuz üçün şükür etməliyik. Hər nemətin şükrü var. Ramazan adlı nemətin şükrü isə, bu ayın fəlsəfə və sirlərin, orucun həqiqətini dərk etməkdir.

Yuxarıdakı hədis orucun həqiqətini aşılayır. Oruc, yalnız yeyib-içməkdən çəkinmək deyil, əksinə oruc tutan insan bütün günahlardan uzaq olmalıdır. Bir ay günahlardan uzaqlaşan və mübarək Ramazan ayı boyunca onu məşq edən insana bu məsələ (günahlardan uzaqlaşmaq) tədricən "halət", sonra "adət", sonra isə "səciyyə"yə çevriləcək və il boyu daha da təsirli və faydalı olacaqdır. Demək, yalnız yeyib-içməkdən çəkinən, amma oruc ağızla hər növ günaha qurşanan insan, sözsüz ki, orucun həqiqətini dərk etməyəcəkdir.

İmam Əli (ə) başqa bir rəvayətdə daha üstün bir məsələ orucun həqiqəti kimi bəyan edərək buyurur:

صِيامُ الْقَلْبِ عَنِ الْفِكْرِ فِى الْآثامِ افْضَلُ مِنْ صيامِ الْبَطْنِ مِن الطَّعامِ؛

*"Oruc tutan şəxs elə bir məqama yüksəlməlidir ki, nəinki orucu batil edən işlərdən və günahlardan çəkinməli, həm də günah fikrində belə olmamalıdır."1*

Bəzi alimlər də bu hədisə əsaslanaraq, orucu üç qismə bölmüşlər:

1. "Ümumi oruc" – orucu batil edənlərdən (yemək,

---

*1. "Mizanul-hikmət", 5-ci cild, səh. 470, fəsil 2358, hədis 10648.*

içmək və s. işlər) çəkinmək.

2. "Xas oruc" – orucu batil edənlərlə yanaşı, bütün günah və haramlardan çəkinmək.

3. "Xassul-xas oruc" – orucu batil edənlərdən, bütün günah və haramlardan çəkinməklə yanaşı, günah fikrindən də çəkinmək! Yəni burada insanın dili, qarnı, əl-ayağı, göz və qulağı oruc olduğu kimi, qəlbi də oruc olaraq günah haqda belə, düşünmür. Budur yüksək məqam!

İlahi, bizi bu hədislərə əməl etməkdə müvəffəq et!

# 61

## FİTNƏ-FƏSADLARIN KÖKÜ

İmam Əli (ə) buyurmuşdur:

اِنَّما بَدْءُ وُقُوعِ الْفِتَنِ اهْواءٌ تُتَّبَعُ، وَ احْكامٌ تُبْتَدَعُ، يُخالَفُ فيها
كِتابُ اللَّهِ وَ يَتَوَلّى عَلَيْها رِجالٌ رِجالًا عَلى غَيْرِ دينِ اللَّهِ؛

**“***(Camaat arasında)* ***fitnə-fəsadın mənşəyi nəfsi istəklərə tabe olmaq və şəriətə zidd çıxarılmış hökmlərdədir. Allahın kitabı*** *(Qurani-Kərim)* ***belə istək və hökmlərin əleyhinə olmuşdur****. (Eyni zamanda fitnə-fəsad vasitələrindən biri də budur ki,)* ***camaatın bir hissəsi dinə zidd istək və hökmlərdə başqalarına yardım edir, onların ardınca gedir.*** *(Haqq ilə batili bir-birinə qatdıqlarına görə fitnə-fəsad yaranır.)***”**[1]

### *Şərh və təfsir*

“Fitnə” sözü bəzən imtahan və sınaq, bəzən də cəza və işgəncə mənasını daşıyır. Qurani-Kərimdə buyurulur:

يَوْمَ هُمْ عَلَى النَّارِ يُفْتَنُونَ

---

*1. “Nəhcül-bəlağə”, xütbə 50.*

***"O gün onlara (zülmkarlara) cəhənnəm odunda əzab veriləcəkdir."*[1]**

Sözügedən hədisdə isə, cəmiyyətn ruhi-psixoloji gərginliyk və narahatlığına səbəb olan ağır ictimai hadisələr nəzərdə tutulur. Əlbəttə, bu söz, qeyd etdiyimiz kimi, imtahan və sınaq mənasında da işlənmişdir ki, adətən, müsibət və çətinliklərlə birgə olur.

İmam Əli (ə) bu xütbədə ictimai fitnələrin mənşəyi ilə bağlı belə buyurur: "Fitnə-fəsadın mənşəyi iki şeydir: 1. Nəfsi istəklərə uymaq; 2. Allahın kirabına zidd və nəfsi istəklərə uyğun verilən hökmlər."

Bu hədisdən başa düşülür ki, insanlar arasındakı səliqə ixtilafı təklikdə fitnə-fəsada səbəb olmur, çünki onların arasındakı dəri fərqliliyi kimi zəruridir. Hətta fitnə-fəsad mənşəyi fərd və qrumların səhvləri yox, əksinə bütün fitnə-fəsadların mənşəyi müxtəlif şəkillərdə, bəzən bəşər hüququ, bəzən geyim azadlığı, bəzən məzlumlardan himayə, bəzən məsuliyyət hissi, bəzən də ibadət adı ilə baş qaldıran nəfsin istəkləridir.

"Kəhf" surəsinin 103-104-cü ayələrində bu haqda belə buyurulur:

قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْأَخْسَرِينَ أَعْمَالًا. الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا

***"(Ya Peyğəmbər!) De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlarından xəbər verimmi?" O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər."***

Bir rəvayətdə, Peyğəmbəri-Əkrəm (s) yaxşı işlərin

*1. "Zariyat" surəsi, ayə 13.*

çirkin və çirkin işlərin isə yaxşı zənn edildiyi bir dövrün gləcəyindən söz açmışdır.[1] Təəssüf ki, çağdaş dünyamızda belə hallar az deyildir. Misal üçün, əmanətdar və sədaqətli, öz halal haqqına qane olan insan tənbəl, xəyanət və oğruluqla məşğul olaraq az müddət ərzində ev və avtomobil sahibi olan insan isə zirək və cəsarətli adlanır! Bəli, müasir dövrümüzdə yaxşı işlər pis, pis işlər isə yaxşı adlanır!

*1. "Vəsailuş-şiə", 11-ci cild, "əmr və nəhy" bölümü, 1-ci bölüm, hədis 12.*

# 62

## ZAHİD KİMDİR?

İmam Əli (ə) buyurmuşdur:

الزَّاهِدُ فِي الدُّنْيا مَنْ لَمْ يَغْلِبِ الْحَرامُ صَبْرَهُ وَ لَمْ يَشْغَلِ الْحَلالُ شُكْرَهُ؛

***“Dünyada zahid o kəsdir səbrinə haram hakim olmasın və halal onu Allaha şükür etməkdən qafil etməsin.”[1]***

### *Şərh və təfsir*

İmam Əlinin (ə) böyük fəxrlərindən biri zahidanə həyat tərzidir. O həzrətin zahidliyi barəsində nə desək də, azdır. O həzrət dünyada zahidliyin kamil nümunəsidir və zahidlər ona itaət etməlidirlər.

“Zöhd” (zahidlik) sözü dolaşıq məfhum olduğundan, çoxları onun həqiqətində səhvə yol vermişlər.[2] Buna görə

---

*1. “Biharul-ənvar”, 87-ci cild, səh. 37, “Mizanul-hikmət” (fəsil 1613, hədis 7713) kitabından nəqlən.*

*2. Misal üçün, bəzilərinin təsəvvürünə görə, ağır libaslar geyinən, cəmiyyətdən kənarlaşıb guşənişin həyat tərzi keçirən və səhralara üz*

də, İslam rəvayətlərində onun həqiqəti haqqında geniş söz açılmışdır.

Yuxarıdakı hədis də zöhdün düzgün mənasını təfsir edən hədislərdəndir və ona əsasən, zahid şəxs iki xüsusiyyətə malikdir:

1. Haramla üzləşdikdə səbirli olsun və özünü haramdan qorusun. Belə bir insan zahid adlanır. Haram mal, qeyri-qanuni ehtiras, haram vəzifə və sairə onun səbir və müqavimətini pozursa, ağır libaslar geyinib bir guşədə daim ibadətlə məşğul olsa da, zahid deyil! Haram işlər müqabilində müqavimət göstərən şəxs isə, zahiri dünya nemətlərindən istifadə etsə də, zahiddir.

2. Həqiqi zahidin başqa bir xüsusiyyəti isə, halal malın onu ruzi verən Allahdan qafil etməməsi və daim Ona şükür etməsidir. Belə bir insan hətta əldə etdiyi halal əmlakının məhz onun özünə aid olmadığı, əksinə başqalarının da onda haqqı və payı olduğuna diqqət yetirir. "Zariyat" surəsinin 19-cu ayəsində buyurulur:

وَفِى اَمْوالِهِمْ حَقٌّ لِلسَّائِلِ وَالْمَحْرُومِ

***"Onların mallarında əl açanlar və məhrumlar üçün (Allahın bəyəndiyi və özləri tərəfindən müəyyənləşdirilmiş) bir haqq var idi."***

Ayədə işlənən "haqq" ifadəsində iki nöqtə nəzərdə tutulur: 1. insanın halal əmlakı onun əlində bir əmanətdir; 2. Yoxsul və möhtacların bu əmlakda haqqı var və onun sahibi Allaha şükür məqsədilə başqalarına əl tutmalıdır. Deməli, o kəsə həqiqi zahid deyilir ki, qazandığı halal malı onu Alladan yayındırmasın və həmişə Onun nemətlərinin şükrünü yerinə yetirsin.

---

*tutub ibadətlə məşğul olan şəxs zahid adlanır. Bu tərifə əsasən, cəmiyyət içərisində yaşayan və ictimai işlərlə məşğul olan şəxs zahid ola bilməz.*

İmam Əlidən (ə) “zöhd” sözünün şərhi ilə bağlı nəql olunan başqa bir hədisdə belə buyurulur:

الزُّهْدُ كُلُّهُ فى كَلِمَتَيْنِ مِنَ الْقُرْآنِ، قالَ اللَّهُ تَعالى: ”لِكَيْلا تَأْسَوْا عَلى مافاتَكُمْ ...“ فَمَنْ لَمْ يَأْسِ عَلَى الْماضى وَ لَمْ يَفْرَحْ بِالْآتى فَهُوَ الزَّاهِدُ؛

“Zöhd” sözünün mahiyyəti Qurani-Kərimin iki cümləsində toplanmışdır: 1. Əlinizdən çıxan şey üçün təəssüflənməməyiniz üçündür! (Yəni zahid dünya malına bağlanmaz.) 2. Sizə verilən şey üçün (yersiz) sevinməyin.”[1]

Bu hədis, həqiqətdə, uyğun hədisin möhtəvasının təkrarıdır. Çünki nemətin əlindən çıxması üçün təəssüflənən şəxs hər bir yolla onu əldə etmək üçün çalışmağa başlayır və bu zaman onun haram müqabilində müqaviməti itir. Eynilə sərxoş bir insan kimi, Allahın nemətindən qafildir və Onun nemətlərinə də şükür etmir!

---

*1. “Hədid” surəsi, ayə: 23. (“Mizanul-hikmət”, 4-cü cild, səh. 251, fəsil 1612, hədis 7695.*

# 63

## ZAHİDLİK VƏ DÜNYANI TANIMAQ

İmam Əli (ə) buyurmuşdur:

الزَّاهِدُ فِي الدُّنْيا كُلَّما ازْدادَتْ لَهُ تَجَلِّياً ازْدادَ عَنْهُ تَوَلِّياً؛

***“Dünyada zahid şəxs dünyanın mahiyyəti ilə tanışlığı nə qədər artarsa, bir o qədər də dünyadan uzaqlaşır.”[1]***

### *Şərh və təfsir*

İnsanın düçar olduğu əxlaqi gərginliklər və pozğunluqların çoxu mərifətsizlikdən qaynaqlanır. Bu isə aradan qalxdıqda və insanın mərifəti kamilləşdikdə, əxlaqi gərginliklər və pozğunluqlar da aradan qalxır.

Görəsən, nə üçün bəzilərinin dünyaya bağlanmasının səbəbi nədir? Səbəbi odur ki, onlar dünyanın ötəri və aldadıcı bəzəyini yaxşı tanımamışlar. Aydındır ki, biz “əxlaq”ı “elm” və agahlıqla bərabər bilmirik, belə ki, instinktiv hisslərin onunla əsla bir bağlılığı olmasa da, sözsüz, əxlaq və bəyənilən rəftarlar elm və agahlıqdan baş qaldırır. Deməк, dünyapərəstlər dünyanın vəfasızlığını, etibarsızlığını, ötəriliyini və müxtəlif ağrı-acılarla yanaşı

*1. “Biharul-ənvar”, 74-cü cild, səh. 419.*

olduğunu anlasalar, heç vaxt dünya düşkünü olmazdılar.

Deyirlər ki, bir şəxs bir şahın görüşünə gedib deyir: “Çox istərdim ki, bir gün sənin kürsündə əyləşim və hər şeyə sahib olum!” Şah onun istəyini qəbul edib, onu şahlıq taxtında əyləşdirir və göstəriş verir ki, onun başı üstə iti bir xəncəri nazik tüklə göydən assınlar. O, xəncəri gördükdə, həyəcanla “Bu xəncər nədir?” – deyə soruşduqda, deyirlər: “Bu, hökumətin çətinlik və bəlalarıdır, gərək ona dözəsən!” Nəhayət, o, qorxu ilə günəşin batmasını gözləyir. Günəş batdıqdan sonra kürsüdən düşüb, rahat nəfəs alaraq deyir: “Nə yaxşı ki, şah olmamışam!”

Bir sözlə, zahid bacardığı qədər dünyadan uzaqlaşmalıdır. Əlbəttə, “zahidlik” dedikdə, tərki-dünyalıq yox, əksinə dünyaya bağlı olmamaq nəzərdə tutulur; hərçənd, ondan düzgün istifadə etsə də belə!

# 64

## ZAMAN – QİYAMƏT GÜNÜNÜN ŞAHİDİ

İmam Əli (ə) buyurmuşdur:

ما مِنْ يَوْمٍ يَمُرُّ عَلَى ابْنِ آدم الّا قال لَهُ ذلِكَ الْيَوْمُ: يَابْنَ آدَمْ! أنَا يَوْمٌ جديدٌ وَ انا عَلَيْكَ شَهيدٌ، فَقُلْ فِيَّ خَيْراً، وَ اعْمَلْ فِيَّ خيراً، اشهَدُ لَكَ بِهِ يَوْمَ الْقيامَةِ؛ فَانَّكَ لَنْ تَرانى بَعْدَهُ ابَداً؛

***"İnsan övladının keçirdiyi hər bir "gün" ona bu sözü xatırlayır: "Ey insan! Mən yeni bir günəm və əməllərinə şahidəm. Belə isə mənim qabıma yaxşı söz oxu və yaxşı əməllər tök ki, qiyamət günü sənin yaxşılıqlarına şəhadət verim. Bu gündən sonra heç vaxt məni görməyəcəksən!"***[1]

### *Şərh və təfsir*

Allah-Taala insanın söz və əməlləri üçün şahidlər seçmişdir:

1. Birinci şahid insanın bədən üzvləridir. Qurani-

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 379.*

Kərimdə buyurulur:

وَ تُكَلِّمُنا ايْديهِمْ وَ تَشْهَدُ ارْجُلُهُمْ

***"Onların əlləri Bizimlə danışar, ayaqları isə etdikləri əməllər barəsində şəhadət verərlər."***[1]

"Fussilət" surəsinin 20-ci ayəsində də belə buyurulur:

حَتّى اذا ما جاءُوها شَهِدَ عَلَيْهِمْ سَمْعُهُمْ وَ ابْصارُهُمْ وَ جُلُودُهُمْ بِماكانُوا يَعْمَلُونَ

***"Nəhayət, onların hamısı oda çatanda ətləri, gözləri və bədənlərinin dəriləri onlara qarşı, (dünyada) etdiklərinə (dünyada görüb şahid olduqlarına) şəhadət verərlər."***

2. İkinci şahid nəzarətçi mələklərdir. "Qaf" surəsinin 18-ci ayəsində buyurulur:

ما يَلْفِظُ مِنْ قَوْلٍ الّا لَدَيْهِ رَقيبٌ عَتيدٌ

***"Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır olan nəzarətçi mələk dayanmasın."***

3. Üçüncü şahid məkanlardır. "Zilzal" surəsinin 4-cü ayəsində buyurulur:

يَوْمَئِذٍ تُحَدِّثُ اخْبارَها

***"Məhz o gün yer öz xəbərlərini açıb söyləyər."***

Bəli, qiyamət günü üzərində gəzib-dolandıqlarımız yer qarışbaqarış biz insanların əleyhinə şəhadət verəcək.

4. Dördüncü şahidi zamandır. Yuxarıdakı hədisdə də məhz bu şahiddən söz açılır və ondan başa düşülür ki, hər "gün"ün özü ayrıca bir şahiddir. Demək, bir ildə insanın əməllərinə 365 gündən ibarət bir zaman şahidlik edir, əgər insanın orta ömrü əlli ildirsə, 1825 gündən ibarət bir zaman şəhadət verəcəkdir! Diqqəti cəlb edən

*1. "Yasin" surəsi, ayə 65.*

odur ki, bu şahid hər gün insana xəbərdarlıq edir. Amma hanı eşidən qulaq?!

5. Qiyamət gününün beşinci şahidi isə hər ümmətin peyğəmbərləridir. "Nisa" surəsinin 41-ci ayəsində bu haqda buyurulur:

فَكَيْفَ اذا جِئْنا مِنْ كُلِّ امَّةٍ بِشَهيدٍ وَ جِئْنا بِكَ عَلى هؤُلاءِ شَهيداً

***"Hər ümmətdən (onların iman, küfr, itaətkarlıq və itaətsizliklərinə şahidlik etmək üçün) bir şahid (peyğəmbərlərini) gətirəcəyimiz və səni də bunlara (bu ümmətə, yaxud o şahidlərə) şahid gətirəcəyimiz zaman (sənin və camaatın halı) necə olacaq?!"***

Vay olsun hesab-kitabı, sorğu-sualı inkar edənlərin halına! Bəli, qəflət pərdələri qaldırıldığı zaman, onlar öz qarşılarında onların əleyhinə şahidlik edən müxtəlif şahilər görəcəklər!

Bu qədər şahidlər və bu qədər qəflət və xəbərsizliklər necə bir yerə toplaşacaq? Əgər bir insane, bir polis məmuru tərəfindən izlənildiyini bilərsə, sözsüz ki, öz rəftarına diqqət yetirəcək və xətaya yol verməyəcəyi üçün cəhd edəcəkdir. Günahkar insan bir məmur müqabilində özünü bu qədər gözlədiyi halda, nə üçün əsla xətaya yol verməyən bu qədər ilahi şahidlər müqabilində qəflət etməliyik?!

# 65

## SÖZ VƏ SÜKUT!

İmam Əli (ə) buyurmuşdur:

لا خَيْرَ فِي الصَّمْتِ عَنِ الْحُكْمِ، كَمَا انَّهُ لاخَيْرَ فِي الْقَوْلِ بِالْجَهْلِ؛

***"Cəhalət və nadanlıqla danışmaqda xeyir olmadığı kimi, hikmət və elmlə*** *(danışmaq lazım olan zaman)* ***susmaqda da xeyir yoxdur. (Nə alimin sükutu faydalıdır, nə də cahilin sözü!)"***[1]

### *Şərh və təfsir*

Allah-Taala agah və alim insanlarla əhd bağlamışdır ki, azğınlıqlar, əyriliklər, zülm və haqsızlıqlar, düşmənlərin təcavüzü qarşısında sükut etməsin, mülayim və tutarlı bəyan və məntiqləri ilə hidayət nurunu və haqq-ədaləti insanların qəlblərində yerləşdirsinlər. (Hər kəs öz elmi qədər – az olsa belə, alim sayılır və məsuliyyət daşıyır.) Qlobal və ictimai məsələlərdə kifayət qədər səriştəsi olmayanların yersiz dəxalətləri də xalqı azğınlığa

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 182 və 471.*

sürükləyir. Həm alimlərin sükutu, həm də cahillərin sözü bədbəxtlik amillərdir.

Qeyd etdiyimiz hədisdən başa düşülür ki, "sükut" hər yerdə və hamı üçün bəyənilmədiyi kimi, danışıq da hər yerdə və hamı üçün bəyənilmir. Əksinə, "sükut" və "danışıq" nisbi xarakter daşıyır və "fərdlər", "zamanlar" və "məkanlar"a nisbətən ölçülməlidir.

Bəzən bir şəxsin danışması ən mühüm vacib iş olduğu kimi, bəzən də başqa birisinin danışması ən pis haram iş olur! Bəzən bir şəxsin bir yerdə sükutu ibadətdir, bəzən də həmin şəxsi başqa bir yerdə danışığı günah!

Deməmk, ağıllı mömin iki nöqtəni nəzərdən qaçırmamalıdır: 1. Söhbət etmək istədiyi mövzuda kifayət qədər məlumat kəsb etməli; 2. mövqeyini tanımalıdır. Əks-təqdirdə, sükuta önəm verməsi məsləhətdir.

Şair demişkən:

دو چیز طیره عقل است دم فروبستن

به وقت گفتن و گفتن به وقت خاموشی!

"İki şey ağılsızlıq nişanəsidir: danışıq zamanı sükut və sükut zamanı danışıq."

# 66

## HƏYATIN SONU

İmam Əli (ə) buyurmuşdur:

اسْتَعِدُّوا لِلْمَوْتِ فَقَدْ اظَلَّكُمْ، وَ كُونُوا قَوْماً صيحَ بِهِمْ فَانْتَبَهُوا،
وَ عَلِمُوا انَّ الدُّنْيا لَيْسَتْ لَهُمْ بِدارٍ فَاسْتَبْدَلُوا؛

***“Sizləri kölgəsinə alan** (yaxınlaşan və nişanələri görünən) **ölümə hazırlaşın. Onlar üçün zəng çalındıqda agah** (oyaq) **olan və dünyanın onların** (əbədi yaşayış) **yeri olmadığını bilən, sonra isə** (onu axirətlə) **əvəz edən qövm kimi olun.”[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) bu dərinmənalı hədisdə bəşər həyatının sonunu təsvir edərək dünyanın mahiyyətini və “ölüm” adlı böyük bir təhlükənin pusquda əyləşdiyindən söz açır və insanlara qəflət yuxusundan ayılıb doru yola yönəlmək üçün xəbərdarlıq edir.

“Fəqəd əzəlləkum” *(sizləri kölgəsinə alan)* ifadəsi yaxın gələcəkdə böyük bir hadisənin baş verəcəyi zaman

*1. “Nəhcül-bəlağə”, xütbə 64.*

işlənir. “Filan ağac sizin üzərinizə kölgə salmışdır və siz də onun kölgəsində istirahət edirsiniz” – ibarəsindən ağacla sizin aranızdakı fasilənin olduqca az olduğunu başa düşmək olur. Hədisdə qeyd olunan həmin ibarədən üç sual qarşıya çıxır:

**Birinci sual:** Kölgə nədən kinayədir?

**Cavab:** Bir çox hadisələrdən kinayə oluna bilər. Müxtəlif xəstəliklər, qəfil ölümlər, infarktlar, zəlzələlər, qəzalar və bu kimi insan həyatında baş verən hadisələr də bu qəbildəndir.

**İkinci sual:** Ölüm bu qədər yaxındırsa, onda onun üçün hazırlıq görmək lazımdır. Bəs, necə hazırlıq görməliyik?

**Cavab:** Tövbə, özünütərbiyə, camaatın haqlarını ödəmək, yaxşı əməllər yerinə yetirmək, insanlara kömək etmək, həmişə Allahı yad etmək və bu kimi əməllərlə özümüzü ölümə hazırlamalıyıq.

**Üçüncü sual:** İmam Əlinin (ə) kəlamı kimlərə aiddir?

**Cavab:** “Fəqəd əzəlləkum” *(sizləri kölgəsinə alan)* ifadəsindən başa düşülür ki, bu kəlam bütün insanlara aiddir və ölüm hamının üstünə kölgə salacaqdır.

Bəlkə də, çağdaş dünyamızda qəfil ölümlərin artımı bir nəzərdən ilahi lütf və mərhəmətdir! Belə ki, nəfsi istəklər keçmişə nisbətən daha da artdığı və insanlar ölümdən qafil olduğundan qəfil ölümlər onları bu qəflətdən ayıldır.

“Və kunu qəvmən sihə bihim fəntəbəhu” *(Onlar üçün zəng çalındıqda agah (oyaq) olan bir qövm kimi olun)* – ibarəsi gecə yarısı nagahan bir karvanın rəhbərinin fəryadı ilə yuxuya getmiş karvan əhlinin yuxudan ayılaraq yola düşməsinə işarədir. Dünya və insanlar da karvan əhlini

və düşərgə saldıqları məkanı xatırlayır ki, həmin məkan insanlar üçün əbədi deyil, ötəri və müvəqqətidir.

Bəs, insan karvanlarını fəryad edən və onlara zəng çalan kimdir? İmam Əli (ə) buyurur:

كَفى بِالْمَوْتِ واعِظاً؛

*"Əgər öyüdverən istəyirsinizsə, ölüm ən yaxşı öyüdverəndir."*[1]

Ölüm, dilsiz dili ilə nə deyir? Ölüm dilsiz olsa da, bir dünya səs-sədası var! Deməkl, ölümlər, qəbiristanlıqlar, xəstəliklər və digər hadisələr bütünlüklə xəbərdarlıq, ayıqlıq və hərəkət zəngidir. Əfsus ki, onu eşidən qulaq yoxdur!

"Vəl'əmu ənnəd-dunya ləysət ləhum bidarin fəstəbdəlu." *(Dünyanın özlərinin (əbədi yaşayış) yeri olmadığını bilən, sonra isə (onu axirətlə) əvəz edən bir qövm kimi olun.)* İndi ki, qəflət yuxusundan ayılıb dünyanın əbədi yox, qonaq evi olduğunu anlamısınız, öz dünyanızı axirətlə dəyişin, artıq dayanmayın və kifayət qədər azuqə götürüb karvan əhli ilə birgə yolunuza davam edin.

Şəkk-şübhə yoxdur ki, bizim hamımızı bu karvanla birgə aparacaqlar və bütün karvan əhlinin axır-aqibəti, sözsüz ki, ölümdür. Belə isə, nə yaxşı olar ki, qəflət yuxusundan ayılaraq bu səfər üçün münasib azuqə hazırlayaq!

*1. "Biharul-ənvar", 6-cı cild, səh. 132, 64-cü cild, səh. 29, 71-ci cild, səh. 264, 73-cü cild, səh. 342, 77-ci cild, səh. 137 və 388.*

# 67

## TƏQVALILAR VƏ GÜNAHKARLARIN AQİBƏTİ

İmam Əli (ə) buyurmuşdur:

اَلا وَ اِنَّ الْخَطايا خَيْلٌ شُمُسٌ، حُمِلَ عَلَيْها اهْلُها، وَ خُلِعَتْ لُجُمُها، فَتَقَحَّمَتْ بِهِمْ فِى النّارِ. اَلا وَ اِنَّ التَّقْوى مَطايا ذُلُلٌ، حُمِلَ عَلَيْها اهْلُها، وَ اعْطُوا ازِمَّتَها، فَاوْرَدَتْهُمُ الْجَنَّةَ؛

***“Agah olun ki, günahlar, yüyəni qırmış azğın atlara bənzər ki, ona minən günahkarları od-alova atar. Təqva və günahdan çəkinmək isə yüyəni sahibinin əlində olan ram edilmiş dəvələrə bənzər ki, onlara minənləri behiştə daxil edərlər.“[1]***

### *Şərh və təfsir*

Hədisdə təqva və təqvasızlıqla bağlı ən yaxşı bənzətmədir. Həqiqətən, təqvasızlıq yüyənini qırmış xam atı xatırlayır ki, onu minən şəxsin ixtiyarını əlindən

---

*1. “Nəhcül-bəlağə”, xütbə 16.*

alır. Çünki bir günah neçə günaha səbəb ola bilər və günahkarlar üçün cəhənnəmdən başqa bir şey qoymur.

Yuxuda şeytanı görən və üç işdən birinə – ya atasını öldürməyə, ya bacısını döyməyə, ya da şərab içməyə dəvət olunan bir cavanın hekayəsi bizim bu müddəamıza tutarlı bir şahiddir. Belə ki, həmin cavan atasını öldürmək və bacısını döyməkdən nicat tapmaq üçün şərab içməyi seçir. Amma şərab qədəhini başına çəkdikdə, ağlı itərək adi vəziyyətindən çıxır və nəhayət, həm atasını öldürür, həm də bacısının baş-gözünü yaralayır![1]

Doğrudan da, günahlar günahkarı tədriclə özünə çəkib qərq edən bir batlağa bənzəyir. Bu zaman Allahın lütf və mərhəmətinə şamil olmayan insan heç bir iş görə bilməz.

Günah həm insanın axirətini, həm də dünyasını puç edir. Demək, günah nə dünya, nə də axirət aləmi üçün münasib bir minik deyil! Bu səbəbdən də dini təlimlərdə göstəriş verilir ki, hər gün öz nəfsimizdən hesab çəkək ki, Allah göstərməsin, ram edilməsi çətin olan miniyə minməyək və sürətini artırmamış və idarəmizdən çıxmamış nicat tapaq.

İlahi, biz zəifik və ağrı-acılı yolumuz da uzundur! Sənin lütf və mərhəmətindən başqa onu keçmək mümkünsüzdür. İlahi, Özün bizə bu yolu ötüb-keçməkdə rəhbərlik et! Amin!

1. *"Şeytan – doşməne dirineye insan", səh. 190.*

# 68

## GÜNAH MƏCLİSLƏRİNDƏ İŞTİRAK ETMƏK!

İmam Əli (ə) buyurmuşdur:

مَنْ كانَ يُؤْمِنُ بِاللَّهِ وَ الْيَومِ الْآخِرِ فَلا يَقُومُ مَكانَ رَيْبَةٍ؛

***"Allaha və qiyamət gününə iman gətirən şəxs "Reybə" məkanında dayanmaz."***[1]

### *Şərh və təfsir*

Hədisdə qeyd olunan "reybə" sözü iki mənanı ifadə edir:

1. Şəkk, tərəddüd və ittiham: mömin və təqvalılar ittihama məruz qalacağı yerlərə getməkdən çəkinirlər. Əgər insan ittiham və sui-zənnə məruz qalacaqları yerlərdə iştirak edərsə, hədisdə qeyd olunduğu kimi, ona bədbin olan şəxsləri yox, əksinə özünü qınamalıdır.[2]

2. "Fiqh" elminin "nikah" və "baxış" bəhsində qeyd olunduğu kimi, naməhrəm qadının əl və üzünə baxmaq

---

*1. "Üsuli-kafi", 2-ci cild, səh. 378, "iman və küfr" kitabı, "günah məclisində iştirak etmək" bölümü, hədis 10.*

*2. "Biharul-ənvar", 71-ci cild, səh. 91.*

iki şərtlə caiz sayılır: a) "ləzzət" məqsədilə olmasın; b) "reybə" olmasın, yəni insanın xəta və günaha düşməsinə səbəb olmasın. Bu mənaya əsasən, mömin şəxs günaha düşməsinə ehtimal veriləcək məclislərdən uzaq olmalıdır. Buna dair nəql olunan hədislərin də sayı az deyildir[1] və biz burada bununla bağlı bir neçə əqli və məntiqi dəlil qeyd edirik:

1. Günah məclisində iştirak edən şəxs günaha düşməsə də, həmin günahı və məclisi təsdiqləyir. Bunun günahı isə tanınmış şəxslər, tayfa başçıları və ruhanilər üçün daha böyükdür!

2. Günahın ağırlığı həm sizin, həm də camaatın nəzərindən düşür. Buna günümüzdəki toy məclislərini misal çəkə bilərik ki, harada iştirak etmək möminlər üçün böyük bir problemə çevrilmişdir. Möminlər belə məclislərdə əsla şirkət etməməli və onun səbəbini də bəyan edərək deməlidir: "Bizim sizə qarşı məhəbbətimiz var, amma Allahı sizdən çox istəyirik və şəri-dini vəzifəmiz sevgi və əlaqələrimizin şövqündədir."

3. Günah məclislərində iştirak etmək günahkarların təşviqinə səbəb olur. Məclisdə rəqs edən bir günahkara iki nəfərin tamaşa etməsi ilə yüz nəfərin tamaşa etməsində böyük fərq var. Xanəndə və rəqqaslar öz ətrafına bir çox insanların toplaşdığını gördükdə, bu işə daha da rəğbətlənir. "Həcc" surəsinin ***"Əyri söz(lər) dən uzaq olun!"*** – ayəsinin[2] təfsirində belə bir hədis nəql olunur: "Bir xanəndəyə deyilən "sağ ol", "yaşa" və "çox

*1. "Bu rəvayətlərin bir hissəsi "Mizanul-hikmət" kitabında (2-ci cild, səh. 54, fəsil 519) nəql olunmuşdur.*

*2. "Həcc" surəsi, ayə 30.*

gözəl" sözlər əyri sözlər hesab edilir.[1] Demək, günahkarı və günah məclislərini təşviq etmək, istər iştirak etməklə olsun, istərsə də, sözlə, caiz deyildir.

4. Şeytani vəsvəsələr tədricən günah məclislərində iştirak edən şəxsin də günaha düşməsinə səbəb olur. Kim zəmanət verə bilər ki, günah məclisində iştirak edən şəxs günaha düşməyəcək? Narkotik maddələrə alışan şəxslər öncədən yalnız narkotik maddələr çəkilən məclislərdə iştirak etsə də, sonradan özü də ona qurşanır və nəhayət, ondan ayrıla bilmir!

*1. "Ənvarul-fəqahət", "ticarət və haram kəsblər" bölümü, səh. 313.*

# 69

## ƏQL QILINCI VƏ HELM (SƏBİR) LİBASI

İmam Əli (ə) buyurmuşdur:

الْحِلْمُ غِطاءٌ ساتِرٌ، وَ الْعَقْلُ حُسامٌ قاطِعٌ، فَاسْتُرْ خَلَلَ خُلُقِكَ بِحِلْمِكَ، وَ قاتِلْ هَواكَ بِعَقْلِكَ؛

***"Helm (səbir)*** *(eyibləri)* ***örtən pərdə, əql isə*** *(pis işlərə əmr edən nəfsi)* ***kəsən qılıncdır. Belə isə xasiyyətinin eyiblərini həlimliklə ört və nəfsini və şəhvətini əql ilə öldür."***[1]

### *Şərh və təfsir*

Bütün varlıq aləmində iki zidd qüvvə bir yerdə toplanmışdır: hərəkətverici qüvvə və saxlayıcı qüvvə, başqa sözlə, dafiə və cazibə qüvvəsi. Hər iki qüvvənin tarazlığı varlıq aləminin nizam-intizamını təmin edir. Səmalarda mövcud olan dafiə qüvvəsi günəş kürəsindəki planetlərin hərəkətinə səbəb olur. Cazibə qüvvəsi isə tarazlıq və mötədilliyi təmin edir.

Bəşərin varlığında da bu iki qüvvə mövcuddur. Əsəb

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 424.*

sisteminin bir qismi dafiə, bir qismi də cazibə qüvvəsinin rolunu ifa edir və hər iki qüvvə insanın bütün bədən üzvlərini tarazlaşdırır. "Simpatik" və "parasimpatik" əsəblər insan daxilindəki iki cazibə və dafiə qüvvəsindən ibarətdir.

Peyğəmbərlər də öz dəvətlərində hər iki qüvvədən istifadə etmişlər. Quranın ifadəsi ilə desək, insanları həm müjdələmiş, həm də qorxutmuşlar, həm behişt vəd etmiş, həm də cəhənnəm odu ilə qorxutmuşlar.

Müqəddəs şəriət qanunları da bu qanundan müstəsna deyil! İmanı zəif olanların qəlblərini cəzb etmək məqsədilə zəkatdan ayrılan pay islami təşviqlər cazibə qüvvəsi, qisas, diyə və s. islami cəza tədbirləri isə dafiə qüvvəsindən ibarətdir. Ümumiyyətlə, kainat bu iki qüvvə əsasında tənzimlənmişdir.

Qeyd etdiyimiz hədis fə məhz bu həqiqəti aşılayır. Hədisdə deyilir: İnsan "əql" və "helm" adlı iki qüvvədən ibarətdir. Əqlin dafiə (hərəkətverici) qüvvəsi iti qılınc kimi hərəkətə səbəb olur. Cazibə qüvvəsi isə insanın əməllərini nəzarət altında saxlayır. Nəfsi istəkləri iti qılıncla əql üçün kəsib doğrayır və əxlaqi çatışmazlıqları helm və səbir qüvvəsi ilə ört-basdır edir. Əgər insanlar hər iki qüvvənin tərkibindən layiqincə istifadə etsələr, sağlam cəmiyyətə sahib olacaqlar.

# 70

## ÖRNƏKLƏRİN SEÇİM ZƏRURƏTİ

İmam Əli (ə) buyurmuşdur:

الا وَ انَّ لِكُلِّ مَأْمُومٍ اماماً، يَقْتَدى بِه وَ يَسْتَضىءُ بِنُورِ عِلْمِه؛

***"Bil ki, tabe və ardıcıl olan hər bir şəxsin bir imam və rəhbəri var ki, ona tabe olur və onun elminin nuru ilə aydınlıq axtarır."*[1]**

### *Şərh və təfsir*

Hər insanın təbiətində örnək seçimi olduğundan, düzgün və həqiqi örnəklər tanıtdırılmadıqda, camaat batil örnəklərə itaət edəcəkdir. Odur ki, Allah-Taala "Ali-İmran" surəsinin 164-cü ayəsində möminlərə minnət qoyur ki, onlara mələk cinsində yox, onların öz cinsindən peyğəmbərlər göndərmişdir. Bunun sirri isə həmin örnək seçimidir. Çünki hər cins yalnız öz cinsindən olanı örnək qəbul edir.

Yuxarıdakı hədis də buna işarədir. Bu hədisdə iki

1. *"Nəhcül-bəlağə", məktub 45.*

mətləb göz çarpır:

1. İnsanlar, əməllərində öz imam və başçılarına bənzəyirlər.

2. Elmi məsələlərdə onun elm və hidayət nurundan bəhrələnirlər.

Demək, həm əməldə, həm elmdə sağlam və ülvi örnəklərə itaət tövsiyə olunur və əsasən, cəmiyyətin bir imamı olması və yer üzünün əsla imamsız qalmamasının[1] hikmətlərindən biri də örnək seçiminin zəruriliyidir. Elə buradan şeytanın vəsvəsə meydanlarından birinə yol açılır və şeytansifət insanlar tərəfindən batil örnəklər tanıtdırılır.

Uyğun örnəklərin varlığının zəruriliyi, insanın örnək seçiminə qarşı təbii meyli və şeytansifət insanlar tərəfindən batil örnəklərin tanıtdırılması məsələsinə diqqət yetirdikdə, sağlam, düzgün və qurucu örnəklərin cəmiyyətə tanıtdırılması zəruri sayılır. Aydındır ki, örnəklərin tanıtdırılması və cəmiyyətdə təbliği də zəruri ehtiyaclardandır.[2]

---

*1. İmam Əli (ə) bu haqda buyurur: "Allahım, bəli, yer üzü Allahın dinini dəlil və sübut ilə bərqərar edən şəxsdən boş olmaz. (Həmin şəxs) ya (on bir imam kimi) aşkar və məşhurdur, ya da (fitnə-fəsada görə on ikinci imam kimi) qorxu içində və gizlindir ki, Allahın aydın subut və dəlilləri (peyğəmbərliyin nişanələri, dinin hökmləri, elm və mərifət) aradan getməsin." ("Nəhcül-bəlağə", qısa kəlamlar 147.)*

*2. Əlavə məlumat əldə etmək istəyənlər "Qurani-Kərimdə əxlaq" kitabını (1-ci cild, səh. 365) mütaliə edə bilərsiniz.*

# 71

## İMANIN TAMI!

İmam Əli (ə) buyurmuşdur:

لا يَذُوقُ الْمَرْءُ مِنْ حَقيقَةِ الْايمانِ، حَتّى يَكُونَ فيهِ ثَلاثُ خِصالٍ: الْفِقْهُ فِى الدينِ، وَ الصَّبْرُ عَلَى الْمَصائِبِ، وَ حُسْنُ التَّقْديرِ فِى الْمَعاشِ؛

***"İnsan üç xislətə sahib olmayınca imanın tamını dadmaz: 1. dində agahlıq; 2. müsibətlərə səbir etmək; 3. məişətdə tədbirli olmaq."[1]***

### *Şərh və təfsir*

"İmanın tamı varmı?" – sualının cavabı müsbət və aydındır. "İmanın tamını dadmaq" dedikdə, onu iman sayəsində yəqinlik və ruhi aramlıqla dərk etməkdir. İmandan baş qaldıran yəqinlik, ruhi aramlıq, nuranilik, və dillə vəsfolunmaz xüsusi halət mənəvi ləzzətdən və qəlbin səfasından ibarətdir.

---

*1. "Biharul-ənvar", 1-ci cild, səh. 20, 68-ci cild, səh. 85 və 346.*

İndi isə, görək, deyilən üç xislətlə imanın tamı arasında rabitə necədir?

a)الْفِقْهُ فِي الدينِ (*Dində agahlıq):* İnsan dinin müxtəlif sahələri ilə geniş tanışlığı olmayınca, dini hökmlər və göstərişlərə necə möhkəm etiqad və əməli iltizam bəsləyə bilər? İnsan saleh əməl yerinə yetirməyincə, imanın tamını dada bilməz.

b) وَ الصَّبْرُ عَلَى الْمَصائِبِ *(Müsibətlərə səbir etmək)*: Müsibətlər və acı hadisələr müqabilində diz çöküb bütün kainata bədbin olan və dilində və ya qəlbində Allaha etiraz edənlərin sayı az deyildir! Belələri imanın tamını əsla dada bilməzlər. Halbuki müsibətlər və ağır hadisələrin aydın hikmətləri var ki, həqiqi mömin onları yaxşı dərk edir. Bəzən, müsibətlər insana qəflət zamanı xəbərdarlıq, bəzən də xəta və günahlarının kəffarəsidir. Həmçinin bilməliyik ki, dünyada baş verən hadisələrin heç biri səbəbsiz və təsadüfi deyil!

c) وَ حُسْنُ التَّقْديرِ فِي الْمَعاشِ*(Məişətdə tədbirli olmaq)*: İmanla məişətdə tədbirli olmaqla rabitəsinə gəldikdə isə, həyatında və gündəlik məişətində düzgün iqtisadi proqramı olmayan və nəticədə bir sıra çətinliklərə və bəzən də israf kimi günahlara düçar olması danılmazdır. Aydındır ki, belə çətinliklərə mübtəla olan insan günahla sonuclanacaq və imanın da tamını dad bilməyəcəkdir.

Bir sözlə, insan dini agahlıq və mərifət, müsibətlərə dözüm və həyatda düzgün proqramlar sayəsində imanın tamını dad bilər.

# 72

## EŞQ – MƏRİFƏTİN MÜHÜM MANEƏSİ

İmam Əli (ə) buyurmuşdur:

مَنْ عَشِقَ شَيْأً اعْشى بَصَرَهُ، وَ امْرَضَ قَلْبَهُ، فهو يَنْظُرُ بِعَيْنٍ غَيْرِ صَحيحَةٍ، وَ يَسْمَعُ بِاذُنٍ غَيْرِ سَميعَةٍ، قَدْ خَرَقَتِ الشَّهَواتُ عَقْلَهُ، وَ اماتَتِ الدُّنْيا قَلْبَهُ؛

***“Hər kim nəyə aşiq olarsa, bu məhəbbət onun gözünü kor və ürəyini xəstə edər. Belə isə, o,*** *(dünyanın fəsadlarına)* ***görməyən gözlə baxar,*** *(həqiqətləri)* ***eşitməyən qulaqla dinləyər. Əbəs istəklər onun ağlını didər, dünya isə qəlbini öldürər.”***[1]

### *Şərh və təfsir*

Bu ifadələr bütün insanlara mühüm bir məsələni aşılayır. Belə ki, insan həyatında “haqq” və “batil”, “doğru” və “yalan”la bağlı düzgün anlayışı olduğu zaman düzgün yolu keçə bilər. Xoşbəxtlikdən, Allah-Taala mərifət vasitələrini bütün insanların ixtiyarında

*1. “Nəhcül-bəlağə”, xütbə 109.*

qoymuşdur. Qurani-Kərimdə buyurulur:

وَ جَعَلَ لَكُمُ السَّمْعَ وَ الْابْصارَ وَ الْافْئِدَةَ

***“Allah sizə qulaq və eşitmə qüdrəti, gözlər və görmə qabiliyyəti və (bədənin hissiyyatını idarə etmək üçün) ürəklər (əql) verdi.”[1]***

Bəzən də, bu vasitələr mərifət üçün maneələrə çevrilərək əks nəticələrlə sonuclanır.

Mərifət maneələri çoxdur və biz bu haqda “Peyami-Quran” kitabının 1-ci cildində geniş söz açmışıq.[2] Onun maneə və bəlalarından biri hədisdə işarə olunan qeyri-həqiqi məsələlərə eşq bəsləməkdir. Bunu hər kəs şəxsi həyatında təcrübədən keçirmişdir. Bəzən eşq içində qıvrılanların ibadət libasında günaha qurşandığını, ibadətin tərkini ibadət sandığını da görmüşük! Bu isə, məxsusən, siyasi proseslərdə daha qabarıqdır.

Demək, imam Əlinin (ə) nurlu kəlamlarından ilham alaraq hər bir məsələdə, o cümlədən, eşq və məhəbbətdə onun acınacaqlı nəticəsindən qurtulmaq üçün orta həddi gözləmək də lazımdır ki, eşq-məhəbbət qalın bir pərdə kimi həqiqətləri tanımağa mane olmasın.

---

*1. “Nəhl” surəsi, ayə 78.*

*2. “Peyami-Quran”, 1-ci cild, səh. 296.*

# 73

## EHTİRASA ƏSİR AĞILLAR

İmam Əli (ə) buyurmuşdur:

وَ كَمْ مِنْ عَقْلٍ اسيرٍ تَحْتَ هَوى اميرٍ؛

"Nə çox (nəfsi) istəklər var ki, ağılları öz hökmü altına alıb əsir etmişdir."[1]

### *Şərh və təfsir*

Hər bir insanın varlığında iki qüvvə mövcuddur:

1. İnsanın bütün bədən üzvləri, qüvvələri və hisslərinə hakim olan əql qüvvəsi;

2. Əqlin icra aləti olub əmrinə tabe olan nəfsi istəklər və ehtiraslar.

Hər iki qüvvədən düzgün istifadə olunduğu təqdirdə, Allahın insandan istədikləri həyatda gerçəkləşəcək və insan doğrudan da, Onun yer üzündə xəlifəsi olacaqdır. Bunun əksi baş verdikdə, insana nəfsi istəklər hökmranlıq etdikdə, əql onun vücudunda yalnız bir alət yolunu oynadıqda və ehtiraslara əsir olduqda, sözsüz, haqdan və doğru yoldan uzaqlaşacaqdır. Onun

---

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 211.*

haqdan uzaqlaşması öz yüksək nöqtəsinə çatdıqda, hətta heyvandan da aşağı səviyyəyə enəcəkdir.

Bəli, ailə ocağında təcrübəli ata rolunu ifa edən əql nəfsi istəklərə, xam və təcrübəsiz cavanlıq hisslərinə əsir düşdükdə, belə ailə ocağı heç bir təhlükədən amanda qalmayacaqdır.

Beləliklə, əgər Allahın lütf və mərhəmətinə şamil olmağı istəyiriksə, sözsüz, ailə ocaqlarında, cəmiyyətdə, ölkədə və hətta bütün dünyada əqli hakim və onu nəfsi istəklərin əsirliyindən azad etməliyik. Şübhəsiz, bu zaman mövcud şəraiti yandırıcı cəhənnəmə bənzəyən çağdaş dünyamız səfalı gülüstana çevriləcək və insanlar bir-birinin haqlarına təcavüz etmədən, sülh və səfa-səmimiyyətlə bir-birinin kənarında həyat sürsünlər.

# 74

## NURANİ AĞILLAR VƏ İTİ GÖZLƏR

İmam Əli (ə) buyurmuşdur:

ايْنَ الْعُقُولُ الْمُسْتَصْبِحَةُ بِمَصابيحِ الْهُدى، وَ الْابْصارُ اللَّامِحَةُ الى مَنارِ التَّقْوى! ايْنَ الْقُلُوبُ الّتى وُهِبَتْ لِلَّهِ، وَ عُوقِدَتْ عَلى طاعَةِ اللَّهِ!؛

***“Haradadır hidayət çırağı ilə işıqlanan ağıllar, təqva və pərhizkarlıq nişanəsi ilə baxan gözlər? Haradadır Allah üçün ayrılıb Ona itaət edən və bəndəliyə qapanan ürəklər?”[1]***

### *Şərh və təfsir*

İnsanın varlığında iki mühüm mehvər mövcuddur:

1. Həqiqətləri dərk edən əql və elm mehvəri;

2. Şəfqət və hisslər; məqsədimiz dəlil-sübuta söykənməyən, amma iş və fəaliyyətə səbəb olan stimullardır ki, düzgün istiqamətə yönəldikdə, uyğun nəticələr verəcəkdir.

---

*1. “Nəhcül-bəlağə”, xütbə 144.*

İnsanın 2+2-nin 4-ə bərabər olmasını bilməsi elm adlanır. Amma onun övladına məhəbbəti elm yox, hiss adlanır. Əgər onların hər ikisindən (elm və hiss) düzgün şəkildə istifadə olunsa, yəni elm Allaha əsaslanaraq dəyərlənsə və hisslər də ifrat və təfritdən uzaq olduqda, insan kamilləşir.

İmam Əli (ə) bu hədisdə hər iki yöndə təkamülə çatmaq üçün qanun göstərir. O həzrətin buyruğuna əsasən, hədisin birinci hissəsində ağıl hidayət çırağı ilə işıqlandıqda və hidayət çırağı da böyük Allah olduqda, insan təqva nuru ilə baxıb öz hisslərini təqva vasitəsilə idarə etdikdə, ilkin şərt hasil olur. Hədisin iki hissəsində ixlas, bəndəçilik və Allaha itaət şəfqət və hisslərin meyarı kimi göstərilir; yəni qəlbimizi Onun girovunda qoyaq, yalnız Onunla əhd bağlayaq və Ona ibadət edək. Əlbəttə, ikinci şərt olduqca çətindir. Adi camaat arasında deyilən zərbül-məsəl kimi: “Molla olmaq asandır, insan olmaq isə çətin!”

İlahi, biz özümüzü Sənə tapşırırıq! Bizi Öz razılığın yolunda müvəffəq et!

# 75

## NURANİ AĞILLAR VƏ İTİ GÖZLƏR

İmam Əli (ə) buyurmuşdur:

لا تَجْعَلوُا عِلْمَكُمْ جهْلًا، وَ يَقينَكُمْ شَكًّا، اذا عَلِمْتُمْ فَاعْملوُا وَ اذا تيَقَّنْتُمْ فَأَقْدِمُوا؛

***"Elminizi nadanlıqla əvəz etməyin və yəqinliyinizi şəkkə çevirməyin. Əgər** (dünyanın yox olacağını) **bilirsinizsə,** (axirət üçün) **iş görün,** (ölümə) **yəqin edirsinizsə,** (azuqə hazırlayaraq) **irəli keçin."**[1]*

### *Şərh və təfsir*

İnsanın ruhunda müxtəlif nemətlər qoyulmuşdur ki, onlardan biri də elm adlanan idrak, digəri isə yəqindir.

**Sual:** Elmlə yəqinin fərqi nədir?

**Cavab:** Elm insana agahlıq bəxş edir; istər insanın ruhu və qəlbi onu qəbul etsin, istərsə də qəbul etməsin. Amma insanın bir şeyi bilməsi və qəlbən onu qəbul edərək ona təslim olması "yəqin" adlanır. Allah-Taala "Nəml" surəsinin 14-cü ayəsində bu haqda buyurur:

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 274.*

وَ جَحَدُوا بِها وَ اسْتَيْقَنَتْها أَنْفُسُهُمْ ظُلْماً وَ عُلُوّاً

***“Ona (ilahi nişanələrə) daxilən yəqinlikləri olsa da, zülm və təkəbbür üzündən inkar etdilər.”***

Firon, məxsusən, həzrət Musanın (ə) möcüzələrini müşahidə etdikdən sonra Allahın varlığını və varlıq aləminin xaliqi olduğunu bilirdi, amma ona yəqini yox idi və ona görə də təslim olmurdu.

İmam Əli (ə) bu hədisdə elm və yəqini təsirləri ilə yanaşı izah etmişdir; belə ki, əməlsiz elmi nadanlıq və əmələ səbəb olmayan yəqini şəkk adlandırmışdır. Misal üçün, qiyamətə yəqin etdiyini iddia edən şəxsin əməllərində onun təsirləri görünməzsə, həqiqətdə, onun qiyamətə yəqinliyi yoxdur! Deməli, İslam mədəniyyəti baxımından hər bir şey əməli olaraq gerçəkləşdiyi zaman dəyərləndirilir, zehni yönə malik olan bir şeyin İslamda dəyəri yoxdur.

**Sual:** Nə üçün elm və yəqinə əməl olunmur?

**Cavab:** Bunun cavabında iki amilə işarə etmək olar:

1. Elm və yəqinin zəifliyi bildiyimiz şeyə əməl etməməyimizin amillərindəndir. Əgər doğrudan da, yetim malının yeyilməsinin odun yeyilməsi[1] kimi olmasını bilsək, heç vaxt belə bir işə əl atmarıq. Deməli, imanın süstlüyü, etiqadi və elmi əsasların zəifliyi imanın əməldə gerçəkləşməməsinə səbəb olur.

2. Bəzən nəfsi istəklər də elm və yəqinə əməl etməyə mane olur. Nəfsi istəklər güclü sel kimi, elm və yəqinin möhkəm sədlərini sındırır. Belə fəsadların qarşısını almaq üçün mütləq iman və yəqinin sütunlarını

*1. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: “Merac səfərində odun ağızlarından girib arxalarından çıxan bir zümrə ilə rastlaşdım. Cəbraildən “Onlar kimdir?” – deyə soruşduqda, dedi: “Zülm və haqsızlıqla yetim malını yeyənlərdir.” (“Mizanul-hikmət”, fəsil 4238, hədis 22590)*

möhkəmlətmək lazımdır ki, bir daha güclü sel onun səddini sındıra bilməsin.

# 76

## İMAM ƏLİ (Ə) İMAM ƏLİNİN (Ə) NƏZƏRİNDƏ

İmam Əli (ə) buyurmuşdur:

اللَّهُ قَدْ اعْطانى مِنَ الْعَقْلِ ما لَوْ قُسِّمَ عَلى جَميعِ حُمَقاءِ الدُّنْيا وَ مَجانينِها لَصارُوا بِهِ عُقَلاءَ، وَ مِنَ الْقُوَّةِ ما لَوْ قُسِّمَ عَلى جَميعِ ضُعَفاءِ الدُّنْيا لَصارُوا بِهِ اقْوِياءَ، وَ مِنَ الشُّجاعَةِ ما لَوْ قُسِّمَ عَلى جَميعِ جُبَناءِ الدُّنْيا لَصارُوا بِهِ شُجْعاناً؛

***"Allah mənə o qədər ağıl verib ki, əgər onu dünyanın bütün ağılsızları arasında bölüşdürsələr, onların hamısı ağıllanar. O qədər güc və qüdrət verib ki, əgər onu bütün gücsüzlər və zəiflər arasında bölüşdürsələr, onların hamısı güclənər. O qədər şücaət verib ki, əgər onu bütün qorxaq arasında bölüşdürsələr, onların hamısı şücaətli olar."[1]***

---

*1. "Biharul-ənvar", 19-cu cild, səh. 83.*

### *Şərh və təfsir*

İslam düşmənləri "Leylətül-məbit" hadisəsində Peyğəmbəri-Əkrəmin (s) evinə hücum edib, o həzrətin yatağında imam Əlinin (ə) yatdığını gördükdə, onlardan bəziləri dedilər: "Gəlin Peyğəmbərin əvəzində Əlini öldürək!" Əbu Cəhl "Bu cavanla işiniz olmasın, Məhəmməd onu aldatmışdır!" – deyə istehza etdikdə, imam Əli (ə) onun cavabında yuxarıdakı cümləlləri söylədi ki, onların kiminlə üz-üzə durduğunu və yanıldıqlarını anlasınlar.

Doğrudan da, o həzrət dünya qədər əql, elm və şücaət məcmusudur, yəni Allah-Taala bir dünyanı bir insanın vücudunda yerləşdirmişdir.

Qeyd etmək lazımdır ki, imam Əli (ə) ən çətin anlarda belə, İslam Peyğəmbərini (ə) tək qoymamışdır. İslam Peyğəmbərinin (ə) bərəkətli ömrünün ağır günləri az olmamışdır, amma bu ağır günlər üç yerdə daha da şiddətlənmiş və imam Əli (ə) hər üç yerdə mühüm rol oynamışdır: 1. "Leylətül-məbit" hadisəsi; 2. "Ühüd" döyüşü; 3. "Xəndək" döyüşü.

"Ühüd" döyüşü qurtardıqdan sonra imam Əli (ə) yaralı və qana boyanmış bədənlə İslam Peyğəmbərinin (s) hüzuruna gəlib dedi: "Sizi müdafiə edərkən və pərvanə tək ətrafınıza dolanarkən mənə çoxlu qılınc zərbəsi endirildi ki, on altı zərbə daha ağır idi və hətta zərbənin ağırlığı nəticəsində dörd dəfə yerə yıxıldım. Hər dəfə yerə yıxılanda, böyük bir şəxs gəlib qollarımdan tutaraq qaldırır və deyirdi: "Peyğəmbəri (s) müdafiə et!" Ey Allahın Rəsulu! Həmin şəxs kim idi?"

Peyğəmbər (s) buyurdu: "Afərin sənə! Allahın vəhy

əmanətdarı Cəbrail Əmin idi."[1]

İmam Əlinin (ə) Əmr ibn Əbdəvüdlə mübarizə apardığı "Xəndək" döyüşündə də, Peyğəmbəri-Əkrəm (s) həmin gün o həzrətin mübarizəsini bütün insan və cinlərin ibadətindən üstün hesab edir. Çünki heç kim Əmr ibn Əbdəvüdlə döyüşməyə qadir deyildi. Məhz imam Əli (ə) onu, yəni düşmənin ən böyük qəhrəmanını məğlub etməyə qadir oldu və beləcə, düşmənin canına qorxu bürüdü.[2] Bəli, o həzrət ən çətin anlarda İslam Peyğəmbəri (s) tək buraxmadı və o həzrətin ən yaxın köməkçisi oldu.

Biz də o həzrətlə – şiələrin birinci imamı ilə fəxr edirik. Amma görəsən, yalnız o həzrətin fəzilətləri ilə fəxr etmək kifayətdir və onun müqabilində heç bir məsuliyyət daşımırıq? Həqiqətdə, o həzrətin fəzilətləri bizim üçün məsuliyyət doğurur və biz o həzrətin uca səciyyələrindən bəhrələnərək, ən azı öz vücudumuzu onun şüaları ilə işıqlandırmalıyıq.

---

*1. "Füruği-əbədiyyət", 2-ci cild, səh. 27.*

*2. "Xəndək" döyüşü barədə məlumat əldə etmək istəyənlər "Füruği-əbədiyyət", kitabının 2-ci cildinin həmin mövzu ilə əlaqədar bəhsi mütaliə edə bilərlər.*

# 77

**İMAM ƏLİ (Ə) ÖZ DİLİ İLƏ!**

İmam Əli (ə) buyurmuşdur:

إنَّما مَثَلی بَیْنَکُمْ کَمَثَلِ السِّراجِ فِی الظُّلْمَةِ، یَسْتَضیءُ بِهِ مَنْ وَ لَجَها؛

***"Mən sizin aranızda qaranlıqda yanan çıraq kimiyəm ki, yanına gələn hər bir kəs onun işığından bəhrələnir."*[1]**

***Şərh və təfsir***

İslam Peyğəmbəri (s) və məsum imamların kəlamlarında bəzi ibarələrə rast gəlinir ki, bəzi nadanlar onları özünütəriflənmə kimi təsəvvür edirlər. Halbuki özünütəriflə özünütanıtdırma arasında aydın fərq vardır.

Bəzən insan bir nəfəri yaxşı tanıdığı halda, həmin şəxs qürurla özünü tərifləməyə başlayır. Bu özünütərifləmədir və İslamda pislənmişdir. Bəzən də həmin şəxsi tanımır və o, özünü ona tanıtdırır, misal üçün, məşğələsi və ixtisasından söz açır. Buna özünütərifləmə deyilmir və pislənmir. Məsum rəhbərlərdən nəql olunan hədislər də

1. *"Nəhcül-bəlağə", xütbə 187.*

ikinci qismə aiddir.

İmam Əli (ə) bu hədisdən əlavə, digər hədislərdə də özünü tanıtdırmışdır.[1] Misal üçün, bir rəvayətdə oxuyuruq ki, o həzrət öz sinəsinə işarə etdiyi halda, Kumeyl ibn Ziyada xitabən belə buyurmuşdur:

انَّ هاهُنا لَعِلْماً جَمّاً لَوْ اصَبْتُ لَهُ حَمَلَةً؛

*"Bil ki, burada (sinəmdə) çoxlu elm var ki, əgər layiqli insanlar tapsaydım, onlara öyrədərəm."*[2]

Başqa bir hədisdə isə buyurmuşdur:

ايُّهَا النَّاسُ سَلُونى قَبْلَ انْ تَفْقِدُونى فَلَأَنَا بِطُرُقِ السَّماءِ اعْلَمُ مِنى بِطُرُقِ الْارْضِ؛

*"Ey camaat! Məni itirməmişdən öncə, istədiyinizi soruşun ki, mən göyün yollarını yerin yollarından daha yaxşı tanıyıram."*[3]

Nəhayət, uyğun hədisdə belə buyurmuşdur:

انَّما مَثَلى بَيْنَكُمْ كَمَثَلِ السِّراجِ فِى الظُّلْمَةِ، يَسْتَضىءُ بِهِ مَنْ وَ لَجَها؛

*"Mən sizin aranızda qaranlıqda yanan çıraq kimiyəm ki, yanına gələn hər bir kəs onun işığından bəhrələnir."*[4]

Bu hədis mühüm bir nöqtəyə işarə edir ki, bəzi ayə və rəvayətlərdə də ondan söz açılmışdır. Həmin nöqtə belədir:

Tərəqqi və təkamül iki əsasdan ibarətdir: fəaliyyət və qabiliyyət.

Əgər tərəqqi və təkamül yolunda ən mütərəqqi imkanlar olduğu halda, ondan istifadə edənlərin qabiliyyət və bacarığı olmasa, faydasız olacaqdır.

*1. Bu haqda bəzi kitablar yazılmışdır ki, buna "İmam Əli (ə) imam Əli ibn Əbu Talibin (ə) nəzərində" kitabını misal çəkə bilərik.*

*2. "Nəhcül-bəlağə", qısa kəlamlar 147.*

*3. "Nəhcül-bəlağə", xütbə 189.*

*4. "Nəhcül-bəlağə", xütbə 187.*

Günəşdən parlaq bir şey yoxdur. Amma kor insan ondan istifadə edə bilmir. Çünki qabiliyyət və bacarığı yoxdur. Əgər şoranlıq bir yerə ən yaxşı toxum əkilərək, ən saf su və ardıcıl yağışla suvarılsa və təcrübəli əkinçilərdən istifadə olunsa da, yenə məhsul götürə bilməyəcəyik. Çünki şoranlıq torpağın məhsulvermə qabiliyyəti yoxdur.

Bir çox insanlar ömürlərinin sonuna qədər peyğəmbərlə birgə yaşasalar da, kafir ölmüşlər. Çünki hidayət nurundan bəhrələnmək qabiliyyətinə malik deyildilər. "Bəqərə" surəsinin birinci ayəsinə buyurulur: ***"Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab (Qurani-Kərim) (bütün insanlar üçün deyil, yalnız) təqvalılar (yəni hidayət qabiliyyəti olan insanlar) üçün hidayət mənbəyidir."***

Qabiliyyətlər də müxtəlifdir və hər kəs öz istedad və bacarığı qədər Allahın lütf və mərhəmətindən bəhrələnir. Qurani-Kərimdə buyurulur:

انْزَلَ مِنَ السَّماءِ ماءً فَسالَتْ اوْدِيَةٌ بِقَدَرِها؛

***"(Allah) göydən (yağış, qar və dolu şəklində) su nazil etdi. Beləliklə çaylar öz tutumu miqdarında (su götürərək) axdı."***[1]

**Sual:** Qabiliyyətləri necə artıra bilərik?

**Cavab:** Qabiliyyətlər iki hissədən ibarətdir ki, bir hissəsi zati, bir hissəsi isə kəsbidir. Birinci hissə çoxalmır, ikinci hissə tövbə, təqva, ilahi zikr, elm və mərifət məclislərində şirkət etmək, səmərəli mütaliələr, yaxşı dost, münasib mühit və bu kimi məsələlərlə qabiliyyət və bacarığı çiçəkləndirmək və artırmaq mümkündür.

---

*1. "Rəd" surəsi, ayə 17.*

# 78

## HANSI GÜN BAYRAMDIR?

İmam Əli (ə) buyurmuşdur:

كُلُّ يَوْمٍ لاَيُعْصَى اللّٰهُ فيهِ فَهُوَ عيدٌ؛

***"Allaha itaətsizlik və günah edilməyən hər bir gün bayram** (şadlıq və şənlik) **günüdür."*[1]

### *Şərh və təfsir*

Bayram iki növdür: "təşrii" bayram və "təkvini" bayram.

Allah tərəfindən bayram təyin olunan günlər "təşrii" bayram adlanır və sözsüz ki, bu günlər uğur və qələbəliklə yanaşıdır; bəzən "fitir" bayramı kimi nəfsi istəklərə qələbə çalınan gün (insan mübarək Ramazan ayında öz nəfsi istəklərinə qələbə çalır), bəzən "qurban" bayramı kimi həcc əməllərini yerinə yetirməkdə müvəffəqiyyət qazanılan gün, bəzən də "Qədir-Xum" bayrama kimi saleh bir imamın təyin edildiyi gün.

"Təkvini" bayramlar isə, həqiqətdə, təbiət aləminə qayıdışdır və təbiətlə əlaqəli olan "novruz" bayramını

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 428.*

bu qəbildəndir.

Deməpk, imam Əli (ə) insanın öz nəfsi istəklərinə qələbə çalmasına müvəffəq olduğu, şeytandan uzaqlaşdığı, özünün böyük düşmənini düşmən bildiyi, bir sözlə, Allaha itaətsizlik etmədiyi günü "bayram" adlanır.

Buna əsasən, "novruz" bayramı "təşrii" bayram yox, "təkvini" bayram sayılır və onun "təşrii" bayram olması barədə nəql olunan rəvayətlər mötəbər deyildir.[1]

"Novruz" bayramı müxtəlif müsbət və mənfi xarakterlər daşıyır. Onun müsbət xarakterlərinə təmizlik, qohumlara baş çəkmək, yoxsul təbəqəyə kömək etmək və s. əməlləri, mənfi xarakterlərinə isə, xurafatçılıqlar, ağır xərclər, təəssübkeşliklər, günah dolu səfərlər, məhrəmlik sərhəddinin pozulması və s. işləri misal çəkmək olar. Əgər onun mənfi yönlərindən uzaqlaşıb müsbət yönləri dirçəlsə, uyğun hədisə əsasən, təbiətlə bağlı keçirilən "novruz" bayramı "təşrii" bayram qismindən də sayılacaqdır. Əks-təqdirdə isə, imam Əlinin (ə) nəzərində belə bir gün bayram deyildir.

Diqqəti cəlb edən odur ki, İslam camaatın etiqad bəslədikləri bu sayaq adət-ənənələri müsbət istiqamətlərə yönəltməyə və yaxud yeni təfsirlə onun mənfi yönlərini aradan qaldırmağa çalışmışdır. Misal üçün, İslam "fılan qadının ayağı uğursuzdur" kimi sözləri mənfilikdən çıxararaq xüsusi şəkildə təfsir etmişdir. Bir rəvayətdə buyurulur:

مِنْ بَرَكَةِ الْمَرْأَةِ قِلَّةُ مَهْرِها وَ مِنْ شُوْمِها كَثْرَةُ مَهْرِها؛

*"Mehriyyəsi az olan qadınların ayaqları uğurlu, mehriyyəsi*

*1. Bu barədə nəql olunan rəvayətlərin bir qismi "Mizanul-hikmət" kitabında (7-ci cild, səh. 132, fəsil 3006) mütaliə edə bilərsiniz.*

*çox olan qadınların ayaqları isə uğursuzdur."*[1] Bu nöqtə başqalarının adət-ənənələri ilə bağlı diqqəti özünə cəlb edir!

1. *"Vəsailüş-şiə", 15-ci cild, fəsil 5, hədis 8.*

# 79

## XƏBƏRSİZ QAFİLLƏR

İmam Əli (ə) buyurmuşdur:

كَمْ مِنْ غافِلٍ يَنْسَجُ ثَوْباً لِيَلْبِسَهُ وَ انَّما هُوَ كَفَنُهُ، وَ يَبْنى بَيْتاً لِيَسْكُنَهُ وَ انَّما هُوَ مَوْضِعُ قَبْرِه؛

***"Nə çox qafillər var ki, geyinmək üçün libas hazırlasalar da, həmin libas onların kəfənləri olacaq, yaşayış üçün ev tiksələr də, həmin ev onların qəbirləri olacaqdır."[1]***

### *Şərh və təfsir*

**Sual:** Qəflət nemətdir, yoxsa bəla?

**Cavab:** Qəflət bir cəhətdən ilahi nemət sayılır; çünki qəflətsiz həyat mümkünsüzdür! Əziz cavanını itirmiş bir ailəni təsəvvür edin. Əgər öz övladının ölümünün ilkin günlərindəki qəm-qüssə sonralar davam etsə, tez bir zamanda onların özləri də əldən çıxacaqlar. Lakin tədricən qəflət pərdələri bir ilahi nemət olaraq bu müsibət üstünü alır və onu unutqanlığa tapşırır. Həmçinin

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 382.*

vəfasızlıq, xəyanət, zərər-ziyan, məğlubiyyətlər və bu kimi digər gərginliklərdə qəflət insanın dadına çatır. İmam Sadiq (ə) "Tövhidi-Müfəzzəl"də bu haqda söz açmışdır.[1]

Əlbəttə, bu ilahi nemətdən düzgün istifadə etmədikdə və həddi aşdıqda, bəlaya çevrilir. Nəsim külək nemətdir; çünki havanı dəyişir və təmizləyir, gülləri çiçəkləndirir və meyvələri yetişdirir. Amma həddini aşıb tufana çevrildikdə, böyük müsibət və fəsadlara səbəb olur. Demək nəsim külək orta həddə nemət, onu aşdıqda isə, bəladır.

Qəflət belədir; əgər insan ömrünün sonu, ölümü, Allahı və məadı unutduqda, bədbəxtlik sənədini imzalayır və bəzən də əvəzsiz zərərlərə düçar olur. Həyatının son anlarına kimi qəflət yuxusunda qalan və ölümlə qəflət yuxusundan ayılaraq onun əvəzini ödəmək üçün vaxtı olmayan insan buna misaldır.

## *Qəflətlə mübarizə yolları*

İlahi övliyalar camaata belə qəflətləri aradan qaldırmaq üçün xəbərdarlıq etmişlər. Həmin xəbərdarlıqlar və qəflətlə mübarizə yollarından biri ölümü xatırlamaqdır. "Hər gecə öz vəsiyyətnaməni başının altına qoy!"[2] – kimi rəvayətlərdə məhz həmin məqsəd güdülür. İmam Əli (ə) sözügedən hədisdə elə bu mətləbi izləyir və ölümü yad etməklə qafilləri ayıltmaq istəyir. Həzrət buyurur: "Qafil insan dünyada eyş-işrət içrə yaşamaq üçün bir parça geyim hazırlayır, amma həmin parçanın onun öz kəfəni olacağından xəbərsizdir!" Məxsusən, qəfil ölümlərin çoxaldığı bugünkü günümüzdə qafil insan

*1. "Biharul-ənvar", 3-cü cild, səh. 57.*

*2. "Vəsailüş-şiə", 13-cü cild, səh. 352, hədis 5 və 7.*

yaşayış üçün əzab-əziyyətlərə sinə gərərək bir ev tikir, amma həmin evin onun məqbərəsi, vəfat etdiyi və dəfn olunduğu yer olacağından qafildir! Böyük şəhərlərin qəbiristanlıqlarında öncədən qəbirqazanlar tərəfindən qəbirlər qazılaraq hazırlanır və nə çox qəbirqazanlar var ki, başqaları üçün qazdıqları qəbirlərdə basdırılırlar!

Bir sözlə, qəflət adi halda nemət, əks-təqdirdə isə bəladır.

# 80

## QEYBƏT – ACİZLƏRİN TƏLAŞI

İmam Əli (ə) buyurmuşdur:

الْغيبَةُ جُهْدُ الْعاجِزِ؛

***"Qeybət aciz insanların (son) təlaşıdır."*[1]**

### *Şərh və təfsir*

"Kəbirə" (böyük) günahlar içərisində "qeybət" ən çirkin və rəzil günahlardandır və onun neçə əsas amili vardır:

**1. Ədavət və qisas hissi:** Daxildəki ədavət və kin-küdurət şölələrini söndürmək üçün qeybət və qarşı tərəfin abır-heysiyyətini aparmaq çox asan və sadə yoldur.

**2. Paxıllıq:** Paxıl adam həmişə bəyənmədiyi müqabil tərəfin sahib olduqlarını itirməyi və onun pisliyini istəyir, məqsədinə çatmadıqda da, onun etibarını sındırmaq, abır-heysiyyətini aparmaq üçün nöqsanlarını faş etməklə həsəd və paxıllıq alovunu söndürməyə, özünü rahatlaşdırmağa çalışır.

---

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 461.*

*3. Günahı yozmaq:* Bəzən, başqalarının eyiblərini faş etməklə öz əməlini adiləşdirmək və onu yozmaq digər bir əsas olur.

**4. İstehza:** Əlbəttə, istehza və masqaranın müxtəlif səbəb və amilləri vardır ki, ona adət edən insan bəzən həmin boşluğu qeybətlə doldurur.

**5. Əylənmək:** Bəzən də səbəbsiz yerə yalnız əylənmək və boş vaxtı doldurmaq, yaxud məclisi qızışdırmaq üçün başqalarının qeybəti gedir, eyiblər aranır. Çünki belə məclislərdə qeybət hamıya şirin görünür. Diqqət yetirmək lazımdır ki, camaat istirahət və əyləncədən ləzzət aldığı kimi, kimisə güldürmək və başqalarını da əylənməyə çəkməkdən ləzzət alır.

**6. Hadisələrə qarşı instinktiv reaksiya:** İnsandakı bu güclü instinkt onu başqalarını (israrla) qeybətə, hər kəsin eyib və zəif cəhətlərini açmağa sövq edir. Bəlkə də, bəzilərinin nəzərində qeybətin şirinliyi elə bu hissdən qaynaqlanır. Beləlləri başqalarının sirlərindən agah olmaq, eyiblərini arayıb-axtarmaqdan ləzzət alır və buna görə də, təkid və hərisliklə qarşı tərəfi qeybətə məcbur edirlər.

Hədisdə buyurulur: *"Qeybət edən şəxs tövbə etsə, behiştə girən axırıncı şəxs, tövbə etməsə, cəhənnəmə girən birinci şəxsdir."*[1]

Qeybət "həqqün-nas"a (camaatın haqqı) aid hüquqların sırasındadır. "Hücurat" surəsinin 12-ci ayəsində qeybətin (ölmüş) mömin qardaşın ətinin yeyilməsinə bənzədilməsindən belə məlum olur ki, bu əməl zülmün növlərindəndir və insanın boynuna haqq

*1. "Biharul-ənvar", 72-ci cild, səh. 222.*

qoyur.[1]

Başqa bir hədisdə belə buyurulur: *"Qiyamət günü qeybət edilən şəxsin abır-heysiyyətinin xəsarətinin əvəzini vermək üçün qeybət edən şəxsin savab işlərini onun əməl dəftərinə köçürüləcək və əgər onun bir savabı olmasa, qeybət edilənin günahları qeybət edənin əməl dəftərində yazılacaqdır."*[2]

Demək, ağıllı insan heç vaxt qeybət qırmaz. Çünki qeybət edilən (qarşı tərəf) ya onun dostu, ya da düşmənidir. Əgər dostudursa, ağıllı insan heç vaxt öz dostunun cəsədinin ətini yeməyə razı olmaz və əgər düşmənidirsə, qiyamət günü öz savab işlərinin onun əməl dəftərinə köçürülməsinə və yaxud onun günahlarının cəzasına dözməyə razı olmaz!

Beləliklə, sağlam əql hökm edir ki, bu böyük günahı öz həyatımızdan yumaq üçün bir-birimizə kömək etməli və cəmiyyətə onun acınacaqlı nəticələrindən nicat verməliyik!

---

*1. Bu ayənin təfsiri ilə bağlı məlumat əldə etmək istəyənlər "Quranın gözəl misalları" (2-ci cild) kitabının "qeybət" fəslini mütaliə edə bilərsiniz.*

*2. "Əl-muhəccətul-beyza", 5-ci cild, səh. 273.*

# 81

## AĞILLI İNSANLA NADANIN FƏRQİ

İmam Əli (ə) buyurmuşdur:

الْعاقِلُ عَدُوٌّ لَذَّتِه وَ الْجاهِلُ عَبْدُ شَهْوَتِه؛

***"Ağıllı insan nəfsi istəklərinin düşməni, nadan isə ehtirasının quludur."*[1]**

### *Şərh və təfsir*

İnsanı başqa canlı varlıqlardan fərqləndirən onun ağlıdır, yoxsa, insan cismi baxımdan çox zəif və möhtac bir varlıqdır və hətta "tibb" elminin bir hissəsini heyvanlardan öyrənmişdir! Bəzi heyvanlar xəstələndikləri zaman məxsus bitkilərdən qidalanır və sağalırlar. Beləcə, insan onlardan bəzi xəstəliklərin müalicə yolunu kəsb etmişdir. İnsanın çətinliklər və təbii bəlalar müqabilində heyvanlarla müqayisədə dözümsüzdür. Ona üstünlük verən ağlıdır; elə bir ağıl ki, onu dünyanın mütləq hakimi etmişdir.

Burada belə bir sual yaranır: Ağıl nədir?

Materialistlərin nəzərincə, insanı azacıq zəhmətlə ən

---

*1. "Mizanul-hikmət", 6-cı cild, səh. 420, fəsil 2805, hədis 13173.*

böyük mənfəətə yetirən ağıldır! Amma allahpərəstlərin nəzərinə əsasən, ağıl Allahın razılığını qazanan və insanı səadətə çatdıran bir amildir![1]

İmam Əli (ə) ağılı şərh edərkən buyurur: *"Ağıllı insan nəfsi istəklərinin düşməni, nadan və ağılsız insan isə ehtirasının qulu və əsiridir."* Hədisdə qeyd olunan "ləzzət" sözü "nəfsi istəklər" mənasındadır, çünki İslam "ləzzət"lə müxalif olmadığı kimi,[2] hətta insana öz vaxtının bir hissəsini sağlam ləzzət və əyləncə ilə keçirəcəyini göstəriş vermişdir ki, günün qalan vaxtında öz işlərini görmək üçün enerji toplaya bilsin. Demək, hədisdə göstərilən "ləzzət" sözündə, qanunsuz nəfsi istəklər nəzərdə tutulur.

Hədisin növbəti cümləsində işlənən "şəhvət" (ehtiras) sözü bizim bu müddəamıza tutarlı şahiddir. Ona əsasən, nəfsi istəklər, cinsi ehtiraslar, narkotik maddələr, fitnə-fəsad, eyş-işrət, ayrıseçkilik, ədalətsizlik və haqsızlıq içərisində qərq olunan çağdaş dünyamız ağıllı dünya hesab edilmir.

İlahi, bizi nəfsi istəklər və ehtiraslar əsarətindən azad et!

---

*1. Bir nəfər imam Sadiqdən: "Ağıl nədir?" – deyə soruşduqda, İmam (ə) belə buyurdu: "Ağıl insanı Allahın pərəstişinə yönəldir və nəhayət, behiştə aparır." ("Biharul-ənvar", 33-cü cild, səh. 170.)*

*2. "Əraf" surəsinin 32-ci ayəsində buyurulur:* ***"De: "Allahın Öz bəndələri üçün yaratdığı zinətləri və pak ruziləri kim haram etmişdir?!""***

# 82

## HƏCCİN MÜHÜM FƏLSƏFƏSİ

İmam Əli (ə) buyurmuşdur:

وَ فَرَضَ عَلَيْكُمْ حَجَّ بَيْتِهِ الْحَرامِ، الَّذى جَعَلَهُ قِبْلَةً لِلْانامِ،
يَرِدُونَهُ وُرُودَ الْانْعامِ، وَ يَأْلَهُونَ الَيْهِ وُلُوهَ الْحَمامِ ... وَ تَشَبَّهُوا
بِمَلائِكَتِهِ الْمُطيفينَ بِعَرْشِه؛

***"Böyük Allah Beytül-Həramın ziyarətini sizə vacib etdi və onu xalqın qibləsi etdi. Həcc ziyarətini yerinə yetirənlər oraya dördayaqlılar kimi daxil olar, göyərçinlərin** (öz yuvalarına olan) **şövqü kimi ora gəlməyə şövqlə can atarlar... və özlərini Allah-Taalanın ərşini təvaf edən mələklərə oxşadırlar."[1]***

### *Şərh və təfsir*

Həcc ən mühüm ibadətlərdəndir və müxtəlif yönlərdən ibarətdir ki, hər biri digərindən daha mühümdür. Onun mühüm yönlərindən biri əxlaqdır ki, imam Əli (ə) bu hədisdə ondan söz açmışdır.

*1. "Nəhcül-bəlağə", xütbə 1.*

Həcc ilə bağlı bu hədisdə qeyd olunan ifadələrdən dolğunu təsəvvür olunmur; Kəbə ilahi lütf və mərhəmətin qaynar bulağı, müsəlmanların ağır hadisələr müqabilində əmin-amanlıq sığınacağı və Allahın ərşi kimi Ona yaxın mələklərin təfaf etdiyi məkandır. Deməli, həcc müsəlmanların ağır hadisələr, çətinliklər, bəla və müsibətlər zamanı sığınacaq mərkəzidir. Həcc susuzları sirab edir. Amma çağdaş dünyamızda həccin mahiyyətinin aradan qaldırılması üçün iki təhlükə diqqəti özünə cəlb edir:

1. Həcc səfərinin maddi bəzəklərinə hədsiz dərəcədə diqqət yetirmək, Məkkə ilə Mədinə şəhərlərini alış-veriş bazarları kimi tanımaq və həcc səfərində məhz bu məqsədi güdmək həccin fəlsəfəsini hədələyən ən böyük təhlükədir. Təəssüf ki, həcc mərasiminin başlanğıcından qurtardığı günə qədər bir qrup zəvvarın qəm-qüssəsi qohum-əqrəbaya və dost-tanışlara hədiyyə almaqdır. Halbuki həccin fəlsəfəsi insanları qısa bir müddətdə maddi həyatdan uzaqlaşdırıb mənəvi vadiyə daxil etməkdir. Lakin aldadıcı və ötəri iqtisadi bərbəzəklər, sovqat və hədiyyə məsələsinə hədsiz dərəcədə əhəmiyyət vermək elə maddi batlaqlarda çapalamağa səbəb olur.

2. Bəzilərinin nəzərində isə həcc səfəri istirahət xarakteri daşıyır. Elə bu səbəbdən də, daim lüks hotellər, dadlı yeməklər, modern maşınlar və ən yaxşı imkanlar haqqında düşünür və yalnız həccin maddi zinətlərinə diqqət yetirirlər. Bu da həcci hədələyən növbəti bir təhlükədir.

Odur ki, müsəlmanlar həmişə oyaq olmalıdırlar. İslam müxalifləri və düşmənləri həccin dini yönlərinin nəzərlərdən qaçırılması yolunda yorulmadan çalışırlar.

Müsəlmanlar “Kumeyl” və “Nüdbə” duaları, “Aşura” ziyarəti, “etikaf”, “cümə” və “camaat” namazları, “həcc” və “ümrə” kimi ictimai ibadətləri son dərəcədə təntənəli şəkildə yerinə yetirməyi unutmamalı və beləcə, İslam düşmənlərinin xar olmalarına səbəb olmalıdırlar.

# 83

## QURAN – QƏLBLƏRİN BAHARI

İmam Əli (ə) buyurmuşdur:

وَ فيهِ رَبيعُ الْقَلْبِ، وَ يَنابيعُ الْعِلْمِ، وَ ما لِلْقَلْبِ جِلاءٌ غَيْرُهُ؛

***"Qəlbin baharı və elmin çeşmələri Qurandadır və qəlbin ondan başqa cilası yoxdur."*[1]**

### *Şərh və təfsir*

Üç hissədən ibarət olan bu hədis dərin mənaları aşılayır, məxsusən, Qurani-Kərimlə bağlı bu gözəl ifadələri dilinə gətirən şəxs Quran ayələri ilə yoğurulmuş və nazil olduğu ilk gündən Peyğəmbərin (s) kənarında, Quranın xidmətində olmuş və onu qələmə almışdır. Bir sözlə, bu sözün sahibi elə bir şəxsdir ki, Quranı mütləq ondan öyrənmək lazımdır! Çünki onun İbn Abbas kimi şagirdi böyük Quran təfsirçisidirsə, onun özü başqa bir aləmdir!

Bu qısa müqəddimədən sonra yuxarıdakı hədisin ifadələri barədə qısa şərhə başlayırıq:

---

*1. "Nəhcül-bəlağə", xütbə 1.*

1. وَ فيهِ رَبيعُ الْقَلْبِ – "Qəlbin baharı Qurandadır." Bahar fəslində bitkilər cücərir, gül-çiçəklər açılır, ağaclar, meşələr və səhralar yaşıllaşır və bir sözlə, təbiətə xüsusi gözəllik və təravət hakim kəsilir. Quran nəsiminin qəlblərə əsdiyi zaman qəlblərin baharı başlanır. Əxlaq gülləri və səciyyəvi xüsusiyyətlər çiçəklənir, səbir və təvazökarlıq ağacları yaşıllaşır, günahların təsirindən insanın vücudunda bağlanan buzlar yavaş-yavaş əriyir, ölüm və həlakət qoxusu verən qışın qalıqları tədricən aradan qalxır. Aydındır ki, Quranın xidmətində hər nə qədər çox olsaq, bahar bir o qədər də qəlblərimizi təravətli və səmərəli edəcəkdir.

2. وَ يَنابيعُ الْعِلْمِ– *"Elmin çeşmələri Qurandadır."* Hədisdə qeyd olunan يَنابيع "yənabi" sözü "yənbu" sözünün cəm forması olub "çeşmə" və "bulaq" mənasını daşıyır; bir çeşmə yox, əksinə Quranda göstərilən bir çox elm və bilik çeşmələri. Elə buna görə də, insan Quranın üzərində işlədikcə və təfəkkür etdikcə, yeni-yeni məfhumlar və mətləblər əldə edəcəkdir. Bunun dəlil-sübutu isə qədim təfsir kitabları ilə müqayisədə yeni təfsir kitablarında qeyd olunan yeni nöqtə və mətləblərdir.

On dörd il Əfqanıstan zindanında yatan böyük alim Əllamə Bəlxi deyirdi: "Bu müddət ərzində Qurani-Kərimi min dəfədən çox xətm etməyə müvəffəq oldum! Hər dəfə Quranı sona yetirdikdə, əvvəlki xətmdə ələ gətirə bilmədiyim yeni mətləblər ələ gətirirdim." Şübhəsiz, əgər yenə təkrar etsəydi, yeni-yeni mətləblər kəşf edəcəkdi.

Biz "Təfsiri-nümunə" kitabını davamlı şəkildə on beş il ərzində yazdıq və yeddi il də "Peyami-Quran" kitabının təlifi çəkdi. Ümumiyyətlə, iyirmi iki il davamlı

şəkildə Quranın üzərində işlədik və heç bir şəraitdə onu tətil etmədik. Amma yenə Quranı tilavət etdiyim zaman yeni mətləblərə kəşf və qeyd edirəm ki, Allahın köməyi ilə gələcəkdə çap edəcəyəm. Bəli, qaynar elm çeşmələri Qurani-Kərimdədir.

3. وَ ما لِلْقَلْبِ جِلاءٌ غَيْرُهُ – *"Qəlbin Qurandan başqa cilası yoxdur."* Qəlbinin Allahdan qəflətin, haqdan uzaqlaşmağın və günahın təsirindən qəsavət bağlandığını hiss etdikdə, Qurani-Kərimi açaraq ayələrini tilavət və onların üzərində təfəkkür et ki, qəlbin cila və nuranıləşsin.

İmam Əli (ə) mübaliğə əhli deyil və üç hissədən ibarət olan yuxarıdakı kəlamı Qurani-Kərimlə bağlı danılmaz həqiqətlərdir. O həzrət başqa bir hədisdə belə buyurmuşdur:

لَيْسَ عَلى أَحَدٍ بَعْدَ الْقُرْآنِ مِنْ فاقَةٍ، وَ لا لِاحَدٍ قَبْلَ الْقُرْآنِ مِنْ غِنىً؛

*"Heç kəs Qurandan (onu öyrənəndən, mənalarında düşünəndən və hökmlərinə əməl edəndən) sonra (öz dünya və axirəti üçün bir şey öyrənməyə) möhtac olmaz. Heç kəs Qurandan (onunla tanış olandan) qabaq (öz xeyir və ziyan yolunu müxtəlif elm və kitablar vasitəsi ilə tapacağını güman edib ondan) ehtiyacsız olmaz."*[1]

Deməks, Qurana əməl etməkdə bir an belə şəkk və tərəddüdə yol verməməliyik ki, başqaları ona əməl etmədikdə bizdən irəli keçməsin. İmam Əli (ə) ömrünün son anlarında və xəstəlik yatağında ikən buyurmuşdur: *"Məbada başqaları Qurana əməl etməkdə sizdən irəli keçsin."*[2]

1. *"Nəhcül-bəlağə", xütbə 176.*
2. *"Nəhcül-bəlağə", xütbə 47.*

# 84

## QURAN VƏ EHTİYACSIZLIQ

İmam Əli (ə) buyurmuşdur:

لَيْسَ عَلى أَحَدٍ بَعْدَ الْقُرْآنِ مِنْ فاقَةٍ، وَ لا لِاحَدٍ قَبْلَ الْقُرْآنِ مِنْ غِنىً؛

***“Heç kəs Qurandan** (onu öyrənəndən, mənalarında düşünəndən və hökmlərinə əməl edəndən) **sonra** (öz dünya və axirəti üçün bir şey öyrənməyə) **möhtac olmaz. Heç kəs Qurandan** (onunla tanış olandan) **qabaq** (öz xeyir və ziyan yolunu müxtəlif elm və kitablar vasitəsi ilə tapacağını güman edib ondan) **ehtiyacsız olmaz.”**[1]*

### *Şərh və təfsir*

İmam Əli (ə) “Nəhcül-bəlağə”də Qurani-Kərim barəsində gözəl və inci mətləblər bəyan etmişdir ki, onların biri də qeyd etdiyimiz hədisdir. Bu hədisə əsasən, bəşərin bütün fərdi, ictimai, əxlaqi, iqtisadi, hərbi və bu kimi digər ehtiyacları Quranda mövcuddur. Elə buna

---

*1. “Nəhcül-bəlağə”, xütbə 176.*

görə də, Quranla ünsiyyətdə olub ona əməl edənlər, heç vaxt möhtac olmaz. Amma ondan üz çevirənlər isə, hər bir şeyə sahib olsalar da, yenə də möhtacdırlar. Qurani-Kərimin nəinki hamısı, hətta bir ayəsi belə, insanın bütün ömrünə və onun ehtiyacsızlığına bəsdir və bu, onun həyatı üçün uyğun örnək ola bilər. Necə ki, "Zilzal" surəsinin axırıncı ayəsi bədəvi ərəblərin həyatını işıqlandırdı: Nəql edirlər ki, bir ərəb[1] İslam Peyğəmbərinin (s) hüzuruna gəlib dedi: "Ey Allahın Peyğəmbəri, mənə Quran öyrət!"

İslam Peyğəmbəri (s) səhabələrindən birini çağırıb, ona göstəriş verdi ki, həmin şəxsə Quran öyrətsin. O həzrətin səhabəsi ona "Zilzal" surəsini öyrətdi. Həmin şəxs "Zilzal" surəsini öyrəndikdən sonra Peyğəmbərlə (s) xudahafizləşib getmək üçün ayağa qalxdı. Hamı təəccüb etdi. Peyğəmbər (s) buyurdu: "Hara gedirsən?" O dedi: "Ey Allahın Peyğəmbəri! Bu surəsinin iki son ayəsi mənim həyatımın sonuna qədər kifayətdir:

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ. وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

***"Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eyni ilə təcəssümünü) görəcəkdir. Hər kim (də) bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir."***[2]

Peyğəmbər (s) buyurdu: "İcazə verin getsin ki, o, fəqih (alim) oldu."[3]

Bəli, qiyamət günü bir zərrə ağırlığında olan söz və

---

*1. "Pərtovi əz Quran" kitabının müəllifi həmin kitab ın 30-cu fəslinin 2-ci hissəsində (səh.224) belə yazır: "O, Fərəzdəqin cəddi Səsəə ibn Naciyədir."*

*2. Peyğəmbər (s) bu iki ayəni "camiə", o həzrətin Abdullah ibn Məsud adlı səhabəsi isə "Quran ayələrin ən möhkəmi" adlandırmışdır. ("Məcməül-bəyan", 5-ci cild, səh. 527.)*

*3. "Təfsiri-nümunə", 27-ci cild, səh. 231.*

əməllərinin təcəssüm olacağı və onların müqabilində sorğu-suala tutulacağına qəlbən inanan şəxs həyatı boyu günah və xətalardan uzaqlaşmağa və yaxşı işlər görməyə çalışacaqdır.

Bəli, Quranla ünsiyyətdə olan və ona əməl edən insan möhtac olmaz və onsuz bütün imkanlara sahib olsa da, möhtac olacaqdır.

Bəziləri ilahi maarifdən məhrum, eyni zamanda bütün maddi imkanlara sahib olan qərblilərin xoşbəxt olduqlarını təsəvvür edirlər. Halbuki qərb sivilizasiyasının beşiyi olan Amerika bəşərin ən mühüm ehtiyacından, əmin-amanlıq və təhlükəsizlikdən məhrumdur! Amerikanın əksər şəhərlərində gecə gəzintisi qorxulu və təhlükəlidir! Hətta üstündə böyük məbləğ pul olan insanın gündüz gəzməsi təhlükəsiz deyildir. Fransız alimlərindən birinin dediyi kimi, Amerikanın bütün dəyərləri dollarda yekunlaşır və hər bir şey ona fəda edilir. Dollar onların tanrıları və onlar da dolların qullarıdır! Onların məktəbli uşaqları məktəblərdə müəllim və sinif yoldaşlarını silahla hədələyir və ölümlə nəticələnən belə hadisələrin sayı da az deyildir.

Hər halda, biz müsəlmanlar Allahın əvəzsiz və saysız-hesabsız nemətlərinə şükür etməli, Quranın nurlu ayələrini dərk etmək və bu şəfabəxş nüsxəyə əməl etmək üçün çalışmalı və başqalarını da ona əməl etməyə təşviq etməliyik.

# 85

## TƏQVA – MÖHKƏM QALA

İmam Əli (ə) buyurmuşdur:

فَاعْتَصِمُوا بِتَقْوَى اللَّهِ، فَانَّ لَها حَبْلًا وَثِيقاً عُرْوَتُهُ، وَمَعْقِلًا مَنِيعاً ذِرْوَتُهُ؛

***"(Ey müsəlmanlar!) Təqvadan və Allah qorxusundan yapışın ki, təqva dəstəyi möhkəm olan bir kəndir və zirvəsi bərk olan bir sığınacaqdır."[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) xütbəsinin bu hissəsində təqva və pərhizkarlıq üçün iki təşbeh bəyan etmişdir:

Hədisin birinci hissəsində təqvanı dəstəyi möhkəm və qırılmaz olan bir kəndirə bənzətmişdir. Bu təşbeh Quran üçün də bəyan olunmuşdur.[2]

Bu təşbeh, iki mətləbdən birinə işarə ola bilər:

---

*1. "Nəhcül-bəlağə", xütbə 190.*

*2. İmam Rzadan (ə) nəql olunan bir hədisdə Qurani-Kərim möhkəm və qırılmaz bir kəndirə bənzədilmişdir. ("Mizanul-hikmət", 8-ci cild, səh. 70, fəsil 3294, hədis 16136.)*

1. Dünya insanların dərinliyində yaşadıqları bir quyu kimidir; belə bir şəraitdə onların həmin quyudan nicat tapması üçün möhkəm bir kəndir lazımdır. İmam Əli (ə) də bu hədisdə təqva və pərhizkarlığı insana nəfsi istəklər və maddiyyat adlı quyudan nicat verən bir kəndirə bənzədir.

2. Qorxulu və təhlükəli dərə-təpələri olan hündür zirvə və dağları fəth etmək istəyənlər, adətən, özləri ilə birlikdə uzun bir ip götürür və hamılıqla həmin ipdən yapışırlar ki, bir nəfərin ayağı sürüşdükdə, qalanları onu saxlaya bilsinlər. Bu zaman onların hamılıqla süqut etmə ehtimalı azdır. Deməк, ayağı sürüşən şəxs həmin ipdən yapışdığı üçün süqut etmir.

Bəlkə də, Qurani-Kərimin وَ اعْتَصِمُوا بِحَبْلِ اللَّهِ جَميعاً وَ لاتَفَرَّقُوا ***(Hamılıqla Allahın ipindən möhkəm yapışın və parçalanmayın.)***[1] – ayəsi elə bu mətləbə işarədir ki, səadət zirvəsinin bütün yolçuları Allahın ipindən yapışdıqda, bəzilərinin ayaqları büdrəsə də, qalanları onları süqut etməkdən saxlayarlar.

İkinci təşbehdə isə, təqva düşmənin əlindən uzaq olan bir zirvəyə bənzədilir və təqvalı insan əlçatmaz zirvəyə yüksəlir.

Bəli, ilahi təqva ipindən yapışan insan nəfsi istəklər adlı qorxulu quyudan rahat çıxaraq səadət və təkamül zirvəsinə ucalar və düşmənin əlindən uzaq əmin-amanlıq bir sığınacaqda yerləşər.

*1. "Ali-İmran" surəsi, ayə: 103.*

# 86

## FƏTHOLUNMAZ QALA

İmam Əli (ə) buyurmuşdur:

اعْلَمُوا عِبادَ اللَّه، انَّ التَّقْوى دارُ حِصْنٍ عَزيزٍ، وَ الْفُجُورَ دارُ حِصْنٍ ذَليلٍ، ... الا وَ بِالتَّقْوى تُقْطَعُ حُمَةُ الْخَطايا، وَ بِالْيَقينِ تُدْرَكُ الْغايَةُ الْقُصوى؛

***"Ey Allahın bəndələri! Bilin ki, təqva möhkəm qala, günah (pislik) isə zəlil və süst qaladır.... Agah olun, təqva ilə günahların zəhərli dişi çıxarılır, yəqinliklə yüksək məqamların sonu*** *(əbədi cənnət)* ***əldə olunar."***[1]

### *Şərh və təfsir*

Allah-Taala bu dünyada cismən və ruhən müxtəlif bəla və müsibətlərə məruz qalan insanın cismində mikrobları dəf edən dafiə qüvvəsi yaratmışdır ki, onsuz insanın ömrü az olacaqdı. Təəssüf ki, əsrimizin ərməğanı sayılan "QİÇS" xəstəliyi insanın cisminin dafiə qüvvəsini itirir.

Allah-Taala əxlaqi və psixoloji məsələlərdə də ruhi-

*1. "Nəhcül-bəlağə", xütbə 157.*

mənəvi xəstəliklərin qarşısını alan “təqva” adlı dafiə qüvvəsi yaratmışdır. Təqvasız insan “SPİD” xəstəliyinə yoluxanlara bənzəyir. Uyğun hədisdən gözəl təşbehlə yanaşı, iki mühüm incəlik də aydınlaşır:

1. Təqva batini dafiə qüvvəsidir, təqva ədalətdir, ədalət də təqvadır və təqva yüksək mərhələlərə çatdıqda, “isмət” adlanır.

2. İslam düşmənlərinin İslam mədəniyyətinə qarşı hücumları ilə ən yaxşı mübarizə yolu təqvadır. Biz cismin sağlamlığının qorunması üçün cəmiyyəti tamamilə mikroblardan təmizləyə bilməsək də, bədənin dafiə qüvvəsini gücləndirə bilərik. Ruhi-mənəvi məsələlərə gəldikdə də, cəmiyyəti bütün çirkin və rəzil sifətlərdən, düşmənin dəyərlərə zidd hücumlarından saxlaya bilməsək də, təqvanı daxilən gücləndirib, təqva qüvvəsi sayəsində onunla mübarizə apara bilərik.

# 87

## SƏXAVƏT ZİRVƏSİ

İmam Əli (ə) buyurmuşdur:

غايَةُ الجُودِ انْ تُعْطى مِنْ نَفْسِكَ المَجْهُودَ؛

***“Səxavətin sonu (zirvəsi) güçü qədər başqalarına bəxşiş etməkdir.”[1]***

### *Şərh və təfsir*

Varlıq aləmində mövcud olan bütün varlıqlar zatən və təbiətcə səxavətlidir və sahib olduqlarını başqalarının ixtiyarında qoyurlar. Onlardan parlaq günəşi misal göstərə bilərik. Günəş daim işıq, enerji və istiliyini varlıq aləminə bəxş edir və bu bəxşişin nəticəsində, hər gün onun çəkisi üç yüz milyon ton azalır! Bununla belə, bu bərəkətli varlıq yanan şam tək kainatı işıqlandırır.

Kainatın ən üstün və şərəfli varlığı və bütün varlıq aləminin yaranış məqsədi, mələklərdən üstün və yer üzündə Allahın xəlifəsi və nümayəndəsi olan insan da bu ümumi qanunla uzlaşaraq başqalarını sahib olduğu

*1. “Əl-irşad”, Şeyx Müfid, səh. 158. (“Mizanul-hikmət” kitabından nəqlən, fəsil 633, hədis 2977.)*

imkanlardan məhrum etməməli və kainatın səxavətli mövcudlarının rənginə boyanmalıdır. Görəsən, Allahdan hər bir şey istəyən, istəklərinə nail olmaq istəyən və istəklərinin yerinə yetirilməsinə ümidvar olan insanın paxıllıq etməsi və başqasının hacətinə cavab verməməsi rəvadırmı?

Qeyd etdiyimiz hədisdə tövsiyə olunur ki, insan varlıq nizamı ilə həmahəng hərəkət etməli, gücü çatacaq qədər başqalarına yardım əlini uzatmalıdır. Səxavət və bəxşinin dünya və axirətdə mühüm təsirləri var və onun mənəvi təsirləri o qədər genişdir ki, hətta imansız səxavətli insanların cəhənnəm odundan nicat tapması mümkün olsun!

Peyğəmbəri-Əkrəmdən (s) Hatəm Tayinin oğlu Üdeyyə belə buyurduğu nəql olunur:

دُفِعَ عَنْ ابيكَ الْعَذابُ الشَّديدُ لِسَخاءِ نَفْسِه؛

***"Atandan səxavətinə görə şiddətli əzab götürüldü."***[1]

Səxavətlə bağlı söz çox olsa da,[2] lakin qeyd etdiklərimizlə kifayətlənirik; bu ümidlə ki, biz də digər varlıqlar kimi başqalarını öz imkanlarımıza şərik edək!

*1. "Biharul-ənvar", 68-ci cild, səh. 354.*

*2. Bu barədə geniş məlumat əldə etmək istəyənlər bu kitabı mütaliə etsinlər: "Əxlaq dər Quran", 2-ci cild, səh. 385...*

# 88

## İFFƏTİN ZİRVƏSİ

İmam Əli (ə) buyurmuşdur:

تَمامُ الْعِفافِ الرِّضا بِالْكَفافِ؛

***“İffətin zirvəsi insanın ehtiyacı qədər qənaət etməsindədir.”*[1]**

### *Şərh və təfsir*

Əxlaq alimlərinin nəzərinə əsasən, əxlaq və rəftarlar ifrat və təfrit arasındakı orta həddə fəzilət, ifrat və təfrit həddə isə “rəzil” sayılır. İffət – ehtirasları normal saxlamaq, qərizə və meyillərdən düzgün bəhrələnmək deməkdir. Onun ifrat tərəfi ehtiras, hərislik və nəfsi istəklərə uymaq, təfrit tərəfi isə sönüklük və tənbəllik adlanır. Məsələn, dünya malına meyil və dünya malı üçün çalışmaq həddini aşdıqda, dünyapərəstlik adlanır ki, İslamda pislənmişdir. Orta həddə və ehtiyacı qədər olduqda isə, iffət adlanır ki, İslamda bəyənilmişdir.

İmam Əli (ə) buyurur: “İffətin zirvəsi ehtiyac qədər qənaət etməkdir.”

---

*1. “Biharul-ənvar”, 74-cü cild, səh. 419.*

Tədqiqatçılar yazırlar: “Dünya sərvətləri üç yolda xərclənir:

1. Həyatın zəruri həddi; belə ki, azacıq ehtiyaclarla qənaətlənmək.

2. Rifah; həyatın zəruri həddini aşsa da, israf sayılmır.

3. Ehtiras və nəfsi istəklər; təəssüf ki, statistik məlumatlar göstərir ki, dünya sərvətlərinin böyük hissəsi üçüncü yolda xərclənir və həddi-hüdudu da yoxdur. Buna dair nümunələr çoxdur və varlı təbəqənin sarayları və villaları və dünyapərəstlərin bərbəzəkləri bunun ən bariz nümunəsidir.

Qeyd etdiyimiz hədis birinci qismə aiddir və şübhəsiz, üçüncü qismi qadağan edir. Hədis ikinci qisim də şamil ola bilər. Çünki rifah israf həddində olmasa, insanın ehtiyacları qismindən sayılır.

# 89

## GİZLİ GÜNAHLAR!

İmam Əli (ə) buyurmuşdur:

اللَّهُمَّ اغْفِرْلی رَمَزاتِ الْالحاظِ، وَ سَقَطاتِ الْالْفاظِ، وَ
شَهَواتِ الْجَنانِ، وَ هَفَواتِ اللِّسانِ؛

***"İlahi, işarəli baxışlarımı, boş söhbətlərimi, ürəyimin (yersiz) arzularını və dilimin büdrəmələrini bağışla!"[1]***

### *Şərh və təfsir*

Məsum rəhbərlərin (ə) hədislərindən başa düşülür ki, iki günahın təhlükəsi olduqca çoxdur:

1. Kiçik günahlar; adətən, dindar insanlar böyük günahlara əhəmiyyət verdikləri və onlardan qorunduqları halda, kiçik günahlarla belə rəftar etmirlər, ona görə də, ona qurşanmaq təhlükəsi vardır.

2. Gizli və insanın özü ilə Allahından başqasının bilmədiyi günahlar.

Bu hədisdə ikinci növ günahdan söz açılır və dua və bağışlanmaq xarakteri daşısa da, həqiqətdə, insanların

---

*1. "Nəhcül-bəlağə", xütbə 78.*

belə günahlardan qorunmasına tövsiyə olunur.

İstehza, təhqir, işarəli baxışlar, yersiz işarə və zarafatlar və nalayiq sözlər kimi gizli günahlar möhtərəm insanların abır-həyasını aradan aparır və riya və özününümayiş kimi günahlar da itaət və ibadətlərin qəbulu müqabilində böyük səddir.

Bir sözlə, belə günahlardan Allaha pənah aparır və Ondan istəyirik ki, bizim bu günahlarımız bağışlasın!

# 90

## TƏQVA LİBASI

İmam Əli (ə) buyurmuşdur:

فَانَّ الْجِهادَ بابٌ مِنْ ابْوابِ الْجَنَّةِ، فَتَحَهُ اللَّهُ لِخاصَّةِ اوْلِيائِه، وَ هُوَ لِباسُ التَّقْوى، وَ دِرْعُ اللَّهِ الْحَصينَةُ؛

***“Şübhəsiz, cihad Allahın xas bəndələrinin üzünə açdığı behişt qapılarından biri, təqva libası və Allahın möhkəm zirehidir.”[1]***

### *Şərh və təfsir*

Bu hədisdə “təqva” libasa bənzədilir və həqiqətdə, “Əraf” surəsinin 26-cı ayəsinə işarədir. Həmin ayədə buyurulur:

يا بَنى آدَمَ قَدْ انْزَلْنا عَلَيْكُمْ لِباساً يُوارى سَوْآتِكُمْ وَ ريشاً وَ لِباسُ التَّقْوى ذلِكَ خَيْرٌ ذلِكَ مِنْ آياتِ اللَّهِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ؛

***“Ey Adəm övladları, şübhəsiz, sizə ayıb yerlərinizi örtəcək və sizin üçün zinət olacaq bir libas (geyim) nazil etdik (onun xammalını torpaqda yaratdıq və sizə onu***

---

*1. “Nəhcül-bəlağə”, xütbə 27.*

***əldə etmək istedadını verdik). Əlbəttə təqva libası daha yaxşıdır.» Bunlar Allahın (insanlar üçün olan) ayə və nişanələrindəndir, bəlkə öyüd-nəsihət aldılar."***

Allah-Taala bu ayədə öz bəndələrinə libasla minnət qoyur və libasla bağlı ayədə qeyd olunan "ənzəlna" ***(nazil etdik)*** təbiri diqqəti cəlb edir. Çünki Allah-Taala səmadan su nazil edərək torpaqdan pambıq cücərir, heyvan otla qidalandıqdan sonra yun əldə olunur. Bütün bunlar ilahi nişanələr və insanlar üçün dəlildir. İnsan həmin yundan özləri üçün libas hazırlayır. Əlbəttə, demək olar ki, "ənzəlna" ***(nazil etdik)*** kimi təbirlərdə səma kimi yerə nisbətən yüksək məkanın nəzərdə tutulması lazım deyil, çünki Allahın xas bir məkanı olmadığından, hətta yüksək məqam da kifayətdir.

Demək, Allah-Taala libası, yer üzündə hazırlansa da, insana əta etdiyi üçün "ənzəlna" (nazil etdik) təbiri ilə işlətmişdir.

## ***Libasın rolu***

Libasın üç mühüm rolu var:

1. İnsanı xarici təhlükələrdən qoruyur;
2. İnsanın eyiblərini örtür;
3. İnsanın ehtiram və bəzəyidir. Çünki çılpaq insan heyvana bənzəyir. Odur ki, libası insan şəxsiyyətinin tablosu hesab etmək və əksər əxlaqi səciyyələri bu tabloda görmək olar. Libas tablosundan başa düşülür ki, onun sahibi hövsələsizdir, yoxsa hövsələli? Səliqəlidir, yoxsa səliqəsiz? Sərtdir, yoxsa mülayim? Ailəsi ilə rəftarı yaxşıdır, yoxsa pis?

Bir sözlə, libas bu üç məqsədi izləyir. Əgər günümüzdə məxsusən cavanların və qadınların geyindikləri libaslara nəzər yetirsək, təəssüf ki, onlardan bir qrupunun öz

geyimlərindəki əsas hədəflərin unutduqlarının şahidi olacağıq!

Bəli, təqva da üç məqsədi izləyən bir libasdır:

1. Təqva insanın ruhunu qoruyur və onu, ruhunu zədələyən və hətta insan kəramətini məhv edən əxlaqi büdrəyişlərdən saxlayır.

2. Maddi libas insanın eyiblərini örtdüyü tək, təqva da eyiblər üçün örtük səbəbidir.

3. Təqva zinət və şəxsiyyət nişanəsidir, insana mənəvi gözəllik verir. Təqvalı insan hətta təqvasız insanların nəzərində belə, möhtərəmdir.

Təqva adi bir libas deyil, əksinə ondan müharibə libası kimi də istifadə etmək olar; cihad insan həyatında daimi bir hadisə olduğundan, xüsusən, nəfslə mübarizə zamanı bu libasa ehtiyac da daimidir.

Demək, insanın bəla və təhlükələrdən qorunması, eyiblərinin örtülməsi və mənəvi gözəlliyə sahib olması üçün bu müharibə libasından daimi bəhrələnməsi zəruridir.

# 91

## MÖMİN, MÖMİNİN AYNASIDIR!

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! الْمُؤْمِنُ مِرْآةُ الْمُؤْمِنِ، لِانَّهُ يَتَأَمَّلُهُ فَيَسُدُّ فاقَتَهُ وَ يُجْمِلُ حالَتَهُ؛

***"Ey Kumeyl, mömin, mömінin aynasıdır! Çünki onun zəif cəhətlərini aradan qaldırır və üstün cəhətlərini gücləndirir."***[1]

### *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisdə bir aynanın mühüm xidmətlərindən ikisinə işarə etsə də, onların bir neçə xüsusiyyəti var ki, biz burada beşini qeyd etməklə kifayətlənirik:

1. Ayna insanın eyib və gözəlliklərini, zəif və üstün cəhətlərini, yaxşı və pisliklərini səs-səmirsiz göstərir və başqaları, hətta aynanın kənarında duranlar belə diqqət yetirmədən bu işləri yerinə yetirir və onun abır-həyasını aparmır.

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 414.*

2. Saf ayna yaxşı və pislikləri olduğu kimi (nə az, nə də çox) göstərir, birtərəfli rəftar etmir ki, dostlarının eyiblərini kiçik və yaxşılıqlarını böyük göstərsin və başqaları barədə isə əks əməl etsin.

3. Ayna insanın eyiblərini göstərsə də, əsla onu qınamır və başqalarının yanında təhqir etmir.

4. Ayna qarşısında duran şəxsin eyib və gözəlliyi həmişəlikdir və o, heç vaxt bu işdən yorulmur. Bəzilərinin əksinə olaraq, yorğun olmadığı zaman dostunun eyib və yaxşılıqları haqda düşünür, əks halda, sanki heç nə görməmiş kimi gözlərini yumur.

5. İnsan aynaya hər nə qədər yaxınlaşarsa, öz eyib və gözəlliyini daha yaxşı görəcək; bu şərtlə ki, onun müqabilindəki ayna dörd xüsusiyyətə malik oldun:

a) Ona işıq saçsın və işıqlı otaqda olsun, yoxsa bir şey əks etdirməyəcək.

b) Aynanı toz-torpaq tutmasın, təmiz və saf olsun.

c) Ayna əyir olmamalı, düz və şəffaf olmalıdır.

ç) Aynaya baxan şəxsin görən gözü olmalıdır. Kor şəxs özünü aynada görə bilməz.

Aynanın bu xüsusiyyətlərinə və möminin ona təşbeh edilməsinə diqqət yetirməklə, mömin şəxs də həmin xüsusiyyətlərə malik olmalıdır. Təəssüf ki, bəziləri başqalarının yalnız eyiblərini görür və gözlərini onun yaxşılıqlarına bağlayırlar. Buna görə də, qarşı tərəf onun sözlərini qəbul etmir.

Biz qarşı tərəfi yaxşılığa dəvət etdiyimiz zaman onun eyiblərindən qabaq yaxşılıqlarını xatırlatmalıyıq ki, eyib sahibi sözümüzü qəbul edərək eyiblərini aradan qaldırmaq fikrinə düşsün. Bəziləri başqasının eyiblərini camaatın hüzurunda faş edərək onu məzəmmət və təhqir

edir. Bəziləri də dostları ilə əlaqəni möhkəmlətdikcə, az-az eyiblərindən söz açır.

Bir sözlə, mömin, mömininin aynası olmasından əlavə, qeyd etdiyimiz dörd xüsusiyyətlə yanaşı cəmiyyətə də ayna olmalıdır. Necə ki, kütləvi informasiya vasitələri, mətbuat, kitab və sairə də ümumi xeyirxah aynalara qoşula bilər; bu şərtlə ki, istədikləri və şəxsi mənafelərini yox, həqiqəti desinlər.

# 92

## HƏQİQİ MÖMİNLƏR

İmam Əli (ə) buyurmuşdur:

الْمُؤْمِنُ وَقُورٌ عِنْدَ الْهَزاهِزِ، ثَبُوتٌ عِنْدَ الْمَكارِه، صَبُورٌ عِنْدَ الْبَلاء، شَكُورٌ عِنْدَ الرَّخاء، قانِعٌ بِما رَزَقَهُ اللَّهُ، لا يَظْلِمُ الْاعْداءَ، وَ لا يَتَحامَلُ لِلْاصْدِقاءِ، النَّاسُ مِنْهُ فى راحَةٍ، وَ نَفْسُهُ مِنْهُ فى تَعَبٍ ...؛

***"Mömin ağır hadisələr zamanı möhkəm, xoşagəlməz hadisələr zamanı sabit, bəlalar müqabilində təmkinli, nemətlər müqabilində şükür edən və Allahın ona verdiyi ruziyə qanedir. Mömin düşmənlərinə haqsızlıq etmir, öz yükünü dostlarının çiyninə yükləmir, özü əzab-əziyyətdə olsa da, camaat onun əlindən rahatlıqdadır..."***[1]

*1. "Mizanul-hikmət", 1-ci cild, səh. 332, fəsil 291, hədis 1408.*

## *Şərh və təfsir*

Möminlərin xüsusiyyətləri ilə bağlı nəql olunan hədislər çoxdur və hər biri onun şəxsiyyətinin bir guşəsini aşılayır. Bu hədisdə isə, həqiqi möminlərin doqquz xüsusiyyəti göstərilir ki, onun bir hissəsi möminin fərdi, bir hissəsi isə ictimai əxlaqına aiddir. Hədisin başlanğıcında onun fərdi xüsusiyyətindən söz açılaraq buyurulur:

1.الْمُؤْمِنُ وَقُورٌ عِنْدَ الْهَزاهِزِ، ثَبُوتٌ عِنْدَ الْمَكارِهِ – *Mömin ağır və xoşagəlməz hadisələr zamanı möhkəm və sabitdir.* "Həzzə" sözündən alınmış "həzahiz" sözü ağır və təkanverici hadisələr mənasındadır və geniş məna daşıyır. Ağır hadisələr bəzən müsibətlər, bəzən düşmən hücumları, bəzən əlacsız xəstəliklər, bəzən də zəlzələ və şiddətli qasırğalardır. Mömin bütün bu hadisələr müqabilində dağ kimi möhkəm və sabitqədəm olur, imanının köməyi ilə tufanlar müqabilində özünü itirmir, vüqarla onları arxada qoyur.

2. صَبُورٌ عِنْدَ الْبَلاء – *Mömin bəlalar müqabilində təmkinlidir.* Hər bir insanın başına gələn bəla və müsibətlər zamanı taqətsizlik etmir səbri özünə peşə seçir ki, ilahi imtahanlardan başıuca çıxsın.

3. شَكُورٌ عِنْدَ الرَّخاء – *Mömin nemətlər müqabilində şükür edəndir.* Mömin bəla və müsibət zamanı özünü itirmədiyi və təmkinli olduğu kimi, nemətin çoxluğu da onu Allahdan, yəni bu nemətlərin həqiqi sahibindən qafil etmir, rahatlıq zamanı Allahı yad və Onun nemətlərinə şükür edir. O, dildə Allahın nemətlərinə şükür etdiyi kimi, əməldə də belədir; yəni ilahi nemətləri yalnız Rəbbin razılığı yolunda xərcləyir.

4. قانِعٌ بِما رَزَقَهُ اللَّهُ – *Mömin Allahın ona verdiyi ruziyə qanedir*. Qənaətin səmərəsi rahatlıqdır. Mömin sadə həyat tərzi ilə rahatlığa çatır. Bəziləri isə böyük sərvətlərə və neçə mərtəbəli villalara sahib olduqları halda, azacıq rahatlıqdan məhrumdurlar.

Hədisin davamında möminlərin dörd ictimai xüsusiyyətindən söz açılır: Onlar heç kimə, düşmənlərinə belə zülm və haqsızlıq etmir, öz işlərini dostlarının çiyninə yükləmir və özləri əzab-əziyyətdə olsalar da, camaat onların əlindən rahatlıqdadırlar.

İlahi, bizə bu səciyyələrin bariz nümunəsinə çevrilməkdə yardımçı ol!

# 93

## ALTI XİSLƏTƏ GÖRƏ ALTI ZÜMRƏNİN CƏZASI

İmam Əli (ə) buyurmuşdur:

انَّ اللّٰهَ يُعَذِّبُ سِتَةً بِسِتَةٍ: الْعَرَبَ بِالْعَصَبِيَّةِ، وَ الدَّهاقينَ بِالْكِبْرِ، وَ الْامَراءَ بِالْجَوْرِ، وَ الْفُقَهاءَ بِالْحَسَدِ، وَ التُّجّارَ بِالْخيانَةِ، وَ اهْلَ الرُّسْتاقِ بِالْجَهْلِ؛

***"Allah altı zümrəni altı əmələ (xislətə) görə cəzalandıracaq: ərəbləri (yersiz) təəssübkeşliklərinə görə, kətxudaları təkəbbürlüklərinə görə, hakimləri zülm və haqsızlıqlarına görə, fəqihləri (alimləri) paxıllıqlarına görə, tacirləri (camaatın mallarında) xəyanətlərinə görə və (nadan) kəndçiləri nadanlıqlarına görə!"[1]***

### *Şərh və təfsir*

Biz burada hər zümrə barəsində qısa şərh verməklə

1. *"Biharul-ənvar", 75-ci cild, səh. 59.*

kifayətlənəcəyik:

1. الْعَرَبَ بِالْعَصَبِيَّةِ – *Allah-Taala ərəbləri yersiz və haqq müqabilindəki təəssübkeşliklərinə görə cəzalandıracaqdır*. Yersiz təəssübkeşlik insanın haqq-həqiqəti qəbul etməsinə və pərdə tək həqiqətlərin müşahidəsinə mane olur.

2. وَ الدَّهاقينَ بِالْكِبْرِ–*Allah-Taala kətxudaları təkəbbürlüklərinə görə cəzalandıracaqdır.* "Dehqan" sözünün cəm forması olan "dəhaqin" sözü "xanlar" və "kətxudalar" (mülkədarlar) mənasını daşıyır və Allah-Taala onları qürur və təkəbbürlüklərinə görə cəhənnəm oduna atacaqdır. Bəzi kətxudalar o qədər öyünürlər ki, öz rəiyyəti ilə heyvan kimi davranır və onlara azacıq belə hörmət göstərmirlər!

3.وَ الْاَمَراءَ بِالْجَوْرِ – *Allah-Taala hakimləri öz camaatına rəva gördükləri zülm və haqsızlıqlara görə cəzalandıracaqdır.*

4. وَ الْفُقَهاءَ بِالْحَسَدِ – *Allah-Taala fəqih və alimləri həsəd və paxıllıqlarına görə cəzalandıracaqdır.* İlahi əzaba düçar olmağın amillərindən biri də həsəd və paxıllıqdır. Bu çirkin xislət fəqih və alimləri əzaba atacaq. Həsədə qapılmaqla başqalarının məqam və dərəcəsini aradan aparmaq istəyən alimlər ilahi əzaba düçar edəcəkdir!

5. وَ التُّجّارَ بِالْخيانَةِ – *Allah-Taala tacirləri camaatın mallarına xəyanət etdikləri üçün cəzalandıracaqdır.* Əskik satmaq, aldatmaq, ehtikarlıq və bu kimi əməllər bir növ xəyanət sayılır.

6. وَ اهْلَ الرُّسْتاقِ بِالْجَهْلِ – *Allah-taala kənd əhalisini də nadanlıqları və dini maarifdən məlumatsız qaldıqlarına görə cəzalandıracaqdır.* Tədqiqat və sorğu-suala qüdrəti çatan, amma onun ardınca getməyərək nadanlıq içərisində

qalanların nadanlıqları üzr sayılmayacaq və bu, onların əzabına səbəb olacaqdır.

## *İncəliklər*

1. Şübhəsiz, qeyd edilən çirkin xislətlərə düçar olan şəxs göstərilən zümrələr sırasında olmasa da, Allahın əzabı ilə cazalandırılacaqdır; yəni paxıl insan alimlər sırasında olmasa da, cəzalanacaq. Necə ki, təkəbbürlü şəxs kətxuda olmasa da, Allahın əzabını dadacaqdır. Qalan xislətlər də bu qəbildəndir.

Buna əsasən, burada belə bir sual ortaya çıxır: "Nə üçün göstərilən xislətlər uyğun zümrəyə aid edilmişdir? Halbuki hər hansı bir şəxsin həmin xislətlərə düçar olması mümkündür.

Bunun cavabında deməliyik ki, hər bir zümrənin zəif bir cəhəti var ki, büdrədikdə, həmin zəif cəhət daha qabarıq görünür. Yuxarıdakı hədis, həqiqətdə, adıçəkilən altı zümrənin hər birinin zəif cəhətindən söz açır.

Yuxarıdakı hədis, həqiqətdə, altı zümrənin hər birinin zəif cəhətini aşılayır.

Başqa sözlə, bəziləri bəzi günahlar müqabilində özlərini sığortalayırlar. Məsələn, heç vaxt qumar oynamır, şərab içmirlər. Amma bəzi günahlar müqabilində isə tamamilə büdrəyirlər. Qeyd etdiyimiz rəvayətdə ikinci qisimdən olan günahlardan söz açılır.

2. İnsanın bədbəxtliklərinin əsası hədisdə qeyd edilən altı xislətdir. Əgər cəmiyyət bu xislətlərdən uzaqlaşsa və bir gün təəssübkeşlik, təkəbbür, zülm və haqsızlıq, həsəd və paxıllıq, xəyanət və nadanlığın kökləri qırılsa, şübhəsiz, belə bir dünya behiştə çevriləcək. Həmin gün ümidi ilə!

# 94

## CƏMİYYƏTİN DƏYƏR MEHVƏRİ

İmam Əli (ə) buyurmuşdur:

وَ لا تَضَعُوا مَنْ رَفَعَتْهُ التَّقْوى، وَ لا تَرْفَعُوا مَنْ رَفَعَتْهُ الدُّنْيا،

وَ لا تَشيمُوا بارِقَها، وَ لا تَسْمَعُوا ناطِقَها، وَ لا تُجيبُوا ناعِقَها؛

***“Təqvanın ucaltdığı şəxsi alçaltmayın və dünyanın qaldırdığı şəxsi qaldırmayın (yüksək məqam sahibi hesab etməyin). Dünyanın bərbəzəklərinə göz dikməyin. Sizi dünyaya rəğbətləndirən şəxsə qulaq asmayın və səsinə cavab verməyin.”[1]***

### *Şərh və təfsir*

Hər cəmiyyətin mehvəri həmin cəmiyyətin dəyəri sayılır və cəmiyyəti formalaşdıran da məhz odur! Əgər cəmiyyətin dəyər mehvəri maddi mənafedirsə, onun bütün proqramları həmin mehvər ətrafında dolanacaqdır; təlim-tərbiyə, idarə və təşkilatlar, kitablar, mətbuat, kütləvi informasiya vasitələri, filmlər, sənət mərkəzləri, idman sistemləri və s. proqramlarda yalnız

1. *“Nəhcül-bəlağə”, xütbə 191.*

maddi mənafe məqsədi güdüləcəkdir. Bunun əksinə olaraq, bir cəmiyyətin mehvəri təqva olarsa, onun bütün məram və proqramları təqva rənginə boyanacaqdır. Bu zaman insan kəraməti özünü büruzə verəcəkdir.

İlahi peyğəmbərlərin (ə) mühüm vəzifəsi mehvərləri dəyişmək idi, şeytan və şeytansifət insanların işi isə dəyərli mehvərləri məhv etməkdir. Elə bu səbəbdən də, onlar camaata təlqin etmək istəyirlər ki, həyatda əsas məqsəd mənəviyyat və axirət aləmi yox, iqtisadi və maddi mənafedir!

İslam Peyğəmbəri (s) peyğəmbərliyə seçilərək cəmiyyətə hakim mehvərləri dəyişdikdə, onun məhsulları da dəyişildi. Artıq, İslam dinindən əvvəl Əbu Süfyan və Əbu Cəhl kimi alçaq və dəyərsiz şəxslərlə fəxr edən bir cəmiyyət yeni məhsullar əldə edərək imam Əli (ə), Miqdad və Əbuzər kimi misilsiz şəxslərlə fəxr edirlər.

Bu hədisdə İslam dəyər mehvərlərindən söz açaraq belə tövsiyə edir: İlahi dəyərlər və təqva ilə Allahın lütf və mərhəmətinə şamil olan və cəmiyyətə fərqli mövqeyə sahib olan kəsləri ötəri maddi bəhanələrlə alçaltmayın. Dünyapərəstlərin dəyər mehvərləri ilə cəmiyyətdə nahaq yerə mövqe qazananlara aldanmayın, onların aldadıcı məqam və bərbəzəklərinə uymayın, onları təsdiqləməyin.

Bir sözlə, öz dəyər mehvərlərinizi qətiliklə qoruyun!

## 95

**İNSANLAR ÜÇ QRUPDUR!**

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! انَّ هذِهِ الْقُلُوبَ اوْعِيَةٌ، فَخَيْرُها اوْعاها، فَاحْفَظْ عَنى ما اقُولُ لَكَ، النَّاسُ ثَلاثَةٌ: فَعالِمٌ رَبَّانِيٌّ، وَ مُتَعَلِّمٌ عَلى سَبيلِ نَجاةٍ، وَ هَمَجٌ رَعاعٌ اتْباعُ كُلِّ ناعِقٍ، يَميلُونَ مَعَ كُلِّ ريحٍ، لَمْ يَسْتَضيئُوا بِنُورِ الْعِلْمِ، وَ لَمْ يَلْجَئُوا الى رُكْنٍ وَ ثيقٍ؛

***“Ey Kumeyl! Bu qəlblər qabdır*** *(elm, həqiqət və sirlərin qablarıdır)* ***və onların (qəlblərin) ən yaxşısı daha yaxşı saxlayanıdır*** *(ona tapşırılan şeyi daha yaxşı qoruyaraq yadda saxlayanıdır)*. ***Buna görə də sənə dediklərimi qoruyaraq yaxşı saxla: “İnsanlar üç qrupdurlar: Rəbbani və ilahi alim;*** *(cəhalət və nadanlıqdan)* ***nicat tapmaq üçün elm axtaran və öyrənən; hər carçının arxasınca*** *(hər yola)* ***gedən, hər küləklə əyilən, elm nurundan işıq götürməyən*** *(nadanlıq zülmətində qalan)*, ***möhkəm sütuna*** *(ağıl və elm sütunları üzərində dayanan*

*haqq əqidəyə)* ***sığınmayan zəif nadan və qanmazlar."***[1]

## *Şərh və təfsir*

Bu hədisin möhtəvası olduqca mühümdür; çünki onu dinləyən şəxsin dərketmə qabiliyyəti yüksək olduğu üçün, imam Əli (ə) kimi bir həkim və alimin sözləri də dərinmənalı olacaqdır. Bu hədisin dinləyicisi o həzrətin xas səhabəsi və sirdaşı Kumeyl ibn Ziyad olduğundan, hədis də böyük əhəmiyyət kəsb edir. Həzrət buyurur:

يا كُمَيْلُ! انَّ هذِهِ الْقُلُوبَ اوْعِيَةٌ، فَخَيْرُها اوْعاها

*"Ey Kumeyl! Bu qəlblər qabdır və qabların ən yaxşısı daha möhkəm və böyük tutumlu olanı və yaxşı saxlayanıdır." Buna əsasən, ən yaxşı qəlb, ona tapşırılan elm, həqiqət və sirləri daha yaxşı qoruyaraq yadda saxlayandır.*

Hədisin birinci cümləsi mühüm bir məsələni aşılayır: Allahın lütf və mərhəməti sifətləri kimi sonsuz olduğu halda, nə üçün insanların ondan bəhrəsi fərqlidir?

Bu sualın cavabı fərqli qabiliyyət və bacarıqlardan söz açan hədisin birinci cümləsinə diqqətlə nəzər yetirdikdə, aydınlaşır. İnsanların Allahın lütf və mərhəmətindən bəhrələnmək və mərifət yığmaq üçün gətirdikləri qablar bir-birindən fərqləndiyindən, onların bəhrəsi də fərqlidir. Allahın rəhmət yağışı bütün torpaqlara yağdığı halda, torpaqların bəhrəsi bərabər deyil, əksinə hər torpaq öz qabiliyyət və genişliyi qədər ondan bəhrələnə bilir. Demək, qüsur yağışda deyil, əksinə torpaqlardadır. Allahın lütf və mərhəmətindən bəhrələnmək məsələsində də, qüsur biz insanların bacarıq və tutumundadır. İmam Əli (ə) Kumeyl ibn Ziyadın diqqətini mühüm bir məsələyə yönəltdikdən sonra buyurur:

---

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 147.*

النَّاسُ ثَلاثَةٌ:

"İnsanlar üç qrupdur və bu üç qrupdan kənar deyil, yəni dördüncü qrup yoxdur. Odur ki, diqqətli olmalıyıq ki, hansı qrupdanıq:

1. فَعالِمٌ رَبَّانِیٌّ– Birinci qrup insanların tərbiyəsi ilə məşğul olan, onları günəş tək elm nuru ilə işıqlandıran və doğru yola yönəldən ilahi alimlərdir. Bir güşəyə çəkilib, cəmiyyətdən kənarlaşan alim bura daxil deyildir. İlahi alimlər sırasına qoşularaq, peyğəmbərlərin məqamına söykənmək doğrudan da, böyük bir fəxrdir!

2. وَ مُتَعَلِّمٌ عَلى سَبيلِ نَجاةٍ – İkinci qrup alimlər qarşısında əyləşib, onların elmindən bəhrələnən tələbələr və elm axtaranlardır. Birinci qrupla ikinci qrup arasındakı fərq ayla günəşin fərqi kimidir! Günəşin özü işıq istehsal edir, ay isə onun işığından bəhrələnərək onu əks etdirir. İkinci qrupda olan şəxslər də xoşbəxtdir və zəhmət çəkdikləri təqdirdə, birinci qrupa qoşula bilərlər.

3. وَ هَمَجٌ رَعاع – Üçüncü qrup, təəssüf ki, sayı az olmayan axmaq, nadan və məqsədsiz şəxslərdir ki, özləri hidayət çırağı olmadıqları kimi, cəmiyyətin hidayət çıraqlarından da istifadə etmirlər! İmam Əli (ə) qısa ifadə ilə kifayətlənən birinci və ikinci qrupun əksinə olaraq, üçüncü qrupun şərhi-halına başlayır və onların çöhrələrini tamamilə tanıtdırır. Elə bu məqsədlə, onların dörd xüsusiyyətini belə bəyan edir:

a) اتْباعُ كُلِّ ناعِقٍ – Nadan insanlar müstəqil fikrə malik deyil və hər bir səsin ardınca hərəkət edirlər. Bir gün bir qrupun, ertəsi gün isə başqa bir qrupun bayrağını qaldırıraraq onların əleyhinə şüar verirlər! Belələrinin himayə və tərəfdarlıqları ilə öyünmək sadəlikdir; nə

onların “eşq olsun” deməsi qüdrət səbəbidir, nə də “ölüm olsun” deməsi zəiflik və bədbəxtlikdir.

b) يَميلُونَ مَعَ كُلِّ ريح – Düzü əyridən seçməyən, heç bir yolda sabitqədəm olmayan və qarşıya çıxan hər bir yolla hərəkət edən zəifiradəli insanlar da üçüncü qrupdan hesab edilirlər. Onlar ictimai tufanlar zamanı özlərini qorumağa qadir olmadıqları kimi, hər küləklə birgə bir tərəfə əyilir və hətta nəsim külək belə, onları yerindən qopararaq özü ilə sovurub aparır!

c) لَمْ يَسْتَضيئُوا بِنُورِ الْعِلْمِ – Hidayət edənlərin elm nurundan işıq götürməyən və nadanlıq zülmətində qalanlar da nadan və axmaqlar sırasındadırlar. Həqiqətdə, onların bədbəxtlik səbəbi məhz budur! Onlar qayğıkeş tərbiyəçilərin hadiyət çırağından bəhrələnmədikləri üçün zəifiradəli insanlardır; həm özləri cəmiyyətdə sərgərdan qalır, həm də digər insanlar üçün təhlükə sayılırlar.

d) وَ لَمْ يَلْجَئُوا الى رُكْنٍ وَ ثيقٍ – Nadan insanlar cəmiyyət möhkəm sütuna sığınmadıqları, ağıl və elm sütunları üzərində dayanan haqq əqidəyə sarılmadıqları üçün azacıq nəsib küləklə hərəkət edir, anbaan dəyişilərək yeni rəngə boyanırlar.

Mərhəba və minlərlə mərhəba bu sözləri deyən şəxsə!

İndi isə bir an özümüzlə xəlvətə çəkilərək təfəkkür barmağımızı alnımıza qoyaq və hansı qrupdan olduğumuz haqda düşünək. Əgər birinci və ikinci qrupdanıqsa, ona görə Allaha şükür etməli, yox, əgər üçüncü qrupundanıqsa, dərhal öz düşüncəmizi islah edək, yoxsa, sabah gecdir!

# 96

## NEMƏTİN BƏLASI

İmam Əli (ə) buyurmuşdur:

مَنْ حَسُنَتْ بِهِ الظُّنُونُ، رَمَقَتْهُ الرِّجالُ بِالْعُيُونِ؛

***"(İlahi nemətlərə şamil olan) insan diqqəti cəlb etdikdə, paxıllar ona həsəd gözlə baxarlar."*[1]**

### *Şərh və təfsir*

Bu hədislə bağlı bir neçə mətləb diqqəti cəlb edir:

1. Hədisdə işlənən "rəməqə" sözü baxmaq mənasını ifadə edir və oyaq şəxsə "ramiq" deyilir. Hədisdə isə "həsəd"dən kinayədir. Hədisin mənası belədir: "İnsanların diqqətini cəlb edən, ilahi nemətlərə şamil olaraq ictimai mövqeyə sahib olan insan paxılların həsədinə məruz qalar. Odur ki, özünü belə işlər üçün hazırlamalı və onların paxıllıqları və zərbələri müqabilində dözümlü olmalıdır.

Bu mətləb həqiqətdə imam Əlinin (ə) başqa bir kəlamına işarədir. O həzrət buyurur:

---

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 419.*

لا تَنالُونَ مِنْها نِعْمَةً الّا بِفِراقِ اخْرى؛

*“Dünyada bir neməti əldən verməmiş başqa bir nemətə yiyələnə bilməzsiniz.”*[1] Çünki dünya nemətləri bir yerə sığmaz. İlahi nemətlərə şamil olmaqla paxılların caynağından qurtulmaq bir yerə sığası deyil. Demək, bunun üçün dözümlü olmaq gərəkdir. Çünki camaatın ona qarşı təvəqqesi təbii ki, artacaq və bu baxımdan narahat olmamalıdır.

2. Camaatın xoşbin olduğu və gözlərin dikildiyi şəxsin əməlləri, ən kiçik sözü və rəftarı belə diqqətdən qaçırılmır. Bu da onun vəzifə və məsuliyyətini artırır. Elə bu səbəbdən də, sözləri və əməllərində diqqətli olmalıdır ki, müxaliflər və paxılların əlinə bəhanə verməsin.

*1. “Nəhcül-bəlağə”, xütbə 145.*

# 97

## İŞSİZLİYİN FƏSADLARI

İmam Əli (ə) buyurmuşdur:

انْ يَكُنِ الشُّغْلُ مَجْهَدَةٌ، فَاتِّصالُ الْفَراغِ مَفْسَدَةٌ؛

***“Əgər iş yorğunluğa səbəb olursa, işsizlik fəsada səbəb olur.”[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisdə mühüm bir məsələyə işarə edir, o da budur ki, iş və peşə yalnız iqtisadi xarakter daşımır, həm də mühüm əxlaqi bir məsələdir. Elə bu səbəbdən, o həzrət işsizliyi fəsad, işi isə onun qarşısını alan bir amil kimi bəyan edir. Məşhur bir şeirdə deyilir:

انَّ الشَّبابَ وَ الْفَراغَ وَ الْجِدَةْ    مَفْسَدَةٌ لِلْمَرْءِ اىَّ مَفْسَدَةْ

“Cavanlıq, işsizlik və pul böyük fəsadlara səbəb olur.”[2]

Statistik məlumatlar da hədisdə deyilənləri təsdiqləyir. Deməliyik ki, iş dedikdə, zehnimizdə təsəvvür olunan iş

---

*1. “Biharul-ənvar”, 74-cü cild, səh. 419.*

*2. “Nəhcül-bəlağənin şərhi”, İbn Əbil-Hədid, 3-cü cild, səh. 340.*

və kəsb deyil, əksinə insanı məşğul edən faydalı və şəri iş nəzərdə tutulur.

Hədislərdə "Şeytan öz qoşununu şam namazı ilə xiftən namazı arasında ezam edir!" – deyilməsinin səbəbi odur ki, bu müddət ərzində camaat evə yığışır və işsiz olur. Bu məqsədlə həmin anlar "qəflət saatı" adlanmışdır. Şam namazı ilə xiftən namazı arasında qılınan "qüfeylə" namazının "qüfeylə" adlandırılması qəflətin zərərli təsirlərini azaltması ilə əlqədardır.

Aydındır ki, heç kim iş və fəaliyyətsiz bir yerə çatmır. Elə buna görə də, böyük alimlər öz zəmanələrinin ən işlək və çalışqan şəxsləri olmuş, tətil və qeyri-tətil günləri onlar üçün əhəmiyyət daşımırmış. Onlar tətil günlərində iş və peşələrini dəyişsələr də, mütaliə və elmi fəaliyyətlərini əsla tətil etmirmişlər. Odur ki, tələbələr, tədqiqatçılar və elm ocaqları tətil günləri və boş vaxtlarından layiqincə bəhrələnməlidirlər.

# 98

## İŞSİZLİYİN FƏSADLARI

İmam Əli (ə) Peyğəmbəri-Əkrəmdən (s) belə nəql etmişdir:

مَنْ سَلَكَ طَرِيقاً يَطْلُبُ فيهِ عِلْماً سَلَكَ اللَّهُ بِه طَرِيقاً الَى الْجَنَّةِ، وَ انَّ الْمَلائِكَةَ لَتَضَعُ اجْنِحَتَها لِطالِبِ الْعِلْمِ رِضاً بِه، وَ انَّهُ لَيَسْتَغْفِرُ لِطالِبِ الْعِلْمِ مَنْ فِى السَّماءِ، وَ مَنْ فِى الْارْضِ حَتَّى الْحُوتِ فِى الْبَحْرِ؛

***“Elm və bilik yoluna qədəm qoyan şəxsi Allah-Taala behiştə doğru yönəldir. Mələklər qanadlarını öz razılıqları ilə elm əhlinin ayaqları altına sərirlər. Yer və göy əhli, hətta dənizdəki balıqlar belə, onun üçün bağışlanmaq diləyirlər.”*** [1]

### *Şərh və təfsir*

Üç cümlədən ibarət bu hədisdə elm və bilik axtaranların misilsiz məqamından söz açılır. Xoş olsun

*1. “Biharul-ənvar”, 1-ci cild, səh. 164.*

bu hədisə şamil olanların halına!

***Elm və bilik behişt yoludur!***

Birinci cümlədə elm əhli ilə behişt arasındakı əlaqədən danışılır və behişt yolunun elm və bilik küçələrindən ötüb-keçdiyi göstərilir. Demək, cəhənnəmin yolu cəhalət və nadanlıq bataqlıqlarından keçir. Necə ki, "Əraf" surəsinin 179-cu ayəsində buyurulur:

وَ لَقَدْ ذَرَأْنا لِجَهَنَّمَ كَثيراً مِنَ الْجِنِّ وَ الْانْسِ لَهُمْ قُلُوبٌ لايَفْقَهُونَ بِها وَ لَهُمْ اعْيُنٌ لايُبْصِرُونَ بِها وَ لَهُمْ آذانٌ لايَسْمَعُونَ بِها اولئِكَ كَالْانْعامِ بَلْ هُمْ اضَلُّ اولئِكَ هُمُ الْغافِلُونَ

***"Doğrudan da, Biz cin və insanların çoxunu (sanki) cəhənnəm üçün yaratmışıq. Çünki onların qəlbləri var, amma onunla (həqiqətləri) dərk etmirlər, onların gözləri var, amma onunla (ibrət üçün) baxmırlar və onların qulaqları var, amma onunla (haqq maarifi) eşitmirlər. Onlar heyvanlar kimi, bəlkə də (onlardan) daha çox azğındırlar. Qafil olanlar da məhz onlardırlar!"***

Nə üçün heyvanlardan pisdirlər?

Çünki onlar inkişaf və təkamül istedadına sahib olduqları halda, batil və puç yolda addımlayır, hidayət imkanlarına malik olduqları halda, yenə zəlalətdədirlər! Bəli, bu ayə bəzilərinin cəhənnəmlik olmasının səbəbini nadanlıqda bilir. Biz İslam fəxr etməliyik ki, elmi behişt yolu, nadanlığı isə cəhənnəm yolu tanıtdırır! Bəzi məzhəblərin əksinə olaraq, öz həyatını insanların nadanlığında gördüklərindən, daim elmlə mübarizə aparmış və hətta şəxsi kitabxanasında on doqquzdan çox kitabın olmasını eyib sanırdılar! Maraqlıdır ki, yəhudi və xristianların qəbul etdikləri indiki Tövratın ilkin fəsilləri həzrət Adəmin (ə) behiştdən qovulmasını onun elm sahibi olması ilə əlaqələndirir! Orada göstərilir

ki, həzrət Adəm (ə) elm və bilik ağacından qidalandığı üçün behiştdən qovuldu! Görün, behişt yolunu elm və bilikdə görən məktəblə elmi behiştdən qovulma səbəbi kimi tanıtdıran məktəb arasında nə qədər fərq vardır?!

### *Mələklər elm əhli üçün qanad açırlar!*

İmam Əli (ə) hədisin ikinci hissəsində mələklərin öz istəkləri ilə elm əhlinin yolu üstünə qanadlarını açmasından xəbər verir. Yəni tələbələr və elm öyrənənlər məktəbə doğru hərəkət etdikləri zaman mələklərin qanadlarına ayaq basırlar!

Doğrusu, nə üçün mələklər yüksək məqamları ilə belə, qanadlarını elm əhlinin ayaqları altına sərirlər?

Bunun cavabı aydındır; mələklər elm və biliyin qədrini yaxşı bilirlər. Adəm (ə) yandıqda, Allahdan onun yaranış səbəbini soruşdular?

Allah-Taala həzrət Adəmin (ə) yaranışını elm və biliyi ilə əlaqələndirdi. O, mələklərlə müsabiqədə qələbə çaldı. Bundan sonra Adəmin (ə) qarşısında səcdə etdiklərinin səbəbini və beləcə, elmin həqiqi dəyərini anladırlar. Elə buna görə də, öz qanadlarını elm axtaranlar üçün açırlar. Elm yolunda addım atanlar böyük məqamlarının qədrini bilsinlər, ona görə Allaha həmişə şükür etsinlər və başqalarını da öz elm və biliklərindən məhrum etməsinlər.

### *Bütün varlıqların elm əhli üçün bağışlanmaq diləməsi*

İmam Əli (ə) hədisin üçüncü hissəsində yer və göy əhlinin, hətta dənizdəki balıqların belə, elm əhli üçün bağışlanmaq diləməsindən söz açır. Peyğəmbərlər, övliyalar, vəsilər, imamlar, mələklər, insanlar, canlılar

və hətta balıqlar Allah-Taaladan elm əhli üçün rəhmət və bağışlanmaq istəyir və şübhəsiz, onların duası Allah dərgahında qəbul olunur.

Əziz tələbələr və elm yolunda qədəm götürənlər! Sizə nəsib olan bu ilahi nemət haqda düşünün və mehriban Allahın nemətinə şamil olduğunuz üçün daim Ona şükür edin və öz qədrinizi bilin. Nə çox adam var ki, elm yolunda addım atmağı arzu etsə də, buna müvəffəq ola bilmir. Elm öyrənməyə müvəffəq olmağınız səbəbsiz deyil. Bu ilahi müvəffəqiyyətin səbəbləri ayrıca bəhs tələb etsə də, şübhəsiz, hikmətli Allah bəzilərinə bu neməti hesab-kitab üzündən əta, bəzilərini isə məhrum edir.

Doğrusu, sevindirici haldır ki, insan Allahın behiştinə çat bir yolda hərəkət etsin, bu yolda mələklərin qanadları üzərində addımlasın və bütün varlıqların xeyirli duasına şamil olsun. Bundan da böyük fəxrmi?

# 99

## BÖYÜK İNSANLARIN İMTAHANI

İmam Əli (ə) buyurmuşdur:

ثَلاثٌ يُمْتَحَنُ بِها عُقُولُ الرِّجالِ: هُنَّ الْمالُ وَ الْوِلايَةُ وَ الْمُصيبَةُ؛

***"İnsanların ağlı üç şeylə sınaqdan keçiriləcək: sərvət, vəzifə və müsibət."[1]***

### *Şərh və təfsir*

Allah-Taala insanın sınaqdan keçirilməsini onun yaranış fəlsəfəsi kimi bəyan edir. Buna görə də, dünya böyük imtahan salonu, qiyamət isə imtahan qiymətlərinin ayırd edildiyi bir vaxtdır! Demək, Allahdan bizi imtahan etməməsini istəməməyimiz düzgün deyil! Çünki bu dua yaradılış məqsədi ilə uzlaşmır və qəbul olunası da deyildir. Əksinə, Allahdan istəməliyik ki, bizi ağır imtahanlarla sınaqdan keçirməsin. İlahi, bizi qəbul ola bilmədiyimiz şeylərlə imtahan etmə! Allahın imtahan vərəqələri inkişaf və təkamül vasitələridir və məxsus bir

*1. "Qürərül-hikəm", 3-cü cild, səh. 337, hədis 4664.*

vərəqi də yoxdur. Amma hədisdə göstərilən üç vərəq böyük əhəmiyyət kəsb edir.

**Birinci vərəq** mal və sərvətdir. Ehtiyacdan artıq sərvət, tamahkar dağa çıxan və dağda yalnız bir gün qalmaq niyyəti olan şəxsin özü ilə götürdüyü çoxlu miqdarda yükü (azuqəni) xatırlayır ki, dağdan qayıtdıqda, istifadə etmədiklərini dağda qoyur. Bu imtahandan sərvət sahibi olduqları halda, öz ağılını itirməyən və ağlı başında olanlar keçə bilirlər.

**İkinci vərəq** həyatda baş verən çətinliklər və müsibətlərdir. Bu imtahandan qəbul olmaq hədsiz səbir və dözüm tələb edir ki, səbir və dözümlü olduğu surətdə mükafat da alacaqdır. Dözümlü olmadıqda və fəryadı ucaldıqda, nəinki qəbul olunmayacaq, hətta günahları daha da ağırlaşacaqdır.

**Üçüncü vərəq** məqam və vəzifədir. Nə çox insan var ki, vəzifə sahibi olduqda, özünü itirir və hər bir çirkinliyə əl atır. Ağıllı insan isə nə həqiqəti danır, nə də yaddan çıxarır. Tarix boyu böyük ilahi alimlər arasında belə azad insanlar kimi nümunələr az olmamışdır!

# 100

## HİDAYƏT MEYVƏLƏRİ

İmam Əli (ə) buyurmuşdur:

مَنْ غَرَسَ اَشْجارَ التُّقى جَنى ثِمارَ الْهُدى؛

***"Öz vücudunda təqva fidanını əkən şəxs onun hidayət meyvələrini dərəcəkdir."*[1]**

### *Şərh və təfsir*

Təqvanın nəticə və səmərəsinin elə bu dünyaya aid olmasını aşılayan bu hədisin möhtəvası müxtəlif ayə və rəvayətlərdən və aydın olur. "Bəqərə" surəsinin 282-ci ayəsində ilahi təlim, "Ənfal" surəsinin 29-cu ayəsində haqqı batildən ayıran qüvvəyə sahib olmaq, "Bəqərə" surəsinin 2-ci ayəsində isə hidayət təqvanın səmərəsi kimi göstərilir. Bu hədisdə isə, yalnız hidayətlə təqvanın əlaqəsindən söz açılır ki, təqva çoxaldıqca, insana ilahi hidayət daha çox nəsib olacaqdır. Çünki qəlb aynaya bənzəyir; toz-torpaqlı ayna həqiqətləri yaxşı əks etdirməz. Qəlb aynasını təqva yolunda yerləşdirməklə günah adlı toz-torpaqdan təmizləsək, həqiqətin çöhrəsi

*1. "Biharul-ənvar", 75-ci cild, səh. 90.*

aydın əks olunacaq. Deməks, hidayət çırağı həmişə parlayır və bir an belə sönmür.

Yeri gəlmişkən, bu hədisdən başa düşülür ki, mərifət yolunun məntiq və fəlsəfədən ibarət olması ilə yanaşı, başqa bir yol mövcuddur. O da müşahidə yolu ilə əldə olunan İslam ürfanıdır və "Ənfal" surəsinin 29-cu ayəsi də məhz ona işarədir. Belə ki, təqva və İslam ürfanı adlı böyük bir yola qədəm qoymaqla təqvalı şəxsə haqqı batildən və həqiqəti ilğımdan ayıran bir qüdrət verilir.

Qeyd etməliyik ki, təqva ilə hidayət iki tərəfli təsirə malikdir; yəni təqva artdıqca, hidayət də artdığı kimi, hidayət də artdıqca, təqva da artır və insan təqvanın ən uca mərhələlərinə yüksələ bilir.

Buna əsasən, ilahi təqvanı fərdi və ictimai həyatımızda, dini, siyasi və iqtisadi məsələlərdə, bir sözlə, həyatın bütün sahələrində tətbiq etməliyik ki, İslam ümməti bu səmərəli ağacdan ilahi hidayət meyvələrini dərsin və ondan layiqincə bəhrələnsin.

# 101

## MƏRİFƏTİN NƏTİCƏSİ

İmam Əli (ə) buyurmuşdur:

يَسيرُ الْمَعْرِفَةِ يُوجِبُ الزُّهْدَ فِى الدُّنْيا؛

***“Azacıq mərifət dünyada zahidliyə səbəb olur.”[1]***

### *Şərh və təfsir*

“Zahidliyə səbəb olan və insanı dünyaya əsirlikdən nicat verən “mərifət” nədir?” – sualına cavab vermək üçün üç mətləbə diqqət yetirməliyik:

1. Hədisdə qeyd olunan “mərifət”də Allaha mərifət (Allahın tanımaq) nəzərdə tutulur; yəni Allahla, “camal” və “cəlal” sifətləri ilə müxtəsər tanışlığı olan insan dünyada zahid olar və dünyaya əsir düşməz. Allaha mərifəti olan şəxs Onun kamal dəryası və bütün varlıq aləminin genişliyi ilə belə, ən böyük okeanın müqabilində ən kiçik şeh olduğunu yaxşı dərk edir! Şübhəsiz, belə bir şəxs dünya qul olmaz. İmam Əlinin (ə) ifadəsi ilə desək, “nəzərində yalnız varlıq aləminin Xaliqi böyük, Ondan

*1. “Qürərül-hikəm”, 6-cı cild, səh. 456, hədis 10984.*

qeyrisi isə kiçik olan"[1] şəxs dünyaya bağlanmaz. Elə bu dünyagörüşünə əsasən, o həzrət dünyanı heyvanın burnunun suyundan dəyərsiz bilmişdir![2]

2. Məqsəd dünyanın özünü tanımaqdır. Ötəri və vəfasız dünyanı – insanı bir an içərisində xoşbəxtlikdən bədbəxtliyə tullayan, sağlamlığı əldən alan, kiçik bir hadisə ilə bütün dostları, tanışları və qohumları ölümə aparan dünyanı tanıyan insan ona bel bağlayarmı?! Demək, dünya qulları və əsirləri onu yaxşı tanımamışlar. Çünki dünyanın mahiyyəti ilə azacıq belə tanış olsaydılar, əsla ona qul olmazdılar!

3. İnsanın öz məqam və qiyməti ilə tanışlığı onu dünyaya bağlılıqdan nicat verir. Öz qədir-qiymətini bilən insan özünü ötəri məqama və yaxud azacıq mala satmaz. Mələklərdən üstün dərəcəyə qalxa biləcək qiymətli insan məqamı ucuz satılmamalıdır. Onu behişt və Allah razılığından ucuz qiymətə satmaq ona cəfadır. İnsanın yer üzündə Allahın xəlifəsi və nümayəndəsi olmasını, bütün mələklərin onun müqabilində səcdə etməsini bilməyən şəxs özünü ucuz satacaqdır. Necə ki, ləl-cavahirat və qiymətli əşyaları tanımayan şəxsin onu ucuz qiymətə satması mümkündür!

"Mərifət" sözü qeyd etdiyimiz hər üç təfsir və mənanı daşıya bilər; yəni insanın Allahı, dünyanı və özünü tanıması, onlara mərifəti onu dünyaya bağlılıqdan və ona qul olmaqdan nicat verir.

---

*1. "Nəhcül-bəlağə", xütbə 193.*

*2. "Nəhcül-bəlağə", xütbə 3.*

# 102

## DİNDARLIĞIN ƏSAS ƏLAMƏTİ

İmam Əli (ə) buyurmuşdur:

مِلاكُ الدّينِ مُخالَفَةُ الْهَوى؛

***"Dindarlığın meyarı nəfsi istəklərlə müxalifətdir."*[1]**

### *Şərh və təfsir*

Hər bir şeyin meyarı var. Dindarlıq və dinsizliyin meyarı nədir? Dindarlığın meyarı yalnız namaz qılmaqdırmı? Hicab və örpək təklikdə meyar ola bilərmi? (Necə ki, bəziləri namazı və yaxud hicabı dindarlıqla dinsizlik sərhədi kimi tanıtdırırlar.) Sükut təklikdə dindarlıq ölçüsü ola bilərmi?

İmam Əli (ə) bu qısa və dərinmənalı hədisdə uyğun mövzuya dair ümumi bir meyardan söz açır. Qeyd etdiklərimiz dindarlığın meyarı sayılsa da, ümumi və əhatəli deyil! Bəzən, həmin namaz, ibadət, hicab və sükut nəfsin istəyinə tabe olur. Aşağıdakı məşhur əhvalat bəhsimizə yaxşı bir şahiddir:

Bir abid uzun müddət camaat namazının birinci

---

*1. "Qürərül-hikəm", 9-cu cild, səh. 382, hədis 21135.*

sırasında iştirak edir və günlərin birində məscidə gec gəldiyi üçün axırıncı cərgəsində durmalı olur. Özündə narahatçılıq hissi keçirərək öz-özünə deyir: “İndi camaat deyir ki, fılankəs hər gün birinci cərgədə dururdu, nə oldu ki, bu gün axırıncı cərgədə durub?” Bu fikirdə idi ki, birdən özünə gəldi: “Vay olsun mənə! İndiyə qədər qıldığım namazları puç etdim, gərək hamısının qəzasını qılım!” Çünki o, namazına Allahdan qeyrisini də şərik etmişdi! İslam Peyğəmbəri (s) buyurur:

لاَ تَنْظُرُوا إِلَيٰ كَثْرَةِ صَلاتِهِمْ وَ صَوْمِهِمْ وَ كَثْرَةِ الْحَجِّ وَ الْمَعْرُوفِ وَ طَنْطَنَتِهِمْ بِاللَّيْلِ وَ لٰكِنِ انْظُرُوا إِلَيٰ صِدْقِ الْحَدِيثِ وَ أَدَاءِ الْأَمَانَةِ

*“İnsanların imanını qıldıqları namaz, tutduqları oruc, getdikləri həcc, etdikləri ehsan və gecələri oyaq qalmalarının sayı ilə yox, doğru danışıqları və əmanətdarlıqları ilə qiymətləndirin!”*[1]

“Biz bəzilərinə iman gətirir, bəzilərinə isə kafir oluruq!”[2] – ayəsinin şərhində belə bir sual ortaya çıxır: “Nə üçün Allah-Taala İsrail oğullarını bu sözə görə danlayır? Halbuki onların “Biz bəzilərinə kafir oluruq” deməsi pis və qınağa layiq olsa da, “Bəzilərinə iman gətiririk!” isə yaxşı əməldir!

Bəzi təfsirçilər yazırlar: “Onların bəzilərinə iman gətirməsi də dəyərsizdir. Çünki onlar nəfsi istəklərə uyğun gələn şeylərə iman gətirmişdilər. Deməк, onların imanı Allaha yox, həqiqətdə nəfsi istəklərə idi!!!”[3]

Bir sözlə, verilən hədisə əsasən, dindarları dinsizlərdən ayıran meyar və ölçü nəfsi istəklərlə müxalifətçilikdir.

---

1. *“Mizanul-hikmət”, 1-ci cild, səh. 344, fəsil 300, hədis 1490.*
2. *“Nisa” surəsi, ayə: 150.*
3. *“Təfsiri-nümunə”, 4-cü cild, səh. 189.*

Biz də özümüzün nə həddə dindar olmağımızı bu dəqiq meyarla ölçə bilərik!

# 103

## NADANLIĞIN ƏLAMƏTLƏRİ

İmam Əli (ə) buyurmuşdur:

انَّ قُلُوبَ الْجُهَّالِ تَسْتَفِزُّهَا الْاطْماعُ وَ تَرْتَهِنُهَا الْمُنى وَ تَسْتَعْلِقُهَا الْخَدائِعُ؛

***“Nadan insanların qəlbini tamahkarlıq tərpədir, uzun arzular girov götürür, dünyanın bərbəzəkləri əsir edir.”[1]***

### *Şərh və təfsir*

İmam Əli (ə) bu hədisdə nadan şəxslərin üç əlamətini bəyan edir:

1. Onların qəlbini oynadan və bərkləşdirən tamahdır. “Tamah” bir kəsdən yersiz təvəqqe gözləmək mənasını daşıyır. Məsələn, on manatlıq iş gördüyü halda, yüz manat almaq təvəqqesində olan şəxs tamahkar adlanır.

2. Qəlbin bərkliyinə səbəb olan uzun arzular[2]

---

*1. “Üsuli-kafi”, 1-ci cild, “əql və cəhl” kitabı, hədis 16.*

*2. Məsum rəhbərlərdən (ə) bu barədə müxtəlif rəvayətlər nəql olunmuşdur. “Mizanul-hikmət”, 8-ci cild, səh. 238, fəsil 3402.*

nadan şəxslərin qəlbini girov götürür. Təbii ki, girov götürülmüş şəxs öz vəzifələrini icra etməyə qadir olmadığından uyğun əksüləməllər və reaksiyalar da göstərə bilməyəcək. Odur ki, nadan şəxslərin müxtəlif hadisələr müqabilində reaksiyaları münasib olmur.

3. Nadanın üçüncü əlaməti zahiri bərbəzəklərə diqqət yetirmək və həqiqətlərdən qəflət etməkdir. Alim həqiqətləri görür və maddi dünyanın bərbəzəklərinə əsir olmur. Nadan isə, daim xəyallara qapılır və dünya zinətlərinə aldanır. Buna görə də, həqiqətlərin dərki əsasında çəkilən alimin yolu doğru, nadanın yolu isə əyridir.

**Sual:** Nə üçün alim həqiqəti görür, nadan isə xəyallara qapılaraq zahiri bərbəzəklərə aldanır?

**Cavab:** "Elm" aydınlıq, "cəhalət" isə qaranlıqdır.[1] Təbii ki, aydınlıqda gəzən şəxs həqiqətləri görəcək, qaranlıqda addımlayan şəxs isə xəyallara qapılacaq. Həm də nadan həmişə nəfsi istəklərə giriftar olu və bu da onun haqqı göstərən gözünü kor edir.

---

*1. "Mizanul-hikmət", 6-cı cild, səh. 452, fəsil 2833, hədis 13379.*

# 104

## ZÜHURUN İNTİZARININ HƏYATIMIZDA ROLU

İmam Əli (ə) buyurmuşdur:

الْمُنْتَظِرُ لِاَمْرِنا كَالْمُتَشَحِّطِ بِدَمِه فى سَبيلِ اللَّهِ؛

***"Bizim zühurumuzun intizarında olan şəxs Allah yolunda qanına boyanan şəxs kimidir."[1]***

### *Şərh və təfsir*

Bu hədisin bir-birinə zidd olmayan iki mənası ola bilər:

1. Zühurun intizarında olanlar elə işlər görürlər ki, nəticəsi Allah yolunda cihadın nəticəsilə birdir. İmam Əli (ə) buyurur: "Cihad dinin əzəmət və ucalığı, haqq-ədalətin köməkçisidir."[2]

Həqiqi intizar çəkənlərin intizarının nəticəsi də məhz budur! İntizar özünütərbiyə, İslam hökmlərinin icrası, qələm, bəyan və hər bir vasitə ilə dinin səsini dünyaya

---

*1. "Biharul-ənvar", 10-cu cild, səh. 104.*

*2. "Nəhcül-bəlağə", qısa kəlamlar 252.*

çatdırmasından ibarətdir.

**Sual:** Biz necə intizar çəkənlərik?

**Cavab:** Bəziləri yalnız “Ağa, zühurunu tezləşdir!” – ifadəsini təkrar etməklə özlərini inzar çəkənlərin sırasına qoşmaq istəyirlər!

Bəziləri intizarı yalnız “Nüdbə” duası və “Ali-Yasin” ziyarətnaməsini oxumaqda yekunlaşdırırlar.

Bəziləri də bununla yanaşı, “Cəmkəran” məscidinə getməklə kifayətlənirlər!

İntizara verilən bu sayaq mənalar qeyd etdiyimiz dərinmənalı hədisləri gördükdə təəccübümüzə səbəb olur və özümüzdən soruşuruq: “Necə olur ki, bir duanın savabı Allah yolunda öz qanına boyanan bir mübarizin zəhmətinə bərabərdir?!” Əgər intizarı insanların imam Zamanın (ə) zühuru üçün hazırlıq görməsinə təfsir etsək, cihad, hətta ondan da geniş bir məna kəsb edəcəkdir.

2. İntizarın xarici nümunəsi birinci təfsirdən ibarət olsa da, batini nümunəsi nəfslə mübarizədir. Odur ki, biz özümüzü bu işə hazırlamalıyıq. Çünki ədalətin icraçısı odur! Əgər mən zülm və haqsızlıq edirəmsə, İmamın (ə) zühurunun intizarında olanların sırasında ola bilərəmmi? O pakdır. Əgər mən çirkin olsam, onun intizarını necə iddia edərəm?... Demək, həqiqi intizar nəfslə mübarizə apardığımız və İmamın (ə) layiqli əsgəri olduğumuz zaman gerçəkləşəcək və məna verəcəkdir. Aydındır ki, nəfslə mübarizə düşmənlə mübarizədən olduqca çətindir. Məhz bu səbəbdən də, İslam Peyğəmbəri (ə) müharibələrin birindən qayıdan mübariz səhabələri barəsində belə buyurdu:

مَرْحَباً بِقَوْمٍ قَضَوْا الْجِهادَ الْاصْغَرَ وَ بَقِىَ عَلَيْهِمُ الْجِهادُ الْاكْبَرَ، قالُوا: وَ مَا الْجِهادُ الْاكْبَرُ؟ قالَ: الْجِهادُ مَعَ النَّفْسِ

*"Kiçik cihadı yerinə yetirən dəstəyə afərin! (Qarşıda isə hələ) onları böyük cihad gözləyir." Soruşdular: "Böyük cihad hansıdır?" Buyurdu: "Nəfslə mübarizə!"*[1]

Bir sözlə, intizar həm xarici, həm də batini nümunə ilə birgə şərh olunmalı və dua çərçivəsindən çıxarılmalıdır. Əziz bir qonağın intizarında olan şəxs həm özünü, həm də evini təmizləyib sahmana salmalıdır. İmam Zamanın (ə) intizarını çəkənlər də fərdi islahla yanaşı, ümumi islahı da qarşıya məqsəd qoymalıdırlar.

*1. "Vəsailüş-şiə", 11-ci cild, səh.123; "Mizanul-hikmət", 2-ci cild, səh. 140, fəsil 586, hədis 2741.*

# 105

## “BESƏT”İN SON HƏDƏFİ

İmam Əli (ə) buyurmuşdur:

فَبَعَثَ اللَّهُ تَعالى مُحَمَّداً صلى الله عليه و آله بِالْحَقِّ، لِيُخْرِجَ عِبادَهُ مِنْ عِبادَةِ الْاَوْثانِ الى عِبادَتِهِ، وَ مِنْ طاعَةِ الشَّيْطانِ الى طاعَتِهِ؛

***“Allah Mühəmmədi** (səlləllahu ələyhi və alihi və səlləm) **haqq və doğruluğa seçdi ki, bəndələrini bütlərə pərəstişdən çəkindirib, Ona ibadət və itaətə dəvət etsin. Şeytanın ardınca getməyi qadağan edərək Ona itaətə yönəltsin.”**[1]*

### *Şərh və təfsir*

Müxtəlif ayə və rəvayətlərdə ilahi peyğəmbərlərin peyğəmbərliyə seçilməsinin mühüm hədəflərindən söz açılmışdır.[2] Verilən hədisdə isə onun iki mühüm hədəfi vurğulanır ki, ayələrdə də ona işarə olunmuşdur:

*1. “Nəhcül-bəlağə”, xütbə 147.*

*2. Bax: “Peyami-Quran”, 7-ci cild, 13-cü səhifədən sonra.*

1. İnsanları bütlərə pərəstişdən çəkindirib yeganə Allahın ibadət və itaətinə yönəltmək;

2. İnsanları şeytana itaətdən çəkindirib mehriban Allahın itaətinə dəvət etmək.

Diqqət yetirmək lazımdır ki, birinci hədəflə bağlı hədisdə işlənən "əvsan" sözü geniş mənada büt mənasını daşıyır. Buna əsasən, İslam Peyğəmbərinin (s) zühuru və misilsiz zəhmətləri sayəsində zahirdə bütpərəstliyə son qoyuldu. Amma İslam mədəniyyətində insanı Allahdan yayındırıb özünə cəlb edən hər bir şeyin büt hesab edilməsinə diqqət yetirdikdə, çağdaş dünyamızda onun digər növləri ilə üzləşirik! Odur ki, onları camaata aşılamalı və yeganə Allahın itaətinə dəvət etməliyik. İslam Peyğəmbərindən (s) nəql olunan bir hədisdə oxuyuruq:

يَأْتى عَلَى النَّاسِ زَمانٌ بُطُونُهُمْ آلِهَتُهُمْ، وَ نِساؤُهُمْ قِبْلَتُهُمْ، وَ دَنا نيرُهُمْ دينُهُمْ، وَ شَرَفُهُمْ مَتاعُهُمْ، وَ لايَبْقى مِنَ الْايمانِ الّا اسْمُهُ؛

*"Bir zaman gələcək ki, insanların qarınları tanrıları, qadınları qiblələri, pulları dinləri və şərəfləri matahları olacaq və imanın adından başqa bir şey qalmayacaqdır."*

O həzrətin zamanında bütpərəstliyin aradan qaldırılmasından sonra bu sözdən təəccüblənən insanlar soruşdular:

يا رَسُولَ اللَّه! ايَعْبُدُونَ الْاصْنامَ؛

*"Ey Allahın Rəsulu! Ola bilərmi ki, müsəlmanlar yenidən bütlərə pərəstiş etsinlər?"*

Həzrət buyurdu:

نَعَمْ، كُلُّ دِرْهَمٍ عِنْدَهُمْ صَنَمٌ؛

*"Bəli, onların bütü pul olacaq (və onları Allahdan*

*qafil edəcək).”*[1]

Başqa bir hədisdə isə buyurulur: *“İlk pul (dinar və dirhəm) düzəldiyi zaman şeytan çox sevindi. Onu öpüb gözünün üstünə qoydu və dedi: “Sən mənim gözümün işığısan! Bundan sonra insanlar bütə pərəstiş etməsələr də, sənə pərəstiş etsələr, qəm-qüssəm aradan qalxar!”*[2]

Bəli, bizim dövrümüzdə yayılan bütpərəstlik elə budur! Onun əhatəli tərifi belədir:

كُلُّما شَغَلَكَ عَنِ اللَّهِ فَهُوَ صَنَمُكَ؛

*“Səni Allahdan yayındıran hər bir şey sənin bütündür!”*

Bəzi qəlbləri yarsaq, böyük bütxananın şahidi olacağıq! O qəlb Allahın Kəbəsidir ki, onda Allahdan başqası olmasın və əgər Allahdan başqasını istəsə də, Onun razılığı istiqamətində olsun!

Peyğəmbərliyin ikinci hədəfinə gəldikdə isə, deməliyik ki, şeytanın geniş məfhumu var; çünki şeytan Allahın müqabilində tüğyan edən bir varlıq mənasındadır. Demək, Allahın müqabilində tüğyan edən hər bir varlığa itaət şeytana itaətdir. Hətta hər sözə qulaq asmaq söz sahibinə itaət sayılır. Əgər həmi söz Allahın razılığı üçündürsə, Ona ibadət, əks-təqdirdə, şeytana ibadət hesab edilir.[3]

---

*1. “Biharul-ənvar”, 22-ci cild, səh. 453.*

*2. “Biharul-ənvar”, 70-ci cild, səh. 137.*

*3. “Mizanul-hikmət”, 5-cı cild, səh. 19, fəsil 2496, hədis 11352.*

# 106

## ŞƏHİDLƏRİN TAYI

İmam Əli (ə) buyurmuşdur:

مَا الْمُجاهِدُ الشَّهيدُ فى سَبيلِ اللَّهِ بِاعْظَمَ اجْراً مِمَّنْ قَدَرَ فَعَفَّ؛

***"Allah yolunda cihad edərək şəhadətə yetən şəxsin məqamı günaha qadir olduğu halda iffətini qoruyan şəxsdən böyük deyil!"[1]***

### *Şərh və təfsir*

İslam məntiqinə əsasən, ən böyük cihad nəfslə mübarizədir, məxsusən, çirkin mühitlərdə bu mübarizənin çətinliyi və böyüklüyü hamıya bəllidir. Hətta düşmənlə mübarizə ixlas, vəhdət və saf niyyətlə, xudbinlik və şəxsi qərəzliklərdən uzaq olduğu zaman nəticə verəcəkdir. Bu da, yalnız əxlaqi səciyyələri inkişaf etdirmək və nəfslə mübarizə ilə mümkündür.

Elə bu səbəbdən də, imam Əli (ə) buyurur: "Mübarizə meydanında nəfsinə qalib gələn və çirkin mühitlərdə özünü günahlardan qoruyanın məqamı Allah yolunda şəhid olan mübarizin məqamından kiçik deyil!" "Nəhcül-

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 474.*

bəlağə"də bu hədisin davamında belə buyurulur: *"İffətli şəxsin məqamı səma mələkləri ilə bərabərdir."*

Məsum rəhbərlərin (ə) "böyük cihad" adlanan nəfslə mübarizəyə böyük əhəmiyyət verməsinin əsas səbəbi budur ki, əksər günahların, hətta bütün günahların mənşəyi nəfsi və şeytani istəklərdir. İnsaniyyətə zidd olan bu düşmənin təhlükəsi və əməliyyat çərçivəsi böyük olduğundan, onunla mübarizə xüsusi dəyər hesab edilir və mübarizə aparan şəxs şəhidlərin sırasına qoşulur. Xoş olsun hər iki zümrənin halına!

# 107

## HƏR ŞEYİN HESABI VAR!

İmam Əli (ə) buyurmuşdur:

جَعَلَ اللَّهُ لِكُلِّ عَمَلٍ ثَواباً وَ لِكُلِّ شَيْءٍ حِساباً؛

***"Allah-Taala hər yaxşı əmələ savab və hər bir şeyə hesab təyin etmişdir."*[1]**

### *Şərh və təfsir*

Qiyamətdə hesab dinimizin zəruri və danılmaz məsələlərindən biridir. Buna görə də, qiyamətin adlarından biri də "hesab günü"dür. [2]

Ayə və rəvayətlərdən başa düşüldüyü kimi, qiyamətdə hesab-kitab olduğu kimi, bu dünyada da hesab-kitab vardır. Böyük aləmə (yaradılış aləminə) dəqiq hesab-kitab, nizam-intizam hakim olduğu kimi, kiçik aləmə (insan bədəninə) də hakimdir. Öz yaradılışı haqda düşünən insan vücudundakı hesab-kitab və nizam-intizamın dəqiq və incəliyini dərk edəcəkdir. İnsanın orqanizmi

*1. "Qürərül-hikəm", hədis 4779.*

*2. "Peyami-Quran" kitabında (5-ci cild, 49-cu səhifədən sonra) qiyamət üçün yetmiş ad qeyd edilmişdir.*

iyirmidən çox ünsürdən təşkil olunmuş və metallarla doludur; dəmir, kalsium, oksigen, yod, hidrogen və sairə insan orqanizminin tərkib hissələridir! Bütün bunlar müəyyən hesab üzündəndir və azalıb-çoxaldıqda, insan xəstələnir. Deməк, xəstəliklər orqanizmə hakim hesabın pozulmasının nəticəsidir. İnsan orqanizminin kimyəvi tərkibləri xüsusi nizama malik olduğu kimi, fiziki hərəkətləri də hesab üzündəndir. Misal üçün, gün ərzində oyaq və yuxu halında, yeridiyi və yaxud qaçdığı halda hər yaş həddinin sağlam qəlbinin neçə dəfə döyünməsi də hesab üzündəndir!

Nəbz döyüntüsü elə bir hesaba əsaslanır ki, qədim təbiblər yalnız onun vasitəsilə xəstəlikləri ayırd edirdilər. Təbiblərdən biri deyirdi: “Xəstəliyi xəstənin gözündən ayırd edə bilirəm. Göz bütün xəstəliklərin aynasıdır!” Bütün bunlar yaradılış aləminə hakim hesab və nizam-intizamın nişanəsidir. Əgər buna inanırıqsa, təbiət kimi, şəriətə də xüsusi nizamın hakim olduğunu qəbul etməliyik.

İmam Əli (ə) bu hədisdə elə bu mətləbdən söz açır və buyurur: “Hər əməlin savabı və hər şeyin hesabı var.” Bilməliyik ki, böyük və kiçik hadisələr səbəbsiz deyil. Bəzən, onların səbəblərini başa düşmürük. Amma hər bir hadisənin səbəbini anlayan və ondan ibrət alan şəxs müvəffəqdir.

Mərhum Əllamə Məclisi “Biharul-ənvar” kitabında belə nəql edir: “İmam Əliyə (ə) xəbər verdilər ki, dostlarınızdan birini ilan çalmış və buna görə çox narahatdır. Həzrət buyurdu: “Onu evinə aparın, bu tezliklə sağalmayacaq. O, pis bir əməlinin cəzasını çəkir.” Həmin şəxs iki aydan sonra sağaldı və İmamın (ə)

hüzuruna gəlib onun səbəbini soruşdu. Həzrət buyurdu: "Sən fılan zülmkar hakimin yanına getmişdin. O zaman Qənbər içəri daxil oldu və sən ona ehtiram olaraq ayağa qalxdın. Hakim səndən: "Nə üçün onun ayağına qalxdın?" – deyə soruşduqda, belə cavab verdin: "Məgər Qənbəri tanımırsınız?! O, elə bir kəsdir ki, mələklər öz qanadlarını onun yolu üstə sərirlər." Hakim əsəbləşib Qənbəri cəzalandırır. Qənbərin əziyyətinə səbəb olan sənin yersiz tərifinə görə, ilan səni çaldı!"[1]

Əgər hesablar bu qədər dəqiqdirsə, əməllərimizdə daha çox diqqətli olmalı və bu qanuna əsasən, uğursuzluğumuz, ibadətdə halsız olmağımız, başımıza gələn ağır hadisələr və çətinliklərin səbəblərini arayıb-axtarmalıyıq!

*1. "Biharul-ənvar", 26-cı cild, səh. 237.*

# 108

## HƏR ŞEY TƏFƏKKÜR SAYƏSİNDƏ!

İmam Əli (ə) buyurmuşdur:

الا لا خَيْرَ فى عِلْمٍ لَيْسَ فيهِ تَفَهُّمٌ، الا لاخَيْرَ فى قِرائَةٍ لَيْسَ فيها تَدَبُّرٌ، الا لاخَيْرَ فى عِبادَةٍ لا فِقْهَ فيها؛

***"Agah olun, təfəkkürsüz elm faydasızdır!"***
***"Agah olun, təfəkkürsüz oxunan Quran faydasızdır!"***
***"Agah olun, təfəkkürsüz ibadət faydasızdır!"***[1]

### *Şərh və təfsir*

**Sual:** Birinci hədisdə buyurulur: *"Agah olun, təfəkkürsüz elm faydasızdır!"* Məgər düşüncəsiz, elmi mənimsəmək mümkündürmü?

**Cavab:** Bəli! Nə çox elm və bilik var ki, nəticəsi beyni quru formullar və nəzərlərlə doldurmaqdan başqa bir şey deyil və sahibi də onun özü və nəticəsi üzərində düşünmür. Atom enerjisini kəşf edən alimin bu işdə hədəfi nədir? Görəsən, o, bütün canlı varlıqlarını və

---

*1. "Üsuli-kafi", "elmin fəziləti" kitabı, "alimlərin xüsusiyyətləri" fəsli, hədis 3.*

Yaponiyanın Xirosima və Nakasaki şəhərlərinə atom bombası ataraq on minlərlə insanı məhv etmək hədəfini izləyirdimi ki, həmin hadisədən uzun illər keçsə də, viranedici təsirləri hələ də qalmaqdadır?! Yaxud da, dünyanı işıqlandırmaq və müsbət istifadələr niyyəti ilə elektrik enerjisi istehsal etmək istəyirdi?!

Təəssüf ki, materialist alimlərinin əksəriyyəti öz elm və bilikləri üzərində düşünmədiklərindən dünya qaranlıq vadiyə çevrilmişdir; elə bir dünya ki, alimləri maddi ləzzətdən, gəlir toplamaqdan başqa bir hədəfi izləməmişlər. Belə dünya doğrudan da, qaranlıq vadi və belə bir elm viranedicidir!

İkinci hədisdə buyurulur: *"Agah olun, təfəkkürsüz oxunan Quran faydasızdır!"* Bəli, nə çox Quran oxuyan var ki, Quran onları lənətləyir.[1] Çünki bu şəfabəxş nüsxənin göstərişlərinə əməl etmirlər; misal üçün, qeybətlə bağlı ayələri tilavət etdikləri halda, özləri qeybət qırır və həmin ayələrin lənətinə şamil olurlar! Riba ayələrini tilavət etdikləri halda, bu çirkin günaha əl ataraq lənətə düçar olurlar!...

Bu hədisdə işlədilən "tədəbbür" sözü "dəbr" sözün alınmış və "bir işin sonu barəsində düşünmək" mənasını verir. Quran oxuyanlar şərif ayələri tilavət etdikdə, həmin ayələrdə sözügedən kəslərin axır-aqibəti haqda düşünməli və bilməlidir ki, təfəkkürlə oxunan bir ayə təfəkkürsüz oxunan bir Quran xətmindən faydalıdır!

Üçüncü hədisdə isə buyurulur: *"Agah olun, təfəkkürsüz ibadət də faydasızdır!"*[2] Görəsən, Rəbbin dərgahında

---

*1. "Mizanul-hikmət", 8-ci cild, səh. 90, fəsil 2311, hədis 16250.*

*2. "Üsuli-kafi", "elmin fəziləti" kitabı, "alimlərin xüsusiyyətləri" fəsli, hədis 3.*

durub "Həmd" surəsinin dərinmənalı ayələrini tilavət etdikdə, ayələrin mənası üzərində təfəkkür edirikmi? Namazın "İyyakə nəƅudu və iyyakə nəstəin!" (Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik!) – ayəsinə çatdıqda, öz qəlbimizə müraciət edirik ki, görək, doğrudan da, yalnız Allaha ibadət edir və yalnız Ondan kömək istəyirik, yoxsa, nəfsi istəklər, dünyapərəstlik və vəzifəpərəstlik qəlbimizə hakim kəsilmiş və onun bir guşəsində Allaha ibadət üçün boş yer qoymamışdır?! Namazın "təşəhhüdü"nə çatıb Allahın yeganəliyinə şəhadət verdikdə, qəlbimizə bir baş çəkək, görək, qəlbimizi bütlərdən təmizləmişik, yoxsa, Allahın "qəlb" adlı evini müxtəlif bütlərin düşərgəsinə çevirmişik? Bəli, ibadət də təfəkkürlə olmalıdır. Çünki təfəkkürlə yerinə yetirilən ibadət taleyimizi dəyişə bilər!

# 109

## HƏMİŞƏ XƏTALARIMIZ HAQQINDA DÜŞÜNƏK!

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! انَّ ذُنُوبَكَ اكْثَرُ مِنْ حَسَناتِكَ، وَ غَفْلَتَكَ اكْثَرُ مِنْ ذِكْرِكَ، وَ نِعَمَ اللّهِ عَلَيْكَ اكْثَرُ مِنْ عَمَلِكَ؛

***"Ey Kumeyl! Günahların yaxşı işlərindən, qəflətin zikrindən və Allahın sənə verdiyi nemətləri şükründən çoxdur."*[1]**

### *Şərh və təfsir*

Bu hədisdə bir neçə mətləb diqqəti cəlb edir:

1. Allahın nemətlərinin insanın şükründən çox olması aydın bir məsələdir. Buna misal olaraq, göz kimi qiymətli bir nemətdən məhrum olan insan böyük bir müsibətə düçar olar. Əgər insan ömrünün sonun qədər təkcə bu nemətin şükrünü yerinə yetirsə də, yenə azdır! Hələ insan bəzən Allahın ona verdiyi nemətlərdən xəbərsizdir! Doğrudan da, Allahın nemətləri biz

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 415.*

insanların şükründən olduqca çoxdur!

2. وَ غَفْلَتَكَ اكْثَرُ مِنْ ذِكْرِكَ (Qəflətin zikrindən çoxdur!) – ifadəsi üzərində düşündükdə, onu təsdiqləyəcəyik. Bur gün ərzində Allahı nə qədər yad edirik? Gün ərzində qldıqlarımız namazların nə qədər çəkir? Hətta namaz üstə nə qədər Allahı yad edirik? Əgər Allahı yad etsəydik, itirdiklərimizi namaz üstə tapmazdıq! Bəs, daim Allahı yad edən kimlərdir? Görəsən, hər halda, yuxuda və oyaq ikən Allahı yad edirikmi? Bəli, ilahi övliyalar həm yuxuda, hm oyaq ikən Allahı yad edirdilər. Amma onların sayı azdır. Bir sözlə, Allahdan qəflətimiz Onu yad etməyimiz və zikr deməyimizdən çoxdur.

3. انَّ ذُنُوبَكَ اكْثَرُ مِنْ حَسَناتِكَ (Günahların yaxşı işlərindən çoxdur!) – ifadəsi üzərində də azacıq fikirləşdikdə, onun həqiqəti bizə aydın olacaqdır. Təəssüf ki, yalanlar, töhmətlər, qeybətlər, nankorluqlar, şayiələr, istehza və bu kimi bir çox günahları günah hesab etmirik! Yaxud da, təfəkkürsüz namaz, vaxtı itirmək, çox danışmaq kimi bəzi işlər insan şəxsiyyətinə yaraşmayan işlərdir. Bəzən, bəzi işlər görürük ki, zahirən ibadət və yaxşı işlər adlandırsaq da, dəqiq araşdırdıqda, onun əksini görürük. Demək, günahlarımız yaxşı işlərimizdən çoxdur!

**Sual:** İmam Əlinin (ə) bu cümlələrdə məqsədi nədir?

**Cavab:** İmamın (ə) məqsədi budur ki, biz özümüzü Allahdan tələbkar bilməyək, əksinə özümüzü Ona borclu bilək və borcumuzu ödəmək fikrindən yayınmayaq. Təkamül sirlərindən biri də özümüzü qüsurlu bilməyimizdir. Kim özünü kamil bilsə, bu, onun bədbəxtliyinin başlanğıcıdır.

# 110

## ALLAHIN YADI

İmam Əli (ə) buyurmuşdur:

يا كُمَيْلُ! سَمِّ كُلَّ يَوْمٍ بِاسْمِ اللَّهِ، وَ قُلْ لا حَوْلَ وَ لاقُوَّةَ الّا بِاللَّهِ، وَ تَوَكَّلْ عَلَى اللَّهِ، وَ اذْكُرْنا وَ سَمِّ بِاسْمائِنا وَصَلِّ عَلَيْنا، وَ ادِرْ بِذلِكَ عَلى نَفْسِكَ وَ ما تَحُوطُهُ عِنايَتُكَ، وَ تُكَفُّ شَرَّ ذلِكَ الْيَوْمِ انْ شاءَ اللَّهِ؛

***"Ey Kumeyl! Hər gün (işlərini) "Bismillahir-Rəhmanir-Rəhim" deməklə (Allahın adı ilə) başla və "La həvlə və la quvvətə illa billah" (Allahın qüdrətindən başqa bir qüdrət yoxdur!) zikrini unutma! Allaha təvəkkül et (hər gün "Təvəkkəltu ələllah" (İlahi, sənə təvəkkül!) deməyi unutma). Hər gün bizi yad et (bizə salam və salavat göndər). Bundan sonra özün və əhli-əyalına üfür. Allahın istəyi ilə (bu işlərdən sonra) həmin günün şərindən amanda qalacaqsan!"*** [1]

---

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 412.*

## *Şərh və təfsir*

Bu ifadələrin yanaşı düzülməsi səbəbsiz və təsadüfi deyil və onların bir-birilə əlaqəsini aşılayır.

İslam mədəniyyətinə əsasən, hər bir işi Allahın adı ilə başlamaq lazımdır. Onun adı ilə başlanılmayan iş sona yetməz.[1]

"La həvlə və la quvvətə illa billah" *(Allahın qüdrətindən başqa bir qüdrət yoxdur!)* zikrini təkrar etməyin səbəbi odur ki, bütün güc və qüdrətin, eləcə də, bizimlə acı hadisələr arasında fasilə yaradanın məhz mütləq Qadir tərəfindən olduğuna inanaq. Biz Ona güvənmədən nə bir iş görməyə qadirik, nə də maneələri aradan qaldıra bilərik.

Amma bütün işlərdə mütləq qüdrət sahibi olan Ahlaha təvəkkül etməkdə tam vücudumuzla belə deməyi məqsəd güdürük: "İlahi, Sənin lütf və mərhəmətinə güvənmədən, elm və qüdrətinə təvəkkül etmədən heç bir işə qadir deyilik. Hər nə varsa, Sənin tərəfindən və Sənin əlindədir."

Nəhayət, işə başlayarkən qısa bir ifadə ilə, "Əllahummə səlli əla Muhəmməd və alihi və Əmiril-Mu̓minin vəl-əimmətil-məsumin" – deməklə on dörd məsuma (ə) təvəssül etməyimiz də tövsiyə olunur.

İnsan qeyd edilən dörd əməli yerinə yetirmək və onun məzmununa etiqad bəsləməklə, günün şərindən, öz nəfsindən, şeytanların, cinlərin, insanların şərindən, müxtəlif acı hadisələr və bəlalardan amanda qalacaqdır.

## *Diqqət!*

Allahın yadı və ilahi zikr dilin lağlağısına

*1. Birinci hədisin şərhində bu haqda geniş söz açılmışdır.*

çevrilməməli, əksinə insanın ruhu və canına nüfuz etməli, onu öz rənginə boyamalıdır. Misal üçün, soyuq və qara bir metalı oda atdıqda, onun rənginə düşür. Deməli, biz də ilahi zikrləri təkrar etdikcə, onun rənginə boyanmalı və dilimizdən qəlbimizə doğru körpü salmalıyıq!

# *Mündəricat*

**1. BÜTÜN İŞLƏRİ ALLAHIN ADI İLƏ BAŞLAMAQ . . . 5**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5*
*Allahı necə yad edək? . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6*

**2. ƏFV VƏ GÜZƏŞTİN TƏSİRLƏRİ . . . . . . . . . . . . . . . . 7**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7*

**3. ZİKRLƏRİN MÜHÜM TƏSİRLƏRİ . . . . . . . . . . . . . . . . 9**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9*

**4. ALIŞ-VERİŞ QAYDALARI . . . . . . . . . . . . . . . . . . . . . . 12**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12*

**5. UZUN-UZADI ARZULAR . . . . . . . . . . . . . . . . . . . . . . . 15**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15*

**6. BEHİŞTİN QİYMƏTİ VAR! . . . . . . . . . . . . . . . . . . . . . . 18**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18*

**7. İNSAN AZADLIĞI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21**

**8. CƏHƏNNƏM DƏYİRMANI . . . . . . . . . . . . . . . . . . . . . . 24**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 24*

**9. AFƏT VƏ BƏLALAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27*

**10. ÇOXLUQ MEYAR SAYILMIR! . . . . . . . . . . . . . . . . . . 30**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30*
*Bu hədisin mesajları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32*

**11 .YAXŞILIQ VƏ XEYİRXAHLIQ . . . . . . . . . . . . . . . . . . 33**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *33*
*Yaxşılıq və xeyirxahlığın təsirləri* . . . . . . . . . . . . . . . . . . . . *34*

**12 .ƏXLAQ VƏ RUZİ XƏZİNƏLƏRİ. . . . . . . . . . . . . . . . . 36**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *36*

**13. ÖZÜNÜ UCUZ SATMA!. . . . . . . . . . . . . . . . . . . . . . . . 39**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *39*

**14. ƏMƏLLƏRİN HƏQİQİ DƏYƏRİ . . . . . . . . . . . . . . . . . 41**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *41*

**15. TÖVBƏNİN ƏSAS SÜTUNLARI . . . . . . . . . . . . . . . . . 43**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *43*

**16. CƏMİYYƏTİN ÜÇ ƏSASI. . . . . . . . . . . . . . . . . . . . . . . . 46**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *47*

**17. İZZƏT VƏ ŞƏRƏF AMİLLƏRİ . . . . . . . . . . . . . . . . . . . 49**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *49*
*Təvazökarlığın qisimləri* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *50*

**18. HƏR BİR İŞDƏ ORTA MÖVQE . . . . . . . . . . . . . . . . . . 52**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *52*
*Hədisin mesajı*. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *53*

**19. ƏSL ZƏNGİNLİK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *54*

**20. AĞALIQ VƏ ƏSİRLİK . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *56*

**21. DİN SAYƏSİNDƏ ƏMNİYYƏT . . . . . . . . . . . . . . . . . . . 58**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *58*

**22.** **ƏVVƏL ÖZÜN, SONRA BAŞQALARI** . . . . . . . . . . . **60**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *60*

**23.** **SƏBİR VƏ TƏMKİNLİ OLMAĞIN ƏHƏMİYYƏTİ** . . . **62**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *62*
*Səbrin əhəmiyyətinin sirri* . . . . . . . . . . . . . . . . . . . . . . . *63*

**24.** **İMAN VƏ ƏMƏL – İKİ ƏBƏDİ DOST** . . . . . . . . . . . . **65**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *65*

**25.** **KİMLƏRLƏ MƏSLƏHƏTLƏŞƏK?** . . . . . . . . . . . . . . **67**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *67*

**26.** **BİDƏT NƏDİR VƏ BİDƏT ƏHLİ KİMDİR?** . . . . . . . . **69**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *69*
*Bidətin səbəbləri* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *70*
*Bidətin əsasları* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *71*

**27.** **ƏN MÖHKƏM ƏLAQƏ VƏ ƏN ŞƏRƏFLİ FƏXR** . . . **72**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *72*

**28.** **ƏN BÖYÜK CİHAD** . . . . . . . . . . . . . . . . . . . . . . . . . **74**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *74*

**29.** **ƏN BÖYÜK GÜNAH** . . . . . . . . . . . . . . . . . . . . . . . . **76**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *76*

**30.** **ƏN PİS DOST** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **78**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *78*

**31.** **BİZDƏN OLMAĞIN YOLU** . . . . . . . . . . . . . . . . . . . **80**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *80*

**32.** **ƏN YAXŞI ƏMƏL** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **82**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *83*

**33.** **ƏN YAXŞI DOST** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **86**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *86*

**34.** **ƏN YAXŞI AZUQƏ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **88**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *88*

**35.** **ƏN YAXŞI BƏNDƏÇİLİK** . . . . . . . . . . . . . . . . . . . . . . **91**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *91*

**36.** **BEŞ GÖSTƏRİŞ SAYƏSİNDƏ YAXŞI HƏYAT** . . . . **94**

**37.** **UZUN ARZULARIN ACINACAQLI SONU** . . . . . . . . . **97**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *97*

**38.** **DİL İSLAH OLUNMAYINCA...** . . . . . . . . . . . . . . . . . . **100**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *100*
*Qəlblə dilin rabitəsi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *101*

**39.** **ÖYRƏNMƏK VƏ ÖYRƏTMƏK VACİBDİR!** . . . . . . . **103**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *103*

**40.** **TƏQVA İLƏ BAĞLI YENİ TƏFSİR** . . . . . . . . . . . . . . . **105**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *105*

**41.** **ÖZÜNDƏN QABAQ BİR ÇIRAQ GÖNDƏR!** . . . . . . **108**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *108*

**42.** **TƏNBƏLLİYİN ACİZLİKLƏ EVLƏNMƏSİNİN NƏTİCƏSİ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **110**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *110*

**43.** **ÖZÜN ÖZÜNDƏN HESAB ÇƏK!** . . . . . . . . . . . . . . . **113**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *113*

**44.** **YAXŞI AQİBƏT** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **116**

*Şərh və təfsir* . . . . . . . . . . *116*

**45.** **TƏQVANIN HAQQI** . . . . . . . . . . **118**
*Şərh və təfsir* . . . . . . . . . . *119*

**46.** **ORUCUN HƏQİQƏT** . . . . . . . . . . **121**
*Şərh və təfsir* . . . . . . . . . . *121*

**47.** **ALDADICI QURĞULAR** . . . . . . . . . . **124**
*Şərh və təfsir* . . . . . . . . . . *124*
*Qurğunun xüsusiyyətləri* . . . . . . . . . . *124*

**48.** **YAXŞILIQ QAPILARI** . . . . . . . . . . **126**
*Şərh və təfsir* . . . . . . . . . . *126*

**49.** **DÜNYA VƏ AXİRƏT** . . . . . . . . . . **129**
*Şərh və təfsir* . . . . . . . . . . *129*

**50.** **İNSANI HƏLAK EDƏN İKİ AMİL** . . . . . . . . . . **131**
*Şərh və təfsir* . . . . . . . . . . *131*

**51.** **ALLAHIN RƏHMƏTİNDƏN UZAQ DÜŞƏNLƏR** . . . **133**
*Şərh və təfsir* . . . . . . . . . . *133*

**52.** **GÖZ VƏ QƏLB** . . . . . . . . . . **135**
*Şərh və təfsir* . . . . . . . . . . *135*

**53.** **TƏQVANIN DİL İLƏ ƏLAQƏSİ** . . . . . . . . . . **137**
*Şərh və təfsir* . . . . . . . . . . *137*

**54.** **TƏQVA İLƏ ŞƏXSİYYƏTİN ƏLAQƏSİ** . . . . . . . . . . **139**

**55.** **QAYIDIŞ YOLU** . . . . . . . . . . **141**
*Şərh və təfsir* . . . . . . . . . . *141*

**56. SAĞLAMLIQ YOLLARI** . . . . . . . . . . . . . . . . . . . . . . . **144**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *144*

**57. ŞEYTANIN İNSANA HÖKMRANLIĞI** . . . . . . . . . . . **148**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *148*

**58. ƏN RAHAT MİNİK VƏ ƏN YAXŞI AZUQƏ** . . . . . . . **150**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *150*

**59. İBADƏTİN MAHİYYƏTİ** . . . . . . . . . . . . . . . . . . . . . . **152**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *153*

**60. HƏQİQİ ORUC TUTANLAR** . . . . . . . . . . . . . . . . . . . **155**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *156*

**61. FİTNƏ-FƏSADLARIN KÖKÜ** . . . . . . . . . . . . . . . . . . **158**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *158*

**62. ZAHİD KİMDİR?** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **161**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *161*

**63. ZAHİDLİK VƏ DÜNYANI TANIMAQ** . . . . . . . . . . . . **164**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *164*

**64. ZAMAN – QİYAMƏT GÜNÜNÜN ŞAHİDİ** . . . . . . . . **166**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *166*

**65. SÖZ VƏ SÜKUT!** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **169**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *169*

**66. HƏYATIN SONU** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **171**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *171*

**67. TƏQVALILAR VƏ GÜNAHKARLARIN AQİBƏTİ** . . **174**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *174*

**68.** **GÜNAH MƏCLİSLƏRİNDƏ İŞTİRAK ETMƏK!** . . . . **176**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *176*

**69.** **ƏQL QILINCI VƏ HELM (SƏBİR) LİBASI** . . . . . . . . **179**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *179*

**70.** **ÖRNƏKLƏRİN SEÇİM ZƏRURƏTİ** . . . . . . . . . . . . . . **181**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *181*

**71.** **İMANIN TAMI!** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **183**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *183*

**72.** **EŞQ – MƏRİFƏTİN MÜHÜM MANEƏSİ** . . . . . . . . . . **185**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *185*

**73.** **EHTİRASA ƏSİR AĞILLAR.** . . . . . . . . . . . . . . . . . . . . **187**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *187*

**74.** **NURANİ AĞILLAR VƏ İTİ GÖZLƏR** . . . . . . . . . . . . . **189**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *189*

**75.** **NURANİ AĞILLAR VƏ İTİ GÖZLƏR** . . . . . . . . . . . . . **191**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *191*

**76.** **İMAM ƏLİ (Ə) İMAM ƏLİNİN (Ə) NƏZƏRİNDƏ** . . . . **194**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *195*

**77.** **İMAM ƏLİ (Ə) ÖZ DİLİ İLƏ!** . . . . . . . . . . . . . . . . . . . . **197**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *197*

**78.** **HANSI GÜN BAYRAMDIR?** . . . . . . . . . . . . . . . . . . . . **200**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *200*

**79.** **XƏBƏRSİZ QAFİLLƏR** . . . . . . . . . . . . . . . . . . . . . . . **203**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *203*

*Qəflətlə mübarizə yolları* . . . . . . . . . . . . . . . . . . . . . . . . *204*

**80. QEYBƏT – ACİZLƏRİN TƏLAŞI** . . . . . . . . . . . . . . . . **206**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *206*

**81. AĞILLI İNSANLA NADANIN FƏRQİ** . . . . . . . . . . . . . **209**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *209*

**82. HƏCCİN MÜHÜM FƏLSƏFƏSİ** . . . . . . . . . . . . . . . . . **211**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *211*

**83. QURAN – QƏLBLƏRİN BAHARI** . . . . . . . . . . . . . . . **214**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *214*

**84. QURAN VƏ EHTİYACSIZLIQ** . . . . . . . . . . . . . . . . . . **217**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *217*

**85. TƏQVA – MÖHKƏM QALA** . . . . . . . . . . . . . . . . . . . . **220**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *220*

**86. FƏTHOLUNMAZ QALA** . . . . . . . . . . . . . . . . . . . . . . . **222**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *222*

**87. SƏXAVƏT ZİRVƏSİ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . **224**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *224*

**88. İFFƏTİN ZİRVƏSİ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . **226**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *226*

**89. GİZLİ GÜNAHLAR!** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **228**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *228*

**90. TƏQVA LİBASI** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **230**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *230*
*Libasın rolu* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *231*

**91. MÖMİN, MÖMİNİN AYNASIDIR! . . . . . . . . . . . . . . . . 233**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 233*

**92. HƏQİQİ MÖMİNLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . 236**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 237*

**93. ALTI XİSLƏTƏ GÖRƏ ALTI ZÜMRƏNİN CƏZASI . 239**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239*
*İncəliklər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 241*

**94. CƏMİYYƏTİN DƏYƏR MEHVƏRİ . . . . . . . . . . . . . . . 242**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 242*

**95. İNSANLAR ÜÇ QRUPDUR! . . . . . . . . . . . . . . . . . . . 244**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 245*

**96. NEMƏTİN BƏLASI. . . . . . . . . . . . . . . . . . . . . . . . . 248**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 248*

**97. İŞSİZLİYİN FƏSADLARI . . . . . . . . . . . . . . . . . . . . 250**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 250*

**98. İŞSİZLİYİN FƏSADLARI . . . . . . . . . . . . . . . . . . . . 252**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 252*
*Elm və bilik behişt yoludur! . . . . . . . . . . . . . . . . . . . . . 253*
*Mələklər elm əhli üçün qanad açırlar! . . . . . . . . . . . . . . . 254*
*Bütün varlıqların elm əhli üçün bağışlanmaq diləməsi . . 254*

**99. BÖYÜK İNSANLARIN İMTAHANI. . . . . . . . . . . . . . . 256**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 256*

**100. HİDAYƏT MEYVƏLƏRİ . . . . . . . . . . . . . . . . . . . . . 258**
*Şərh və təfsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 258*

**101. MƏRİFƏTİN NƏTİCƏSİ . . . . . . . . . . . . . . . . . . . . . 260**

*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *260*

**102. DİNDARLIĞIN ƏSAS ƏLAMƏTİ** . . . . . . . . . . . . . . **262**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *262*

**103. NADANLIĞIN ƏLAMƏTLƏRİ** . . . . . . . . . . . . . . . . . **265**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *265*

**104. ZÜHURUN İNTİZARININ HƏYATIMIZDA ROLU** . . **267**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *267*

**105. "BESƏT"İN SON HƏDƏFİ** . . . . . . . . . . . . . . . . . . **270**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *270*

**106. ŞƏHİDLƏRİN TAYI** . . . . . . . . . . . . . . . . . . . . . . . **273**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *273*

**107. HƏR ŞEYİN HESABI VAR!** . . . . . . . . . . . . . . . . . . **275**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *275*

**108. HƏR ŞEY TƏFƏKKÜR SAYƏSİNDƏ!** . . . . . . . . . . . **278**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *278*

**109. HƏMİŞƏ XƏTALARIMIZ HAQQINDA DÜŞÜNƏK! 281**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *281*

**110. ALLAHIN YADI** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **283**
*Şərh və təfsir* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *284*
*Diqqət!* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *284*
*Mündəricat* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *286*

**«ƏLƏM NƏŞRİYYATI»**

***Hazırlığa verilmişdir: 20.04.2014***
***Çapa imzalanmışdır: 07.06.2014***
***Nəşrin ölçüsü: 86x60. 1/8***
***Fiziki çap vərəqi: 37***
***Sayı: 1000***